AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

AZERBAIJAN STATE PEDAGOGICAL UNIVERSITY

ISSN 2221–7576

# Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri

# Актуальные проблемы музыкальной науки, культуры и образования

# Actual problems of the science, culture and education of music

**www.adpu.edu.az**

**2018 №2**

**Redaksiya şurasının sədri**

C.M.Cəfərov tarix üzrə elmlər doktoru, professor

**Redaksiya şurasının sədr müavini**

A.D.Zamanov fizika-riyaziyyat elmləri doktoru, professor

**Redaksiya heyəti**

| | |
|---|---|
| Fərəh Əliyeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Fərhad Bədəlbəyli | Bakı Musiqi Akademiyasının rektoru, professor |
| Firəngiz Əlizadə | Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor |
| Səyavuş Kərimi | Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti, professor |
| Zemfira Səfərova | sənətşünaslıq üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Ceyran Mahmudova | ADMİU-nun rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Rəna Məmmədova | sənətşünaslıq üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Gülnaz Abdullazadə | fəlsəfə üzrə elmlər doktoru, professor |
| Rəna Abdullayeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Yuliy Əliyev | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |
| Oqtay Rəcəbov | pedaqogika üzrə elmlər doktoru, professor |
| Sevda Qurbanəliyeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| İmruz Əfəndiyeva | sənətşünaslıq üzrə elmlər doktoru, professor |
| Çingiz Abdullayev | kulturologiya üzrə elmlər doktoru, professor |
| Vidadi Xəlilov | pedaqogika üzrə elmlər doktoru, professor |
| Vladimir Adişev | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |
| Eduardas Balçitis | pedaqogika üzrə elmlər doktoru, professor (Litva) |
| Anatoliy Bolqarskiy | pedaqogika üzrə elmlər doktoru, professor (Ukrayna) |
| Anatoliy Qoremıçkin | pedaqogika üzrə elmlər doktoru, professor (Ukrayna) |
| Rauf Kadırov | pedaqogika üzrə elmlər doktoru, professor (Özbəkistan) |
| Yelena Nikolayeva | pedaqogika üzrə elmlər doktoru, professor (Rusiya) |

**Baş redaktor**

Jalə Qədimova pedaqogika üzrə elmlər doktoru, professor

**Baş redaktorun müavini**

Tamilla Kəngərli pedaqogika üzrə elmlər doktoru, professor

**Elmi redaktor**

Fərrux Rüstəmov pedaqogika üzrə elmlər doktoru, professor

**Məsul redaktor**

Gülçöhrə Alıyeva filologiya üzrə fəlsəfə doktoru, dosent
Həcər Hüseynova filologiya üzrə elmlər doktoru, dosent

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Elmi Şurasının 15 aprel 2016-cı il, 15 saylı qərarı ilə çap olunur.**
Təsisçi: **Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Jurnal ildə iki dəfə çıxır.
Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №2
Bakı, 2018, 262 səh.
Ünvan: AZ 1000, Azərbaycan Respublikası, Bakı, Üzeyir Hacıbəyli küçəsi 68
Адрес: AZ 1000, Азербайджанская Республика, Баку, улица Узеира Гаджибейли 68
Address: AZ 1000, Azerbaijan Republic, Baku, Uzeyir Hajibeyli street 68
Tel.: (99412) 493-00-32
Fax: (99412) 598-10-35
e-mail: n_s_q@mail.ru

## Sahələr üzrə redaksiya komissiyaları:

- **Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Tamilla Kəngərli (sədr), pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze, pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova, pedaqogika üzrə fəlsəfə doktoru Aynur Hüseynova;

- **Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Musiqinin tədrisi metodikası) ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov (sədr), psixologiya üzrə elmlər doktoru, professor Qızxanım Qəhrəmanova, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova;

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva (sədr), sənətşünaslıq üzrə elmlər doktoru, professor Nailə Rəhimbəyli, sənətşünaslıq üzrə elmlər doktoru, dosent Ülkər Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ellada Hüseynova;

- **Kulturologiya ixtisası üzrə:** tarix üzrə elmlər doktoru Fuad Məmmədov (sədr), fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Laçın Həsənova;

- **Məktəbəqədər təlim, tərbiyə ixtisası üzrə:** pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva (sədr), pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov, pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva, pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova, psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova.

**11 may 2016-cı il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.**

**Qeydiyyat №: 4050**

# MÜNDƏRİCAT

## ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**AXUNDOVA G.Ə.** Musiqinin tədrisində yeni pedaqoji texnologiyalar ............. 13
**HACIYEVA L.A.** Azərbaycan tarixi musiqişünaslığının inkişafına bir nəzər .... 18
**QULİYEVA A.C.** Təhsildə innovasiyalar, onun əhəmiyyəti və vəzifələri ......... 24
**MEHDİYEVA J.** İradi fəaliyyət və onun xüsusiyyətləri ................................... 27

## TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

**KƏRİMOVA R.H.** Vokal sənəti vasitəsilə tələbələrin estetik tərbiyəsinin formalaşması ........................................................................................ 31
**HACIYEVA S.M.** Musiqi müəllimlərinin hazırlığında Azərbaycan ladlarının tədrisinin təkmilləşdirilməsi və sadələşdirilməsi problemləri .............................. 35
**ƏLİXANOVA G.H.** Gözəl əxlaq insan xoşbəxtliyinin ən vacib şərtlərindən biri kimi ........................................................................................ 41
**SƏLİMOVA Z.İ.** Yeniyetməlik yaşı dövründə baş verən psixoloji dəyişikliklər 47
**ABASZADƏ A.E.** Musiqi dərslərində bədii mədəniyyətin rolu və əhəmiyyəti 52
**AĞAYEVA L.** Musiqi dərslərində aktiv və interaktiv metod və təlim formaları 55
**ƏLƏKBƏROVA Ə.Ş.** İbtidai siniflərdə musiqi təliminin təşkili formaları ........ 58
**VƏLİYEVA A.** Vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasında musiqi məşğələlərinin rolu ........................................................................................ 61
**MƏMMƏDZADƏ N.** Kiçik məktəb yaşı dövründə psixi inkişaf xüsusiyyətləri 64

## MUSİQİ SƏNƏTİ

**YARIYEVA X.** Ümumtəhsil məktəblərin musiqi dərslərində xorla oxumada vokal vərdişlər ........................................................................................ 69
**MURADOVA T.H.** Milli rəqsin quruluş prinsipləri .......................................... 76
**EYVAZZADƏ G.** Professor Nigar Usubovanın F.Listin fortepiano əsərlərinin ifaçılıq prinsiplərinə dair bir sıra praktiki tövsiyələri ......................................... 81
**GORYAÇEVA T.V.** Musiqidə folklor, folklorizm və neofolklorizm: tipologiya məsələləri ........................................................................................ 91

## KULTUROLOGİYA

**ƏHMƏDOVA M.** A.Məlikov haqqında yubiley düşüncələri ........................... 98
**BAXIŞOVA Ş.** Uşaqların kulturoloji paradiqma baxımından sosial inkişafı ...... 105
**İBRAHİMOVA Ə.** Tələbə gənclərin şəxsiyyətlərinin strukturunda cinsi xüsusiyyətlərin təhlil ........................................................................................ 112

## MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ

**QƏRİBOVA A.H.** Məktəbəqədər yaşlı uşaqların musiqi inkişafı problemləri ... 116
**HÜSEYNOVA N.** Anadangəlmə açıq rinolaliyalı uşaqlarda yazılı nitqin xüsusiyyətləri ... 122
**HƏSƏNOVA P.M.** Məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişafı müasir dövrün problemi kimi ... 128
**MƏMMƏDOVA Z.** Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təlim strategiyaları ... 134
**ABASOVA S.A.** Daun sindromlu uşaqlarda nitqin inkişafı zamanı loqoritmik məşğələlərin əsas istiqamətləri ... 142
**BƏŞİROVA S.S.** Autizmin digər patologiyalardan fərqləndirilməsi, şizofreniya, əqligerilik və hiperaktivliklə diferensiasiyası ... 148
**SƏFƏRƏLİYEVA A.** Məktəbəqədər yaşlı nitqi qüsurlu uşaqlarla aparılan korreksion işdə müasir texnologiyaların tətbiqi ... 155
**ASLANOVA S.R.** Böyük yaşlı şəxslərdə dizartriyanın bulbar formasının xarakterik xüsusiyyətləri ... 161
**ŞAHVƏLƏDLİ T.** Diqqət defisiti və hiperaktivlik sindromu olan uşaqların psixoloji xüsusiyyətləri və neyropsixoloji korreksiyası ... 168
**İSRƏFİLOVA A.A.** Atipik inkişafın psixoloji səciyyəsi ... 175
**QİBLƏLİYEVA N.** Asperger sindromunun pedaqoji-psixoloji xüsusiyyətləri ... 180
**ABDULLAYEVA M.N.** Məktəbəqədər yaşlı uşaqlarla inklüziv təhsilin təşkili yolları ... 186
**HÜSEYNOVA A.Ş.** Uşaqların hərtərəfli inkişafına ətraf aləmlə tanışlığın təsiri 191
**ƏHMƏDOVA A.** Texnologiya məşğələlərində istifadə olunan oyunlar ... 195
**ƏSƏDOVA A.** Məktəbəqədər yaşlı uşaqların milli-mənəvi tərbiyəsində bağçanın ailə ilə əlbir işi ... 198
**MUXTARLI S.** Məktəbəqədər yaşlı uşaqların sosial-əxlaqi inkişafı ... 202
**ŞAHBAZOVA Ş.** Uşaq şəxsiyyətinin formalaşmasında oyunun rolu ... 207
**ƏHMƏDLİ A.İ.** Uşaqlarda davranış normalarının tərbiyə edilməsinin yolları və vasitələri ... 210
**FƏRZALI M.** Müxtəlif fəaliyyət proseslərində məktəbəqədər yaşlı uşaqların sosial inkişafı ... 215
**MAHMUDOVA V.** Məktəbəqədər yaşlı uşaqların sosial inkişafı ... 219
**QƏNBƏROVA G.** Tərbiyəçi səriştəliliyinin spesifik xüsusiyyətləri ... 223
**VƏLİYEVA Z.** Məktəbəqədər yaşlı uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsinə müasir yanaşmalar ... 228
**NURULLAYEVA G.** Uşaqlarda musiqi zövqünün formalaşdırılmasında musiqi məşğələlərinin rolu ... 234
**TAĞIYEVA J.** Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsinin inkişaf etdirilməsində musiqi məşğələlərinin rolu ... 237
**MƏCİDLİ A.** Musiqi məşğələlərinin bağça yaşlı uşaqların sosial tərbiyəsində rolu ... 241

**RZAYEVA T.** Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsində oyunun rolu 245
**İSMAYILOV N.** Məktəbəqədər yaşlı uşaqların təbiətlə tanış edilməsi və onlarda təbiətə sevgi hissinin aşılanması ........................................................... 248
**BAXIŞOVA G.** Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi və musiqinin rolu ........................................................................................................ 251
**Qaydalar** ........................................................................................... 255

# СОДЕРЖАНИЕ

## ОБЩАЯ ПЕДАГОГИКА, ИСТОРИЯ ПЕДАГОГИКИ И ОБРАЗОВАНИЯ

**АХУНДОВА Г.А.** Новые педагогические технологии в преподавании музыки ........ 13
**ГАДЖИЕВА Л.А.** Взгляд на развитие исторического музыковедения в Азербайджане ........ 18
**ГУЛИЕВА А.Дж.** Инновации в образовании, их значение и обязанности 24
**МЕХТИЕВА Ж.** Волевое действие и его особенности ........ 27

## ТЕОРИЯ И МЕТОДИКА ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ (МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ)

**КЕРИМОВА Р.Г.** Формирование эстетического воспитания студентов с помощью вокального искусства ........ 31
**ГАДЖИЕВА С.М.** Проблемы совершенствования и упрощения преподавания азербайджанских ладов в подготовке учителей музыки ........ 35
**АЛИХАНОВА Г.Г.** Нравственность – одно из важнейших условий человеческого счастья ........ 41
**САЛИМОВА З.И.** Психологические изменения происходящие в подростковом возрасте ........ 47
**АБАСЗАДЕ А.Э.** Роль и значение художественной культуры на уроках музыки ........ 52
**АГАЕВА Л.** Активные и интерактивные методы и формы обучения на уроках музыки ........ 55
**АЛЕКПЕРОВА А.Ш.** Формы музыкального обучения в начальных классах 58
**ВЕЛИЕВА А.** Роль музыкального обучения в формировании гражданского воспитания ........ 61
**МАМЕДЗАДЕ Н.** Особенности психических явлений маленького школьного возраста ........ 64

## МУЗЫКАЛЬНОЕ ИСКУССТВО

**ЯРЫЕВА Х.Х.** Вокальные навыки в хоровом пении на уроках музыки в общеобразовательной школе ........ 69
**МУРАДОВА Т.Г.** Принципы формирования национального танца ........ 76
**ЭЙВАЗЗАДЕ Г.** Некоторые практические рекомендации профессора Нигяр Усубовой к исполнительским принципам фортепианных произведений Ф.Листа ........ 81
**ГОРЯЧЕВА Т.В.** Фольклор, фольклоризм и неофольклоризм в музыке: вопросы типологии ........ 91

## КУЛЬТУРОЛОГИЯ

**АХМЕДОВА М.** Юбилейные размышления о Ариф Меликове ………….. 98
**БАХЫШЕВА Ш.А.** Социальное развитие парадигмации детской культуры ………………………………………………………………….. 105
**ИБРАГИМОВА А.** Анализ половых характеристик в структуре личности студентов молодёжи ………………………………………………….. 112

## ДОШКОЛЬНОЕ ОБУЧЕНИЕ И ВОСПИТАНИЕ

**ГАРИБОВА А.Х.** Проблемы музыкального развития детей дошкольного возраста ………………………………………………………………… 116
**ГУСЕЙНОВА Н.** Особенности письменной речи у детей с открытой врожденной ринолалией ………………………………………………… 122
**ГАСАНОВА П.М.** Социально-нравственное развитие дошкольников - проблема современности ………………………………………………… 128
**МАМЕДОВА З.** Стратегии обучения для детей с особыми потребностями 134
**АБАСОВА С.** Основные направления логоритмических занятий при развитии речи у детей с синдромом Дауна ……………………………….. 142
**БАШИРОВА С.С.** Дифференциация аутизма от других патологий, шизофрения, умственная отсталость и гиперактивностью ………………… 148
**САФАРАЛИЕВА А.** Применение современных технологий в коррекционной работе проводимой с детьми дошкольного возраста с речевыми нарушениями ……………………………………………………. 155
**АСЛАНОВА С.Р.** Характерные особенности бульбарной формы дизартрии у взрослых …………………………………………………… 161
**ШАХВЕЛЕДЛИ Т.** Психологические особенности и нейропсихологическая коррекция детей с синдромом дефицита внимания и гиперактивности ……………………………………………………………... 168
**ИСРАФИЛОВА А.А.** Психологическая характеристика атипичного развития …………………………………………………………………… 175
**ГИБЛАЛИЕВА Н.** Педагогико-психологические особенности синдрома Аспергера ………………………………………………………………… 180
**АБДУЛЛАЕВА М.Н.** Пути организации инклюзивного образования детей дошкольного возраста ………………………………………………. 186
**ГУСЕЙНОВА А.Ш.** Влияние ознакомления с окружающим миром на всестороннее развитие детей ………………………………………………….. 191
**АХМЕДОВА А.** Игры, применяемые на уроках технологии ………………. 195
**АСАДОВА А.** Сотрудничество детского сада и семьи в области национального и духовного развития детей дошкольного возраста ………. 198
**МУХТАРЛЫ С.** Социально-поведенческое развитие детей дошкольного возраста ………………………………………………………………… 202
**ШАХБАЗОВА Ш.** Роль игры в формировании личности ребенка ………... 207
**АХМЕДЛИ А.И.** Пути и средства воспитания поведенческих норм у детей ………………………………………………………………… 210

**ФАРЗАЛИ М.** Социальное развитие дошкольников в разных видах деятельности ………………………………………………………………… 215
**МАХМУДОВА В.** Социально-личностное развитие дошкольников …….. 219
**ГАНБАРОВА Г.** Специфические особенности компетентности воспитателя ………………………………………………………………….. 223
**ВЕЛИЕВА З.** Современные подходы к мониторингу и оценке развития дошкольников ………………………………………………………. 228
**НУРУЛЛАЕВА Г.** Роль занятий по музыке в формировании музыкального вкуса детей …………………………………………………….. 234
**ТАГИЕВА Ж.** Роль занятий музыкой в развитии эстетического воспитания дошкольников ……………………………………………………. 237
**МЕДЖИДЛИ А.** Роль музыкальных занятий для детей дошкольного возраста в формировании социального поведения ………………………….. 241
**РЗАЕВА Т.** Роль игры в трудовом воспитании дошкольников ……………. 245
**ИСМАЙЛОВ Н.** Знакомство детей дошкольного возраста с природой и привитие им чувства любви к природе ……………………….. 248
**БАХЫШОВА Г.** Экологическое воспитание детей дошкольного возраста и роль музыки ……………………………………………………………. 251
**Правила оформления статей**…………………………………………..…. 257

# CONTENTS

## GENERAL PEDAGOGICS, HISTORY OF PEDAGOGICS AND EDUCATION

**AKHUNDOVA G.A.** New pedagogical technologies in music teaching ........ 13
**HAJIYEVA L.A.** A look at the development of historical musicology in Azerbaijan ........ 18
**GULIYEVA A.J.** Innovations in education, its importance and responsibilities 24
**MEHDIYEVA J.** Volitional activity and its features ........ 27

## THEORY AND METHODS OF TRAINING AND EDUCATION (METHODS FOR TEACHING OF MUSIC)

**KERIMOVA K.H.** Formation of aesthetic education of students with the help of vocal art ........ 31
**HADJIYEVA S.M.** Problems of improving and simplifying the teaching of azerbaijan in the training of music teachers ........ 35
**ALIKHANOVA G.H.** Morality is one of the most important conditions for human happiness ........ 41
**SALIMOVA Z.S.** Psychological changes occurring in the mid-throes ........ 47
**ABASZADEH A.E.** The role and importance of artistic culture in the music lessons ........ 52
**AGAYEVA L.** Active and interactive methods and forms of learning in music lessons ........ 55
**ALAKBAROVA A.Sh.** Forms of musical training in primary classes ........ 58
**VALIYEVA A.** Role of music trainings in the formation of citizenship education ........ 61
**Mammadzadeh N.** Features of mental development during small school age ... 64

## ART OF MUSIC

**YARIYEVA Kh.H.** Vocal skills in choral singing in music lessons in secondary school ........ 69
**MURADOVA T.H.** Principles of national dance formation ........ 76
**EYVAZZADE G.** Some practical recommendations of professor Nigar Usubova about performing principles of F.List's piano pieces ........ 81
**GORYACHEVA T.V.** Folklore, folklorism and neofolklorism in music: typology issues ........ 91

## CULTUROLOGY

**AHMEDOVA M.** Anniversary reflections on Arif Melikov ........ 98
**BAKHISHOVA Sh.A.** Social development of children's culturology paradigmage ........ 105
**Ibrahimova A.** Analysis of sexual characteristics in the structure of the personality of young students ........ 112

## PRESCHOOL TRAINING AND UPBRINGING

**GARIBOVA A.H.** Problems of musical development of preschool children 116
**HUSEYNOVA N.** Features of written speech in children with open congenital rhinolalia .......... 122
**HASANOVA P.M.** The social and moral development of the preschoolers - the problem of modernity .......... 128
**MAMEDOVA Z.** Learning strategies for children with special needs .......... 134
**ABASOVA S.** The main directions of logical training in the development of speech in children with Down syndrome .......... 142
**BASHIROVA S.S.** Differentiation of autism from other pathologies, schizophrenia, mental retardation and hyperactivity .......... 148
**SAFARALIYEVA A.** The use of modern technology in the correctional work carried out with children with speech disorders of preschool age .......... 155
**ASLANOVA S.R.** Characteristic features of dysarthria bulbar form in adults ... 161
**SHAHVALADLI T.** Psychological features and nerrocychological corrective of children with diseases of definition and hypersky introduction .......... 168
**ISRAFILOVA A.A.** Psychological characteristic of atypical development ...... 175
**GIBLALIYEVA N.** Pedagogical-psychological features of Asperger syndrome ... 180
**ABDULLAYEVA M.N.** Ways of organizing inclusive education in preschool children .......... 186
**HUSEYNOVA A.Sh.** The effect of the development of children acquaintance with the outside world .......... 191
**AHMEDOVA A.** Games applicable for technology lessons .......... 195
**ASADOVA A.** Cooperation of kindergarten and family in the field of national and spiritual development of children of preschool age .......... 198
**MUKHTARLI S.** Social moral development of preschool children .......... 202
**SHAKHBAZOVA Sh.** The role of the game in the formation of child personality .......... 207
**AHMADLI A.I.** Ways and means of cultivating behavioral norms in children 210
**FARZALI M.** Preschool aged in different activities social development of children .......... 215
**MAHMUDOVA V.** Pre-school adult social private development of the children .......... 219
**QANBAROVA G.** The specific features of the competence of the teacher ...... 223
**VALIYEVA Z.** Modern approaches to monitoring and evaluation of the development of preschool aged children .......... 228
**NURULLAYEVA G.** The role of music activities in forming of music pleasure of children .......... 234
**TAGHIYEVA J.** The role of music classes in the development of aesthetic education of preschool children .......... 237
**MEDJIDLI A.** The role of music in schooling process for the kids before school life .......... 241

**RZAYEVA T.** The role of the game in the labor upbringing of preschool-aged children ………………………………………………………………………… 245
**ISMAYILOV N.** Introducing of preschool children with nature's love and how are nature's love inistalled in their mind ……………………………… 248
**BAKHISHOVA G.** The Environmental education of the children of pre-school age and role of music ………………………………………………… 251
**Rules**…………………………………………………………………………... 259

# *ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ*

**UOT 76:378.18**

**G.Ə.Axundova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: gulara_akhundova@mail.ru

## MUSİQİNİN TƏDRİSİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALAR

***Açar sözlər:*** *müasir pedaqoji təlim texnologiyaları, layihələr metodikası, inkişafedici texnologiyalar*

Bu gün bir sıra yeni pedaqoji təlim texnologiyaları işlənib hazırlanmışdır ki, bunlar bir-birindən müxtəlif məqsəd, məzmun və metodik xüsusiyyətləri ilə fərqlənir. Təhsilin məzmunu yeni prosessual bacarıqlarla, qabiliyyətlərin inkişafı, informasiyanın emalı, problemlərin yaradıcı həlli və s. ilə zənginləşir. Pedaqoji prosesin vacib amili kimi şəxsiyyətyönümlü müəllim-şagird münasibətləri çıxış edir.

**Г.А.Ахундова**

## НОВЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ В ПРЕПОДАВАНИИ МУЗЫКИ

***Ключевые слова:*** *современные педагогические технологии обучения, проектная методика, развивающие технологии*

Сегодня разработаны различные новые педагогические технологии, которые отличаются друг от друга целями, содержанием и методическими особенностями. Содержание образования обогащается новыми процессуальными умениями, развитием способности обрабатывать информацию, умением находить творческие решения проблем и т.д.

**G.A.Akhundova**

## NEW PEDAGOGICAL TECHNOLOGIES IN MUSIC TEACHING

***Key words:*** *modern educational teaching technologies, design methodology, developing technologies*

Today, various new pedagogical technologies have been developed, which differ

from each other in goals, content and methodological features. The content of education is enriched by new procedural skills, the development of the ability to process information, the ability to find creative solutions to problems.

Azərbaycan Respublikası Bolonya prosesinə qatıldıqdan sonra təhsil sistemində bir sıra mühüm dəyişikliklər baş verdi. Bu dəyişikliklər həm də təlim üsullarının, yəni texnologiyaların dəyişməsini tələb etdi. Musiqi təhsilinin məzmununun yeniləşməsi müxtəlif yollarla aparıla bilər. Lakin real dəyişikliklər müəllimin pedaqoji prosesi nə dərəcədə yeniliklərlə təşkil edəcəyindən asılıdır. Bu gün, demək olar, hər bir müəllim bilir ki, istənilən təhsilin inkişafedici xarakter alması üçün vacibdir ki, şagirdlər bilik, bacarıq və vərdişləri geniş təlim fəaliyyətində mənimsəsinlər. Müasir pedaqogikada şəxsiyyətin bütün keyfiyyət qruplarını bir-birilə əlaqəlidir və mürəkkəb dinamik inkişaf edən vahid bir struktur kimi çıxış edir.

Bu gün bir sıra yeni pedaqoji təlim texnologiyaları işlənib hazırlanmışdır ki, bunlar bir-birindən müxtəlif məqsəd, məzmun və metodiki xüsusiyyətləri ilə fərqlənir. Yeni pedaqoji texnologiya dedikdə köhnə izahedici-illüstrativ təlim tipinin əvəzinə gələn yeni tipli aktiv-fəaliyyətli təlim növü başa düşülür. Təhsilin məzmunu yeni prosessual bacarıqlarla, qabiliyyətlərin inkişafı, informasiyanın emalı, problemlərin yaradıcı həlli və s. ilə zənginləşir. Pedaqoji prosesin vacib amili kimi şəxsiyyətyönümlü müəllim-şagird münasibətləri çıxış edir. İctimai bilik səviyyəsinə uyğun pedaqoji texnologiyaların yaradılmasında elmin rolu artmağa başlayır. Bu gün bütün təlim texnologiyalarının geniş spektrini öyrənmədən pedaqoji cəhətdən savadlı mütəxəssis olmaq mümkün deyil.

Şəxsiyyətin mütərəqqili inkişafı – fərdin zamanla fiziki və psixi təkmilləşməsi prosesidir ki, bunu onun müxtəlif xassələrinin və parametrlərinin azdan çoxalmaya, sadədən mürəkkəbə, alçaqdan yüksəkliyə doğru keçid kimi müəyyənləşdirmək olar. Yeni pedaqoji texnologiyalar fərdin inkişaf, səviyyə və xüsusiyyətlərinin qanunauyğunluqlarını nəzərə alır və istifadə edir. Yeni pedaqoji texnologiyalar vasitəsilə təlimdə qabaqlayıcı pedaqoji təsir öyrənənlərin irsi qabiliyyətlərini stimullaşdırır, istiqamətləndirir və sürətləndirir. Bu təlimdə öyrənən tamlıqla fəaliyyətin bütün mərhələlərində subyekt kimi çıxış edir. Və hər bir mərhələ şəxsiyyətin inkişafına özünün spesifik töhfəsini verir.

Yeni pedaqoji texnologiyalara müxtəlif təlimlər aiddir ki, bunların sırasında evristik təlim ən səmərəli olanlardan biridir. Bu texnologiya vasitəsilə tələbələrdə azadlıq, müstəqillik, məqsədyönlük, qeyrət, şərəf, təşəbbüskarlıq, yaradıcılıq, orijinallıq, iradə, zəhmətkeşlik, nizam-intizam, fəallıq, ustalıq, məsuliyyət kimi keyfiyyətlər tərbiyə olunur.

Müəllimlər yeni texnologiyalardan istifadə etməklə dərsləri daha maraqlı edən, şagirdləri sağlam mühakimələr irəli sürməyə, sonradan real həyata tətbiq edəcəkləri məzmunu başa düşməyə yardım edən mühüm vasitələrə çevirə bilərlər.

Deməli, bunlar təhsilin məzmununun daha yaxşı mənimsənilməsi və müstəqil cavab vermək məqsədilə şagirdlərin tələb olunan təfəkkür prosesini inkişaf etdirilməsi üçün çox faydalıdır.

Məktəblilərə nəyi öyrətmək barəsində hər bir fənn üçün çox saylı proqramlar, dərsliklər və tövsiyyələr nəşr olunur. Lakin bunu necə etmək, hansı metodlar vasitəsilə uşaqların qabiliyyət və bacarıqlarını inkişaf etdirmək – bunlar barəsində helə ki ədəbiyyat qıtlığı hiss olunur. Lakin təlim metodu – daha qüclü vasitədir, nəinki təlimin məzmunu. Məktəb məzunlarından soruşsaq ki, siz nəyi daha yaxşı yadda saxlamısınız: sizə nəyi öyrədiblər ya necə bunu ediblər? Məhz fəaliyyətin metodları, üsulları daha universal, ümumbəşəri xarakterə malikdir, çünki onları müxtəlif təhsil sahələrinə köçürmək mümkündir. Tətbiq olunan metod həmişə bilavasitə şagirdin hərəkətlərinə aiddir, lakin öyrənilən fənnin məzmunu onun real həyatından çox uzaqlarda qala bilər.

Müasir musiqi dərslərində, əsasən də yuxarı siniflərdə uğurla tətbiq oluna bilən tədqiqat metodudur ki, o, uşaqların təbiətdən gələn ətraf dünyanı öyrənmək, tədqiq etmək tələbatına əsaslanır. Tədqiqat əsnasında *layihə* formasını istifadə etmək olar. İlk dəfə bunu C.Dyui təklif etmişdir. Layihə müəyyən bir tədrisi-idrakı priyomların cəmini nəzərdə tutur ki, bunların vasitəsilə şagirdin müstəqil fəaliyyəti nəticəsində bu və ya digər problemin həlli mümkün olur. Layihə fəaliyyətin təşkili musiqi dərslərinin səmərəliliyini artırmağa imkan yaradır. Bu gün layihə metodikasına malik olmayan müəllim yüksək ixtisasçı kimi qəbul oluna bilməz.

Layihələr metodunun istifadəsi zamanı aşağıdakı tələblərə riayət olunmalıdır:

1) tədqiqat yaradıcılığı baxımındın əhəmiyyətli problemin mövcudluğu;

2) gözlənilən nəticələrin praktiki və nəzəri əhəmiyyətinin olması;

3) şagirdlərin müstəqil iş fəaliyyəti;

4) layihənin məzmun hissəsinin strukturlaşdırılması (mərhələ ilə nəticələrin göstərilməsi);

5) tədqiqat metodlarının istifadəsi.

Yerinə yetirilmiş layihələrin nəticələrinin mütləq prezentasiyası olmalı, yəni onlar hər hansı bir şəkildə tərtibat olunmalı (videofilm, albom, kompüter qəzeti, məruzə və s.). Prezentasiyalar şəkil, rəsm, plakat, musiqi müşayiəti və ya kompüter texnologiyaları vasitəsilə (Power Poin proqramı) həyata keşirilir.

Musiqi dərslərində istifadə oluna biləcək təxmini prezentasiya mövzuları:

1. “Azərbaycan və xarici bəstəkarlarının yaradıcılığında heyvanlar və quşlar aləminin təsviri”. Burada uşaqlar öyrəndikləri mahnı, dinlədikləri musiqi əsərləri əsasında öz təəssüratlarını sözlə ifadə etməyi, müqayisə aparmağı öyrənirlər.

2. “İlin fəsilləri mövzusu müxtəlif bəstəkarların yaradıcılığında”. Burada Çaykovski, Vivaldı, Şopen, Qarayev və digər bəstəkarların ilin fəsilləri ilə bağlı əsərləri müqayisəli təhlil olunur.

3. “Ədəbiyyat və musiqinin qarşılıqlı əlaqəsi”. Uşaqlar belə suallar üzərində düşünürlər: Musqi və ədəbiyyat arasında nə kimi bağlılıq var? Əgər ədəbiyyat olma-

saydı musiqi nə cür olardı? Əgər poeziya və ədəbiyyat olmasaydı musiqi nələri itirərdi? Bu zaman uşaqlar müxtəlif mənbələrlə işləməyi və informasiyanın böyük axınından əsası ayırd etməyi öyrənirlər.

4. "Rəqs və ritm". Uşaqlar ritm və rəqs, hərəkət arasında əlaqəni axtarıb-tapırlar.

5. "Azərbaycan musiqi folkloru". Folklorumuz barəsində biliklərin toplanması.

6. "Musiqinin təsir gücü nədədir?" Burada şagirdlərdə musiqinin "sehirli" gücü barəsində hekayə, nağıl uydurma bacarığı inkişaf olur. Uşaqlar öz güclərini müəllif, rəssam-tərtibatçı, layihə rəhbəri kimi sınayırlar.

7. "Musiqi tapmacaları ölkəsində". Burada müxtəlif formada keçirilən musiqi tapmacalarında (krossvord, şarada, rebus və s.) keçilən materialın möhkəmləndirilməsi baş verir: musiqi terminləri, bəstəkarların adları, əsərlərin adları, musiqi janrları.

8. "Musiqi teatr, kino və televiziyada". Burada uşaqlar müxtəlif uşaq kino filmlərdən və cizgi filmlərindən tanınmış mahnılardan popurri yaratmağı öyrənirlər. Əgər musiqi olmasaydı, filmlər necə olardı? Televiziya necə olardı? – sualların cavablarını axtarıb tapırlar.

9. "Musiqi alətləri". Alətlər barəsində şəkillər, slaydların göstərilməsi ilə qısa məlumatın verilməsini nəzərdə tutur. Burada hər bir slaydda alətin rəsmi verildikdə həm də onun səslənməsini səsli fayl şəklində vermək olar.

Musiqi təhsilinin məzmununun yeniləşməsi müxtəlif yollarla aparıla bilər. Lakin real dəyişikliklər müəllimin pedaqoji prosesi nə dərəcədə yeniliklərlə təşkil edəcəyindən asılıdır. Bu gün, demək olar, hər bir müəllim bilir ki, istənilən təhsilin inkişafedici xarakter alması üçün vacibdir ki, şagirdlər bilik, bacarıq və vərdişləri geniş təlim fəaliyyətində mənimsəsinlər.

Ənənəvi musiqi pedaqogikası musiqi dərslərində müxtəlif fəaliyyət növləri anlayışına hər şeydən əvvəl xorla oxumanı, sadə musiqi alətlərində çalğını, musiqinin nəzəri əsaslarının öyrənilməsini (not təlimi), improvizasiyanı, musiqini dinləməni daxil edir. Son illər aparılan tədqiqatlar göstərir ki, bütün adları çəkilən fəaliyyət növlərinin musiqi dərslərində formal olaraq mövcudluğu, zahirən şagirdlərin daima məşqulluğu – hələ demək deyil ki, məktəblilər tam dolğun musiqili-bədii fəaliyyəti həyata keçirirlər.

Məlumdur ki, təlim fəaliyyətini digərlərindən (xüsusilə də təlim işindən) fərqləndirən ən köklü mühüm cəhət – onun dərk etmə təfəkkürün vasitəsilə həyata keçirilməsidir və bunun nəticəsində materialda belə dəyişikliklər baş verməlidir ki, onun vacib daxili əlaqələri və münasibətləri aşkarlanmış olsun. Onların aşkarlanması şagirdə biliyin yaranmasını izləmək, sanki həqiqəti özü tərəfindən ixtira etməyə imkan verir. Materialın bu cür yaradıcı transformasiyası real və təfəkküri eksperiment prosesi kimi baş verir ki, bunun nəticəsində şagirdlərdə musiqinin məğzinə, dərinliklərinə varmağa imkan yaranır. Lakin bəstəci, ifaçı, dinləyicinin

fəaliyyətini haqlı olaraq musiqi fəaliyyətinin növləri kimi hesab etmək olar. Bu üçlü fəaliyyət növü musiqinin özünün mövcudluğu üçün üç labüd şərti əks etdirir və qavrama prosesilə sıx əlaqədə olub, dəyişilməz kimi çıxış edirlər. Hər şey dəyişə bilər – səslənmənin şəraiti, alətlər, janrlar, formalar, ifadəlilik vasitələri və s. – lakin yuxarıda göstərdiyimiz üçlü fəaliyyət heç zaman yox olmur, çünki bu fəaliyyət növləri musiqinin mövcud olması formasının özüdür.

Beləliklə, təlim fəaliyyəti musiqi tərbiyəsinin formalarından fərqli olan bir kateqoriyadır ki, o, ümumi didaktikaya aiddir. Burada sual yarana bilər ki, musiqi dərslərində bu nə qədər lazımlıdır? Axı burada biz ən başlıcası bədii-musiqili fəaliyyətdən danışmalıyıq ki, bunda fantaziya, təxəyyül, intuisiya, musiqini qavrama bir mənəvi akt kimi ehtiva olunur. Bəs onda "dərk etmə təfəkkürü", "təfəkkürlü eksperiment", "biliyin təbiətinə varma", "refleksiya" nəyə lazımdır?

Təlim fəaliyyəti musiqi dərslərində ona görə lazımdır ki, o öz məğzinə görə bədii fəaliyyətlə təzadlıq təşkil etmir: həm təlim fəaliyyəti, həm də bədii fəaliyyət eyni dərəcədə təlim işindən fərqlənir və heç də öyrənmə, mənimsəmə, anlama kimi məhfumlarla eyni şey deyil. Çünki musiqi biliklərini öyrənmək və mənimsəmək hazır halda da olur və bunu ənənəvi üsullarla, yəni yadda saxlamaqla, təkrar etməklə, möhkəmlətməklə və s. həyata keçirmək olur. Lakin belədə musiqi hadisəsinin öyrənilməsi, onun bəzi tərəflərinin müqayisəsi, onun əhəmiyyətli əsaslarının, səslənən materialın daxilində səbəb-nəticə əlaqələrinin aşkar edilməsi yolu ilə baş verməyəcəkdir. Bir sözlə, musiqi təhsilinin doğrudan da inkişafedici xarakter alması üçün belə etmək lazımdır ki, musiqi dərslərində şagirdlərin fəaliyyəti məzmununa görə bədii, formasına görə isə təlimedici olsun. Bu isə o zaman mümkün olar ki, musiqi təhsili yeni texnologiyalarla aparılsın.

## ƏDƏBİYYAT


1. V.Xəlilov, Z.Zeynalov, R.Mehdiyeva. "Təlim prosesində yeni pedaqoji və İKT texnologiyalardan istifadənin elmi əsasları və təlimin keyfiyyətinə onların təsiri", Bakı, 2012
2. O.Rəcəbov, F.Hidayətova. "Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası", Bakı, 2013
3. Селевко Г.К. "Современные образовательные технологии", Москва, 2004
4. Пахомова Н.Ю. Метод учебных проектов в образовательном учреждении: Пособие для учителей и студентов педагогических вузов. Москва, 2003



**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.07.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.09.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fələfə doktoru Firəngiz Rzayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.072**

**L.A.Hacıyeva**
doktorant
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı, Şəmsi Bədəlbəyli 98
e-mall: sara.hajiyeva@hotmail.com

# AZƏRBAYCAN TARİXİ MUSİQİŞÜNASLIĞININ İNKİŞAFINA BİR NƏZƏR

***Açar sözlər:*** *tarixi musiqişünaslıq, nəzəri musiqişünaslıq, milli musiqi, tarixi təfəkkür, musiqi tarixi*

Təqdim olunmuş məqalədə XX əsrdə Azərbaycan tarixi musiqişünaslığın çoxəsrlik təşəkkül və inkişaf yoluna nəzər salınır, onun müxtəlif qollarını şərtləndirən amillər izlənilir, tarixi təfəkkür faktorunun güclənməsini əsaslandıran ictimai-siyasi şəraitə nəzər yetirilir.

**Л.А.Гаджиева**

## ВЗГЛЯД НА РАЗВИТИЕ ИСТОРИЧЕСКОГО МУЗЫКОВЕДЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *историческое музыкознание, теоретическое музыкознание, национальная музыка, историческое мышление, история музыки*

В данной статье освещается процесс многовекового развития национального исторического музыкознания в XX веке, рассматриваются факторы, влияющие на его развитие, цели и социально-политические условия, которые усиливали историзм музыкальной науки.

**L.A.Hajiyeva**

## A LOOK AT THE DEVELOPMENT OF HISTORICAL MUSICOLOGY IN AZERBAIJAN

***Key words:*** *historical musicology, theoretical musicology, folk music, historical thinking, historical music*

This article covers the process of centuries-old development of national historical musicology in the twentieth century, discusses the factors influencing its development, goals and socio-political conditions that strengthened the historicism of music science.

Azərbaycan tarixi musiqişünaslığı - müsəlman Şərq musiqi elminin təbii inkişafından doğan və XX əsrdə özünü müstəqil şəkildə təsdiq edən elm sahəsidir.

Başqa humanitar elmlər kimi, o da tarixi-ictimai hadisələrin təsiri altında formalaşır və inkişaf edir.

Azərbaycanın ərazisində musiqi elminin kökləri çox qədim dövrlərə gedib-çıxır və əldə olunan nümunələr onun zənginliyindən xəbər verir. Heç şübhəsiz, Azərbaycanın ərazisində və ondan kənarda musiqiyə geniş baxan və sənətkarlıq məsələlərini öyrənən mütəfəkkir düşüncəli alimlər fəaliyyət göstərmiş və musiqişünaslıq elmi yaranmışdır. Burada, təbii ki, ilk öncə, müsəlmən Şərqinin musiqi elmini xatırlamaq lazımdır. Musiqi elmi ilə bağlı problemlər musiqiçilərlə yanaşı, filosof, şair və başqa alimlər tərəfindən araşdırılır. Nizami, Nəsimi, Füzuli və başqa dahi şairlərin əsərlərində musiqi ilə bağlı təsvirlər və fikirlər Azərbaycan milli mənbəşünaslığın dəyərli mənbəsinə çevrilir.

Əl-Fərabi, İbn Sina, Səfiəddin Urməvi, Əbdülqadir Marağai kimi alimlər musiqinin müxtəlif sahələrinə aid qiymətli elmi əsərləri ilə zəngin Şərq musiqisinin problemlərini geniş şəkildə tədqiq etmişdilər. Müsəlman Şərqinin musiqi fikri S.Ürməvi (XIII ə.) və Ə.Marağainin (XIV-XV ə.) yaradıcılığında öz pik nöqtəsinə çatır. S.Ürməvi musiqi elmində 24 şöbənin quruluşu və xüsusiyyətlərini tədqiq etmiş, dövrünün musiqi alətləri, musiqi forma və janrları haqqında geniş məlumat vermişdir. Marağai yeni ritmik silsilələr, musiqi alətlərini ixtira etmiş, musiqi əsərləri bəstələmişdir. Sonraki dövrlərdə Azərbaycan musiqi elminin inkişafında XVII əsrdə yaşamış Mirzə bəyin "Risalei-musiqi" və "Qövsnamə" (XVII əsr), M.Nəvvabın "Vüzuhül-ərqam" risalələri də (XIX) əsas rol oynamışdır.

XIX əsrin sonu – XX əsrin əvvəlində Azərbaycan musiqi elminin yaranmasında görkəmli ziyalı Ağalar bəy Əliverdibəyov mühüm rol oynamışdır. Müxtəlif xalqların musiqi tarixinə bələd olan A.Əliverdibəyov, Qarabağın, ümumiyyətlə, Azərbaycanın musiqi həyatı ilə bağlı fikirlərini daima qələmə almışdır. Bunun nəticəsində o, "Musiqi tarixi" adlı kitab yazır və bu, Azərbaycan musiqi elmində musiqi tarixinə həsr olunmuş ilk belə növ əsərdir [1]. Bu kitabda Ağalar bəy tərəfindən toplanan çoxsaylı mahnı və təsniflər, onu musiqişünas alim kimi səciyyələndirməyə imkan verir. Ağalar bəyin oxuduğu mahnıların nota köçürməsində böyük sənətkar Səid Rüstəmov yardımçı olmuşdur. Bu mahnılar arasında bir çox məşhur nümunələri göstərmək olar: "Söhbət saz ilə", "Yaxan düymələ", "Çalpapaq", "Kəklik", "Nəzr eyləmişəm", "Üçtelli durna", "Xumar oldum", "Neylərsən" və b. Alim kitabında müxtəlif xalqların musiqi tarixi, musiqinin yaranışı, təbiəti, bədii, psixoloji, müalicəvi təsir xüsusiyyətlərindən və s. problemlərdən bəhs edir. Kitab Çin, Yapon, Hind, Misir, Israil, Yunan, Roma, ərəb, fars, türk, Azərbaycan xalqlarının musiqi mədəniyyətinə həsr olunmuş bölmələrdən ibarətdir. Bundan başqa, A.Əliverdibəyov Şuşada keçirilən musiqi məclisləri ("Məclisi-üns", "Məclisi-fəramuşan"), xanəndə, tar və kamança ustaları, qaval və qarmon ifaçıları, aşıqlar, el şənliklərində musiqi mühütini parlaq şəkildə şərh edir. A.Əliverdibəyovun kitabında Azərbaycan, türk, fars muğamlarının ümumi xüsusiyyətlərini göstərməklə yanaşı, onların fərqini də, çalğı alətlərində

sənətkarların yaratdığı yenilikləri də qeyd edir. Beləliklə, A.Əliverdibəyov "Musiqi tarixi" adlı kitabı, musiqi folkloristikası sahəsində gördüyü işlər, milli musiqi elminin, xüsusilə,tarixi musiqişünaslığın təşəkkülündə əhəmiyyətli rol oynayır.

Azərbaycan tarixi musiqişünaslığı tam şəkildə XX əsrin əvvəllərində milli maarifpərvər ziyalıların mədəni inkişaf uğrunda həyata keçirdikləri tədbirlər nəticəsində yaranır. Azərbaycan xalqının görkəmli ziyalıları N.Nərimanov, H.Zərdabi, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Vəzirov, Ü.Hacıbəyli, M.Maqomayev və onlarla digərləri öz arzularında yekdil idilər: ölkənin mədəniyyətini yüksəltmək, savadsızları təlim - təhsilə cəlb etmək, xalqın nümayəndələri içərisindən istedadlı şəxsləri üzə çıxartmaq, Azərbaycan maddi və mənəvi sərvətlərini bütün bəşəriyyətə tanıtmaq və s. Onların səyləri nəticəsidə artıq bu zaman Azərbaycanda milli dramaturgiya, teatrın, mətbuatın, yeni tipli musiqi mədəniyyətinin bünövrəsi qoyulur. 1908-ci ildə səhnədə qoyulmuş Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası isə musiqi mədəniyyətinin simasını əsaslı şəkildə dəyişir. Şərq-Qərb ənənələrini özündə birləşdirən yeni tipli musiqi mədəniyyətinin yaranmasından xəbər verən bu əsərin meydana çıxması cəmiyyətdə baş verən dəyişikliklərlə əlaqəli idi. Bu bədii hadisə "Şərq" və "Qərb" meyilli yazarlar arasında böyük diskussiyalara yol açaraq, fikir mübadiləsinə əsasən, yeni dövrün musiqisinin forma və məzmunca tərəqqisi problemlərini əhatə edir.

İctimai proseslərlə sıx bağlı olan bu dövrdə (1900-1930) Azərbaycanın, xüsusilə Bakının musiqi –bədii həyatı özünün rəngarəngliyi ilə seçilir. Zəngin konsert – ifaçılıq və opera – teatr həyatı musiqi publisistikasının bədii həyatda öz rolunu artırır. Azərbaycan musiqisinin prosesləri, onun gələcək inkişaf yolları, opera teatrının repertuarı, konsertlər və ifaçılıq sənəti, musiqi tərbiyəsi – bütün bu problemlər daima qəzet səhifələrində öz əksini tapır. 1908-ci ildən, yəni Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasından sonra müxtəlif musiqi problemlərinə maraq daha da artır. Demək olar ki, məhz bu zamandan, yəni 1908-ci ildən, Ü.Hacıbəylinin elmi fikirləri formalaşmağa başlayır. Azərbaycanda elmi təfəkkürün inkişafı və azərbaycançılıq dünyagörüşünün təşəkkülü ilə bağlı oluraq milli tarixi musiqişünaslığın meydana çıxması.

Beləliklə, 1900-1920-ci illəri Azərbaycan tarixi musiqişünaslığın ilk mərhələsi saymaq olar. Baxmayaraq ki, Üzeyir bəyin musiqi ilə bağlı elmi-publisistik əsərləri əsasən 20-40 illərdə yazılır, sənətkarın milli musiqiyə və musiqi elminə aid olan bir çox fikirləri məhz XX əsrin 20-ci illərinə qədər formalaşır. Və bu fikirlər öz qüvvəsini sonraki illərdə də qoruyub - saxlayır və milli musiqişünaslıq elminin təməl daşına çevrilir.

XX əsr milli tarixi musiqünaslığının sonraki mərhələsi Azərbaycanın keçmiş SSRİ-nin tərkibinə daxil olması ilə bağlıdır. Ü.Hacıbəyli tərəfindən "quruculuq illəri" adlanan illər musiqi elminin yeni mərhələsinin başlanğıcı idi. Bu zaman incəsənət sahəsində təhlilin metodoloji prinsipləri yaranır və dərc olunan tənqidi məqalələr inqlabi dəyişiklikləri əks edir. Söhbət gedən dövrdə, milli

musiqişünaslığın birinci mərhələsində yaranan azərbaycançılıq dünyagörüşü - sovet ideologiyasının ardıcıl təzyiqinə məruz qalır. Yəni, 20-30-cı illərdə milli musiqişünaslıq bir elm olaraq inkişaf etdiyi zaman, ideoloji münaqişələr, vulqar sosioloqizm meylləri, sovet "beynəlmiləlçiyi" bu elmin bir çox problemlərinin düzgün həllinə imkan vermir.

"Proletar mədəniyyətinin" yaranması üçün musiqi kadrları tələb olunur və buna görə 1920-ci ildən professional musiqi təhsil sistemi sürətlə inkişaf edir. Azərbaycanda SSRİ-nin Xalq Komissarlığında xüsusi xalq – proletar incəsənəti şöbəsi yaranır və musiqi şöbəsinin başçısı Ü.Hacıbəyli seçilir.

1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyası öz fəaliyyətinə başlayır və ilk anlardan burada nəzəri-bəstəkarlıq (rəhbəri L.Karaqiçev) və Üzeyir bəyin rəhbərlik etdiyi "Şərq şöbəsi" təşkil olunur. 1928/29-cı illərdə bütün keçmiş sovet respublikalarında musiqi təhsil sistemi eyniləşdirilir. Həmin dövrdə incəsənətdə müxtəlif qruplaşmalar bir-biri ilə mübarizə aparır. Azərbaycanda bu tendensiya milli operanın müasir durumu və gələcək inkişaf yolları haqqında aparılan diskussiyalarda öz əksini tapır. Xalq Maarif Komissarlığı sovet hakimiyyətinə qədərki opera və operettaların dəyərini inkar edir, milli operaya müasir mövzunu və bəstəkar texnikasını tətbiq etməyə çağırır. Bu dövrdə Ü.Hacıbəyli, M.Maqomayev, A.Zeynallı, C.Cabbarlı, Ə.Bədəlbəylinin məqalələri mövzu və problematika baxımından böyük maraq doğurur. Dovrün gerçəkliyini əhatə edən bu məqalələr musiqimizin tarixi keçmişi, müasir musiqi hadisələrinə münasibət bildirir.

XX əsrin 20-ci illərində, yeni siyasi və ideoloji vəziyyətlə bağlı olaraq, diskussiyalar opera sənətinin problemlərindən kənara çıxır. Diskussiya aparanların bəziləri belə fikir irəli sürürlər ki, muğam opera və operettaları müasir musiqili səhnə sənətinin inkişafına mane olur və vaxtilə milli musiqi tarixində heç bir mütərəqqi rol oynamayıblar. Bu diskussiyaya Azərbaycan Xalq Maarif komissarı Mustafa Quliyevin xüsusi məruzəsi səbəb olur. Əslində o, bəzi problemlərə düzgün münasibət bəsləyirdi, məsələn, xalq musiqisinin toplanması və nota salınması, musiqi məktəblərinin sayının artması, Avropa operalarının türk dilinə tərcümə edilməsi və s. Bu fikirlərlə bərabər yanlış və ziddiyətli fikirlərə də rast gəlmək olar. Ü.Hacıbəyli bu problemlərə öz münasibətini bildirir və hətta M.Quliyevin Azərbaycan musiqisinin inkişaf proqramını dəstəkləyir. Lakin M.Quliyevin söylədiyi bir çox müddəalarla da razılaşmır.

Azərbaycanda "proletar mədəniyyəti" ("proletkulçuluq") adlanan cəmiyyətin ideyalarına, o cümlədən, xalq musiqisinin, milli alətlərin ləğvinə qarşı öz səsini A.Zeynallı da ucaldır. O, muğamları, milli musiqi alətlərini ləğv etmək istəyənləri tənqid atəşinə tutur: " ....tarı ləğv etməklə biz təkcə xalq musiqi haqqında aydın təsəvvür əldə etmək imkanından məhrum olmuruq, həm də xalq yaradıcılığı təfəkkürünün texnikasında, ola bilər bu təfəkkürün forma və məhsuluna da ciddi təsir göstəririk. Xalqın özünün muğamatı var.....Xalqın tarı var, onun mənəvi dilini əvəz edir" (2, s. 69).

Beləliklə, bu zaman milli tarixi musiqişünaslığın vacib qolu olan misiqi tənqidi və publisistakası, musiqi folkloristikası, Ü.Hacıbəylinin milli musiqi haqqında fikiləri formalaşır və musiqi təhsili sistemində ilk addımlar atılır.

Azərbaycan tarixi musiqişünaslığının inkişafında ADK-da 1932-ci ildə Musiqinin Elmi-Tədqiqat kabinəsinin yaranması müstəsna rol oynayır. Bülbülün rəhbərlik etdiyi bu kabinədə xalq musiqisinin toplanılması və onun bəstəkar yaradıcılığında tətbiqi ilə bağlı prosesi başlanır. Kabinənin işinin qurulmasında görkəmli musiqiçi-folklorşünas Y.Qippius və qavqazşünas-linqvist İ.Meşaninov yaxından iştirak edirlər.

Bununla yanaşı, xalq musiqi alətləri tədqiq olunur və 1933-cü ildə Ü.Hacıbəylinin təşəbbüsü ilə M.Mansurov tarın rekonstruksiyasını aparır. Üzeyir bəy istəyirdi ki, tar "təmiz" səslənsin və onu simfonik orkestrə daxil etmək mümkün olsun. Bundan əlavə, təklif olunur ki, dünyada yayılmış Avropa not yazı sistemindən imtina etmədən, "əlavə musiqi simvolları icad edilsin". Görkəmli alimlər V.Belyayev və V.Pasxalovun iştirakı ilə tar musiqi aləti üçün messo-soprano açarı qəbul olunur.

1936-cı ildə Azərbaycan Dövlət Konservatoriyasının kompozisiya nəzəriyyəsi kafedrasının üç hissəyə bölünür: nəzəri (bir qədər sonra tarixi-nəzəri), bəstəkarlıq və xüsusi dirijorluq. Bu kafedra gələcək musiqişünaslar və bəstəkarlar üçün lazımlı fənnləri tətbiq etmək məqsədi ilə fəal çalışmalı olur. ADK-nın bütün kafedralarının funksiyasına, spesifikaları nəzərə alınmaqla, elmi-tədqiqat fəaliyyəti daxil olur. Nəticədə, ilk növbədə tədris-metodik xarakterli və musiqi təhlili ilə bağlı nümumələr yaranır, məsələn L.Rudolfun "Harmoniya dərsliyi" ( 3). Bundan başqa 30-cı illər ərzində musiqi tarixi və nəzəriyyəsinə aid kitablar rus dilindən Azərbaycan dilinə tərcümə olunur. 1931-ci ildə bir qrup tələbə – A.Zeynallı, S.Rüstəmov və Ə.Əfəndiyev, Azərbaycan dilində ilk not savadı dərsliyini yazırlar. Sonrakı ilərdə alimin "Azərbaycan xalq musiqisinin əsasları" fundamental tədqiqat işi işıq üzü görür.

Müharibədən sonraki illərdə aktual problemlərdən biri – Azərbaycan musiqisinin sistematik elmi tədqiqi ilə bağlı olur. 1950-ci illərdən başlayaraq elmi-nəzəri konfranslar keçirilir, bəstəkar Əşrəf Abasov "Ü.Hacıbəyli və onun "Koroğlu" operası", ardınca isə Nigar Usubova "A.Arenskinin fortepiano yaradıcılığı" adlı dissertasiyalar müdafiə olunur. 1956-ci ildə Gulara Əliyeva F.Əmirovun yaradıcılığına həsr olunmuş ilk dissertasiyanı müdafiə edir.

Azərbaycan musiqi tarixinin sistematik öyrənilməsi və təbliği ilə bağlı mühüm işləri Xurşid Ağayeva, Əfrasiyəb Bədəlbəyli, Əminə Eldarova və başqa alimlər görürlər. Onlar daima geniş auditoriya qarşısında, dövrü mətbuatda, radio və televiziyada milli musiqi haqqında muhazirələrlə çıxış edir. Bu dövrdən başlayaraq, Ə. Eldarova sistemli şəkildə Azərbaycan aşıq musiqisinin tədqiqatına başlayır.

1959/60 tədris ilində konservatoriyanın tarixində ilk dəfə olaraq S.Qasımova

və A.Tağızadə Azərbaycan musiqi tarixi fənnindən mühazirələr oxumağa başlayırlar. Bu fənnin tətbiqi tarixi musiqişünaslığın inkişafında, onun problemlərinin tədqiqində vacib rol oynayır, çünki musiqişünasların diqqətini aktual, işlənilməyən problemlərə yönəldir. 1964-cü ildən "Ü.Hacıbəyov adına ADK Elmi əsərlər" adlı jurnal sistematik şəkildə nəşr olunmağa başlayır. Bu jurnalın səhifələrində Azərbaycanın musiqişünas və ifaçılarının elmi məqalələri işiq özü görür və tarixi musiqişünaslığa aid problemlər araşdırılır. Milli musiqişünaslığı kömək məqsədi ilə 1971-ci ildə konservatoriyanın tarixində ikinci dəfə Azərbaycan xalq musiqi kabinəsi təşkil olunur.

Beləliklə, milli tarixi musiqişünaslığın çoxəsrlik təşəkkül və inkişaf yoluna nəzər salaraq, onun müxtəlif qollarını şərtləndirən amilləri gördük.

Azərbaycan musiqi elmi əsrlər ərzində formalaşmış və heç şübhəsiz, XX əsr musiqi elminin əsasını qoyan Ü.Hacıbəylinin mirası onun zirvəsini təşkil edir. Dahi alimin milli musiqi mədəniyyətinə verdiyi tövhələri və elmi araşdırmaları sonraki nəsil musiqişünasların meydana çıxması üçün güclü zəmin yaradır. 1920-ci ildən sonra tədricən sosializm ideologiyası möhkəm surətdə cəmiyyətə hopdurulur, sosialist realizminə əsaslanan musiqi əsərləri yaranır. 30-50-ci illərdə fəaliyyət göstərən musiqişünaslar II Dünya müharibəsi, şəxsiyyətə pərəstiş dövrünün böyük çətinliklərinin şahidi olmuş və istər-istəməz bu proseslər onların elmi fəaliyyətinə təsir göstərmişdir. Bu zaman Azərbaycan tarixi musiqişünaslığı siyasi, tarixi, sosial hadisələrin xüsusi böyük inkişaf dövrünü yaşayır və bu proses də İ.Stalinin vəfatına qədər (1953) müəyyən şəkildə davam edir.

XX əsrin II yarısında Azərbaycan sovet və postsovet tarixi musiqişünaslığı sürətlə inkişaf edir - geniş, ümumiləşmiş monoqrafik tədqiqatlar yaranır, musiqi elmində ideoloji tələblərlə yanaşı, xəlqilik, millilik və s. meyillər müşahidə olunur, yeni musiqişünaslar nəsli meydana çıxır ki, onların araşdırmaları Azərbaycanda milli musiqişünaslığını yeni səviyyəyə ucaldır və musiqi elminin tam şəkildə formalaşmasından xəbər verir.

## ƏDƏBİYYAT

1. Əliverdibəyov A. Rəsmli musiqi tarixi. Bakı: Şuşa, 2001.- 231s.
2. Zeynallı A. Tarın müdafiəsinə // Kazımov N. Asəf Zeynallı. Bakı, Elm və Təhsil, 2009, s.68-70
3. L.Rudolf. Harmoniya dərsliyi. Bakı, Azərnəşr, 1939

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.07.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.09.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Aynur Hüseynova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.09**

**A.C.Quliyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: andeluna91@mail.ru

# TƏHSİLDƏ İNNOVASİYALAR, ONUN ƏHƏMİYYƏTİ VƏ VƏZİFƏLƏRİ

***Açar sözlər****: innovasiya, təhsil, pedaqoji proses, inkişaf*

Dünya ölkələrinin inkişafının böyük bir hissəsi təhsilin yenilənməsindən asılıdır. Yeni və yaradıcı düşüncə pedaqoji prosesin əsas meyarına çevrilmişdir. İnnovasiyaların məqsədi daha keyfiyyətli təhsil yaratmaq və pedaqoji prosesi əlverişli , optimal vəziyyətə gətirməkdir.

**А.Дж.Гулиева**

# ИННОВАЦИИ В ОБРАЗОВАНИИ, ИХ ЗНАЧЕНИЕ И ОБЯЗАННОСТИ

***Ключевые слова:*** *инновация, образование, педагогический процесс, развитие*

Большая часть стран мира зависит от модернизации образования. Новое и креативное мышление стало главным критерием педагогического процесса. Цель инноваций – создать более качественное образование и сделать педагогический процесс более доступным и оптимальным.

**A.J.Guliyeva**

# INNOVATIONS IN EDUCATION, ITS IMPORTANCE AND RESPONSIBILITIES

***Key words:*** *innovation, education, pedagogical process , development*

A large part of the world’s countries development depends on the upgrade of education. New and creative thinking has become the main criterion for pedagogical process. The purpose of innovayions is to create a better quality education and make the pedagogical process more affordable and optimally.

Sosial-iqtisadi şəraitin tələb etdiyi yeni cəmiyyətin qurulması müasir dövrün tələblərindəndir. Burada təhsil və innovasiyalar xüsusi rol oynayır. Buna görə də təhsil müəssisələrində həyata keçirilən islahatlar inteqrasiya, yeniləşmə, modernləşmə yolunu tutmalıdır. Aparılan təcrübələr və təhlillər sübut edir ki, ABŞ, Yaponiya, Finlandiya və s. inkişaf etmiş ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsil 70 faiz təşkil edir. Ümummilli lider Heydər Əliyev dediyi kimi, "İqtisadiyyatda, mədəniyyətdə, elmdə, həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir."

Qlobal dünya təhsilin vəzifələrini də bir qədər dəyişmişdir. Dünya təhsil sistemində sadəcə bilik, bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm rol oynayır. Məhz buna görə Azərbaycan Respublikası təhsil sistemində aparılan islahatlarıda bu istiqamət əsas götürülür. Yeni qurulan cəmiyyətə müstəqil, sərbəst öyrənməyi bacaran insanlar lazımdır. Hər bir uşaq təhsil müəssisəsinə girdiyi ilk gündən başlayaraq müəllimləri, valideynləri tərəfindən daha çox bilik almağa alışdırılır. Bəs əsas məsələ çox bilik əldə etməkdirmi? Bizcə nələri öyrətmək, necə öyrənmək, hansı şəraitdə öyrənmək və nələri öyrənmək lazımdır sualına cavab verilməlidir. Müasir dövrün tələblərinə cavab vermək üçün heç şübhəsiz bu günə qədər mövcud olanlardan , tətbiq etdiklərimizdən fərqli yeni metodlar, yollar tətbiq etmək gərəkdir. Keçmişdə edilənləri təkrar etmək müvəffəqiyyətsizliyə aparan yoldur. "Öyrənməyi öyrətmək" indiki dövrün, pedaqoji prosesin əsas məqsədidir. Bunun üçün nəyi, nə üçün və necə öyrətmək probleminə diqqət artırılmalı və bu həmişə diqqət mərkəzində saxlanılmalıdır.

Zəkanın əsl gücü təfəkkürdür, bilik deyildir. Məhz bu səbəbdən yenilikçi və yaradıcı düşünmənin əsas meyara çevrilməsi, pedaqoji prosesdə təfəkkürü inkişaf etdirəcək yeniliklərdən istifadə edilməsi zəruridir. Təhsil və yenilik arasında bir əlaqə mövcuddur. Təhsil yenilikçiliyin təməlidir. Bu gün yenilik-innovasiya dövlətlərin gündəmində duran vacib məsələlərdən biridir. Ölkələr rəqabət gücünü qorumaq və genişləndirmək üçün bir çox sahələrdə innovasiyadan istifadə edirlər. Xüsusilə təhsildə olan innovasiyalar təhsil müəssisələrində nəyi öyrətdiyimizi və necə öyrətdiyimizi gündəmə gətirir. Ölkələr arası rəqabət daim yenilənmək, innovasiya tələb edir. Yenilənməmək, dəyişməmək gələcəkdə iqtisadi çətinliklərdən daha çox zərər gətirə biləcək problem deməkdir.

Təhsildə innovasiya təhsil üçün çox maddiyyat sərf etmək, ya da təhsil müəssisələrinə daha çox texnoloji vasitələri gətirmək deyildir. Aydındır ki, bütün təhsil müəssisələrini təlim texnologiyalarına dair avadanlıqlarla təchiz etmək qeyri mümkündür. Komputer təminatının yetərli olması belə bəzi ölkələrdə təhsilin keyfiyyətinin yüksəldilməsinə təminat vermir. Ölkədə ən nümunəvi təhsil müəssisələrini seçib həmin müəssisələri maliyyə vəsaiti,

avadanlıqlar və yeniliyi qəbul edən, onlarla işləməyi bacaran savadlı müəllimlərlə təmin edən Çin kimi nəhəng bir ölkə bu gün elm və təhsilin inkişafı sahəsində böyük nailiyyətlər əldə etmişdir. Ərazisi Azərbaycan Respublikası ərazisindən 87 dəfə kiçik, əhalisi 2 dəfə az olan Sinqapur kimi kiçik bir dövlət elm və texnologiyanın inkişafında planlı və məqsədyönlü işin nəticəsi olaraq inkişaf etmiş ölkələr sırasına daxil olmuşdur. Aparılan təcrübələrin nəticəsi kimi belə bir fikir formalaşmışdır ki, təhsil sisteminin əsas strategiyası uşaq şəxsiyyətinin diqqət mərkəzində durmasından, tədris prosesində pedaqoqun uşağa münasibətinin dəyişməsindən, uşağı mərkəzdə duran subyekt kimi görməsindən ibarətdir.

Daxili ehtiyatlar hesabına yaranan innovasiyaların məqsədi daha keyfiyyətli təhsil yaratmaq, müasir dövrün nəbzini tutmağı bacaran , yaradıcı düşünməyə malik uşaqlar yetişdirmək, pedaqoji prosesi daha əlverişli , optimal vəziyyətə gətirməkdir. Çünki innovasiya bir kəşf deyildir, mövcud olanı fərqləndirmək və bundan dəyər yaratmaqdır.

## ƏDƏBİYYAT


1. Müseyib İlyasov “Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri.” Bakı – 2018
2. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. “Pedaqoji texnologiyalar” Bakı-2006


**Məqalənin redaksiyaya daxil olma tarixi: 07.12.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 159.97**

**J.Mehdiyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: jale9396@gmail.com

# İRADİ FƏALİYYƏT VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *iradi fəaliyyət, iradi iş, zehni və ya intellektual mərhələ, iradi mərhələ, iradə azadlığı*

Məqalədə iradənin mahiyyətindən, iradi fəaliyyət və onun mühüm xüsusiyyətlərindən, iradə azadlığından bəhs edilmişdir.

**Ж.Мехтиева**

## ВОЛЕВОЕ ДЕЙСТВИЕ И ЕГО ОСОБЕННОСТИ

***Ключевые слова:*** *волевое действие, волевое дела, ментальная или интеллектуальная стадия, волевая стадия, свобода воли*

В статье рассказывается о добровольном характере действий и о его важных осебенностях, о свободе воли.

**J.Mehdiyeva**

## VOLITIONAL ACTIVITY AND ITS FEATURES

***Key words:*** *volitional activity, volitional work, the mental or intellectual stage, volitional stage, freedom of will*

The article is about understanding of the volition, volitional activity and its features, and also about freedom of will.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün subyektin öz fəaliyyəti və davranışı zamanı rast gəldiyi çətinlikləri, maneələri aradan qaldırma prosesinə iradə deyilir.

İradə – psixikanın tənzimedici vəzifəsidir. Bu vəzifə insanın öz davranış və fəaliyyətini idarə etmək qabiliyyətində, qarşısına qoyduğu məqsədə nail olmaq işində rast gəldiyi maneə və çətinlikləri aradan qaldırmaqda ifadə edilir. İradə — xüsusi fəaliyyət forması kimi insandan öz davranışını qarşısına qoyduğu məqsədə İnsanın iradəsi məhz fəaliyyət prosesində təzahür edir. Psixoloji planda iradi iş fəaliyyətin strukturuna daxil edilir. Ümumi şəkildə

iradi işi proses kimi təhlil etdikdə onun iki əsas mərhələdən ibarət olduğunu görə bilərik:

1. Zehni və yaxud intellektual mərhələ müvafiq olaraq tənzim etməyi, onunla rəqabətə girən başqa arzu və istəkləri ləngitməyi, boğmağı tələb edir.

2. İcra və yaxud əsas iradi mərhələ. Zehni və yaxud intellektual mərhələ tələbatın dərk olunması, həvəs və arzunun əmələ gəlməsi, məqsədin ayrılması, motivlər mübarizəsi, qərar qəbulu və işin planlaşdırılması ilə xarakterizə olunur.

Adətən öz strukturuna görə iradi işləri 2 qrupa bölmək olar: ***sadə*** və ***mürəkkəb*** iradi işlər. Sadə iradi işlər qərar qəbulu və onun icrası ilə başa çatır. Məsələn, əgər dərsə hazırlaşmağı qərara alır və dərhal stolun arxasında əyləşərək hazırlaşmağa başlayırsansa, bu cür işi sadə iradi iş adlandırmaq olar. Mürəkkəb iradi iş zamanı qərarın qəbulu və icrası bir sıra mərhələlərdən keçir. Burada məqsəd, motivlər, qərar qəbulu, onun icrası üçün yol və vasitələrin axtarılması, qərarın icrası və s. mərhələlərdən keçmək zəruri olur.

İradə insan fəaliyyətinin xüsusi formasıdır. İradi fəaliyyət sadəcə qarşıya qoyulmuş, düşünülmüş, dərk olunmuş məqsədin həyata keçirilməsindən: karandaş lazımsa onu götürməkdən, kağız tələb olunursa ona əl uzatmaqdan ibarət deyildir. Bu fəaliyyət spesifik səciyyə daşıyır. İradi fəaliyyətin mahiyyəti insanın öz qarşısında duran və onun üçün daha böyük əhəmiyyət kəsb edən məqsədlərə, onun üçün nisbətən az əhəmiyyəti olan bütün başqa davranış motivlərini tabe etməsindən ibarətdir.

İradi fəaliyyət zamanı insan özü özünə hakimlik edir, öz şəxsi qeyri-ixtiyari impulslarını nəzarət altına alır və lazım olduqda onları boğur, cilovlayır. İradənin təzahürü, yəni insan tərəfindən müxtəlif növ iradi işlərin və iradi hərəkətlərin icrası şəxsiyyətin elə bir fəallıq formasıdır ki, şüur orada mütləq iştirak edir. İradi fəaliyyət üçün bir sıra elə aktların, hərəkətlərin olması zəruridir ki, orada şəxsiyyət öz səylərini və icra olunan psixi proseslərinin xüsusiyyətlərini geniş ölçüdə dərk edə bilsin. Buraya yaranmış vəziyyətin qiymətləndirilməsi, aparılacaq əməliyyat üçün müvafiq yolun tapılması, məqsədə nail olmaq üçün lazımi vasitələrin seçilməsi, qərar qəbulu və.s aiddir.

Bəzi hallarda iradi fəaliyyət insanın həyat yolunu təyin edən, onun ictimai, mənəvi simasını səciyyələndirən qərarların qəbul edilməsi ilə əlaqədar olur. Ona görə insan şüurlu fəaliyyət göstərən bir şəxsiyyət kimi bütünlüklə belə hərəkətin icrasına cəlb olunur. Belə hallarda insan artıq təşəkkül etmiş əqidə və görüşlərə, əxlaqi prinsiplərə istinad edir. İnsanın həyat yolu üçün əhəmiyyətli olan məsul iradi hərəkətlərin icrası zamanı onun bütün görüşləri, əqidələri ayrı-ayrı fikirlər, hisslər formasında insanın şüurunda aktuallaşaraq, situasiyanın qiymətləndirilməsinə, qəbul olunan qərarın xarakterinə və onun icrası üçün tələb olunan vasitələrin seçilməsinə təsir edir.

Bir çox ictimai xadimlərin, mədəniyyət xadimlərinin tərcümeyi halına aid elə epizodlara təsadüf edilir ki, qəbul olunan qərarlar bütün parlaqlığı ilə onların əsl mənəvi simasını aşkar edir. Çar hökümətinin amansız cəza tədbiri barədə "Susa bilmirəm" adlı məqalə dərc etdirən L.N.Tolstoy, "Mədəniyyət ustaları, siz kiminləsiniz?" adı altında müraciətnamə yazan A.M.Qorki, Reyxstaqın yandırılması haqqında faşistlər tərəfindən təşkil olunmuş məhkəmə prosesində müttəhim rolunda yox, ittihamçı kimi çıxış edən Georgi Dmitrov və bir sıra başqa şəxslərin hamısı məsuliyyətli iradi hərəkət nümayiş etdirərək, aləmini daxil etmişlər. Böyük Vətən müharibəsi illərində sovet xalqının qəhrəmanlıqla dolu həyatında iradi hərəkətə dair saysız-hesabsız nümunələr olmuşdur.

İradi fəaliyyət psixoloji cəhətdən bir sıra mühüm xüsusiyyətlərlə səciyyələnir. İradi işin və ümümiyyətlə iradi fəaliyyətin mühüm xassələrindən biri ondan ibarətdir ki, insan hərəkətin icrasından azad olduğunu dərk edir. Burada insanın iqtidarı çatmadığı və kor-koranə tabe olduğu təsirlərə məcburən əməl etmək hissi yoxdur. Əksinə, o qərar qəbul etməkdə azad olduğunu hiss edir.

Belə azad qərar qəbul etmək hissi insanın öz niyyət və hərəkətləri üçün daşıdığı məsuliyyət hissi ilə bağlı olur.

İdealistlərin fikrincə insan tərəfindən icra olunan ruhi akt insanın öz arzularından başqa heç bir şeyə tabe olmayan səbəbsiz, müstəqil bir prosesdir. Materialist psixologiya idealistlərin dediyi belə iradə azadlığını qəbul etmir.

Həqiqətdə insanın yaxşı və ya pis dərk edilən bütün hərəkətləri obyektiv olaraq şərtlənmiş olur. Ona görə də biz insanın nə üçün məhz belə hərəkət etdiyinin səbəbini az-çox dəqiq surətdə təyin edə bilərik. İnsanın iradi fəaliyyəti bütünlüklə obyektiv səbəbdən asılı fəaliyyətdir. Bu fəaliyyət şəxsiyyətin təşəkkül etmiş xüsusiyyətlərindən, müxtəlif təsirlər nəticəsində ictimai həyat şəraitindən əmələ gələn motiv və həyat məqsədlərinin xarakterindən asılıdır. Bununla belə, həyatda baş verən müxtəlif hadisə və tasadüflər iradi hərəkətin bilavasitə konkret səbəbi ola bilər ki, bunlar da iradi hərəkəti təyin edir.

İnsanın obyektiv fəaliyyəti obyektiv olaraq şərtlənir, lakin bu heç də o demək deyildir ki, iradi fəaliyyət psixoloji cəhətdən nə isə məcburi xarici zəruriyyət kimi dərk edilir və bu səbəbdən də onun icrası üçün insan heç bir məsuliyyət daşımır. Belə təsəvvürü düzgün hesab etmək olmaz. V.İ.Lenin yazırdı: "Determinizm ideyası insan hərəkətlərinin zərurətini müəyyən edərək, iradə azadlığı haqqındakı cəfəngiyatı rədd edərək, insanın nə zəkasını, nə vicdanını, nə də əməllərinin qiymətləndirilməsini heç də puç etmir. Tamamilə əksinə, hər şeyi azad iradə üzərinə yükləmək deyil, ciddi və düzgün qiymət vermək ancaq determinizm baxışı əsasında mümkündür".

İradi fəaliyyətin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, iradi hərəkəti

insan həmişə bir şəxsiyyət kimi icra edir. Məhz bununla əlaqədar olaraq insan hərəkətin icrası üçün tam məsuliyyət daşıyacağını aydın dərk edir. İnsan əsasən iradi fəaliyyət sayəsində özünü bir şəxsiyyət kimi dərk edir, aydın surətdə başa düşür ki, özünün həyat yolunu, taleyini tam surətdə özü müəyyən edir.

Ümumiyyətlə, iradə azadlığı problemi hələ çox qədim zamanlardan insanları düşündürmüş və zaman-zaman bu problem haqqında düşünüb daşınanlar məsələyə müxtəlif prizmalardan yanaşaraq çeşidli münasibətlər bildirmişlər. Bu problem düşüncə tarixində ən mühüm və mübahisəli məsələlərdən biri kimi tarixə düşmüşdür. İradə azadlığı problemin qoyuluşu insanların təbii maraqlarıyla yanaşı həm də onlarda etdikləri əməllərə, atdıqları addımlara görə məsuliyyət daşıyıb daşımaması kimi çox vacib sosial-psixoloji məsuliyyət məsələsilə sıx bağlı olmuşdur. Bu səbədən də iradə azadlığı problemi istər müxtəlif fəlsəfi-ideoloji cərəyanlar arasında, istərsə də dinlərdə qızğın mübahisə obyektinə çevrilmişdir. Birincilər öz görüşlərində müəyyən əqli mülahizələrdən çıxış edirdilərsə, ikincilər əsas etibarilə ilahi buyruqlara, dini mətnlərə söykənmişlər. Bununla belə, bir sıra diniideoloji cərəyanlar öz görüşlərində dini prinsiplərlə yanaşı əqlin mühakimələrinə də geniş yer vermişlər.

## ƏDƏBİYYAT

1) Xalq Təhsili sistemində Psixoloji xidmət haqqında əsasnamə. B.1999

2) Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. B. “Pedaqogika”. 2004

3) Əmrahlı L.Ş. “Psixoloji xidmətin əsasları”. I kitab. B. 2006

4) Həmzəyev M.Ə. “Pedaqoji psixologiya”. B. 2006

5) İsmayılov N.B. “Psixiatriya”. B.1991

6) Çələbiyev N.Z. “Təhsil sistemində psixoloji xidmət”. II hissə. B. 2009

7) Əlizadə Ə.Ə “İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər”. B.2005

8) Bayramov Ə.S. “Şəxsiyyətin təşəkkülünün aktual psixoloji məsələləri”. B. 1981

9) Погов Е.И. Настольная книга практического психология. М. 2002

10) Ильин Е.И. Психомоторная организация человека. С.-П. 2002

11) Еремкин А. Школа одаренности Тайны рождения гениев. М. 2003

12) Немов Р.С. Психология. Книга 3. Психодиагностика. М. 2003

13) Психологическая диагностика под ред. К.М.Гуревича. М. 1979

14) Акимова М.К., Козлова В.Т. Психологическая коррекция умственного развития школьников. М. 2003

**Məqalənin redaksiyaya daxil olma tarixi: 07.12.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Tamilla Kəngərli**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# *TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)*

**UOT 78.071.1**

**R.H.Kərimova**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68

## VOKAL SƏNƏTİ VASİTƏSİLƏ TƏLƏBƏLƏRİN ESTETİK TƏRBİYƏSİNİN FORMALAŞMASI

***Açar sözlər:*** *vokal texniki mədəniyyəti,vokal vərdişləri, vokal ifaçılığı*

**Р.Г.Керимова**

## ФОРМИРОВАНИЕ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ СТУДЕНТОВ С ПОМОЩЬЮ ВОКАЛЬНОГО ИСКУССТВА

***Ключевые слова:*** *техническая культура вокала, вокальные навыки, вокальное исполнение*

Эстетическое развитие и воспитание студентов претворяется в жизнь совместно с моральным и идеологическим воспитанием.

Кроме вокальной техники и художественного обучения в курсе учащимся последовательно внушаются методы владения вокальными навыками и индивидуальный подход к каждому студенту.

На уроках сольного пения студент должен изучить различать характеристику голосов и критически относиться к ним т.ею должен развивать и воспитывать вокальную память и слух.

К вышеперечисленному можно относить работу студентов над собой, анализ музыки и художественного текста вокальных произведений.

**K.H.Kerimova**

## FORMATION OF AESTHETIC EDUCATION OF STUDENTS WITH THE HELP OF VOCAL ART

***Key words:*** *vocal techincal culture ,vocal habits,, vocal singing*

Aesthetic development and education of students is put into practice together with moral and ideological education.

In addition to vocal techniques and artistic training in the course of studying, the

methods of owning vocal skills and an individual approach to each student are consistently suggested.

In solo singing lessons, a student must learn to distinguish between the characteristics of voices and to critically treat them, that is, he must develop and educate vocal memory and hearing.

To the above, you can relate the work of students on themselves, the analysis of music and the artistic text of vocal works.

Tələbələrin estetik inkişafı tərbiyəsi əxlaqi və ideoloji tərbiyə ilə birgə həyata keçirilir. Vokal texnikası və bədii təhsilin birliyindən əlavə kursda şagirdlərə ardıcıllıqla vokal vərdişləri yiyələnmək və tələbəyə fərdi yanaşmaq üsulu aşılanır. Təhsil prosesində tələbələrə aşağıdakı vərdişləri mənimsəməlidir:

- Vahid registrli (mikst) səsin əmələ gəlməsi üsulu və yüksək pozisiyada səslənmə;
- Oxuyan zaman nəfəsalma (aşağı, qabırğa, qarın), səssiz nəfəs alıb və tədricən nəfəsi buraxmaq;
- Müxtəlif həmləli səs (əsasən yumşaq həmlənin işlənməsi);
- Səsin dayağı;
- Oxuyan zaman artikulyasiya və aydın diksiya (sait səslərin hamar dəyirmiləşməsi, səslənməsi və samitlərin aktiv tələffüzü, orfoepiyası);
- Musiqi cümləsinin bədii ifası üçün zəruri olan səsin dinamikası;
- Leqato və stakkato;
- Kantilen və reçitativ ifaçılıq üsulu;
- Müşayiətsiz solo və ansamblda (unison və çoxsəsli) oxumaq;
- Özünün müşayiəti ilə vokal əsərinin ifası

Solo oxuma təhsili nəticəsində tələbə müxtəlif xüsusiyyət vəüslubda olan vokal əsərlərinin ifadəli ifasını, sərbəst, düzgün səs çıxarılması ilə birləşdirmək bacarığına yiyələnməlidir. Təhsilin başlanğıcında müəllim gərək tələbənin səs və musiqi qabiliyyətini təfsilatı ilə öyrənsin, onun ümumi inkişafını və psixi xüsusiyyətini (xasiyyət, zəka, diqqət və s.) aşkar etməli və səs aparatının vəziyyətini təyin etməlidir.

Bundan sonra tələbəyə fərdi yanaşma zəruridir. Solo oxuma məşğələlərində tələbə oxunan səslərin xüsusiyyətlərini fərqləndirməyi və onlara tənqidi yanaşmağı öyrənməlidir, yəni vokal yaddaşını, eşitmə qabiliyyətini inkişaf etdirib tərbiyələndirməlidir. Bunlara xüsusi yer verilir. Vokal texnikası məsələlərinin və işlədilən təmrin və üsulların izahatında səsin cürbəcür boyalarının və dinamik müxtəlifliyinin izahına, yəni səsin tərbiyəsi metodikasının təcrübi tətbiqinə, tələbə özünün və başqalarının (xüsusilə uşaqların) səs qoyuluşuna aid metodik bilikləri "Vokal və onun tədrisi metodikası" fənni üzrə aparılan mühazirələrdə mənimsəyir. Bu mühazirələrdə tələbələrdə elementar və peşəkar vərdişlərin formalaşdırılması, vokal sənəti vasitəsilə onların estetik tərbiyəsi, səslərin və bədii ifaçılıq inkanlarının

maksimum inkişafı öz əksini tapmışdır. Mühazirələrdə tələbələr Azərbaycan musiqisinin tarixindən, təkamül və inkişaf yollarından, professional vokal sənəti banilərindən, vokal musiqi janrlarından, səs aparatının anatomiyasından, səslə işləmə metodikasından ətraflı məlumat alaraq gələcəkdə Vokal – metodiki hazırlıqlarında geniş istifadə edə bilərlər.

Səs aparatının kamilləşməsi və vokal əsərlərinin ifası üzərində müstəqil işləməyə tələbəyə öyrətmənin çox əhəmiyyəti var. Vokal üzrə material kursun proqram tələblərinə və eləcə də tələbənin vokal texnikası və ifaçılıq imkanlarına müvafiq seçilir. Uşaq mahnıları və bəstəkar mahnıları tədris vəsaiti kimi tətbiq olunur. Tələbələrin vokal hazırlıqlarının və səs imkanlarının müxtəlifliyini nəzərə alaraq repertuar siyahısına müxtəlif çətinlikdə olan əsərlər daxil edilmişdir.

Hər bir tələbənin təhsili fərdi aparılmalıdır. Hər semestrdə bədii vərdişlərin aşılanması nəzərində işin aparılması və səsyaranma texnologiyasının təkmilləşməsi daha da gücləndirilməlidir.

Tələbənin ilkin dinlənilmədə pedaqoji və səs imkanlarının qısa xarakteristikası, tələbənin səsyaranma xüsusiyyətləri, psixikasının quruluşu (xarakteri, mənimsəməsi, diqqəti və s.) verilir.

"Vokal" dərslərinin tədrisində tələbələri orta məktəblərdə şagirdlərlə vokal iş aparmaq üçün hazırlamaq lazımdır. Bu məqsədlə tələbələrdə aşağıdakı xüsusiyyətləri aşılamaq vacibdir;

- analitik vokal eşitməni;
- vokal texniki və bədii əsərlərə düşüncəli yanaşma tərbiyə etmək;
- tembr və dinamika baxımından səs keyfiyyətinin yaranma səbəblərini şagirdlərə aydınlaşdırıb tərbiyələndirmək;
- tələbənin şagirdə düzgün səs çıxarmanı və ona necə nail olmaq bacarığını düzgün aydınlaşdıra bilmək bacarığını aşılamaq və şəxsi ifası ilə şagirdə düzgün oxuma nümayiş etdirə bilmək bacarığını öyrətmək lazımdır.

Tələbələrin vokal-metodiki hazırlığını gücləndirmək məqsədilə hər bir tələbənin öz qrup yoldaşlarının vokal dərslərində iştirak etməsi xeyirli nəticələrə səbəb olar.

Sinifdə səs qoyuluşu üzrə işləyərkən tələbələrdə sərbəstliyin inkişafı etdirilməsi əsas yer tutur. Belə ki, bu zaman tələbə öz səsi və vokal əsərlər üzərində, uşaq mahnıları üzərində sərbəst işləmə imkanlarına yiyələnir.

Uzun zaman kəsimində oxumaq səsi, boğazı yorur. Buna görə də dərs elə qurulmalıdır ki, xorla oxumaqla, musiqi savadı və ədəbiyyatı üzrə çalışmalar biri-birini əvəzləsin. Hamılıqla oxumaqla ayrı partiyaların yoxlama oxunuşu ilə də əvəzləmək olar, səhvlərin düzəlişi keçirilməli və lazım gəldikdə kömək göstərilməlidir.

Müəllim soyuqlamış boğazla oxumağa imkan verməməli, tələbələri soyuqlamaqdan çəkindirməli və səsini qorumağı öyrətməlidir. Tələbələr soyuq su içir, dondurma yeyir, tum çırtlayırlar ki, belə şeylərə yol vermək olmaz.

Dondurmadan boğaz, lap az da olsa soyuqlayır; tum çırtlama isə səsi «bağlayır». Oxumaqdan öncə çox qaçmaq olmaz, nəfəsi pozmaq olmaz. Oxumağa başlayarkən arxayın, aramlı nəfəs gərəkdir.

Gələcək vokal sənətinə yiyələnmək üçün səs uşaqlıqdan qorunmalıdır, lakin bəzən səsin lazımınca qorunmasına baxmayaraq, mutasiyadan sonra səs öz vokal keyfiyyətlərini itirir. Yaxud da əksinə: mutasiyadan öncə musiqidən uzaq, səsi olmayan və heç oxumayan uşaq mutasiyadan sonra çox yüksək vokal göstəriciləri ilə seçilir.

Tələbənin öz üzərində sərbəst işləməsinə vokal əsərlərin musiqisini və bədii mətnin araşdırılması da aiddir. Tələbələrin vokal hazırlığı səviyyəsinin eyni olmadığını nəzərə alaraq, vokal repertuarı siyahısına müxtəlif çətinlik dərəcəsinə malik əsərlər daxil edilir. Bu əsərləri yeri gəldikcə tələbənin səs diapazonuna uyğun transport etmək olar.

Təhsil müddətində tələbələr azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı rus, qərbi avropa və amerika bəstəkarlarının da əsərləri ilə tanış olmalıdırlar. Tələbələrdə vokal vərdişlərin aşılanmasının möhkəmləndirilməsi üçün hər semestrdə akademik mühazirə konsertlərin keçirilməsi məqsədəuyğun hesab olunur.

Belə konsertlərdə solo oxuma ilə yanaşı, ansambl ifalar, tələbələrin şəxsi müşayiətləri ilə ifalarının nümayiş etdirilməsi, hesab olunur və ifa etdikləri əsərlərin müəllifləri, yaranma tarixi haqqında mühazirə-seminar hazırlanır və müəyyən balla müəllimlər tərəfindən qiymətləndirilir.

## ƏDƏBİYYAT


1. Y.Əliyev "Azərbaycanda vokal sənəti tarixindən". Bakı, 1982
2. M.İ.Qlinka. «Vokalizlər – solfecio və səsin mükəmməlləşdirilməsi üçün istifadə edilən məşğələlər», 1950
3. O.M.Rəcəbov, U.Miriyeva "Musiqi və mənəvi tərbiyə", "Maarif" nəşriyyatı, Bakı, 1985
4. Е. Малинина «Вокальное воспитание детей» Л. 1967
5. Н.Орлова «Развитие голоса» М.1960
6. Л.Дмитриев «Основы вокальной методики» М.1968
7. Е. Малынина «Вокальное воспитание детей» Л. 1967
8. Н.Орлова «Развитие голоса» М 1960
9. J.Qədimova "Musiqinin tədrisi metodikası" Bakı, 2007
10. G.Abdullazadə "Vokalizlər"
11. Mələk Vəlizadə Körək uşaq səsinin sehri



**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.08.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.10.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.01**

**S.M.Hacıyeva**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: svetahaciyeva@hotmail.com

# MUSİQİ MÜƏLLİMLƏRİNİN HAZIRLIĞINDA AZƏRBAYCAN LADLARININ TƏDRİSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ SADƏLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

***Açar sözlər:*** *lad nəzəriyyəsi, tədris, təkmilləşdirmə*

Pedaqoji universitetlər üçün "Azərbaycan xalq musiqisinin əsasları" kursunun məxsusi metodikasının və yeni proqramların işlənib hazırlanmasına çoxdan ehtiyac duyulur. Bu kursun yığcam, daha sadələşdirilmiş variantı olmalıdır ki, burada iki prinsip gözlənilməlidir: zəruriyönümlük və məqsədyönümlük.

**С.М.Гаджиева**

# ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ И УПРОЩЕНИЯ ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКИХ ЛАДОВ В ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ МУЗЫКИ

***Ключевые слова:*** *ладовая теория, обучение, усовершенствование*

Давно назрела необходимость разработки особой методики и новой программы по курсу «Основы азербайджанской народной музыки» для Педагогических университетов. Следует создать более упрощенный и сжатый вариант этого курса, при этом должны соблюдаться принципы необходимости и целенаправленности.

**S.M.Hadjiyeva**

# PROBLEMS OF IMPROVING AND SIMPLIFYING THE TEACHING OF AZERBAIJAN IN THE TRAINING OF MUSIC TEACHERS

***Key words:*** *ladder theory, training, improvement*

It has long been necessary to develop a special methodology and a new

program for the course "Fundamentals of Azerbaijani Folk Music" for pedagogical universities. A more simplified and concise version of this course should be created, while the principles of necessity and purpose should be observed.

Respublikamızda təhsil sahəsində aparılan islahatlar fundamental peşə hazırlığına, ixtisas üzrə zəruri bilik, bacarıq və vərdişlərə malik olan müasir müəllimlərin hazırlığını tələb edir. Pedaqoji Universitetdə gələcəyin musiqi müəllimlərinin yetişdirilməsi işində «Azərbaycan xalq musiqisinin əsasları» fənni mühüm yerlərdən birini tutur.

Universitetin musiqi müəllimliyi ixtisasını bitirən hər bir tələbə gələcəkdə ümumtəhsil məktəblərində işləyərkən, şifahi ənənəli Azərbaycan xalq musiqisi ilə uşaqları tanış etməli, bu musiqiyə sevgi hisslərini aşılamalıdır. Bunun üçün isə onun özü bu musiqini dərindən bilməli, anlamalı və sevməlidir. Tələbələrdə xalq musiqisinə sevqi hisslərinin tərbiyəsi, mənəviyyatlarının zənginləşməsi, bədii zövq və təfəkkürlərinin inkişafı, düşüncə və fikirlərinin düzgün istiqamətə yönəldilməsi, peşə bacarıqlarının formalaşdırılması, eləcə də Azərbaycan xalq musiqisinin nəzəri cəhətdən əsasları barəsində biliklərin toplanması və praktiki cəhətdən onu ifa etmək bacarığının əldə edilməsi – bütün bunlar ali məktəblərdə təhsil aldıqları dövrdə "Azərbaycan xalq musiqisinin əsasları" fənnni vasitəsilə həyata keçirilir.

Azərbaycan musiqi-pedaqoji təhsilinin qarşısında duran ciddi məsələlər hər fənnin, o cümlədən də tələbənin peşə fəaliyyətində əhəmiyyətli olan "Azərbaycan xalq musiqisinin əsasları" fənninin təlim-tərbiyə potensialının üzə çıxarılması ən mühüm məsələlərdən biridir. Tələbələrdə milli musiqiyə sevgi, onun dərindən dərk etmə və duyma, vətənpərvərlik və milli qürur hisslərinin aşılanması məhz bu fənn vasitəsilə həyata keçirilir. Buna görə bu fənnin tədrisinin təkmilləşdirilməsi və ADPU tələbələri tərəfindən qavranılması üçün daha asan olması məsələləri bu fənni tədris edən müəllim, habelə tələbələrin özləri üçün də mühüm bir problemdir.

"Azərbaycan xalq musiqisinin əsasları" fənni Pedaqoji Universitetin "Musiqi və onun tədrisi metodikası" kafedrasında tədris olunan mürəkkəb fənlərdən biridir, hətta tam qətiyyətlə söyləmək olar ki, bu fənn Bakı Musiqi Akademiyasında da tədris olunan mürəkkəb fənlərdən hesab edilir. Bu da Azərbaycan xalq musiqisinin, onun lad sisteminin unikallığı və rəngarəngliyi, lad-funksional sistemin mürəkkəbliyi ilə əlaqədardır.

Azərbaycan xalq musiqisinin bütün janrları üçün vahid bir sistem olan Azərbaycan lad-məqam sistemi mövcuddur. Buna görə "Azərbaycan xalq musiqisinin əsasları" fənninin mənimsənilməsində şifahi ənənəli professional musiqi janrlarının lad nəzəriyyəsinin öyrədilməsi ilə yanaşı, tələbələrə muğamlar haqqında müəyyən biliklərin verilməsi də zəruridir. Bu isə kursun öyrənilməsinin mürəkkəbliyini şərtləndirən faktorlardan biridir.

Bu baxımdan "Azərbaycan xalq musiqisinin əsasları" fənninin tədrisinin təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Bu sahədə prof. Rəna Məmmədovanın tədqiqatları təqdirə layiqdir. Belə ki, o hesab edir ki, bu fənn korrektə olunmalıdır. Sözsüz ki, Ü.Hacıbəyliyə məxsus lad konsepsiyası qorunub saxlanılmalıdır, lakin materialın qavranılmasının yeni sistemi qurulmalıdır.

"Azərbaycan xalq musiqisinin əsasları" əsərində ilk dəfə olaraq Ü.Hacıbəyli müəyyən etmişdir ki, Azərbaycan ladlarının səsdüzümü tetraxordların birləşməsindən qurulur. Azərbaycan ladlarının əmələ qəlmə qaydaları Hacıbəylinin lad sisteminin çox vacib hissəsidir. Burada Ü.Hacıbəyli ilk dəfə xalq musiqisini funksional əsasa, "karkasa oturdur" və Azərbaycan ladlarını funksionallıqla bağlayır. Bu əsəri Üzeyir bəyin bütün yaradıcılığının yekunu hesab etmək olar. Düşünürük ki, milli lad nəzəriyyəsinin müddəalarını elə Ü.Hacıbəylinin öz yaradıcılığının timsalında öyrənmək lazımdır. Çünki onun nəzəriyyəsi məhz təcrübədən yaranmışdı. Bəstəkar milli lad nəzəriyyəsinə addım-addım yaxınlaşmışdı. Xalq musiqisinin, şifahi ənənəli professional musiqinin ciddi qayda-qanunlarını, məhz lad əsasını öyrənən bəstəkarın musiqi təfəkkürü genişlənmişdi. Xalq və şifahi ənənəli musiqinin əsasları onun öz musiqisinin əsaslarına çevrilmişdir. Bu da sonradan Azərbaycan musiqi elmi və bəstəkar yaradıcılığı üçün bünövrə olmuşdur.

Bu gün "Azərbaycan xalq musiqisinin əsasları" fənni həm BMA-da, həm pedaqoji ali məktəblərdə, həm də musiqi kolleclərində vahid proqram və dərslik əsasında tədris olunur ki, bu da zənnimizcə səmərəsiz yoldur. Buna görə hesab edirik ki, ümumtəhsil məktəblərində musiqi müəllimi olacaq tələbələr üçün fənnin proqram və dərslikləri aşağıdakı tələblərə cavab verməlidir:

1. Azərbaycan Respublikasında ümumi təhsil konsepsiyası sənədi (milli kurikulum) və musiqi fənni üzrə kurikulumun tələbləri nəzərə alınmalıdır;
2. Pedaqoji ali məktəblər üçün "Azərbaycan xalq musiqisinin əsasları" kursunun məqsəd və vəzifələri dəqiq müəyyənləşdirilməlidir;
3. Kursun zəruri və informatik materialları müəyyənləşdirilməlidir;
4. Kursun məzmunun və məzmun xətləri dəqiqləşdirilməlidir;
5. Tələbələrin həm musiqi müəllimi kimi ixtisaslaşması, həm də ümumi inkişafı təmin edilməlidir.

Musiqi şöbə tələbələrinin baza biliklərinin real səviyyəsini, onların nəzəri biliklərini genişləndirmək imkanlarını və onların gələcək peşə fəaliyyətlərinin xüsusiyyətlərini nəzərə alsaq, burada tədris olunan "Azərbaycan xalq musiqisinin əsasları" fənni Musiqi Akademiyasında, Milli konservatoriyada tədris olunan eyni adlı fəndən müəyyən dərəcədə fərqlənməlidir. Müşahidələr göstərir ki, Pedaqoji Universitet tələbələri "Azərbaycan xalq musiqisinin əsasları" fənnini çətin mənimsəyirlər. Bunun da səbələrindən biri fənnin akademik səviyyədə tədris olunmasıdır. Demək olar ki, burada, Bakı Musiqi Akademiyasında və Milli konservatoriyada istifadə olunan dərs vəsaitləri

eynidir. Halbuki, bu tədris müəssisələrinin məqsədləri eyni deyildir, demək ki, dərs vəsaitləri və tədris səviyyəsi də eyni olmamalıdır. Düşünürük ki, Pedaqoji Universitetlər üçün "Azərbaycan xalq musiqisinin əsasları" kursunun məxsusi metodikasının işlənib hazırlanmasına çoxdan ehtiyac duyulur. Bu kursun yığcam, daha sadələşdirilmiş variantı olmalıdır ki, burada iki prinsip gözlənilməlidir: zəruriyönümlük və məqsədyönümlük.

ADPU-nun balalavr pilləsi üçün tərtib etdiyimiz və Təhsil Nazirliyinin qrifini almış "Azərbaycan xalq musiqisinin əsasları" fənninin proqram-kurikulumunu açıb baxsaq, görərik ki, burada imtahan tələbləri aydın şəkildə verilmişdir və aşağıdakılardan ibarətdir:

- fənnin nəzəri suallarına cavab vermək;
- verilən ladları fortepianoda qurmaq;
- verilən xalq musiqisi nümunələrini fortepianoda ifa etmək, lad əsasını təyin etmək və təhlilini aparmaq;
- eşitmə yolu ilə xalq musiqi nümunələrini təyin etmək.

Hesab edirik ki, burada tələblər daha konkret və yığcam verilməlidir. Belə ki, biletin iki sualı fənnin nəzəri cəhətdən açıqlanması, üçüncü sualı istənilən notdan ladların səs düzümlərinin qurulması və kadensiyalarının ifası, dörsüncü sual – rənglərin ifası, beşinci sualda isə eşitmə yolu ilə xalq musiqi nümunələrinin təyini və təhlilinə yer verilməlidir. Hesab edirik ki, xalq musiqisi nümunələrinin (burada təsniflər, xalq mahnı və rəqsləri nəzərdə tutulur) fortepianoda ifası gərək deyil. Bu cür yanaşma tamamilə dogrudur, çünki tələbələr artıq yüklənmədən zəruri biliklərə yiyələnə bilərlər.

"Azərbaycan xalq musiqisinin əsasları" proqram-kurikulumunda bu fənnin məzmun xəttləri göstərilmişdir. Burada yeddi məzmun xətti var, onlardan ikisi mühazirə mövzularını, digər beşi isə seminar məşğələni əhatə edir.

Tədris planına uyğun tədris olunan birinci mövzu "Azərbaycan xalq musiqisinin janrları" adlanır və belə də qalmalıdır. İkinci mövzu "Azərbaycan xalq musiqisində əsas cəhətlər" adlanır. Bu mövzunu başqa cür də adlandırmaq olardı, məsələn, "Azərbaycan xalq musiqisinin lad xüsusiyyətləri". Mövzunu çox aydın, konkret və yığcam şəkildə tələbələrə təqdim etmək olar. Tədris planına uyğun tədris olunan üçüncü mühazirə mövzusu "Əsas ladların səs sıralarının qurulma qaydaları", dördüncü mövzu isə "Azərbaycan ladlarının əmələgəlmə qaydaları" adlanır. Bu iki mövzunu birləşdirib, başqa cür adlandırmaq da olar, məsələn, "Tetraxordların birləşməsi üsulları". Ladların quruluşu barəsində məlumat aldıqda da tələbələri artıq informasiya ilə yükləmək gərək deyil. Məsələn, hər bir ladın pillələrinin funksiyaları barəsində məlumat, düşünürik ki, gələcəyin musiqi müəllimləri üçün o qədər də zəruri məlimat deyil, özü də bu funksiyalar müxtəlif ladlarda eyni deyil. Məsələn, III pillə Rast ladında aşağı aparıcı ton, Şur ladında əsas ton, Segah ladında isə heç bir funksiya daşımır və s. Buna görə də çox qarışıq informasiya bolluğu yaranır.

Fikrimizcə, bunları yalnız xalq musiqisi tələbələri və nəzəriyyəçilər dərindən öyrənməlidirlər ki, bunların ixtisası üçün bu biliklər vacibdir. Digər alətlərdə və ümumtəhsil məktəbləri üçün musiqi müəllimi kimi təhsil alan tələbələr üçün isə bu artıq informasiyadır. Buna görə, düşünürük ki, fənnin proqramı yenidən işlənilməlidir və çox mürəkkəb mövzular buradan çıxarılmalıdır.

Tələbələr öz istəyi ilə müstəqil olaraq əlavə məlumatı toplaya bilərlər. Təcrübə göstərir ki, istənilən mövzu iki səviyyədə şərh oluna bilər. Birinci səviyyədə tələbələrin gələcək əmək fəaliyyəti üçün ən zəruri materiallar müəyyən edilib, mənimsənilir. İkinci səviyyədə isə həmin mövzunun əlavə materialları müəyyən edilir və informatik xarakter daşıyır.

Tədris planında beşinci mühazirə mövzusu üç lad – Rast, Şur və Segah barəsində məlumatın verilməsinə həsr edilib. Bu ladlar xalis kvarta quruluşlu olduğu üçün bir mühazirə çərçivəsində birləşdirilmişdir. Lakin burada verilən məlumatın həcmi çox böyükdür. Hesab edirik ki, bu məlumatı iki mühazirəyə bölmək daha məqsədəuyğun olar. Altıncı və yeddinci mövzular olduğu kimi qala bilər, yəni xalis kvinta quruluşlu "Şüştər" və "Çahargah" ladlarının və kiçik və böyük seksta quruluşlu "Bayatı-şiraz" və "Humayun" ladlarının quruluşu barəsində məlumatların verilməsi və öyrənilməsi.

Yuxarıda dediklərimiz mühazirə mövzularının təkmilləşdirilməsinə aiddir. Lakin düşünsək ki, 60-saatlıq fənn kursundan cəmi 15 saat mühazirə, 45 saatı isə seminar məşğələsi formasında keçerilir, burada məşğələ mövzularının da optimallaşdırılması, orada keçiləcək materialının sadələşdirilməsi zəruriyyəti ortaya çıxır. Fənnin proqram-kurikulumunda üçüncü məzmun xətti kimi "Yeddi əsas və əlavə ladların təcrübi mənimsənilməsi" göstərilmişdir. Bu məzmun xətti yuxarıdakılardan fərqli olaraq laborator məşğələ formasında keçirilir. Burada bircə kiçik düzəliş etməyə ehtiyac var. Düşünürük ki, əlavə ladların öyrənilməsi tələbələr üçün artıq yükdür və zəruri deyil. Bunların araşdırılmasını tələbələrə məlumat şəklində müstəqil işlərdə tapşırmaq olar.

Proqram-kurikulimda dördüncü məzmun xətti kimi "Azərbaycan ladlarına əsaslanan xalq musiqi nümunələrinin dinlənilməsi, ifası və təhlili" verilir. Burada müxtəlif ladlarda rənglərin təcrübi mənimsənilməsi həyata keçirilir. Fikrimizcə, rənglərdə yalnız "maye" şöbəsi əzbər çalınmalıdır, digər şöbələr isə notun üzündən ifadəli şəkildə çalınmalıdır. Digər xalq musiqi nümunələri isə (mahnı, rəqs, təsnif) dinlənilməli və təhlil olunmalıdır, onların fortepianoda ifası artıqdır. Yuxarıda qeyd etdiyimiz kimi, bunların fortepianoda ifasını sərbəst mövzu şəklində tələbələrə vermək və imtahan suallarına salmamaq lazımdır. Həmçinin "Xalq musiqi nümunələrinin lad əsasını eşitmə yolu ilə təyin olunması" adlanan altıncı məzmun xəttinə uyğun olaraq bunaları sluxa təyin etmək zəruridir. Burada xalq mahnı, təsnif və rəqslərin dinlənilməsi, onların hansı lada mənsub olduqları məsələlərinin araşdırılması (kadanslar vasitəsilə) həyata keçirilməlidir.

“Azərbaycan şifahi klassik musiqi nümunələrinin dinlənilməsi, ifası və təhlili” adlanan beşinci məzmun xəttində də kiçik düzəlişə ehtiyac var. Şifahi klassik musiqi nümunələri dedikdə biz muğamları, zərbi muğamları və şikəstələri nəzərdə tuturuq. Sözsüz ki, tələbələrə muğamlarımız barəsində həm şifahi məlumat verilməlidir, həm də muğamlar yüksək səviyyəli ifalarda dinlənilməlidir (CD disklər və ya İnternet vasitəsilə), tələbələr onları bir-birindən fərqləndirməyi bacarmalıdır. Lakin fortepianoda muğamların ifası çox mürəkkəbdir və xüsusi hazırlıq tələb edir. Fikrimizcə, bu məzmun xəttində “ifası” sözü “eşitmə yolu ilə təyini” ifadəsi ilə əvəz olunması daha məqsədəuyğun olardı.

“Azərbaycan xalq musiqisinin əsasları” fənninin proqram-kurikulumunda sonuncu məzmun xətti kimi “Yeddi əsas ladda melodiya bəstələmə nəzərriyəsi” göstərilmişdir. Düşünürük ki, musiqi müəllimliyi ixtisasında təhsil alan tələbələr üçün bu məzmun xətti tamamilə gərəksizdir. Bu mövzunu da xüsusi istedadı olan tələbələrə müstəqil çalışma üçün təklif etmək olar. Bunun əvəzində isə Azərbaycan bəstəkarlarının müxtəlif əsərlərinin lad əsasının araşdırılması, təhlili və sluxa təyin edilməsini daha məqsədəuyğun hesab edirik.

Gördüyünüz kimi, ADPU-nun “Musiqi müəllimliyi” ixtisası üzrə təhsil alan tələbələr üçün “Azərbaycan xalq musiqisinin əsasları” fənninin tədrisinin təkmilləşdirilməsi və sadələşdirilməsi, proqramının yenidən işlənilməsi zəruriyyəti vardır və bunun həyata keçirilməsi mütləq olmalıdır.

## ƏDƏBİYYAT


1. S.Hacıyeva. “Azərbaycan xalq musiqisinin əsasları” fənninin kurikulumu. Bakı, ADPU, 2015
2. Ü.Hacıbəyli. “Azərbaycan xalq musiqisinin əsasları”, Bakı, 1985
3. R.Məmmədova. ““Azərbaycan xalq musiqisinin əsasları fənninin tədrisinə dair”, Bakı, 2006, “Musiqi dünyası” jur. №1-2
4. M.İsmayılov. “Azərbaycan xalq musiqisinin janrları”, B., 1984
5. R.Zöhrabov. “Azərbaycan muğamları”, Bakı, 2013



**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.08.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.10.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.032**

**G.H.Əlixanova**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: gulnare.alixanova@mail.ru

## GÖZƏL ƏXLAQ İNSAN XOŞBƏXTLİYİNİN ƏN VACİB ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ

***Açar sözlər:*** *Əxlaq normaları, hörmət, ictimai rəy, şəxsiyyət, davranış qaydaları, mənəvi mədəniyyət*

**Г.Г.Алиханова**

## НРАВСТВЕННОСТЬ – ОДНО ИЗ ВАЖНЕЙШИХ УСЛОВИЙ ЧЕЛОВЕЧЕСКОГО СЧАСТЬЯ

***Ключевые слова:*** *нормы поведения, уважение, общественное мнение, личность, поведенческие правила, нравственная культура*

В процессе взросления на человека ложится самостоятельное нравственное воспитание. Теперь он сам должен отвечать за свои поступки и действия. К моменту взросления у него должна сформироваться система нравственных ценностей, которым впоследствии он научит своих детей. Как правило, среди таких ценностей любовь, семья, добро, счастье, ценность жизни, человеколюбие и другие. И в зависимости от того, какие ценности человек ставит в приоритет, определяется какими будут его поступки – нравственными или безнравственными. И поэтому стоит сказать, что нравственность – это исключительно самостоятельный выбор человека.

**G.H.Alikhanova**

## MORALITY IS ONE OF THE MOST IMPORTANT CONDITIONS FOR HUMAN HAPPINESS

***Key words:*** *behavioral norms, respect, public opinion, personality, behavioral rules, moral culture*

In the process of growing up, an independent moral education falls on the

person. Now he must be responsible for his actions and actions. By the time he grows up, he must have a system of moral values that he will later teach his children. As a rule, among such values are love, family, good, happiness, the value of life, humanity and others. And depending on what values a person puts in priority, what will be his actions - moral or immoral. And therefore it should be said that morality is an exclusively independent choice of a person.

Əxlaq ictimai şüurun ən qədim formalarından biri hesab olunur. O, insanların cəmiyyətə, dövlətə və eyni zamanda insanların bir - birinə olan münasibətlərini nizamlayır. Cəmiyyətin tələbatından yaranan əxlaq cəmiyyət üzvlərinin davranışları tənzim edən qaydalardan əmələ gəlir. İnsanlar mütəmadi olaraq öz davranışlarında yaxşı və pis əxlaqın xüsusiyyətlərini aydınlaşdırmağa çalışmışlar.

Gözəl əxlaq gözəl xüsusiyyətlərin toplusu kimi öz əksini tapmışdır. Əxlaq haqqında təlim "etika" adlanır və bu termin bizim dilimizdə "adət" mənasını ifadə edir. Etika əsasən əxlaqı, insanların mənəvi dünyasını, onun mahiyyətini tədqiq edir. Etik davranışlar cəmiyyətin tələbatından və insanların öz davranışlarında tələb olunan qaydalara əməl etməsindən təzahür edir (1, 59-62).

İnsan şüurunun inkişaf mərhələlərində əxlaq təlimi çox vaxt fəlsəfənin bir qolu kimi təqdim edilmişdir. Bunun da nəticəsində müxtəlif fəlsəfi baxışlar və müxtəlif əxlaqi nəzəriyyələr təzahür edir. Məsələn, Aristotel, Kant və digər filosofların fikrinə görə, cəmiyyətdə iqtisadi həyat dəyişdikcə əxlaq da şüur forması kimi dəyişir və yeni məna daşımağa başlayır.

B.e.ə. 551 - 479-cu illərdə yaşamış qədim Çin filosofu Konfutsi də özünün fəlsəfi görüşlərində etik nəzəriyyəni əsaslandırmağa cəhd etmişdir. Onun etik nəzəriyyəsinin əsas məfhumunu "Jen" (humanizm) təşkil edirdi. Filosofun fikrincə, humanizm mənəvi prinsip olmaqla cəmiyyət və ailə üzvləri arasındakı münasibətləri müəyyənləşdirməkdə mühüm rol oynayır. Konfutsiyə görə, insanlar dünyaya eyni cür gəlirlər, lakin müəyyən dövrlərdə aldıqları tərbiyəyə görə bir-birindən seçilirlər. İnsanları əhatə edən mühit onların bir şəxsiyyət kimi formalaşmasma əsaslı təsir göstərir. Lakin Konfutsinin etik nəzəriyyəsi bir çox məsələlərdə ziddiyyətli mövqe tutur. Konfutsinin davamçıları olan Çin filosofları Syun-Tszının (b.e.ə. 298-238), onun tələbəsi Xan Feyin (b.e.ə. 280-230), antik yunan filosoflarından Aristotelin, Platonun da əxlaqı ifadə edən müəyyən fikirləri olmuşdur və onlar bu fikirləri öz əsərlərində əks etdirməyə çalışmışlar.

Təxminən 400 il əvvəl şərqin böyük mütəfəkkiri Nəsirəddin Tusi "Əxlaqi - Nasiri" əsərində əxlaq tərbiyəsinin böyük bir sistemini vermişdir. Öz dövrünün təlim-tərbiyə məsələləri üzrə təcrübəsini düzgün dərk etdiyindən, N. Tusi gələcək nəsillərin əxlaqi tərbiyəsinə ağıllı istiqamət vermək imkanına malik

olmuşdur. N.Tusi milli-mənəvi dəyərlərinizə və qüdrətli söz sahiblərinin fikirlərinə əsaslanaraq həm xalqımız üçün, həm də bütün dünya xalqları üçün səciyyəvi olan əxlaq tərbiyəsi sistemi yaratmışdır. N.Tusi, hər şeydən əvvəl, "əxlaq normaları" müəyyən etməyə cəhd göstərmişdir ki, bu əxlaqi normalar uşaqların davranışının, ünsiyyətinin, insanlara, təbiətə, cəmiyyətə olan bütün münasibətlərinin tənzimlənməsinə xidmət edir (2, 203-205).

Filosof Aristotel özünün "Əxlaq" və "Məqulat" əsərlərində qeyd edir ki, pis adamlar təlim və tərbiyə əsasında yaxşılaşa, dəyişə bilərlər, lakin bunun qəti və həmişə belə olacağını demək bir qədər çətindir. Hər halda nəsihət, məsləhət, təlim, tərbiyə ardıcıl olsa və ədalətli tənbehlə əlaqələndirilsə, nəticəsiz qalmaz. Əxlaq tərbiyəsi tərbiyəçinin rəhbərliyi ilə böyüyən nəsildə, ümumiyyətlə insanlarda cəmiyyətin müəyyən etdiyi əxlaq normaları və davranış qaydaları formalaşdırmaqla cəmiyyət üçün yaralı, öz hərəkət və münasibətlərini şüurlu sürətdə idarə edən şəxsiyyətləri formalaşdırma prosesidir. O, cəmiyyətin əxlaqi-ictimai tələblərinə cavab verən insanlar, vətəndaşlar yetişdirmək məqsədi daşıyır. Əxlaq tərbiyəsi düzgün əxlaqi anlayışlar yaratmaq, bu anlayışlara müvafiq adətlər, rəftarlar formalaşdırmaq kimi vəzifələri də yerinə yetirir (3, 99-102).

Müşahidələr və tədqiqatlar göstərir ki, əxlaqda baş verən nöqsana səbəb çox vaxt onun mahiyyəti haqqında düzgün məlumatın olmamasıdır. Ona görə də əxlaq tərbiyəsi tərbiyə olunanlarda əxlaqi biliklər, məlumatlar və bu biliklərə istinad edən əxlaqi şüur formalaşdırılmasından başlanılsa daha səmərəli nəticə verəcəkdir. Şüurlu sürətdə dərk edilmiş əxlaq norma və qaydalar insanları hər zaman və hər bir yerdə şüurlu sürətdə hərəkət etməyə təkan verir. Şüurlu qavranılmış əxlaq insan davranışının tənzimləyicisinə çevrilir. Formalaşmış düzgün əxlaqi istiqamətlər insana həm özünün, həm də başqalarının hərəkətlərini və davranışını təhlil edərək obyektiv qiymət vermə imkanı yaradır. Düzgün əxlaqi münasibətlərin formalaşması insanlara müxtəlif situasiya və vəziyyətlərdə vicdanla, etik normalara uyğun şüurlu seçimetmək imkanı yaradır. İnsanın əxlaqi idealı onun əxlaqının şüurluluğunun xüsusi formasının vacib tərkib hissəsi kimi təzahür edir. İdeal hər kəsin arzu etdiyi əxlaqi keyfiyyətlərə malik olan insan obrazlarıdır, yəni, şəxsin özünün olmaq istədiyi bir insan nümunəsidir. Hər adam öz idealında gördüyü müsbət əxlaqi keyfiyyətləri özündə də yaratmağa və formalaşdırmağa səy göstərir.

Əxlaqi anlayışların düzgün aşılanması tərbiyənin əsasən ilkin mərhələsindən başlanaraq müxtəlif fəaliyyət sahələrində davam etdirilir. Təlim və tərbiyə müəssisələrində çəmiyyətdə mövcud ümumi əxlaq normaları və onlara riayət etmənin zərurliyi aşılanır, şərh və izah edilir. Müxtəlif fəaliyyət sahələrində isə zəruri olan əxlaqi keyfiyyətlər, hərəkətlər haqqında anlayışlar yaradılır. Məsələn, istehsalat əxlaqı, pedaqoqa verilən əxlaqi tələblər, tələbələrə verilən əxlaqi tələblər, diplomatiya əxlaqi, biznes əxlaqı, mədəni fəaliyyət

əxlaqı və s. Bunlar təhsil müəssisələrində köməkçi tərbiyəvi fəaliyyət vasitəsilə həyata keçirilir (4, 300).

Əxlaq tərbiyəsinin məzmununa ümumbəşəri dəyərlərlə yanaşı cəmiyyətdə mövcud olan birgə yaşayış qaydaları, yeni sosial və məişət münasibətləri də daxil edilir. Əxlaq ictimai şüur forması olduğuna görə onun məzmunu da cəmiyyətlə bərabər dəyişməyə məruz qalır, hər cəmiyyət özünün iqtisadi-ictimai tələblərinə uyğun əxlaq normalarını və qaydalarını müəyyən edir. Bu qaydalar bütün cəmiyyət üzvləri üçün zəruri-məcburi, hamı üçün məqbul hesab edilir. Bu norma və qaydaların əksi, ona zidd hərəkətlər isə cəmiyyət üçün qeyri-məqbul, hərəkətlər hesab olunaraq cəmiyyət üzvləri tərəfindən qəbul edilmir.

Əxlaq tərbiyəsi termininin məzmununa vətənpərvərlik, dostluq və yoldaşlıq, qarşılıqlı yardım, münasibət, beynəlmiləlçilik, fəaliyyətə şüurlu münasibət, intizam, məsuliyyət, düzlük, doğruçuluq, sadəlik tövazökarlıq insanlara humanist münasibət, eyni zamanda onu əhatə edən mühitə - təbiətə qayğılı münasibət və s. daxildir. Əxlaqi fəaliyyətlərin məzmununa isə, gündəlik həyatda hər gün təkrar etdiyimiz düz olmaq, doğru hərəkət etmək, yalan danışmamaq, insanlara hörmət etmək, başqalarının haqqını əlindən almamaq, onlara kömək etmək və sairə bu kimi fəaliyyətlər daxildir. Bu cür fəaliyyətlərdə olan insanlar isə əxlaqlı, namuslu və ləyaqətli insanlar kimi səciyyələndirilirlər.

Əməyə və əmək adamlarına şüurlu münasibət də əxlaq tərbiyəsində əsas və önəmli yerlərdən birini tutur. Əmək tərbiyəsinin sosial–ictimai tərəfini insanların əmək fəaliyyətinin əsasını döğma vətəninin xeyrinə şüurla çalışması; əməyi birinci və əsaslı yaşayış vasitəsi kimi dərk etməsi; bütün əmək növlərinə məhəbbət və hörmət, şüurlu fəaliyyət növü seçmək və s. təşkil edir (5, 70).

Əxlaq tərbiyəsinin mühüm komponentlərindən biri də intizamdır. İntizam tərbiyəsi əxlaq tərbiyəsinin qiymətli, əhəmiyyətli və vacib keyfiyyətlərindəndir. Çünki, intizam insanın bütün fəaliyyətinin ilkin göstəricisidir. Ona görə də hələ tərbiyənin ilk mərhələsində onun səmərəli şəkildə formalaşmasına ciddi fikir verilir. Nizam – intizam yaşından asılı olmayaraq hər kəsin özünün özünə rəhbərliyi və şəxsi fəaliyyətinin şüurlu istiqamətidir.

Humanizm də mühüm əxlaqi keyfiyyətlərdən hesab edilir. Bu, başqa insanların əməyi, fəaliyyəti, şəxsiyyətinə hörmət üzərində qurulur. Humanizm dedikdə həm də başqa insanların xoşbəxtliyi uğrunda mübarizə, onların istedad, bacarıq və yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması, inkişafı üçün şəraitin yaradılması, insanlar arasında səmimi münasibətlərin qurulması da başa düşülür. Humanist münasibətlər bütün insanlara ictimai mövqeyindən asılı olmayaraq bərabər hüquqlu şəxslər kimi baxmaq: insanların ehtiyaclarına diqqətlə yanaşaraq onlara kömək etmək: insanların qəlbinə dəyməmək – onlara qarşı diqqətli olmaq; başqalarını anlamaq, başa düşmək bacarığı və hövsələsi; zəifləri müdafiə etməyə hazır olmaq və s. daxildir. Bu münasibətlər insanlara

onların bütün həyat boyunca düzgün tərzdə aşılanmalıdır. Humanizmin əsasını eyni zamanda başqalarına hörmət və qayğıkeşliklə yanaşmaq da təşkil edir (6, 103).

Başqalarına hörmətlə yanaşan insanlarda özündən razılıq, adətən başqalarına yuxarıdan aşağı baxmaq münasibətləri deyil, əksinə yüksək ünsiyyət mədəniyyətinə malik olmaq adəti özünü təzahür etdirir. Əxlaq ümumbəşəri mədəniyyətin bir hissəsidir, eyni zamanda o, müasir sivilizasiyaya qarşı da etinasız deyildir. Şəxsiyyətin əxlaq mədəniyyəti müasir sivilizasiya problemini insanların fəaliyyətlərində aktuallaşdırır. Əxlaq normaları, həmçinin, müəyyən əxlaqi əqidələr, gözəl əxlaqi hisslər və qiymətlər spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər əxlaqı bütün nizamlama formalarından, xüsusilə hüquqi nizamlamadan fərqləndirir. Hüquqi nizamlama kimi əxlaqi nizamlama da davranışa verilən sosial tələblərin hər bir fərd tərəfindən şüurlu surətdə mənimsənilməsini nəzərdə tutur.

Əxlaqi nizamlama şəxsiyyətin şüurlu iradəsinə, onun ictimai borca şüurlu əməl etməsinə əsaslanır. Əxlaqi tələb hər bir fərd tərəfindən irəli sürülür və onun şəxsi vicdanının səviyyəsi ilə müəyyənləşir. Əxlaqi münasibət isə obyektiv münasibətdir ki, burada şəxsiyyət ictimai əxlaq normalarını gözləyir və eyni zamanda həmin normalara yeniliklər əlavə etmək iqtidarında olur. Ailədə əxlaqi dəyərlərin təbliğ olunmasında qarşılıqlı yardım göstərmək hissinin aşılanması da çox böyük əhəmiyyətə kəsb edir. Uşaqlarla birlikdə ehtiyacı olan ailələrə yardım etmək, onların problemlərini həll etməyə çalışmaq onlarda bu hissin formalaşmasında əhəmiyyətli rol oynayır.

Ailədə əxlaqi dəyərlərin təbliğ olunmasında böyüklərə hörmət, kiçiklərə qayğı hissinin formalaşdırılması da əsas rol oynayır. Hər bir ata-ana övladına bu hissləri öz davranışları ilə göstərməlidir. Çünki uşaqlar gələcəyin ailə başçılarıdır.

**Məqalənin elmi yeniliyi** məktəb yaşı dövründə ailədə və təlim-tərbiyə müəssisələrində cəmiyyət üçün öz əxlaqi borcunu hərtərəfli dərk edən gənclərlə iş formaları və istiqamətlərinin araşdırılıb seçilməsi ilə bağlıdır.

**Məqalənin aktuallığı** insanda əxlaqi keyfiyyətlərin formalaşmasının məqsəd kimi qarşıya qoyulması amilinə xüsusi diqqət yetirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti**. Məqalədən psixoloqlar, pedaqoqlar, ali məktəblərinin bakalavr və magistr pilləsində təhsil alan tələbələr, psixologiya sahəsini araşdıran tədqiqatçılar istifadə edə bilərlər. Təqdim olunan məqalədən psixologiya və pedaqogikaya aid dərslik, dərs vəsaitləri və proqramların hazırlanmasında elmi mənbə kimi istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Milli əxlaq və ailə etikası: universitetlərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2013, 324 s.
2. N.Tusi. Əxlaqi – nasiri. Bakı: Elm nəşriyyatı, 1989. 254 s.
3. Şahhüseynova S.A. Etika: İncəsənət təmayüllü ali məktəb tələbələri üçün dərslik. Bakı: Nurlan, 2009, 160 s.
4. Трошин П.Л. Нравственное воспитание: понятие, сущность, задачи// Молодой ученый., 2016, №8. с. 884-887.
5. Озерская А.А. Проблема нравственности в современном обществе// Молодежный научный форум: XX междунар. Студ. Науч. практ. Конф. 2015, № 1(19), с. 78- 83
6. Соловьев В.С. Право и нравственность, очерки из прикладной этики. М: Тип. И.Н. Кушнерева и К°, 2009, 182 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.08.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.10.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə elmlər doktoru, professor Qızxanım Qəhrəmanova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 159.922.6**

**Z.İ.Səlimova**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: zema.salimova@mail.ru

# YENİYETMƏLİK YAŞI DÖVRÜNDƏ BAŞ VERƏN PSİXOLOJİ DƏYİŞİKLİKLƏR

***Açar sözlər:*** *müstəqillik, dəyişiklik, özünənəzarət, yaşlılıq hissi, yeniyetməlik dövrü, düşünülmüş hərəkətlər*

**З.И.Салимова**

# ПСИХОЛОГИЧЕСКИЕ ИЗМЕНЕНИЯ ПРОИСХОДЯЩИЕ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

***Ключевые слова:*** *независимость, изменение, самоконтроль, чувство старости, юность, задумчивые поступки*

В подростковом возрасте прежде всего, ребенок попадает в новую школу, учебные материалы и формы учебной работы усложняются, подростковый опыт с коллегами и пожилыми людьми, а также внеклассные занятия. Эти условия приводят к тенденции к тому, чтобы подростки имели новую позицию в своих отношениях с пожилыми людьми, большую независимость и свободу в своих действиях и определенные нововведения в общении со своими сверстниками.

**Z.S.Salimova**

# PSYCHOLOGICAL CHANGES OCCURRING IN THE MID-THROES

***Key words:*** *independence, change, self-control, sense of old age, adolescence, thoughtful acts*

Everything in the childhood is all the same, the newborns are new to the new school, the materials and shapes are taught in the workshops, and the younger ones are with colleagues and souls, and also for the extracurricular activities. It is a tendency that tends to be a substitute for the new position in their relationships with their loved ones, the greater inescapacity and the

freedom of action and the definition of new ones in communion with their companions.

Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir.

Yeniyetməlik dövründə baş verən dəyişikliklər özünü nədə göstərir? Hər şeydən əvvəl, uşaq məktəbdə yeni şəraitə düşür, təlim materialı və dərsdə təlim işinin formaları mürəkkəbləşir, yeniyetmənin öz həmkarları və yaşlılarla, eyni zamanda məktəbdənkənar fəaliyyət sahəsində əməli təcrübəsi artır. Həmin şərait isə yeniyetmədə yaşlılarla münasibətində yeni mövqe tutmaq, hərəkətlərində daha çox müstəqillik və sərbəstlik, öz yaşıdları ilə ünsiyyətində müəyyən yeniliklər yaratmaq meylinin meydana gəlməsinə səbəb olur (1, 89).

Ikinci, yeniyetmənin tələbləri onun həyat təcrübəsi və ixtiyarında olan müstəqillik imkanı ilə müqayisədə xeyli irəlidə olur, yeniyetmə həyat tərzini heç də öz imkanlarına müvafiq deyil, onlardan daha geniş şəkildə qurmağa çalışır. Buna görə də yaşlılar bir tərəfdən yeniyetmənin müstəqilliyə olan hədsiz meylini müəyyən qədər məhdudlaşdırmalı, digər tərəfdən isə onlarda yaşlılığa olan tələbatı durmadan inkişaf etdirməli, şagirdləri elə mürəkkəbləşən fəaliyyət növlərinə cəlb etməlidirlər ki, bu proses, onlarda çatışmayan müstəqillik, özünütənzimetmə və özünənəzarət vərdişlərini formalaşdıra bilsin.

Üçüncüsü, yeniyetməlik dövrü təlimin bu və ya digər növünə yiyələnmək üçün zəruri olan senzitivlik, həssaslıq və yüksək qavrama qabiliyyəti kimi keyfiyyətlərlə diqqəti cəlb edir. Yeniyetmə bu dövrdə təlim fəaliyyətinin bütün növlərini dərk etməyə, dərs zamanı müstəqil iş formalarını həyata keçirməyə hazır olur, məktəbdənkənar vaxtlarda öz idrak fəaliyyətini tənzim etmək imkanına yiyələnir. Yeniyetmə şəxsiyyətinin təəsüf doğuran səbəbi özünü onda büruzə verir ki, o, hələ bu hazırlığı reallaşdırmağı bacarmır.

Bəzən müəllim müəyyən çətinliklərlə qarşılaşır, qeyd olunan xüsusiyyətlər davamsız xarakter daşıyır, onlar hələ formalaşma və yaranma mərhələsində olur. Bu isə kiçik yeniyetməlik (5–6-cı siniflər), həm də böyük yeniyetməlik (7-8-ci siniflər) yaşlarında təlim və tərbiyəni müxtəlif üsul və tərzlərini həyata keçirməyi tələb edir (2, 48-49).

Yeniyetməlik dövrünü “keçid”, “təhlükəli”, “dönüş” və s. dövrü də adlandırırlar. Həmin dövrdə oğlan və qızların fiziki və psixi inkişafında müxtəlif keyfiyyət dəyişmələri baş verir. Bununla əlaqədar olaraq uşaqlıqdan yaşlılığa keçid həmin dövrün əsasını təşkil edir. Bu yaş dövründə uşaq orqanizminin bioloji yetkinləşməsi yolunda əsaslı dəyişikliklər baş verir. Bədənin yuxarı və aşağı ətraf sahələrində sümüklər əzələlərə nisbətən uzununa

daha sürətlə inkişaf edir. Ona görə də yeniyetmənin xarici görkəmi çox qəribə olur. Bədənin ətraf hissələri gövdəyə nisbətən mütənasibliyini itirir, daha uzun görünür. Boy artımı çox sürətlə gedir, bəzən bir il ərzində 8-10 sm artır.

Yeniyetməlik dövrü hamımızın həyatında şübhəsiz ki, ən böyük dəyişikliklərdən biri olub. Bu dövrdə baş verən dəyişikliklər çox istiqamətli xarakter daşıyır. Gözlə görünən fiziki dəyişikliklərlə bərabər, psixoloji dəyişikliklər də özünü göstərir.

Yetkinlik dövrü dostluq münasibətlərinin ən sıx olduğu dövrdür. "Mənə dostunu göstər, sənə kim olduğunu söyləyim!" sözü yetkinlik dövrü üçün doğru yanaşmadır. Yeniyetməlik çağında olan insan ətrafındakı insanların təsirinə daha asanlıqla düşür. İstədiyi mühitdə qəbul olunmaq və o mühitə girə bilmək üçün öz davranışlarında müsbət və ya mənfi istiqamətdə hər hansı bir dəyişikliklər etmək onlar üçün çox asandır. Bu dövrdə davranışlardan çox ətrafdakılar tərəfindən qəbul edilmək və maraq doğurmaq önəm daşıyır. Ailə mühitində sevilmədiyini hiss edən uşaqlar ətrafda özlərini təsdiq etməyə çalışırlar. Ailə daxili münasibətlərin sağlam olması xüsusilə yeniyetməlik dövründə çox önəmlidir.

Yeniyetməlik dövründə ailə daxili münasibətlərin sağlam olmasına çalışmaqla bərabər övladımızın kimlərlə dostluq etdiyi ilə də maraqlanmalıyıq. Bu həssas dövrdə "dost" anlayışı yeniyetmə üçün xüsusilə önəmli olduğundan dostlarını sərt tənqid etməməyə çalışmalıyıq.Onların bizim üçün çox dəyərli olduqlarını, hər zaman onlar üçün ən yaxşısını istədiyimizi və ən çətin, mürəkkəb vəziyyətdə belə daim yanında olacağımızı söyləməli və hiss etdirməliyik (3, 68).

Uşaqlıq dövrünü geridə qoyub yeniyetməliyə doğru addımladıqları üçün bu dövrdə uşaq rəftarı görməkdən məmnun qalmırlar. Münasibətləri bunu nəzərə alaraq tənzimlədikdə yeniyetmə yaşlılardan razı qalır. Tövsiyə xarakterli ifadələri çox eşitməyi sevmirlər. Onların müstəqillik, azadlıq istəyinə qulaq asmaq və anlamaq lazımdır. Belə bir həssas dövrdə yeniyetmələri tam sərbəst buraxmaqdan çəkinməliyik. Sərhədləri şüurlu şəkildə təyin etmək valideynin vəzifəsidir. Qarşılıqlı anlaşma bu dövrdə xüsusi əhəmiyyət daşıyır. Ailə üçün ən sağlam qərar birlikdə müzakirə olunaraq qəbul edilən qərardır.

Bu dövrdə yeniyetmələr öz müstəqilliklərini qoruyub saxlamağa çalışmaqla refleksiya əsasında mənlik şüurlarını, "mən" obrazını, "real" və "ideal mən"in əlaqəsini formalaşdırır və inkişaf etdirirlər. Bütün bunlarla yanaşı olaraq yeniyetmələrdə özünüqiymətləndirmə və özünəmünasibətin formalaşması baş verir. Mövcud psixoloji ədəbiyyatda yeniyetmələrin özünüqiymətləndirmələrinin aşağıdakı tipləri qeyd olunur (4, 79-80):

1. Uşağın «özünüqiymətləndirməsi» ananın verdiyi qiymətin birbaşa təkrarı kimi özünü göstərir. Adətən uşaqlar özlərində birinci növbədə valideynlərinin onlar haqqında qeyd etdikləri kefiyyətləri görürlər. Bu cür

özünüqiymətləndirmə (əgər pozitiv xarakter daşısa belə) ciddi qüsurlarla nəticələnə bilir.

2. Ziddiyətli komponentlərdən ibarət olan qarışıq özünüqiymətləndirmə. Bu bir tərəfdən müvəffəqiyyətli sosial qarşılıqlı təsir təcrübəsi sayəsində yeniyetmədə formalaşan özünün "mən" obrazı, ikinci tərəfdən, valideynin uşağı necə qiymətləndirməsi ilə bağlı formalaşır. Bu zaman "mən" obrazı ziddiyətli xarakter daşıyır.

3. Yeniyetmə valideynlərinin onun haqqında dediklərini xatırlayır, lakin ona başqa cür qiymət verir. O, tərsliyi xaraktersizlik kimi qəbul etmir. Yeniyetmə üçün böyüklərin onu bəyənməsi vacibdir. Konfliktli valideynlərin tələblərinə cavab verməyin mümkünsüzlüyü və öz "mən»"ini saxlaması kimi hiss etməsi yeniyetmənin özünü «pis», lakin güclü kimi qiymətləndirməsinə gətirib çıxarır.

4. Yeniyetmə valideynlərinin fikrinə qarşı mübarizə aparır, lakin özünü həmin sərvətlər çərçivəsində qiymətləndirir. Yeniyetmə özünüqiymətləndirmə zamanı valideynlərinin real qiymətini deyil, ideal gözləmələrini nəzərdə tutur.

5. Yeniyetmə özünüqiymətləndirmə zamanı valideynlərinin onun haqqında neqativ fikirlərini qəbul edir, eyni zamanda bildirir ki, o elə bu cür də olmaq istəyir. Valideynlərin tələblərinin bu cür rədd edilməsi ailədə olduqca gərgin münasibətlərin yaranmasına gətirib çıxarır.

6. Yeniyetmə valideynlərinin neqativ qiymətini görmür, hiss etmir. Gözlənilən qiymət özünüqiymətləndirmədən xeyli yüksək olur. Halbuki valideynlərin real qiyməti neqativ xarakter daşıyır. Valideynləri tərəfindən real şəkildə rədd olunduğunu qəbul etməyən yeniyetmə öz mənlik şüurunda valideyn münasibətlərini, əgər o, valideynlərinin sevimlisi olsaydı onların münasibətlərinin necə ola biləcəyi, formasında dəyişdirir.

Yeniyetmələrdə əxlaqi şüurun formalaşmasında şagird kollektivinin müstəsna rolu vardır.Psixoloqların qənaətə görə, yeniyetməlik yaşı dövründə özünəməxsus "əxlaq məcəlləsi" əmələ gəlir. Bu "məcəllə" onların yoldaşlıq münasibətlərini tənzim etdiyi üçün onu "yoldaşlıq məcəlləsi" adlandırırlar. Bu "məcəlləyə" gorə yoldaş yoldaşının hörmətini saxlamalı, qayğısına qalmalı, müdafiə etməlidir. Professor Ə.Əlizadənin qeyd etdiyi kimi, hörmət, qayğı, müdafiə anlamlarının yeniyetmələr üçün öz yozumu, öz mənası, öz təsviri var. Bu yozuma görə dərs vaxtı, imtahan zamanı yoldaş yoldaşa şparqalka ötürməlidir, nəyin bahasına olur-olsun onun tərəfini saxlamalıdır. "yoldaşlıq məcəlləsində" məhz bu cür sərtlər əsas yer tutur.

Yeniyetmələrdə əxlaqi ideallar formalaşmağa başlayır. Bu ideallar güclü motiv kimi yeniyetmənin özünütərbiyəsinə, onun öz qüsurlarını aradan qaldırmasına təkan verir (5, 39). Yaşlılarla yeniyetmə arasında ziddiyyətin baş verməməsi və uşağın müstəqillik meylinin düzgün istiqamətə yönəldilməsi üçün valideyn və müəllimlər yeniyetmənin şəxsiyyətinə, onun mənliyinə, şəxsi

ləyaqətinə hörmət hissilə yanaşmağı bacarmalıdırlar (qarşılıqlı etimad və razılaşma əsasında). Burada yeniyetmənin müstəqillik və məsuliyyət hissini artırmaq da böyük rol oynayır.

Hər bir müəllim, tərbiyəçi məktəblinin yaşından və fərdiyətindən irəli gələn tələbatını aşkara çıxarmalı və düzgün inkişafına şərait yaratmalıdır. Yeniyetmələrlə ünsiyyətdə onlara inam ifadə etməklə, pedaqoji texnikanın bütün vasitələrindən (mimika, səs, şəxsi əxlaqi hisslər və s.) düzgün istifadə etməklə yeniyetmənin daxili aləminə müsbət təsir göstərmək mümkündür və vacibdir.

Məqalənin aktuallığı şəxsiyyətin ailə və kollektiv tərbiyəsində yeniyetmənin yaşlılaşma prosesi üçün əlverişli iş formalarının araşdırılıb seçilməsi ilə bağlıdır.

Məqalənin elmi yeniliyiyeniyetməlik dövründə onlarda baş verən dəyişikliklər prosesində yaşlıların onları anlayaraq münbit şərait yaratmasının bir məqsəd kimi qarşıya qoyulmasından ibarətdir.

Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, psixoloqlar, pedaqoqlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

## ƏDƏBİYYAT

1. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006. 200 s.
2. Əliyeva H.İ.Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu. Monoqrafiya. Bakı: Elm və təhsil, 2009, 162 s.
3. M.Həmzəyev, S.Əmiraslanova. Ünsiyyətin psixologiyası. Bakı: Nurlan, 2007, 126 s.
4. Батюта. М.Б. Возрастная психология. М: Логос, 2013, 306 с.
5. Болотова. А.К. Психология развития и возрастная психология: Учебное пособие / М: ИД ГУ ВШЭ, 2012, 526 с.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.12.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 008**

**A.E.Abaszadə**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: aguuu1995@mail.ru

# MUSİQİ DƏRSLƏRİNDƏ BƏDİİ MƏDƏNİYYƏTİN ROLU VƏ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *bədii mədəniyyət, mənəviyyat, şüur, cəmiyyət, şəxsiyyət, estetik tərbiyə, pedaqoji proses, pedaqoji texnologiya*

Zəmanəmizin çox ziddiyyətli və mürəkkəb insanı və onun xarakterinə məxsus rəngarəng və kəskin boyalar, mədəniyyətin ümumi və fərdi xüsusiyyətlərinin dərk edilməsi öndə duran problemlərdən biridir. Mədəniyyətin təkamülü və formalaşması, cəmiyyəti, siyasi sistemləri ciddi bir şəkildə maraqlandırıb düşündür.

**A.Абасзаде**

# РОЛЬ И ЗНАЧЕНИЕ ХУДОЖЕСТВЕННОЙ КУЛЬТУРЫ НА УРОКАХ МУЗЫКИ

***Ключевые слова:*** *художественная культура, духовность, сознание, общество, личность, эстетическое воспитание, педагогический процесс, педагогическая технология*

Современный сложный человек с его противоречиями и разнообразными резкими красками характера, постижение общих и частных особенностей культуры выдвигается на передний план как основная проблема. Формирование и развитие культуры в той или иной форме интересует общество и политические системы, заставляет их задуматься.

**A.Abaszadeh**

# THE ROLE AND IMPORTANCE OF ARTISTIC CULTURE IN THE MUSIC LESSONS

***Key words:*** *artistic culture, moral, conscience, community, personality, esthetic education, pedagogical process, pedagogical technology*

Very contradictory and complicated person of our modern time, colorful and severe paints belonging to its character, understanding the general and individual characteristics of the culture led to the learning of the facing problem methodically. The evaluation and formation of culture cause anxiety on the community, political systems with great interest.

Son dövrlər böyüməkdə olan nəslin estetik, bədii mədəniyyətinin formalaşması və bu prosesdə məktəbin rolu məsələləri mətbuatda geniş şəkildə işıqlandırılır. Bu işdə ədəbiyyata, incəsənətə, bədii yaradıcılığa, insanın mənəvi dünyasının zənginləşdirilməsi baxımından, böyük rol ayrılır və bu rol həm biliklərin toplanmasını, həm də bədii potensialın və şəxsiyyətin daxili mədəniyyətinin formalaşmasını nəzərdə tutur.“Ümumtəhsil və peşə məktəbində islahatın əsas istiqamətləri”ndə deyilir: “Gözəllik hissini inkişaf etdirmək, yüksək estetik zövqü, sənət əsərlərini, tarix və memarlıq abidələrini, doğma təbiətin gözəlliyi və zənginliyini anlamaq və ona dəyər vermək bacarığını formalaşdırmaq zəruridir, bu məqsədlər üçün hər bir fənnin, xüsusən də böyük öyrədici və tərbiyəverici gücə malik ədəbiyyatın, musiqinin, təsviri incəsənətin, estetikanın imkanlarından istifadə etmək daha yaxşıdır”.Beləliklə, ideoloji-siyasi, mənəvi və əmək tərbiyəsi ilə ayrılmaz əlaqədə həyata keçirilən estetik tərbiyə şəxsiyyətin dünya görüşü baxımından formalaşmasının təsirli vasitəsi olmuşdur. Beləliklə, şəxsiyyətin hərtərəfli inkişafı,cəmiyyətin marağına uyğun olaraq insanın bacarıqlarının, insanda mövcud olan, onun siyasi yetkinliyi, ideoloji-mənəvi və ümummədəni səviyyəsi ilə əlaqəli olan, mənəvi imkanların mümkün qədər tam üzə çıxarılması və aktivləşdirilməsi ən başlıca məsələdir.

İncəsənət estetik tərbiyənin əsas vasitələrindəndir ki, onun anlamını klassiklər, həmçinin böyük pedaqoji xadimlər xüsusi qeyd etmişlər. Artıq həmin illərin ilk məktəb proqramında estetik tərbiyə böyüməkdə olan nəslin tərbiyəsinin ayrılmaz və ən önəmli tərkib hissəsi kimi tanınmışdır. Xüsusilə qeyd edilmişdir ki, incəsənətə və həyata estetik münasibətin düzənlənməsi üçün yalnız məktəb hər bir kəsdə möhkəm bünövrə qoya bilər ki, bunlar olmadan isə həqiqi mədəni insan mövcud ola bilməz. Bütün estetik tərbiyə sistemi yekun nəticədə şagirdləri öz işinə yaradıcı münasibət göstərməyə, öz bacarıqlarını daha çox ifadə etməyə hazır edir, və məhz bu, insanın varlığının gözəlliyini özündə ehtiva edir. Bədii tərbiyə insanın incəsənətə estetik münasibətinin, incəsənəti sevmək və anlamaq bacarığının formalaşmasını hədəf alır.

Öz-özlüyündə orta və ali məktəblərdə bədii təhsil və tərbiyə sistemi Y.A.Lukin tərəfindən cəmiyyətin bədii mədəniyyətinin tərkibinə daxil edilmişdir, və bədii mədəniyyətin tərifi onun tərəfindən belə verilmişdir: “Cəmiyyətin yaratdığı bədii dəyərlərin məcmusu, həmçinin onların yaradılması, yayılması və tərbiyəsi, cəmiyyət və ayrılıqda hər bir insan tərəfindən

mənimsənilməsi prosesi". V.V.Juravlyova görə "bədii mədəniyyət – incəsənətin ərsəyə gətirilməsi mədəniyyəti, onun yayılması, təbliğatı mədəniyyəti, onun qəbul edilməsi, başa düşülməsi mədəniyyəti, incəsənətdən həzz almaq mədəniyyəti, və, nəhayət, estetik tərbiyə mədəniyyətidir".

Beləliklə, bədii mədəniyyət, bədii tərbiyə – estetik mədəniyyətin, estetik tərbiyənin hissəsidirlər, incəsənət isə bədii mədəniyyətin özəyidir. Şəxsiyyətin bədii mədəniyyətinin formalaşdırılması cəmiyyətə məxsus, bəşəriyyətin bütün tarixi ilə zəngin olan və gerçəyin əks etdirilməsinin spesifik formalarının təkamülünü nümayiş etdirən, bədii mədəniyyət fondlarına qoşulma vasitəsilə baş verir.

Musiqi sənəti ilə uşaqlar həyatlarının ilk günlərindən etibarən, layla mahnılarını dinləməklə, təmasda olurlar. Ailə – uşağı əhatə edən və ona məişət düzəni ilə, məşğuliyyətlərlə təsir edən ilk "mühit"dir; radio, televiziya, maqnitofon səsyazmaları musiqi təəssüratlarını çatdırır. Nəğmənin, musiqi dinləmənin, musiqi savadının daxil olduğu dərslərdə istinasız, heç bir ayırma və seçmə olmadan, bütün uşaqların musiqi tərbiyələndirilməsi həyata keçirilir və bu, şagirdlərin musiqi təfəkkürünü inkişaf etdirir. Peşəkar tədris məqsədi güdməyən ümumtəhsil məktəbi musiqi tərbiyəsi məsələlərini özünün xüsusi yolları və vasitələri ilə həll edir. Məktəb bütövlükdə şəxsiyyətin mənəvi mədəniyyətinin hissəsi olaraq musiqi mədəniyyətinin tərbiyələndirilməsini təmin etməlidir.

## ƏDƏBİYYAT


1 . Dadaşova M.R "Yaradıcı prosesdə bilik, bacarıq və vərdişlər". Bakı, 2016
2 . Rüstəmov F.A. "Pedaqogika" . Bakı, 2002
3 . Recebov O.M., Quliyeva R. "Musiqi mədəniyyəti və uşaqlar". Bakı, 2010
4 . Borev Y.V. "Estetika". Bakı 1960
5 . Quliyev.S.D. "Musiqi". Bakı, Maarif, 1980



**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 20.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə elmlər doktoru, professor Qızxanım Qəhrəmanova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 374.1**

**L.Ağayeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: lulu.agayeva.94@mail.ru

# MUSİQİ DƏRSLƏRİNDƏ AKTİV VƏ İNTERAKTİV METOD VƏ TƏLİM FORMALARI

***Açar sözlər:*** *aktiv və interaktiv metodlar, pedaqoji proses, müasir texnologiyalar, müasir təhsil sistemi, təhsil problemləri*

Hər bir müəllimin vəzifəsi, dərsini maksimal dərəcədə parlaq, yaddaqalan, maraqlı etmək, fənnə qarşı emosional cəhətdən müsbət münasibət yaratmaq, şagirdin rolunu dəyişdirmək, yəni təlim prosesinin passiv dinləyicisindən fəal iştirakçı formalaşdırmaqdır. Şagirdlər musiqinin əyləncə deyil, həyatımızın çox vacib hissəsi olduğunu unutmamalıdırlar.

Aktiv metodlar və formalar təhsil problemlərinin həllini təmin edir: müsbət təlim motivasiyasının formalaşdırılması; təlim alanların bilik fəaliyyətinin artırılması; təlim alanların təhsil prosesinə fəal cəlb edilməsi və s.

**Л.Агаева**

# АКТИВНЫЕ И ИНТЕРАКТИВНЫЕ МЕТОДЫ И ФОРМЫ ОБУЧЕНИЯ НА УРОКАХ МУЗЫКИ

***Ключевые слова:*** *активные и интерактивные методы, педагогический процесс, современные технологии, современная система образования, проблемы образования*

Задачей любого учителя является сделать урок максимально ярким, запоминающимся, интересным, сформировать эмоционально-положительное отношение к предмету, изменить роль ученика, из пассивного слушателя сделать его активным участником процесса обучения. Учащиеся не должны забывать, что музыка - это не развлечение, а очень значимая часть нашей жизни. Активные методы и формы обеспечивают решение образовательных задач: формирование положительной учебной мотивации; повышение познавательной активности обучающихся; активное вовлечение обучающихся в образовательный процесс и т.д.

**L.Agayeva**

## ACTIVE AND INTERACTIVE METHODS AND FORMS OF LEARNING IN MUSIC LESSONS

***Key words:*** *active and interactive methods, pedagogical process, modern technologies, modern educational system, problems of education*

The duty of any teacher is to make the lesson as vivid, memorable, interesting as possible, to form an emotionally positive attitude to the subject, to change the role of the student, from a passive listener to make him an active participant in the learning process. Students should not forget that music is not entertainment, but a very significant part of our life. Active methods and forms provide a solution to educational problems: the formation of the positive learning motivation; increase in the cognitive activity of students; active involvement of students in the educational process.

Hər bir müəllimin vəzifəsi, dərsini maksimal dərəcədə parlaq, yaddaqalan, maraqlı etmək, fənnə qarşı emosional cəhətdən müsbət münasibət yaratmaq, şagirdin rolunu dəyişdirmək, yəni təlim prosesinin passiv dinləyicisindən fəal iştirakçı formalaşdırmaqdır. Şagirdlər musiqinin əyləncə deyil, həyatımızın çox vacib hissəsi olduğunu unutmamalıdırlar.

Aktiv metodlar və formalar təhsil problemlərinin həllini təmin edir: müsbət təlim motivasiyasının formalaşdırılması; təlim alanların bilik fəaliyyətinin artırılması; təlim alanların təhsil prosesinə fəal cəlb edilməsi və s.

Müasir məktəbdə şagirdlərin hazırlanmasını mükəmməlləşdirmək üçün interaktiv təhsil formalarının tətbiqi ən vacib istiqamətlərdən biridir. Başqa sözlə, şagirdlər təlim prosesində aktiv iştirak üsulu ilə tədqiq etdikləri materialları daha asan qəbul edir, anlayır və yadda saxlayırlar. Beləliklə, əsas metodoloji innovasiyalar interaktiv tədris metodlarının istifadəsi ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, interaktiv təlim müəllimdən lazımi metodoloji və psixoloji bilik və bacarıqlar tələb edir. Məsələn, texnologiyadan istifadə etmək bacarığı, hansı ki, məşğələ zamanı bütün iştirakcıları müzakirə prosesinə qoşulmağa imkan yaradır, şagirdlərin psixoloji hazırlığını həyata keçirməyi təmin edir. İnteraktiv tədris formalarını istifadə etməyə qərar verən müəllim bütün bunları öyrənməlidir.

İnteraktiv metod ("İnter" - qarşılıqlı, "act" - hərəkət deməkdir) qarşılıqlı hərəkət etmək, söhbət rejimində olmaq, kimsə ilə dialoqa girmək deməkdir. İnteraktiv təlim bilik fəaliyyəti təşkil etmək üçün xüsusi bir formadır. Bu forma çox dəqiq və proqnozlaşdırılan məqsədləri nəzərdə tutur. Məqsəd, təhsil alan öz intellektual qabiliyyətini, öz müvəffəqiyyətliliyini hiss edə biləcək rahat tədris mühütini yaratmaq

İnteraktiv tədris formalarının məqsədi şagirdlərin maraqlarının oyanmasıdır; tədris materialının effektiv mənimsənilməsi; qarşıya qoyulmuş problemin həlli

üçün müstəqil variantların axtarışı; komandada işləməyi öyrətmək; hər hansı bir fikrə tolerant olmaq; hər kəsin söz azadlığına hörmət etmək; onun ləyaqətinə hörmət etməsini öyrətmək.

İnteraktiv təlim texnologiyaları belə bir təşkilatdır ki, orada şagirdin kollektivin həyatında iştirak etməməsi mümkün deyil. Dərslərdə interaktiv fəaliyyət şagirdlərin ünsiyyət bacarıqlarının təşkili və inkişaf etdirilməsini, anlaşma, qarşılıqlı əlaqəni nəzərdə tutur.

İnteraktiv təlim zamanı şagirdlər tənqidi fikir yürütməyi, müəyən təhlilə əsaslanaraq mürəkkəb problemləri həll etmək, müxtəlif fikirləri müqayisə etmək, düşüncəli qərarlar qəbul etmək, diskussiyalarda iştirak etmək və digər insanlarla ünsiyyət yaratmaq bacarıqlarına yiyələnirlər.

İnteraktiv texnologiyaların vasitəsilə təlim prosesinin müvəfəqiyyətlini təmin etmək üçün əsas tələblər aşağıdakılardır:

- Ortaq bir təlim fəaliyyətinin hər bir tələbəyə fayda verəcəyi qrupun bütün üzvləri tərəfindən anlaşılması.
- Birbaşa qarşılıqlı əlaqə, Qrupun bütün üzvləri bir-biri ilə sıx təmasda olur.
- Komanda daxilində iş görmək bacarıqlarının inkişaf etdirilməsi.

Yuxarıda göstərilənlərdən belə nəticəyə gəlirik ki, fəal və interaktiv metod və formaların tətbiqi şagirdlərin pedaqoji prosesdə aktiv iştirakçılara çevrilməsinə imkan yaradır.

Onların bilik fəaliyyətini formalaşdırmaq və inkişaf etdirmək, məktəbdəki yaradıcılıq fəaliyyətinin formalaşdırılmasını və məktəbdənkənar fəaliyyətdə təşviq etmək.

Musiqi dərslərində şagirdlərin musiqi materiallarının müstəqil anlaşılmasına kömək etmək. Fəal və İnteraktiv metodlardan istifadə dəyişən dünyada transformasiya qabiliyyətinə malik bir şəxsiyyət formalaşdırılmasını təmin edir.

## ƏDƏBİYYAT


1. E.A.Genike. Активные методы обучения. Москва, 2015.
2. E.A.Реутова. Применение активных и интерактивных методов обучения. Новосибирск, 2012.
3. Статья «Активные и интерактивные методы преподавания на уроках”.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 20.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.37.02**

**Ə.Ş.Ələkbərova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi.68
e-mail: esmerelekberova@gmail.com

# İBTİDAİ SİNİFLƏRDƏ MUSİQİ TƏLİMİNİN TƏŞKİLİ FORMALARI

***Açar sözlər:*** *estetik tərbiyə,musiqi dünyagörüşü, musiqi məşğələsinin məqsədi, yaradıcı fəallıq*

Musiqidə fənndaxili və fənlərarası şaxələnmə, inteqrasiya mövcuddur. Bu şaxələnmələr, inteqrasiyalar, uşaqların musiqi dərsinə marağını daha da artırır. Xüsusilə də ibtidai siniflər üçün bu daha maraqlıdır. Uşaqların oyuna marağı daha çox olduğu üçün onları oyun vasitəsilə dərslərə, musiqiyə cəlb etmək daha məqsədə uyğundur.

**А.Алекперова**

## ФОРМЫ МУЗЫКАЛЬНОГО ОБУЧЕНИЯ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Ключевые слова:*** *эстетическое воспитание, музыкальный кругозор, принципы музыкальных упражнений, творческая активность*

В музыке существует интуитивное и междисциплинарное разнообразие и интеграция. Это различие, интеграция еще более интригуют детей младших классов, привлекает их к урокам музыки. Поскольку дети больше заинтересованны игрой, через игры их целесообразно привлекать к урокам музыки.

**A.Alakbarova**

## FORMS OF MUSICAL TRAINING IN PRIMARY CLASSES

***Key words:*** *aesthetic education, music point of view, the purpose of music training, creative activity*

There are intangible and interdisciplinary diversity and integration in music.These diversities, integrations, increase the interest of children to the musical lesson.This is interesting especially for elementary grades.İt is more appropriate involve to music, lessons them through the game because children are more interested in play.

Musiqi, estetik tərbiyəvi fənlər sırasında xüsusi yer tutur – o, insana çox güclü təsir göstərə bilər. Musiqinin təsiri altında insanın emosional aləmi zənginləşir, onun müxtəlif dəyərlərə - mərhəmətə, gözəlliyə qarşı münasibəti formalaşır, milli mənsubiyyət duyğusu təkmilləşir. Musiqinin emosional təsiri o qədər aydındır ki,

onun digər funksiyalarını kölgə altına qoyur. Ən son elmi tədqiqatlar göstərmişlər ki, musiqinin koqnitiv (dərketmə) xarakteri var və onun öyrənilməsi şagirdlərin ümumi akademik davamiyyətlərinə mühüm təsir göstərir.

Musiqi dərsində şagird musiqiyə yaxınlaşır, musiqiyə vərdiş edir. Bu halda, maraq və yaradıcılıq əsaslarının oyadılması vacibdir ki, şagird musiqi ilə ünsiyyətdən zövq alsın. Əlbəttə ki, məktəb musiqiçi üçün vacib olan peşəkar vərdişləri təlim etməyi nəzərdə tutmur. Qeyd edək ki, bütün uşaqların fərqli təbii göstəriciləri vardır. İnteqrallaşdırılmış tədris fənnə olan marağın oyadılmasına böyük imkan yaradacaqdır. Musiqini vizual incəsənətlə,teatr incəsənəti ilə, rəqslə, poeziya ilə, ədəbi əsərlərlə, tarixlə, riyaziyyatla (notların uzunluğu, simmetriya prinsipləri….), informatika ilə (musiqili komputer proqramları) və s. ilə inteqrallaşdırmaq olar.

Yeni tədris planına əsasən, musiqinin tədrisi ümumtəhsil məktəbinin hər üç pilləsində nəzərdə tutulub: ibtidai və baza pillələrində icbari, orta pillədə icbari və seçim fənləri şəklində.

İbtidai pillədə musiqi fənninin əhəmiyyəti xüsusilə böyükdür, bu zaman uşağın irsi, təbii bacarıqları, meylləri tamamilə açıqlanmayıbdır və onları açıqlamaq gərəkdir. Uşaq üçün yaxın olan müxtəlif fəallıqlarla (oyun, improvizasiya…) onu musiqiyə cəlb etmək və maraqlandırmaq mümkündür. Bu pillədə musiqi fənni şagirdlərin yaradıcılıq bacarıqlarının fəaliyyətə başlamasını, birgə yaradıcılıq prosesinə onların cəlb edilməsini nəzərdə tutur.

İnteqrasiya əsas pedaqoji prinsiplərdən biri olaraq musiqi tədrisində mühüm rol oynayır. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu)" sənədində ümumi təhsilin pillələri və bu pillələr arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik inkişaf etdirilməsi vacib pedaqoji tələb kimi qoyulmuşdur. Təcrübə göstərir ki, tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, uşaqlarda tədqiqatçılıq meyillərinin yaranması üçün lazımdır. Fəndaxili əlaqənin təmin olunması tədris materiallarının mahiyyəti haqqında daha geniş təsəvvürlərin formalaşdırılmasına, bilik, bacarıq və vərdişlərin sistemli şəkildə aşılanmasına imkan yaradır. Fənlərarası əlaqə yolu ilə konkret anlayışların müxtəlif fənlərdə hansı forma və məzmunda əks olunması müəyyənləşdirilir. Şagirdlərdə müqayisələr aparmaqla ümumiləşdirmə bacarıqlarının formalaşdırılmasına, tədqiqatçılıq qabiliyyətlərinin gücləndirilməsinə yönəldilir.

Xorla oxumaq məktəblilərin musiqi tərbiyəsində mühüm rol oynayan musiqi ifaçılıq fəaliyyətinin ən geniş yayılmış növüdür. mahnının oxunması, yeni mahnıların öyrənilməsi zamanı səsaçma təmrinlərinə lazımi yer verilməli, şagirdlərin vokal-xor vərdişlərinin inkişafı xüsusi diqqət mərkəzində olmalıdır. Vokal-xor məşğələlərində sadə mahnıların notla oxunmasına da müəyyən yer

verilməlidir. Musiqi dərslərinin mühüm bir mərhələsini musiqi dinləmə təşkil edir.Musiqi dərslərində dinlənilməsi məsləhət görülən musiqi əsərlərinin professional ifaçılar tərəfindən vala və ya lentə yazılmış nümunələri səsləndirilməlidir. bu prosesdə yeri gəldikcə dinlənilən musiqi nümunələrinin melodik xüsusiyyətləri, dinamika, registr, ritm, temp, musiqi janrları və quruluşu, səslərin və musiqi alətlərinin, xor və orkestrin tembri haqqında şagirdlərə lazımi məlumat verilməlidir. Musiqi nümunələrinin estetik-emosional əsaslarda səsləndirilməsi və qavranılması musiqi dinlənilməsinə verilən başlıca tələblərdən biridir. Musiqi dərslərinin mühüm bir mərhələsini təşkil edən musiqili-ritmik hərəkətlərə şagirdlər böyük maraq göstərirlər. Belə məşğələlərdə onların musiqiyə emosional münasibəti inkişaf edir. Şagirdlər musiqi nümunələrinin onlarda əks etdirdiyi hissləri, əhvali-ruhiyyəni ritmik hərəkətlərlə göstərməli olurlar. Ritmik hərəkətlər şagirdləri musiqi əsərlərinin «obrazına daxil olmağa» istiqamətləndirir.

Musiqili-ritmik hərəkətlərə aid məşğələlərdə şagirdlər tempinə, ritminə, xarakterinə, dinamikasına (qüvvətli, zəif, orta və s.) görə müxtəlif hərəkətləri icra etmək qabiliyyətinə yiyələnirlər. Ona görə də ritmika məşğələlərində istər əl,istərsə də ayaq hərəkətlərində tempi birdən və tədricən dəyişmək, hərəkətlərdə vurğunu, ölçünü, sadə ritmik cizgiləri qeyd etmək, musiqi hissələrinə görə hərəkəti dəyişmək, sinfə daxil olarkən və sinifdən çıxarkən yerişin şən, təntənəli alınmasına fikir vermək lazımdır.

## ƏDƏBİYYAT


1. O.Rəcəbov, İ.Miriyeva- “Musiqi və mənəvi tərbiyə”- Bakı.1995
2. https://az.m.wikipedia.org
3. www.musigi-dunya.az
4. Müəllim hazırlığının və orta təhsilin perspektivləri (qərb təhsil sisteminin təcrübəsi əsasında) Müəllimlər üçün vəsait (müəllif qrupu). Bakı, 2005 (İREX təşkilatının xətti ilə)
5. Z.Veysova. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. 2007
6. İnteqrativ kurrikulum: Mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait. (müəllif qrupu) Bakı, 2005 (İREX təşkilatının xətti ilə)
7. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün vəsait.Norveç qaçqınlar şurası. 2003
8. X. Qədimova. İnteraktiv təlim metodları. Bakı. 2005
9. Hüquqlara aparan yol. Metodik vəsait. Norveç qaçqınlar şurası. 2004
10. Montana office of public Instruction. (2000) Montana standards for social studies
11. J.Qədimova - “Musiqi Pedaqogikası: Tarixilik və Müasirlik” Bakı - 2012



**Məqalənin redaksiyaya daxil olma tarixi: 14.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.2.035.6:78**

**A.Vəliyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi.68
e-mail: veliyevayten78@gmail.com

# VƏTƏNDAŞLIQ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASINDA MUSİQİ MƏŞĞƏLƏLƏRİNİN ROLU

***Açar sözlər:*** *vətəndaşlıq, musiqi tərbiyəsi, məktəbəqədər yaşlı uşaqlar, məşğələ*

Estetik cəhətdən kamil, mənəvi cəhətdən zəngin əxlaqlı vətəndaşların tərbiyə edilməsi üçün uşaqlarda musiqi duyumunun inkişafına, onlarda musiqiyə maraq və məhəbbətin formalaşdırılmasına xüsusi diqqət yetirmək lazımdır. Uşaqların harmonik tərbiyəsinə cəhd göstərməklə onun estetik zövqünün və estetik şüurunun inkişaf etdirilməsində musiqi məşğələləri mühüm əhəmiyyət kəsb edir.

**А.Велиева**

# РОЛЬ МУЗЫКАЛЬНОГО ОБУЧЕНИЯ В ФОРМИРОВАНИИ ГРАЖДАНСКОГО ВОСПИТАНИЯ

***Ключевые слова:*** *гражданство, музыкальное образование, дошкольники, подготовка*

Следует уделять особое внимание развитию музыкального чувства у детей и формированию их интереса и любви к музыке для взросления эстетически совершенных и духовно богатых воспитанных граждан. Музыкальная подготовка имеет большое значение для развития эстетического вкуса и эстетического сознания, для гармоничного воспитания детей.

**A.Valiyeva**

# ROLE OF MUSIC TRAININGS IN THE FORMATION OF CITIZENSHIP EDUCATION

***Key words:*** *citizenship, music education, pre-school children, training*

Special attention should be paid in development of music sense in children and formation of their interest and love to music for growing up aesthetically perfect and spiritually rich well-behaved citizens. By making an effort for harmonic education of the children, musical trainings are significant for the development of their aesthetic taste and aesthetic consciousness.

Müasir dövrdə kamil şəxsiyyət-insan-vətəndaş yetişdirmək tərbiyənin əsas məqsədidir. Böyüyən nəsildə vətəndaşlıq şüurunun formalaşdırılması gündəmdə olan aktual problemlər sırasındadır. İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil prosesində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərək olan fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur.

Fasiləsiz təhsil sisteminin ilk pilləsi olan məktəbəqədər təhsil uşaqların erkən yaşlardan vətənpərvər ruhda tərbiyə edilməsində maraqlı tərəflərdəndir. Bu baxımdan da məktəbəqədər təhsil ocaqlarının məktəbəqədər yaşlı uşaqlarda hərbi-vətənpərvərlik hissləri aşılamaq üçün çox böyük imkanları vardır.

İnkişaf etmiş dünya ölkələrində tərbiyənin həm də musiqi vasitəsi ilə həyata keçirilməsi işinin mümkünlüyü nəzərə alınaraq ilk dəfə 1934-cü ildə musiqi problemləri üzrə Beynəlxalq cəmiyyət təşkil edilmişdir. Yalnız 1953-cü ildən etibarən YUNESKO-nun tərkibindəki Beynəlxalq Musiqi Şurasının təşəbbüsü ilə Brüsseldə musiqi vasitəsilə tərbiyə problemlərinə həsr olunmuş beynəlxalq konfrans keçirilmiş və bu cür beynəlxalq görüşlər tezliklə dünyanın müxtəlif şəhərlərində də təşkil edilmişdir. Qeyd edək ki, bu iş müasir dövrümüzdə də müvəffəqiyyətlə davam etdirilir.

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycan milli musiqi mədəniyyətinə tarixi töhfələr verib. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə YUNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam YUNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb. Ötən illərdə Heydər Əliyev Fondu ilə Azərbaycan Televiziyasının birgə layihəsi əsasında "Muğam televiziya müsabiqələri"nin keçirilməsi bu əvəzsiz sənət nümunəsinin yaşadılması, xalqımızın qədim yaddaşından gələn muğamlarımızın qorunması istiqamətində mühüm hadisələr kimi tarixə düşüb.

Uşağın şəxsiyyət kimi formalaşmasında və onun ahəngdar inkişafında tərbiyənin tərkib hissələrindən biri olan estetik tərbiyənin və onun əsas vasitəsi sayılan musiqinin müstəsna rolu vardır. Xüsusi emosional təsir qüvvəsinə malik olmaqla yanaşı, musiqi həm də uşaqların daxili aləmini zənginləşdirir. Təsadüfi deyildir ki, pedaqoqlarımız uşaqlara vətənpərvərlik duyğusu aşılamaq, onları vətənə, xalqa məhəbbət ruhunda tərbiyələndirmək işində musiqinin rolunu çox yüksək qiymətləndirirlər. Vətəndaşlıq tərbiyəsinin təşkilinin imkan və

yollarından biri kimi məktəbəqədər təhsil müəssisələrində məşğələlərə, xüsusən, musiqi məşğələlərinə müraciət olunur. Təlim prosesi zamanı məşğələdaxili və məşğələlərarası əlaqə və inteqrasiya vasitəsilə uşaqlar kiçik qruplarda vətən, vətənin müdafiəsi, Milli Ordu, vətənpərvərlik kimi anlayışların mahiyyətini tədricən anlayırlar. Qeyd edək ki, böyük və məktəbəqədər hazırlıq qruplarında bu anlayışlar sferası daha da genişləndirilir. Hərtərəfli və düşünülmüş şəkildə, pedaqoji ustalıqla təşkil edilən musiqi məşğələlərində ifa olunan, dinlənilən hər bir vətənpərvər motivli musiqi uşaqlarda vətən haqqında ilkin təsəvvür və anlayışların təşəkkülünə, müsbət əxlaqi keyfiyyətlərin təməlinin sağlam qoyulmasına sanki bir cığır açır. Tərbiyəçi tərəfindən musiqi əsərlərinin düzgün seçilməsi də önəmli faktorlardandır. Ermənilərə qarşı qanlı döyüşlərdə Azərbaycan əsgərinin-oğlunun igidliyini tərənnüm edən və uşaqların hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsində “Əsgər marşı” musiqisinin rolu ən qüdrətli vasitədir. Musiqisi dahi bəstəkar Üzeyir Hacıbəyova, sözləri isə görkəmli şair Əhməd Cavada məxsus olan “ Azərbaycan Respublikasının Dövlət Himni” , dəyərli bəstəkar və şairlərin müəllifi olduqları “Vətən nəğməsi”, “Bayrağımız” və s. kimi milli musiqi əsərləri uşaqlarda mübarizə ruhunun, qürur və iftixar, vətənpərvərlik hissinin təbliğ edilməsi baxımından təqdirəlayiqdir.

Məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən təlim-tərbiyə prosesində, eləcə də istər musiqi, istərsə də nitq inkişafı, bədii oxu və s. bu kimi məşğələlərdə əsas bir qayə üstünlük təşkil edir ki, o da uşaqların vətənə, dövlətə layiq, milli-mənəvi dəyərlərə sevgi və hörmət bəsləyən sağlam əqidəli, ahəngdar inkişaf etmiş şəxsiyyət- vətəndaş formalaşdırılmasına nail olmaqdır.

## ƏDƏBİYYAT

1. Uşaq bağçalarında musiqi tərbiyəsi proqramı. Bakı. Maarif. 1970
2. Qəribova A.H. Məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsi üzrə işin təşkili. Ü. Hacıbəyli adına Bakı-Musiqi Akad.- Bakı. 2014
3. Sadıqova S.M. Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hissinin inkişaf etdirilməsi üzrə işin sistemi. Azərb. Respub. Təhsil Problemləri İn-tu.-Bakı. 2010
4. Almuradova S.K. Məktəbəqədər yaşlı uşaqlarda Azərbaycan milli musiqisinə dair bilik, bacarıq və vərdişlərin aşılanması sistemi. Azərb. Resp. Təhsil Nazirliyi, Ü.Hacıbəyli ad. Bakı Musiqi Akad. - Bakı. 2012

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 159.9**

**N.Məmmədzadə**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi.68
e-mail: miss.nezrin1996@mail.ru

# KİÇİK MƏKTƏB YAŞI DÖVRÜNDƏ PSİXİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *psixoloji xüsusiyyət, aparıcı fəaliyyət, təlim çətinlikləri, idrak prosesləri, qavrayış, təfəkkür, diqqətin keçirilməsi, mürəkkəb hislər, özünəinam*

Bu məqalədə kiçik məktəb yaşı dövründə psixi hadisələrin inkişafının spesifik xüsusiyyətlərindən bəhs edilir. Burada kiçik məktəb yaşının ayrı-ayrı xüsusiyyətləri və mərhələləri,idrak proseslərinin kiçik məktəb yaşı dövrünün təlim fəaliyyətinə təsiri məsələlərinə toxunulmuşdur.

**Н.Мамедзаде**

## ОСОБЕННОСТИ ПСИХИЧЕСКИХ ЯВЛЕНИЙ МАЛЕНЬКОГО ШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *психологическая особенность, ведущая деятельность, трудности обучения, когнитивные процессы, восприятие, мышление, обратите внимание, сложные чувства, уверенность в себе*

В статье раскрываются специфические особенности психических явлений маленького школьного возраста. В статье рассматриваются отдельные специфические особенности и этапы маленького школьного возраста, а также влияние когнитивных процессов маленького школьного возраста на учебную деятельность.

**N.Mammadzadeh**

## FEATURES OF MENTAL DEVELOPMENT DURING SMALL SCHOOL AGE

***Key words:*** *psychological feature, leading activity, learning difficulties, cognitive processes, perception, thinking, pay attention, complicated feelings, confidence*

This article deals with the specific features of the developing psycological situations during the primary school period. İt is also mentioned about the different features and the stages of the primary school period and the influence of the cognition processes on the training activity during this period.

Müasir elmi-texniki inkişaf əsri şəxsiyyətin formalaşmasına da yeni tələblər verir. İndi cəmiyyətə müstəqil düşünə bilən, biliklərini operativ olaraq istənilən fəaliyyət sahələrinə, təcrübəyə tətbiq etməyi bacaran, lazım gəldikdə ixtisasını dəyişə bilən, öz bilik, bacarıq, vərdişləri ilə dünyaya, dünya elm və fəaliyyət sahələrinə inteqrasiya etməyi bacaran vətəndaşlar-şəxsiyyətlər formalaşdırmaq tələb olunur. Belə şəxsiyyətlərə təzəcə müstəqilliyə qovuşmuş Azərbaycan Respublikasının daha çox ehtiyacı vardır. Həm intellektual cəhətdən inkişaf etmiş, həm də yüksək əxlaqi keyfiyyətli, vətənini, xalqını sevən vətəndaş, şəxsiyyət formalaşdırılması işinə hələ kiçik yaşlarından başladıqda isə daha səmərəli nəticə verir. Hərtərəfli inkişaf özü də böyüyən nəslin psixoloji, idraki inkişafı üzərində qurulur. Psixi inkişaf müasir dövrün aktual problemlərindən biri olub, cəmiyyətdə inkişafın əsasını təşkil edir. Ona görə də psixi inkişaf hələ təlimin ilk günlərindən başlayaraq əsas vəzifə kimi çıxış edir.

Psixoloji ədəbiyyatlarda kiçik məktəb yaş dövrünün 6-10 yaşı əhatə etdiyi qeyd olunur. Bu dövrə xas bir sıra başlıca keyfiyyətlər özünü həm uşaqların sosial, həm də psixi həyatlarında göstərir. Uşaqlar məktəbə daxil olanda onlarda bir sıra çətinliklər özünü göstərir. Amma diqqət etsək görərik ki, kiçik məktəb dövrünün sonunda bu çətinliklər artıq aradan qalxmağa başlayır. Bəs sözü gedən çətinliklər nələrdən ibarətdir? Məktəbin tələb olunan qayda-qanunlarına əməl olunması, eyni vaxtda tənəffüsə çıxmaq, müəllimin tələb və göstərişlərinə əməl etmək və s. Bütün bunlarla yanaşı müsbət istiqamətli dəyişikliklər də uşaqlardan yan keçmir. Onların ünsiyyət dairəsi genişlənir, yeni insanlar ilə-müəllimlər və yaşıdları ilə tanış olur və s. Bütün bu vərdişlər də uşaqlarda asanlıqla formalaşmır. Burada kiçik məktəblinin məktəbəqədər dövrü böyük rol oynamış olur.

Kiçik yaşlı məktəblilərdə idrak proseslərinin inkişafı. Bu dövrdə məktəbə təzə daxil olmaqla əlaqədar olaraq uşağın idrak proseslərinin inkişafında da dəyişikliklər özünü göstərir.

Uşaq məktəbə təzə daxil olanda onun qavrayışı reproduktiv xarakter daşıyır. Birinci-ikinci sinif şagirdlərinin qavrayışı az fərqləndirici, səthi, nisbətən az məqsədəyönəlmiş olur və emosionallığı ilə fərqlənir. Bu dövrdə uşaqlar cisim və hadisələrdə daha çox əhəmiyyət kəsb edən nüansları qavramağa və yadda saxlamağa meylli olurlar. Bu dövrdə cisimlərin mahiyyətinin dərindən təhlili və dərk olunması uşaq üçün hələ də çətindir. Ona görə də kiçik yaşlı məktəblilərin qavrayışını xarakterizə etdiyimizdə,onun qavranılan obyekti yalnız tanımaq və sonra da onu adlandırmaqdan ibarət olduğu ilə məhdudlaşdığını görərik.Təcrübə sübut etmişdir ki, kiçik yaşlı məktəblilərdə təlim və tərbiyənin təsiri ilə zaman və məkan qavrayışı da inkişaf edir. Lakin bu zaman qavrayışın həmin növlərinin inkişafı bir sıra çətinliklərlə özünü göstərir. Kiçik məktəblilərin, xüsusilə birinci-ikinci sinif şagirdlərinin təsəvvürləri

konkret xarakter daşımağa başlayır. Onlar saatın, gecənin, gündüzün nə olduğunu bilirlər, lakin bir gündə neçə saat olduğunu, ayda, ildə neçə gün olduğunu dəqiq bilmirlər. Təlim və tərbiyənin təsiri ilə kiçik yaşlı məktəblilərdə zaman və məkan qavrayışının təkmilləşməsi baş verir.

Kiçik yaşlı məktəblilərin diqqətində də müəyyən dəyişikliklər özünü göstərməyə başlayır. Psixoloji tədqiqatların nəticəsində məlum olmuşdur ki, kiçik yaşlı məktəblilərdə diqqət öncəliklə seçici xarakter daşımağa başlayır, yəni uşaqların diqqəti onlar üçün əhəmiyyətli olan cisim və hadisələrə yönəlir. Kiçik məktəb yaşı dövründə qeyri-ixtiyari diqqət nisbətən üstünlük təşkil edir, amma buna baxmayaraq ixtiyari diqqət də yavaş-yavaş inkişaf etməyə başlayır. Kiçik məktəb yaşının sonunda , yəni dördüncü sinifdə diqqətin mərkəzləşməsi, həcmi, keçirilməsi və davamlılığı inkişaf edərək böyüklərdə olan səviyyəyə çatır. Kiçik məktəblilər heç bir çətinliklə qarşılaşmadan bir fəaliyyət növündən digərinə keçə bilirlər.

Kiçik məktəb yaşı dövründə hafizə də inkişafını göstərir, mexaniki hafizə üstünlük təşkil edir. Bu dövrdə uşaqlar asanlıqla hər cür materialı öyrənə bilirlər, ona görə də əzbərçiliyə meylli olurlar. Çox vaxt birinci-ikinci sinif şagirdləri materialı hərfən yadda saxlamağa səy göstərirlər. Təcrübə göstərir ki, kiçik məktəb yaşı dövründə, xüsusilə birinci-ikinci siniflərdə 1-ci siqnal sistemi daha yaxşı inkişaf edir, bu səbəbdən də onlar əyani materialları daha yaxşı yadda saxlayırlar. Bu dövrdə məntiqi hafizə daha zəif inkişaf etmiş olur. Birini-ikinci sinif şagirdlərindən fərqli olaraq, üçüncü-dördüncü sinif şagirdləri materialı elə yadda saxlayırlar ki, onlar mövzunu öz sözləri ilə ifadə edə bilsinlər. Məktəbə təzə daxil olan uşaqlar ən çox parlaq, emosional təəssürat yaradan materialı yaxşı yadda saxlamağa daha çox meylli olurlar.

Kiçik məktəb yaşı dövründə uşağın həyat təcrübəsi və biliyinin artması nəticəsində onda təxəyyülün inkişafı üçün əlverişli şərait yaranmış olur. Sözü gedən dövr üçün bərpaedici təxəyyül xarakterikdir, bunun da sayəsində uşaqlar təlim materialını daha rahat şəkildə mənimsəyirlər. Əbdül Əlizadənin tədqiqatları sübut etmişdir ki, kiçik yaşlı məktəblilərin təxəyyülü emosional xarakter daşıyır. Kiçik yaşlı məktəblilərin təxəyyülü mütləq hər hansısa əyani vasitəyə istinad etməlidir, əks təqdirdə təsvir edilən hadisə uşaq təxəyyülündə aydın şəkildə təsəvvür olunmayacaq. Kiçik yaşlı məktəblilər baharda baharı, qışda qışı daha asan şəkildə mənimsəyə bilirlər.

Kiçik məktəb yaşı dövründə təfəkkür də özünəməxsus şəkildə inkişaf edir. İlk öncə əyani-əməli, sonra əyani-obrazlı təfəkkür özünü göstərməyə başlayır, bu da sözlü-məntiqi təfəkkürün inkişafına şərait yaradır. Kiçik yaşlı məktəblilərin təfəkküründə müqayisə və ümumiləşdirmə baş verdikdə, cisim və hadisələrin zahiri əlamətlərinə üstünlük verilir. Bu mövzuda şagirdlər arasında bir sıra fərdi fərqlər özünü göstərir. Professor Əkbər Bayramov bir sıra tədqiqatlar aparmışdır və bu tədqiqatların nəticəsində kiçik məktəblilərin

təfəkkürünün tənqidiliyinin inkişaf xüsusiyyətlərinə əsasən aşağıdakı qruplar bölgüsü yaranmışdır:

1. Heç bir təhrik olmadan tənqidi düşünən şagirdlər. Bu şagirdlərin təhrik olunmağa ehtiyacları olmur. Onlar müstəqil şəkildə öz idrak obyektlərinə tənqidi yanaşıb, oradakı qüsurları, problemləri görə bilirlər.

2. Qismən təhrik olunaraq tənqidi düşünən şagirdlər. Bu cür şagirdlərə sadəcə idrak obyektlərində problem olduğunun deyilməsi kifayət edir. Bu zaman onlar işə keçir və problemi asanlıqla həll edə bilirlər.

3. Tam təhriklə tənqidi düşünən şagirdlər. Bu şagirdlərə nə zaman, nədə, nə formada səhvə yol verdiklərini tam şəkildə bildirdikdən sonra onlar öz səhvlərinin fərqində olur və onu aradan qaldırmağa başlayırlar.

4. Heç cür təhriklə belə tənqidi düşünməyən şagirdlər. Bu cür şagirdlərdə təfəkkürün ümumi inkişafı aşağı səviyyədə olur.

Kiçik məktəb yaşı dövründə nitqin bütün istiqamətlərdə inkişafı baş verir və bununla yanaşı olaraq məktəblilər oxu vərdişinə və yazılı nitqə yiyələnməyə başlayırlar. Psixoloji tədqiqatların nəticəsində məlum olmuşdur ki, kiçik yaşlı məktəblilər düzgün yazı vərdişlərinə yiyələnən zaman zahiri əlamətlərə görə ümumiləşdirmə aparmağa meyl göstərirlər.

Kiçik məktəblilərdə hislərin, iradə və xarakterin formalaşması. Məktəbə təzə daxil olan uşaqda bir sıra yeni, ziddiyyətli və mürəkkəb hislər yaranmağa və inkişaf etməyə başlayır. Bu hislər uşağın yeni vəziyyəti ilə bağlı olur. Məktəbə yeni gələn uşaqlar bir sıra yeni hislərin içində olurlar: onlar bir yandan "məktəbli" olduqlarına görə sevinir, bir yandan da həyəcandan yaxa qurtara bilmirlər. Onları daim "Görəsən məktəbdə nələr olacaq?", "Tapşırıqları vaxtı-vaxtında həll edə biləcəmmi?", "Müəllimlər və uşaqlar ilə yola gedə biləcəmmi?" kimi suallar düşündürür. Bütün bunlarla yanaşı olaraq uşaqda mühitin, təlimin və bu kimi başqa amillərin təsiri ilə bir sıra müsbət hislər, keyfiyyətlər də yaranmağa başlayır.

Kiçik məktəb yaşlı uşaqlarda hislər az davamlı və keçici olur . Onların hisləri asanlıqla bir-birini əvəz edir. Bu dövrdə uşaqlar öz hislərini gizlətməkdə çətinlik çəkirlər. Kiçik məktəb yaşının sonuna doğru uşaqların hisləri nisbətən davamlı xarakter daşımağa başlayır. Bu dövrdə uşaqlarda əxlaqi, zehni və estetik hislər də inkişaf edir. Uşaqda hər şeyi öyrənməyə həvəs, qarşısına çıxan problemləri həll etməkdə özünəinam, hər hansısa işi yerinə yetirən zaman özündən razı qalmaq, öz kəşfləri ilə fəxr etmək və s. kimi hallar özünü göstərir. Bu dövrdə vətənə məhəbbət, böyüklərə hörmət, yoldaşlıq, insanlara qayğı və s. kimi əxlaqi hislər də formalaşır. Kiçik yaşlı məktəblilər əxlaqi anlayışlara yiyələndikcə onlarda əxlaqi hislər də formalaşır. Bu yaş dövründə estetik hislərin formalaşması, estetik zövqün, estetik düşüncə tərzinin yaranıb inkişaf etməsi üçün də əlverişli şərait yaranmış olur.

Kiçik məktəb yaşı dövründə uşaqlarda iradənin inkişafı üçün də imkan

yaranmış olur. Bu dövrdə uşaq öz hərəkətlərini, fikir və arzularını müəyyən qaydalara tabe etməyi öyrənir. 9-10 yaşlı uşaqlarda özünüifadə, özünütəsdiq tələbatı olduğundan onlar nəyə qadir olduqlarını öz həmyaşıdlarına göstərməyə can atırlar.

Kiçik məktəblilərdə xarakterin intizamlılıq, dözümlülük, təkidlilik kimi iradi keyfiyyətləri, səliqəlilik, böyüklərə hörmət kimi əlamətləri də formalaşmağa başlayır.

Kiçik yaşlı məktəblilərin aparıcı xüsusiyyətlərinə aşağıdakılar aiddir:

1. Aparıcı fəaliyyət-təlim;
2. İdrak proseslərinin yenidən qurulması, ixtiyariliyin, məhsuldarlığın və davamlılığın formalaşması, ixtiyari diqqətin-ixtiyari qavrayışın-hafizənin-təfəkkürün inkişafı, konkret anlayışlar səviyyəsində əyani-əməli-obrazlı təfəkkürdən sözlü-məntiqi təfəkkürə keçid;
3. Davranışın, iradənin, özünütənzimin inkişafı;
4. Oxu, yazı, riyazi hesablama bacarıqlarının mənimsənilməsi, biliklərin artması;
5. Evdarlıq əməyi vərdişlərinə yiyələnmək;
6. Ünsiyyət sahəsinin genişlənməsi, yeni nüfuzların meydana gəlməsi, sinif kollektivində münasibətlərin formalaşması;
7. İnkişafetdirici oyunların təlimdən sonra ikinci yer tutması.

## ƏDƏBİYYAT


1. Ə.S.Bayramov. Psixologiya. Bakı, “Çinar-Çap”, 2002
2. Ə.Ə.Əlizadə. Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi. Bakı, 1965
3. M.Ə.Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, “Adiloğlu”, 2003
4. Z.M.Mehdizadə. Uşaq psixologiyası. Bakı, 1982
5. Ə.Ə.Qədirov. Uşaqda idrak proseslərinin inkişafı. Bakı, 1970
6. Ə.Ə.Qədirov, İ.N.Məmmədov. Yaş psixologiyası. Bakı, 1986
7. E.M.Quliyev. Kiçik məktəblinin psixologiyası. Bakı, 2003
8. N.Z.Çələbiyev. Uşaq psixologiyası. Bakı, 2005
9. M.Ə.Həmzəyev. Pedaqoji psixologiya. Bakı, 1991
10. Q.Abbasova, R.Mahmudova, H.Əlizadə. Təhsilin sosial-pedaqoji məsələləri. Bakı, 2008



**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə elmlər doktoru, professor Qızxanım Qəhrəmanova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# *MUSİQİ SƏNƏTİ*

**UOT 78.071**

**X.Yarıyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: yariyeva@mail.ru

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİN MUSİQİ DƏRSLƏRİNDƏ XORLA OXUMADA VOKAL VƏRDİŞLƏR

***Açar sözlər:*** *xorla mahnı oxumada vokal vərdişlər, vokal ifaçılığı, vokal texniki mədəniyyəti*

Musiqi fənninin əsas və vacib mərhələlərindən biri "xorla mahnı oxumada vokal vərdişləri"dir. Ümumiyyətlə, xorla oxuma insanları kollektivdə birləşdirir və yaxın ünsiyyətdə olmağa kömək edir. Vokal ifaçılığın ən başlıca və əsas elementi – nəfəsalma prosesidir. Xorun vokal – texniki mədəniyyəti vərdişlərinin əsas xüsusiyyət və elementlərinə yiyələnməklə xor ifaçılığında təmiz səslənmə və yüksək ifaçılıq səviyyəsinə nail ola bilirik. Xorun vokal – texniki mədəniyyəti vərdişlərinin əsas xüsusiyyət və elementlərinə yiyələnməklə xor ifaçılığında təmiz səslənmə və yüksək ifaçılıq səviyyəsinə nail ola bilirik.

**Х.Х.Ярыева**

## ВОКАЛЬНЫЕ НАВЫКИ В ХОРОВОМ ПЕНИИ НА УРОКАХ МУЗЫКИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЕ

***Ключевые слова:*** *вокальные навыки, вокальное исполнение и техническая культура вокала в хоровом пении*

Одним из основных и важных ступеней музыкального предмета являются вокальные навыки в хоровом пении. В общем, хоровое пение объединяет людей в коллективе и помогает общению. Главным и основным элементом вокального исполнения является процесс дыхания. Овладевая основными элементами и навыками вокально-технической культуры хора можно добиться чистого звучания и высокого хорового исполнительского уровня.

**Kh.H.Yariyeva**

## VOCAL SKILLS IN CHORAL SINGING IN MUSIC LESSONS IN SECONDARY SCHOOL

***Key words:*** *vocal habits in choir singing, vocal singing, vocal techincal culture*

One of the main and important stages of the music subject is vocal habits in choiy singing. Generally speaking, chorus singing combines people in the team and helps to communicate them in close proximity. The main and essential element of vocal singing is the process of breathing. Having mastered the main features and elements of choral vocal – technical culture habits, we can achieve fresh sound and high performance levels in choir.

Ümumtəhsil məktəblərin musiqi dərslərində Musiqi fənni yeni təhsil proqramının (kurikulumun) standartlarına uyğun tədris olunur. Bu yeni proqramın əhəmiyyətli cəhəti odur ki, artıq müəllim tədris ilinin sonunda dərs dediyi şagirdlərin hansı biliklərə malik olacaqları, hansı bacarıq və vərdişləri mənimsəyəcəklərini əvvəlcədən bilir və bunun üçün standartın tələblərini hansı yollarla həyata keçirəcəyini tədris ilinin əvvəlindən düşünür.

Musiqi fənninin tədrisi prosesində şagirdlərə musiqi savadı verilməsi mərhələsində müəyyən nəzəri biliklər verilir. Xorla mahnı oxuma mərhələsində xor-vokal vərdişləri aşılanır, musiqili-ritm mərhələsində musiqinin xarakterinə uyğun hərəkət vərdişləri, improvizasiya mərhələsində yaradıcılıq qabiliyyətləri formalaşdırılaraq inkişaf etdirilir.

Musiqi fənninin əsas və vacib mərhələlərindən biri “xorla mahnı oxumada vokal vərdişləri”dir. Ümumiyyətlə, xorla oxuma insanları kollektivdə birləşdirir və yaxın ünsiyyətdə olmağa kömək edir. Gənc və uşaqların xorla oxuma tərbiyəsi ölkənin musiqi mədəniyyətinin inkişafında, əhalinin bədii zövq və tələbatlarının formalaşmasında əsas vasitə kimi çıxış edir. Əgər bəzi xalqlarda (məsələn, çexlərdə) xorla oxuma keçmiş zamanlardan məktəb təcrübəsinə möhkəm daxil olmuşsa da, indi bizim ölkədə xorla oxuma dövlət miqyasında xalq təhsili sistemi sahəsində həyata keçirilir. Estetik tərbiyə təkcə incəsənətlə ünsiyyətdə olmaqla kifayətlənə bilməz. Tam estetik tərbiyə həmçinin, uşaqların yaradıcı proseslərində bilavasitə iştirak etmələri, bədii əsərlərin kollektiv və ya fərdi ifa bacarıqlarına yiyələnmələridir. Ümumtəhsil məktəblərində xorla oxuma gənc nəslin musiqi tərbiyəsində əsas forma kimi qalır.

Uşaq xoru ifasının sehri onun qeyri-adi saflığı və kövrəkliyindədir. Lakin çoxları heç anlamır ki, bu ovsunlayıcı gözəllik gündəlik, ağır və geniş tutumlu

zəhmət bahasına başa gəlir. Səsin qoyuluşunda səhvlər və xətalar ən böyük vokal istedadın gələcəyini heçə endirə bilər. 10-12 yaş arasında səsin qorunması və gigiyenası Azərbaycan şəraitində olduqca aktualdır.

11 yaşa yaxın, bəzən də 10 yaşında uşaqlarda mutasiya başlayır. Əlbəttə, bütün bunlar uşağın təbii özəlliyindən də asılıdır. Mutasiya zamanı bir sıra dəyişikliklərlə yanaşı, boğaz qığırdaqlarının quruluşunu dəyişir, səs bağları tamamilə yeniləşir. Və bəzən sıx qapanma alınmayanda tremolyasiya baş verir. Qızlarda mutasiya o qədər də aydın sezilmir, lakin istər qız, istər oğlan uşaqlarında düzgün oxumamaq vərdişi son nəticədə onun gələcəyi üzərindən xətt çəkə bilər.

Məlumdur ki, 6 yaşınadək uşağın səs aparatının biçimlənməməsi çox aydın sezilir. 7 yaşdan başlayaraq səs dəyişir. Həmin dövrdən nəfəsalma üzrə məşqlər, səs bağlarını təkmilləşdirən çalışmalar, qapalı səsalmanın öyrədilməsi nəticəsində səsin keyfiyyəti başqalaşır. 10-12 yaşında uşaq səslərinin özəllikləri aşkalanmağa başlayır. Gələcək «alt» səslərin diapazonu bəmə doğru genişlənir, eyni ilə zil səslərin «zilləri» artır. Diapazonun zil səsləri sabit, bəm səsləri isə dolğun, tutumlu səslənməyə başlayır. Səslərin tembri yumşalır və yüngülləşir. Təbiətən muğam səsli uşaqlarla ayrıca işləmək gərəkdir. Onlara tamamilə fərqli çalışmalar verilməlidir ki, onlar öz oxuma tərzləri ilə onlardan tələb olanı aydın ayıra bilsinlər. Vaxtı ilə belə düşünürdülər ki, mutasiya zamanı oxumaq zərərlidir, lakin hazırda ixtisaslı həkimlər tərəfindən sübuta yetirilib ki, səslə ehtiyatla davranış nəticəsində səsin özü qırılmadan yeniləşir.

Mutasiya zamanı oğlan uşaqlarına zildə və boğazda oxumaq qadağan edilməlidir. Onlar yalnız səs gücə düşməyən diapazonda oxuya bilərlər. Məsələn, I sopranoda oxuyan uşaq II soprano, daha sonra alt partiyasına keçə bilər ki, bu da səsin tembri və qalınlaşması ilə bağlıdır. Uşaq səslərinin tembr dəyişməsi adi haldır. Soprano səsli qızın 2 ildən sonra alt partiyasında oxuması təəccüblü deyil. Yəni, qızlarda da mutasiya gedir, lakin kəskin, ağrılı yox, qığırdaq toxumalarının yeniləşməsi gedişində oxuya bilərlər. Oğlanlarda isə dəyişmənin kəskin dövründə 1 il oxumaq tam yasaqdır.

Uşaq səsinin düzgün təlimi oxuma zamanı qışqırığı tamamilə yasaq edir. Əgər diqqət etsək, görərik ki, küçədə, məktəbdə və i.a. çox qışqıran uşaqlar öskürür, xırıldayır yaxud fısıldayır, bəzən də hətta bir neçə günlük səsləri batır. Bu da səs tellərinin və qırtlağın soyuqlaması deməkdir. Eyni ilə oxuma zamanı qışqırıq səsinin korlanmasına aparıb çıxarır. Bütövlükdə qışqırıqla güclü səs alınsa da, onun kimi bir səs həm tembrdə, həm də güc sarıdan təbii səslənməlidir. Və həmin qayda vokal və muğam oxuma məktəbləri üçün eynidir.

Uzun zaman kəsimində oxumaq səsi, boğazı yorur. Buna görə də dərs elə qurulmalıdır ki, xorla oxumaqla, musiqi savadı və ədəbiyyatı üzrə çalışmalar biri-birini əvəzləsin. Hamılıqla oxumaqla ayrı partiyaların yoxlama

oxunuşu ilə də əvəzləmək olar, səhvlərin düzəlişi keçirilməli və lazım gəldikdə kömək göstərilməlidir.

Müəllim soyuqlamış boğazla oxumağa imkan verməməli, uşaqları soyuqlamaqdan çəkindirməli və səsini qorumağı öyrətməlidir. Uşaqlar soyuq su içir, dondurma yeyir, tum çırtlayırlar ki, belə şeylərə yol vermək olmaz. Dondurmadan boğaz, lap az da olsa soyuqlayır; tum çırtlama isə səsi «bağlayır». Oxumaqdan öncə çox qaçmaq olmaz, nəfəsi pozmaq olmaz. Oxumağa başlayarkən arxayın, aramlı nəfəs gərəkdir.

Gələcək vokal sənətinə yiyələnmək üçün səs uşaqlıqdan qorunmalıdır, lakin bəzən səsin lazımınca qorunmasına baxmayaraq, mutasiyadan sonra səs öz vokal keyfiyyətlərini itirir. Yaxud da əksinə: mutasiyadan öncə musiqidən uzaq, səsi olmayan və heç oxumayan uşaq mutasiyadan sonra çox yüksək vokal göstəriciləri ilə seçilir.

Ümumtəhsil məktəblərdə xorla oxumada xorun səslənmə xüsusiyyətinin elementlərini anlamaq üçün biz onları üç qrupa bölmüşük. I qrupa xorun vokal texniki mədəniyyəti elementləri daxildir. Bu qrupda xor ifaçılığında səs əmələ gətirmə və səs axıcılığı elementləri cəmlənmişdir. Bu elementlər öz növbəsində müəyyən nəfəsalma vərdişlərini təşkil edən prinsiplərə görə, səsin vokal mövqeyi, sait və samit səslərin tələffüzü, poetik məzmunun (hecaların, söz və ifadələrin) tələffüz qanunlarına və başqa ünsürlərə görə bir-birini tamamlayır. Bu qrup elementlər fizioloji və psixoloji cəhətdən bütövlükdə ifa prosesini təşkil edərək xorun səslənməsini, xor partiyalarının və hər bir ifaçının səsini formalaşdırır, onların səslərini təkmilləşdirir.

Müəllimin əsas vəzifələrindən biri rəhbərlik etdiyi səs qruplarını vokal nöqteyi – nəzərdən düzgün təşkil etməsidir. Xor kollektivinin tərkibində olan ifaçıların hər biri müxtəlif səslərə, fərdi ifa üslubuna, oxuma adətlərinə, nəfəsdən istifadə etmələrinə, sözü tələffüz etmələrinə malik olurlar. Xor rəhbəri kollektivinin vokal-xor vərdişlərinin tərbiyəsini vahid prinsip əsasında qurmalıdır. Ümumtəhsil məktəblərdə musiqi dərslərində uşaqların xor oxuma vokal vərdişlərin ifaçılarda tərbiyə edilməsində, xormeysterin fəaliyyəti ilə fərdi vokal müəllimlərinin iş təcrübəsinin bir çox oxşar cəhətləri vardır. Həmin iş prosesinin fərqi ondadır ki, xormeyster – müəllim və xorun üzvləri bu işin öhdəsindən kollektiv əmək fəaliyyəti nəticəsində gələ bilirlər. Belə ki, iş prosesində, əgər xormeyster bütün xorla, onun səs partiyaları, ayrı-ayrı ifaçılarla münasibətdə olursa, hər bir ifaçı oxuduğu müəyyən bir xor partiyasında öz ifaçı iştirakçıları ilə və nəhayət bütün xorla, onun ümumi səslənməsi ilə münasibətdə olur.

Vokal ifaçılığın ən başlıca və əsas elementi – nəfəsalma prosesidir. Bu proses bir-birini fasiləsiz əvəz edən üç mərhələdən ibarətdir. Birinci mərhələ – nəfəsin sorulması, nəfəsalma, daha doğrusu ağ ciyərin hava ilə doldurulma mərhələsidir. Bu zaman ifadan əvvəl nəfəsalma prosesi müxtəlif xarakter və

xüsusiyyətə malik ola bilər. Məsələn, bu proses: uzun, sakit, qısa, dolğun, dərin, yüngül və zəif xarakterdə ola bilər. İkinci mərhələ – nəfəsin qısa saxlanılması mərhələsidir. Bu mərhələ bir tərəfdən ifaçıya ifadan əvvəl bir növ diqqətini cəmləşdirməyə, aldığı nəfəsin miqdarını və sıxlığını hiss etməyə imkan yaradır. Digər tərəfdən onun ifaya dəqiq başlamasına, səsinin münasib olmasına düzgün intonasiya etməsinə bir növ şərait yaradır. Bu mərhələ dəqiq ifaya başlama üçün bir növ tramplin funksiyasını daşıyır. Çünki, ifaya dəqiq başlamanı nəfəsin bir anlığa saxlanılma mərhələsi olmadan təsəvvür etmək mümkün deyildir. Nəfəsalma prosesinin üçüncü mərhələsi – nəfəsin üfürülməsi mərhələsidir. Deməli, ifaçılıqda nəfəsalmanın üç mərhələsi – nəfəsalma, nəfəsin ani saxlanılması və nəfəsin üfürülməsi xorun normal səslənməsini təmin edən faktordur. Bu mərhələləri vokal, ifaçılığının əsası hesab edən məşhur italyan opera müğənnisi Enriko Karuzo belə demişdir: «Vokal ifaçılığı bütövlükdə düzgün nəfəsalma və ondan məqsədyönlü, qənaətlə istifadə etməyə istinad edir». Məşhur müğənninin solo vokal ifaçılığında nəfəsalma prosesinin rolu haqqında dediyi fikri xor ifaçılığı metodikasına da aid etmək olar.

Xorun iş prosesi müəyyən ardıcıllıqla olmalıdır. Təcrübəli xormeyster vizual olaraq (ifaçılara baxmaqla), xorun ifası zamanı hər ifaçının nəfəsalma üslubunu müəyyənləşdirərək nə dərəcədə düzgün və ya səhv olduğunu təyin etməyi bacarmalıdır. Təcrübə göstərir ki, professional ifaçılarda nəfəsalma vərdişlərinin vahid prinsiplərini tərbiyələndirmək üçün dirijorun bu haqda məlumatı və dəqiq əl hərəkətləri kifayətdir. Bu elementlər üzərində işləyərkən dirijorun əl hərəkətləri çox dəqiq, aydın olmalıdır. Onun əl hərəkətləri nəfəsalma, nəfəsin ani saxlanılması və ifaya başlama proseslərinin təşkilatçısı olmalıdır. İfaçıların vokal ustalığı aşağı olduqda isə, səs aparatı, onun fizioloji quruluşu xüsusən də nəfəsalmanın növ və elementləri haqqında mütəmadi olaraq söhbətlər aparmaq lazımdır. Bəzən xormeyster ifadan əvvəl alınacaq nəfəsin xarakterini dərk edərək, bu haqda xora ətraflı məlumat verir, lakin ifaya başlamanı göstərərkən xorun ifaçıları onun əl hərəkətlərini yaxşı qavramadığından bir vaxtda nəfəs ala bilmir, nəticədə ifa eyni vaxtda səslənmir. Heç bir təcrübəli və ya gənc dirijor buna yol verməməyə çalışmalıdır. Xorun ifaya başlamasını dirijorun manual (əl) hərəkətləri həm əsərin tempini, xarakterini, xorun birgə nəfəsalmasını, həm də ifanın eyni vaxtda başlamasını və bitirməsini təmin etməlidir. Xormeyster nəfəsalma və xorun ifaya başlama hərəkətlərini göstərməsinə çox az bir vaxt (bir an) sərf edir. Lakin bu bir an ifaçılıqda rol oynayır.

Pedaqoji təcrübədən bilirik ki, nəfəsalmanın üç növü vardır: yuxarı döş qəfəsi və ya çiyin nəfəsalması, orta döş qəfəsi – yanlarla nəfəsalma və nəhayət qarın nahiyyəsi və ya diafraqma nəfəsalma, əksər hallarda nəfəsalmanın bu növünə qarışıq nəfəsalma deyilir. Yuxarı döş qəfəsi və ya çiyin nəfəsalma növündən vokal ifaçılığında istifadə edilməsi məqsədəuyğun deyildir. Çünki,

nəfəsalma prosesi bu metodla həyata keçirilərkən, ağ ciyərin yalnız yuxarı hissəsi hava ilə dolur ki, bu da havanın miqdarca məhdudlaşmasına və ifa zamanı üfürülən havanın dayaqsız olmasına səbəb olur. Xorla iş təcrübəsi göstərir ki, nəfəsalmanın ən əlverişli və çox yayılmış qarın nahiyyəsi nəfəsalma növüdür. Nəfəsalmanın qarın nahiyyəsi növünün mahiyyətini belə izah edək: xormeysterin manual hərəkətlərinin işarəsi ilə müğənnilər cəld nəfəs alırlar. Bu zaman bütün nəfəsalma aparatı havanı udaraq ağ ciyərə doldurur. Ağ ciyər öz növbəsində hava ilə dolaraq, diafraqmaya yüngülvari təzyiq edir, bunun nəticəsində təbii olaraq diafraqma pərdəsi aşağı enir və qarın nahiyyəsini (əzələləri) gərginləşdirir, sıxlaşdırır, bunun nəticəsində döş qəfəsinin aşağı hissəsi genişlənir.

Nəfəsalma anında dirijor bütün ifaçıların nəfəsalma prosesini diqqət mərkəzində saxlamalıdır. O, ifaçılardan heç kimə nəfəsi sorarkən sinə və ciyərlərini qaldırmasına yol verməməsini tələb etməlidir. Vokal mütəxəssislərinin, alimlərin iş təcrübəsindən belə bir fikir formalaşmışdır: ifa zamanı yaxşı hazırlıqlı müğənninin nəfəs alması çox cəld, səssiz və əksinə nəfəsin ciyərdən üfürülməsi uzun, yumşaq olmalıdır. İfaçılarda nəfəsalmanın bu xüsusiyyət vərdişlərini, əlbəttə səsəmələgətirmə və səsaxıcılığı prosesləri daxilində tərbiyələndirmək məsləhət görülür. Çünki, vokal ifaçılığının əsas faktoru kimi nəfəsalma, xüsusən nəfəsin üfürülməsi birbaşa səsəmələgətirmə və səsaxıcılığı prosesləri daxilində baş verir.

Nəfəsalma və səsaxıcılığı vərdişlərinin vahid, prinsipial xüsusiyyətlərini ifaçılıq fəaliyyətinin bütün mərhələlərində qoruyub saxlamaq lazımdır. Əgər ifa edilən əsərin müəyyən yerində ifaçıların rahat nəfəs almaları üçün pauza yoxdursa, bu zaman ifaçılar poetik və musiqi məzmununun məntiqinə əsasən nəfəsi dəyişməlidirlər, yəni yenidən nəfəs almalıdırlar. Bu səbəbdən də belə hissələrin ifası zamanı xormeyster ifaçılarla çalışmalıdır ki, əsər cəld və eyni vaxtda həyata keçirilsin. Xor ədəbiyyatında elə əsərlər də var ki, onların müəyyən musiqi parçalarını ifa edərkən bu və ya digər partiyanın, xorun ümumi nəfəsalma imkanı olmur. Bu zaman xormeyster və ifaçılar nəfəsalmanın zəncirvari üsullarından istifadə etməlidirlər. Təcrübə göstərir ki, ifaçılıqda davamlı səsaxıcılığına yalnız nəfəsalmanın zəncirvari üsulundan istifadə etməklə nail olmaq olar. Bu da ifaçıların müxtəlif vaxtlarda nəfəs almaqla oxumanın fasiləsizliyini təmin edir. Xormeyster zəncirvari nəfəsalmanı belə təşkil edə bilər: əvvəlcədən xor ifaçılarını iki-üç qruplara bölərək, onlara izah edir ki, hər qrup növbə ilə müxtəlif vaxtlarda nəfəs almalıdırlar. Qeyd etmək lazımdır ki, zəncirvari nəfəsalmada fasiləsiz səslənməni təmin etmək üçün, ifaçıların minimal sayı üç nəfər ola bilər. Əgər xor partiyasının tərkibində üç ifaçı olarsa, bu zaman ifaçılardan biri nəfəs alarkən, o biri iki ifaçı melodiyanın ifasını davam etdirərək fasiləsiz səslənməyə nail ola bilir. Zəncirvari nəfəsalma üsulu üçün təşkil edilmiş

qrupların dəqiq nəfəsalma yerlərini dirijor əvvəlcədən təyin etməli və bu haqda ifaçılara məlumat verməlidir. Zəncirvari nəfəsalmanın ən başlıca xüsusiyyəti odur ki, ifaçılar ifa prosesində nəfəsi verərkən ciyərlərdə hava ehtiyatının tam tükənməsinə yol verməsinlər. Belə məsləhət söhbətləri və həmin musiqi parçalarının əl ilə göstərilməsi nəticəsində zəncirvari nəfəsalmanın köməyi ilə xorun fasiləsiz səslənməsinə nail olmaq mümkündür. Xorun vokal – texniki mədəniyyəti vərdişlərinin əsas xüsusiyyət və elementlərinə yiyələnməklə xor ifaçılığında təmiz səslənmə və yüksək ifaçılıq səviyyəsinə nail ola bilirik.

## ƏDƏBİYYAT

1. J.Qədimova "Musiqinin tədrisi metodikası" Bakı, 2007
2. Y.Həbibov. «Xorşünasılq». Dərs vəsaiti. Bakı, 1998
3. M.İ.Qlinka. «Vokalizlər – solfecio və səsin mükəmməlləşdirilməsi üçün istifadə edilən məşğələlər», 1950
4. P.Çesnokov. «Xor və onun idarə edilməsi». 1961
5. F.Hidayətova "Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası" Bakı, 2013

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.08.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 792.8**

**T.H.Muradova**
dissertant
Bakı Xoreoqrafiya Akademiyası

# MİLLİ RƏQSİN QURULUŞ PRİNSİPLƏRİ

***Açar sözlər:*** *rəqs, quruluş, kompozisiya, sxem, ekspozisiya, kulminasiya*

Təqdim olunan məqalə xoreoqrafiya sənətinin mühüm sahələrindən biri olan rəqsin kompozisiya quruluşunun öyrənilməsinə həsr olunmuşdur. Müəllif xoreoqrafik kompozisiyanın sxemi, onu əmələ gətirən ekspozisiya, inkişaf, kulminasiya və koda kimi bölmələr və digər məsələlərə toxunaraq, problemin araşdırılmasını bu sənətin inkişafında mühüm təkan rolunu oynadığını qeyd etmişdir.

**Т.Г.Мурадова**

## ПРИНЦИПЫ ФОРМИРОВАНИЯ НАЦИОНАЛЬНОГО ТАНЦА

***Ключевые слова:*** *танец, структура, композиция, схема, экспозиция, кульминация*

Представленная статья посвящена изучению состава танца, который является одним из важнейших направлений хореографии. Автор указал на схему хореографической композиции, разделы, такие как экспозиция, развитие, кульминация и кода, а также другие вопросы, подчеркнув роль проблемы как важного фактора развития искусства.

**T.H.Muradova**

## PRINCIPLES OF NATIONAL DANCE FORMATION

***Key words:*** *dance, structure, composition, scheme, exposition, culmination*

The present article is devoted to the study of composition of dance, one of the most important areas of choreography art. The author highlighted the role of the problem as an important boost in the art's development and touched upon issues such as choreographic composition scheme, exposition, development, culmination and coda.

Xalq rəqsinin səhnə quruluşu haqqında danışarkən, bir sıra mühüm faktorlara aydınlıq gətirmək tələb olunur. Rəqsin quruluşu dedikdə onun kompozisiya quruluşu, dramaturgiyası və sxemi nəzərdə tutulur. Kompozisiya anlayışı rəqs sənətində özündə rəqsin dramaturgiyasını, sxemini, məkan həllini,

musiqi, hərəkətlər sistemi və s. birləşdirir. Bütün bu komponentlər isə səhnədə qəhrəmanın obraz-emosional aləmini canlandırmağa xidmət edir.

Kompozisiya öz daxilində bir sıra hissələrdən təşkil olunur. Bu hissələr isə rəqs kombinasiyalarından ibarət olur. Digər səhnə əsərləri kimi müəyyən süjetə əsaslanan və ya əsaslanmayan rəqs kompozisiyası da mövzu və onun açılmasına xidmət edən quruluşa malik olmalı və bu hissələri özündə əks etdirməlidir. Bunun üçün də rəqsdə kompozisiyanın ekspozisiya, bağlayıcı, inkişaf və tamamlayıcı kimi bölmələri ifadə olunmalıdır. Əvvəlki paraqraflarda bu barədə bir qədər məlumat vermişdik. Burada isə həmin hissələrin quruluş sxemi konkret rəqslər üzərində təhlil edilir. İlk bölmə kimi qeyd edilən ekspozisiya adından da məlum olduğu kimi mövzunun, süjetin, obrazın təqdimatı ilə səciyyələnir. Məhz bu bölmə vasitəsilə tamaşaçı rəqsin ifaçıları və musiqi ilə ilk informasiyanı əldə edir. İlkin olaraq kompozisiyanın xarakterik xüsusiyyətləri, obraz-emosional aləmi məhz bu bölmədə verilir. Burada həmçinin rəqsin xarakteri, janrı (milli, klassik, müasir və s.) da müəyyən edilir. Bu bölmə tamamlandıqdan və ifaçılar səhnədə öz yerini aldıqdan sonra isə rəqsin əsas hissəsi başlanır. Bu hissə kompozisiya quruluşunun bağlıyıcı bölməsini əhatə edir. Səhnədə müxtəlif rakurslarda paylaşan ifaçılar öz rəqsini təqdim edir, daha mürəkkəb hərəkətlər edərək kompozisiyanın ideya xəttini inkişafa doğru yönəldir.

Növbəti və mühüm bölmə isə inkişafdır. Bu bölmədə rəqsin quruluş xüsusiyyətlərinə xas əsas cəhətlərin, hərəkətlər sxeminin inkişafı baş verir. Burada rəqsin hər bir komponenti inkişafa uğraya bilər. Eyni zamanda inkişaf dedikdə məhz mərhələli yüksəliş nəzərdə tutulmur. Süjet və obraz təcəssümündən, musiqinin xarakterindən asılı olaraq düşünülmüş geri dönüşlər də baş verə bilər. Bu bölmədə əsərin əsas ideya xətti və xoreoqrafın fərdi fantazisyası, yaradıcı təfəkkürü inkişafın istiqamətini müəyyənləşdirmiş olur. Bu bölmə eyni zamanda kulminasiyanı hazırlayır. Bu səbəbdən tətbiq edilən eniş və yüksəlişlər kulminasiyanın hazırlanması məntiqi ilə həyata keçirilməlidir.

Kulminasiya kompozisiyanın mərkəzini təşkil edir. Bu bölməyə qədər baş verənlər hamısı onun baş tutmasına xidmət edir. Bu baxımdan həm əvvəlki hissələr, həm də kulminasiya kompozisiyanın ustalıqla hazırlanmasında əsas göstərici rolunu oynayır.

Sonuncu tamamlayıcı bölmə isə bütün baş verənlərin məntiqi sonluğu kimi çıxış etməlidir. Burada hadisələr öz kodasını, son sözünü, son nöqtəsini tapmış olur. Bu baxımdan sonluğun aydın və məntiqi olması əsas şərtdir. Əks halda kompozisiya düşünülmüş fikri sona qədər ifadə edə bilməz və sanki natamamlıq təəssüratı oyadacaq.

"Sadalanan mərhələlərin həyata keçirilməsi üçün bir sıra elementlər tətbiq edilir. Bu elementlər sırasında 1) motiv; 2) təkrarlar; 3) variasiya və kontrastlar;

4) kulminasiya; 5) bölmələr və hissələrin paylanması; 6) keçidlər; 7) məntiqi inkişaf və vəhdət. (5, s.29)

Qeyd olunan bu elementlər vasitəsilə xoreoqrafik kompozisiyanın ərsəyə gəlməsi həm də onların müxtəlif üsullarla tətbiqi vasitəsilə baş verir. Motiv kompozisiyanın əsasını təşkil edir və dəfələrlə təkrarı zamanı tamaşaçının yaddaşına hopur. Eyni motivin olduğu kimi, variasiya və kontrastsız təkrarı isə cansıxıılıq yarada bilər. Bu baxımdan motivin hər dəfə yeni variasiyalarla, təzadlı variantlarda təkrarı onun inkişafını təşkil edir. Bütün bu proses isə müəyyən kulminasiyanın hazırlanmasına xidmət etməlidir. Əks halda məzmun öz təsiri itirmiş ola bilər.

İnkişaf mərhələsində müəyyən bölmələr və hissələr motivin məntiqi şəkildə yetişərək müəyyən xoreoqrafik mətnə dönüşü təşkil edir. Bir mətnin daxilində bir neçə motiv iştirak edə bilər və bu motivlərin məntiqi ardıcıllığı olmadığı halda kompozisiyanın ideya xətti pozula bilər.

Motivin əsas inkişaf prosesi variasiya və kontrastlar vasitəsilə həyata keçirilir. Variasiya zamanı motivin əsas vəziyyəti bir qədər dəyişilmiş şəkildə verilir. Kontrast isə tamamilə yeni materialın daxil olunmasını tələb edir. Hər iki üsul rəqs kompozisiyasının uğurlu təqdimatı üçün vacibdir. Variasiya zamanı əsas motivin məntiqi inkişafı baş verir və eyni zamanda tamaşaçı onu dəfələrlə müxtəlif rakurslardan izləyir. Bunun nəticəsində xoreoqrafın söyləmək, çatdırmaq istədiyi məzmunu daha asanlıqla qavraya bilir.

Kontrast isə variasiyadan fərqli olaraq bir qədər gözlənilməzlik hissi yaradır. Bu üsuldan daha çox kulminasiya anının hazırlanmasında və ya kulminasiya zamanı istifadə edilir. Kontrastlar kompozisiyaya rəngarənglik gətirir və bu rəngarənglik özünü müxtəlif tərəflərdən göstərə bilər. Məsələn, temp fərqində -asta templə ifa edilən motivə qarşı tez templə ifa edilən motiv, plastik hərəkətlərin xarakterində-yüngül hərəkətlərə qarşı kəskin və sərt hərəkətlər və s.

Kulminasiya xoreoqrafik kompozisiyasının əsasını və ən yüksək məqamını təşkil edir. Onun ərsəyə gəlməsində bütün vasitələr, o cümlədən, hərəkətlər, vəziyyətlər, rakurs, mimika, jest iştirak edir.

Rəqsin quruluşunu konkret işarələrlə ifadə edən vasitə onun sxemi, təsviridir. Rəqsin təsviri ifaçıların səhnədə yeri və hərəkət sistemi deməkdir. Məhz bu sxem vasitəsilə rəqsin hansı quruluşda ifa edildiyi haqda məlumat almaq olar. Kompozisiyanın digər komponentləri kimi, rəqsin sxemi də ümumi məzmunun, obraz-ideya aləminin reallaşmasına xidmət etməlidir. Rəqsin sxemini əmələ gətirən hərəkətlər sistemi, elementlər özlüyündə qədim tarixə malikdir. Xüsusilə demək olar ki, bütün rəqslərdə rast gəldiyimiz dairə, eləcə də düzxətli düzülüş insanların qədimdə məşğul olduğu əmək fəaliyyəti ilə əlaqədar formalaşmışdır. Dairə bu baxımdan həm də mistik xüsusiyyət daşıyır. Ona bütün xalqların rəqslərində rast gəlmək mümkündür. Qədim insanın ov zamanı

tonqal ətrafında, mövsümün dəyişməsi ilə bağlı günəşi simvolizə edən dairəvi rəqsləri və s. göstərmək olar. Düzxətli element isə əkinçiliyin inkişafı ilə əlaqədar insanların torpaqda işləməsinin təsviri, simvolu kimi qiymətləndirilir. Rəqs sənəti inkişaf etdikcə bu hərəkətlərin, düzülüş formalarının da rəngarəng növləri meydana gəlmişdir.

Xüsusilə xalq rəqslərinin səhnə quruluşunda bu hərəkətlərin tətbiqi öz xarakterini bir qədər dəyişmişdir. Belə ki, folklor rəqsləri xalq tərəfindən ifa edilərkən burada tamaşaçı auditoriyasının tələbələri ön planda dayanmır, çünki el şənliklərində ifa edilən rəqslər kimin üçünsə deyil, sırf şənlik zamanı həyata keçirilir. Səhnədə ifa edilən xalq rəqsinin hazırlanması zamanı isə xoreoqraf səhnə qaydalarını, tamaşaçı auditoriyasının tələb etdiyi rakurs meyarlarını nəzərə almalıdır. Xalq rəqsinin səhnə təcəssümündə folklor materialının musiqi məzmununun da işlənməsi tələb olunur. Xalq rəqslərini işləyən xoreoqraf həmin bölgənin rəqslərinə xas spesifik elementlər sxemini dərindən öyrənməli, onun ozünəməxsusluğunu qorumaqla yanaşı, xoreoqrafik cəhətdən inkişafına da nail olmalıdır.

Xalq rəqslərinin səhnə təcəssümündə rakurs faktoru olduqca önəmlidir. Xoreoqraf nəzərə almalıdır ki, tamaşaçı ifaçını yalnız bir istiqamətdən görə bilir. Bu səbəbdən də kompozisiyanın qurulması zamanı bu faktı diqqətdən kənarlaşdırmaq olmaz. Rəqsin quruluşunda rakurslar  müxtəlif ola bilər. İfaçılar üzü tamaşaçıya və ya əksinə, profil, yan tərəfdən və s. görünə bilər.

Rəqsin quruluşunda xoreoqrafik şəkillər müxtəlifdir. Bunların sırasında statik, təkplanlı, çoxplanlı, çoxqatlı, simmetrik, asimmetrik, dinamik, həndəsi, ornamental və s. şəkillər yer alır. Dairə və ya düzxətli motivin seçilməsi ilk növbədə əsərin ideya xəttinə bağlı olmalıdır. Xalq rəqslərinin quruluşunda isə bu, həmin rəqsin orijinal versiyası ilə əlaqəli seçilməlidir. Daha sonra xoreoqraf həmin motivin səhnə meyarları əsasında işlənməsini həyata keçirir. Sadalanan şəkillərin tətbiqi zamanı həm rəqsin spesifik ifa tərzi, həm də onun səhnə təcəssümü vahid məntiqə tabe edilməlidir.

Rəqsin səhnə quruluşunda tətbiq edilən şəkillər, işləmə metodları və s. təbii olaraq hərəkətlər sistemi ilə əmələ gəlir. Xalq rəqsləri qədimdən bu günümüzədək böyük bir inkişaf yolu keçmiş, onu təşkil edən hərəkətlər sistemi isə daim yenilənərək zənginləşmişdir. Qeyd edək ki, zamanla bu hərəkətləri inkişaf etdirən və ona yeniliklər gətirən xalq sənətkarları olmuşdur. Bu baxımdan onların fəaliyyətini müasir xoreoqrafın yaradıcılığına bənzətmək olar. Xalq rəqsinin səhnə quruluşunu hazırlayarkən, xoreoqraf da yerli material üzərində işləyərək onu inkişaf etdirir, səhnə meyarları və kompozisiya quruluşu əsasında, həmçinin ideya-obraz aləminin tələb etdiyi yeniliklərlə zənginləşdirir. Nəticədə xalq rəqsinin yeni versiyası, onun səhnə təcəssümü ortaya çıxır.

Rəqsin quruluş sxeminin hazırlanması müəyyən qədər kompozisiyanın hansı şərtlər altında ifa ediləcəyi, kollektivin imkanları və s. ilə də müəyyən

olunur. Məsələn, eyni xalq rəqsi müxtəlif şərtlərdən dolayı solo və ya ansambl şəklində ifa edilir. Burada xoreoqrafın fərdi yaradıcılığı ilə yanaşı, xalq rəqsinin ifa məkanı, konsert proqramı, festival və ya müsabiqədə, eləcə də efir proqramında ifa edilməsi nəzərə alınmalıdır. Bir sıra xalq rəqslərinin efir məkanında ifa edilməsi onlara kamera xarakteri vermişdir. Əksinə, açıq konsertlərdə, böyük səhnələrdə ifa edilən xalq rəqslərində geniş və həcmli rəqs şəkillərinin üstünlüyü müşahidə edilir. Məsələn, "Qaval" rəqsi solo rəqslər sırasına daxildir. Lakin müxtəlif tədbirlərdə bu rəqsin 5-6 nəfərlik qrup şəklində ifasına da təsadüf edilir. Eyni fikri "Nəlbəki" rəqsi haqqında da söyləmək mümkündür. Rəqsin ifa ediləcəyə məkandan asılı olaraq ifaçıların sayı az və ya çox ola bilir. "Uzundərə" rəqsinin həm solo, həm də duet şəklinə rast gəlinir. Qeyd edək ki, rəqsin ifaçı tərkibi onun xoreoqrafik məzmununa da birbaşa təsir göstərir.

Beləliklə, xalq rəqslərinin daim emosional, həssas, təbii və orqanik olması daim diqqət mərkəzində saxlanılmalıdır. Təcrübəli baletmeyster onun bu cəhətindən yararlanmalıdır. Bu sənəti dərindən öyrənməklə yanaşı, ona əsaslanan yeni rəqslər qurmağı bacarmalıdır. Bu rəqslərdə xalqın obrazı çüzi sezilən cizgilərdə, geyimlərdə, ifa, hərəkət tərzində əks oluna bilər. Onları qorumaq mühüm olduğu kimi, bu rəqslərin səhnə təcəssümündə yeni metodlar tətbiq edilməlidir. Hər bir rəqsi səhnəyə daşıyarkən onu inkişaf etdirmək, zənginləşdirmək lazımdır. Əlbəttə, bu prosesdə ilkin mənbəyə xüsusi qayğı və diqqətlə yanaşmaq lazımdır.

## ƏDƏBİYYAT


1. Almaszadə Q.H. Azərbaycan xalq rəqsləri (metodik vəsait). B.: "Birləşmiş nəşriyyat", 1959, 150 c.
2. Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri. B.: İşıq, 1983, 60 s.
3. Захаров Р.В. Сочинение танца. М.: Искусство. 1983, 237 с.
4. Уральская В.И. Рождение танца. М.: Советская Россия, 1982, 144 с.
5. Мелехов, А. В. Искусство балетмейстера. Композиция и постановка танца: учеб.пособие / А. В. Мелехов; Урал. гос. пед. ун-т. – Екатеринбург, 2015. – 128 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.08.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 20.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor Nailə Rəhimbəyli**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78**

**G.Eyvazzadə**
Dissertant
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı, Şəmsi Bədəlbəyli 98
e-mail: akiftr.2008@gmail.com

# PROFESSOR NİGAR USUBOVANIN F.LİSTİN FORTEPİANO ƏSƏRLƏRİNİN İFAÇILIQ PRİNSİPLƏRİNƏ DAİR BİR SIRA PRAKTİKİ TÖVSİYƏLƏRİ

***Açar sözlər:*** *konsert, kadensiya, etüd, silsilə, passaj*

Günel Eyvazzadənin təqdim etdiyi məqalədə professor Nigar Üsubovanın ifaçılıq metodikasında macar bəstəkarı F.Listin virtuoz, texniki baxımdan mürəkkəb fortepiano əsərlərinin tədrisi ətrafında tövsiyələri özünəməxsus əhəmiyyət kəsb edir. Bu tövsiyələr və pedaqoji prinsiplər professor A.B.Qoldenveyzer məktəbinin ənənələri ilə sığ baxlıdır.

**Г.Эйваззаде**

## НЕКОТОРЫЕ ПРАКТИЧЕСКИЕ РЕКОМЕНДАЦИИ ПРОФЕССОРА НИГЯР УСУБОВОЙ К ИСПОЛНИТЕЛЬСКИМ ПРИНЦИПАМ ФОРТЕПИАННЫХ ПРОИЗВЕДЕНИЙ Ф.ЛИСТА

***Ключевые слова:*** *концерт, каденция, этюд, цикл, пассаж*

В статье, представленной Г.Эйваззаде, особенное значение имеют рекомендации профессора Н.Усубовой по исполнительской методике в процессе преподавания виртуозных, технически сложных фортепианных произведений венгерского композитора Ф.Листа. Эти рекомендации и педагогические принципы тесно связаны с традициями школы профессора А.Б.Гольденвейзера.

**G.Eyvazzade**

## SOME PRACTICAL RECOMMENDATIONS OF PROFESSOR NIGAR USUBOVA ABOUT PERFORMING PRINCIPLES OF F.LIST'S PIANO PIECES

***Key words:*** *concert, cadence, etude, cycle, passage*

In the article presented by Gunel Eyvazzade, recommendations of professor Nigar Usubova about performing technique in teaching process of Hungarian composer List's technically complex piano pieces have particular importance. These recommendations and pedagogical principles are closely related to traditions of the school of professor A.B.Qoldenveizer.

İfaçılıq sənətində hər bir ifaçının yetişib püxtələşməsi, onun təkmilləşməsi üçün düzgün proqramın tərtib edilməsi, əlverişli repertuarın seçilməsi önəmli yerlərdən birini tutur. Pedaqoji təcrübədə, tədris prosesində təcrübəli müəllimlər, görkəmli pedaqoqlar tələbələrin repertuarı üzərində sistematik işə böyük diqqət yetirirlər. Azərbaycan fortepiano məktəbinin inkişafında böyük rolu olan Respublikanın Əməkdar İncəsənət Xadimi, sənətşünaslıq namizədi, professor Nigar Usubovanın hərtərəfli, zəngin metodikasında repertuar seçimi aparıcı xətlərdən birini təşkil edirdi. Görkəmli pianoçu A.B.Qoldenveyzerin məktəbini keçən Nigar Usubovanın tələbələri Ü.Hacıbəyli adina Baki Musiqi Akademiyasının Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru, xalq artisti, "İxtisas fortepiano" kafedrasının professoru Yeganə Axundova, həmin kafedranın digər bir professoru Zemfira Şəfiyeva, dosenti Firəngiz Hacıyeva onun repertuar seçimində özünəməxsus "siyasətini", hər bəstəkarın yaradıcılığı ətrafında maraqlı fikirlərini, ifa proqramı ətrafında tövsiyələrini yaxşı xatırlayırlar. Çox illər keçdikdən sonra Nigar xanımın yetirmələri ilə müsahibələrdən ətraflı məlumatlar əldə etməyə nail olduq. Bu söhbətlər əsnasında Nigar xanımın ifa proqramında daha çox Ferens Listin fortepiano musiqisinə önəm verməsi vurğulandı. Məlum olduğu kimi A.B.Qoldenveyzer F.Listin "3 konsert etüdü" silsiləsindən 3 №li Des-dur etüdü (S.144, 1848), "Mefisto-vals" pyesi, "Səyahət illəri" silsiləsindən bir sıra pyeslərin məşhur ifaçısı idi. Bu görkəmli pianoçu vaxtilə konservatoriyada A.İ.Zilotinin sinfində oxumuşdur. A.İ.Ziloti isə F.Listlə tanış idi və bir müddət ondan dərslər almışdı. Yaradıcılıq prosesində F.List→A.İ.Ziloti→A.B.Qoldenveyzer→N.Usubova nəsil şəçərəsi tam şəkildə özünü biruzə verir.

F.Listin fortepiano ilə simfonik orkestr üçün konsertləri bir sıra pianoçuların repertuarında geniş yer tutur. Öz orijinal quruluşu, mürəkkəb texnikası və dərin məzmunu ilə fərqlənən bu iki konsertin effektli ifasına nail olmaq ifaçıdan böyük güc və qüvvə tələb edir. Əsər üzərində işə başlayarkən Nigar xanım bu konsertlərdə ilk növbədə mövzu-obraza diqqət yetirməyi, onların təzadını qabarıq göstərməyi tövsiyə edirdi. Yeganə Axundova F.Listin əsərlərinin ifası zamanı müəlliminin daim təkrarladığı bu fikri xatırladı: "F.List üçün temp, dinamika, hər bir aksent, pedal, səs effektləri tam yeni məna kəsb edir".

Fortepiano ilə simfonik orkestr üçün 1№li konsertin (Es-dur, S.124) artıq

ilk xanələri üzərində işə başlayarkən Nigar xanım təntənəli, qəhrəmani xarakterli qısa orkestr mövzusundan sonra pianoçunun ifasında səslənən möhtəşəm oktavalar üzərində dəfələrlə məşq edirdi.

**Nümunə №1**




Yeganə Axundova müəlliminin bu epizod üzərində özünəməxsus işi, maraqlı tövsiyəsi haqqında belə bir məlumat verir: “Bu epizodda əllərin yorulmasına qəti yol vermək olmaz. Təntənəli və möhtəşəm oktavaları ağırlaşmış deyil, emosional ifa etmək lazımdır”. Bu oktava passajı bəstəkar tərəfindən *“Cadenza grandioso”* remarkası ilə qeyd olunan virtuoz epizoda keçir. Səsin dərinliyinə nail olmaq-kadensiya üzərində işin əsas tərkib hissəsi idi. Nigar xanım kadensiyanın sərbəst ifasını tələb edərək, əllərə və çiyinlərin vəziyyətinə çox diqqət yetirirdi. Burada sağ və sol əlin növbələşməsi, applikaturanın dəqiqliyi və xüsusən pedalın düzgün tətbiqi önəmli idi. 1№li konsertin köməkçi mövzusunun (E-dur) ifası zamanı improvizasiyalı ifa tərzini yaratmaq, zərif melizmləri və virtuoz passajları incə pianissimo ahəngində yaratmaqdan ötrü çox vaxt bütün məşğələ bu mövzunun üzərində işləməyə sərf edilirdi. Nigar xanımın F.Listin əsərlərinin interpretasiyası üzərində iş metodikasının maraqlı cəhətlərindən biri də sol əlin ifadəliliyinə daha çox diqqət yetirməsidir. Yeganə xanım öz müsahibəsində müəlliminin belə bir fikrini xatırlayaraq onun sözlərindən sitat gətirdi: “Sol əlin öz həyatı, öz yaşantısı olmalıdır, pianoçu sağ əl kimi ona da müəyyən vaxt ayıraraq məşq etməlidir”.

Nigar xanım konsertin ifasına sırf psixoloji baxımından yanaşırdı: “Finalın-

konsertin sonluğunun emosional və psixoloji baxımdan çətinliyini nəzərə alaraq, pianoçu buradakı fikirlərin ardıcıllığını daim nəzarətdə saxlamalıdır”.

Nigar xanımın digər bir yetirməsi Zemfira Şəfiyeva F.Listin fortepiano ilə simfonik orkestr üçün 2 №li konsertinin (A-dur, S.125) ifasına dair maraqlı metodiki tövsiyələri ətrafında açıqlamalar verdi. İfada əsas şərtlər not mətninə, ritmik çətinliklərə və frazalaşmaya diqqət yetirilməsidir. Zemfira xanım hətta bu məqamda Nigar xanımın notlarda qeydlər etdiyini, ifaçıya fikrini cəmləşdirmək lazım gəldiyi anlarda notda nida işarəsi qoymasını xatırladı. Konsertdə solistin orkestr partiyası ilə növbələşməsi ətrafında Nigar xanımın maraqlı tövsiyələri var idi. Orkestrin möhtəşəm fortissimoları fonunda solistin partiyasında verilən oktavalı gedişlərdə pedalın səliqə ilə paylaşmasına xüsusi diqqət yetirilirdi.

**Nümunə №2**




Böyük texniki passajların səslənməsi üçün applikaturanın düzgünlüyü də əsas şərtlərdən biri idi. 2 №li konsertin forma xüsusiyyətlərinin açılması işin əsas mərhələlərindən biri idi. Nigar Usubova bu birhissəli konsertdə monotematizm prinsipini, bölmələrin bir-biri ilə bağlanmasını və başlanğıc lirik mövzunun sonda apofeoz-marş xarakterinə qədər yüksəlməsini çox maraqlı ardıcıl şəkildə izah edirdi. Konsertin tükənməz daxili enerjisi və hər dəfə yeni obrazın yaranması, dinamikanın böyük dəstək olması-bütün bunlar əsərin ifası zamanı nəzarətdə saxlanılmalı idi.

F.Listin möhtəşəm konsertləri ilə yanaşı Nigar Usubova bəstəkarın

proqramlı pyeslərini də ifa repertuarına daxil etməyi sevirdi. Onun tələbələri ilə müsahibələrdə Yeganə Axundova və Firəngiz Hacıyevanın "Poetik və dini harmoniyalar" silsiləsindən 7 №li "Matəm yürüşü" (S.154), Zemfira Şəfiyevanın "Səyahət illəri" silsiləsindən "Oberman vadisi" ("Vallée d'Obermann" S.160) pyesləri ətrafında yeni açıqlamaları böyük maraq doğurdu. Hər iki pyes ümumiyyətlə nadir ifa olunan əsərlərdəndir. "Səyahət illəri" silsiləsindən "Oberman vadisi" pyesinin üzərində işə başlamazdan əvvəl Nigar xanım əsərin yaranması, onun məzmunu haqqında danışaraq, əsl nəzəriyyəçi kimi təhlil edir və bəzi epizodları ifa edirdi. Məlum olduğu kimi F.List bu proqramlı pyesə fransız yazıçısı E.Senankurun epistolyar janrda yazılmış "Oberman" romanından 53 və 4-cü məktublarından epiqraf vermiş, eləcə də C.Bayronun "Çayld Haroldun zəvvarlığı" əsərindən şeir parçasını da bu iki epiqrafa əlavə etmişdir. XIX əsr insanının daxili aləmini, keçirdiyi hissləri, onun öz-özünə verdiyi "Que veux-je? Que suis-je? Que demander a la nature?" –yəni "Mən həyatdan nə istəyirəm?" sualını fəlsəfi baxımdan əks etdirən romanın məzmunu fortepiano pyesində öz əksini tapır. Pyesdə məyus olmuş, tənha qalaraq həyatının mənasını itirən bir insanın hissləri ifadə olunur. Nigar xanım əsərin üzərində işləyərkən öncə belə bir fikri vurğulayırdı ki, bu sərlövhədəki ""Vadi"sözü məcazi, sətiraltı məna daşıyır. Bu real vadi, peyzaj deyildir. Bu, kədər vadisi, dünyəvi kədərdir". O, pyesin epiqraqfının bir növ "mənəvi eskiz" olduğunu tez-tez vurğulayırdı. "Oberman vadisi" improvizasiyanı xatırladan və monotematizm prinsipinə əsaslanan bir pyesdir. Mövzunun obraz transformasiyası ilə yanaşı, pyesdə aydın şəkildə dörd bölmə ayrılır. Nigar xanım ilk növbədə buradakı tonal simvolikanı qeyd edirdi. Pyes lirik-elegik e-moll tonallığında başlayaraq, işıqlı E-dur tonallığında tamamlanır. Birinci bölmə Lento assai (e-moll) sanki qəhrəmanın kədərli monoluqudur.

**Nümunə №3**




İkinci bölmə Un poco piu di moto ma sempre lento (C-dur) qəhrəmanın ülvi, saf arzu və xəyallarını təsvir edir.

Üçüncü bölmə Recitative e-moll həyatın tufanlarını əks etdirir. Nəhayət, dördüncü bölmə Lento E-dur işıqlı xarakter daşıyaraq, tam fərqli fakturanın üzərində qurulur. Nigar xanım bu epizodu "məhəbbət və xoşbəxtlik himni" kimi səciyyələndirərək, onun fakturasını "fortepiano partiturası" kimi izah edirdi. Əsərin kulminasiyası da məhz bu bölməyə təsadüf edir. Pyesi ifa edərkən Nigar xanım daim belə bir fikri aşılayırdı: "Qəhrəman öz sualına cavab tapa bilmir. Son fermata isə əbədi iztirablardan çıxış yolunun olmadığını bir daha təsdiqləyir". Nigar xanım artıq pyesin ilk xanələri üzərində işə başlayarkən məzmunu açmağı tövsiyə edərək, sonrakı inkişafın buradan qaynaqlanmasını izah edirdi. Başlanğıcda aşağı registrdə səslənən mövzunun violonçel tembrinə yaxın olması və sağ əldə akkordların yumşaq səslənməsi əsas tövsiyələrdən biri idi. Nigar xanım ifa zamanı bu başlanğıc mövzunun getdikcə daha ifadəli səslənməsinə istiqamətləndirirdi. Hər kiçik pauza, fermata və lunga pausa remarkasına xüsusi önəm verilirdi. Nigar xanım bu pauza və fermataların sual intonasiyasından sonra sükutu təsvir etməsini vurğulayırdı: "Bu mövzu qəhrəmanın monoloqu, onun sakit üsyanıdır". İşıqlı xatirələri əks etdirən C-dur mövzusunu isə o, belə izah edirdi: "Bu, lirik qəhrəmanın özü ilə dialoqudur". Pyesin repriza bölməsinin səslənmə ahənginə xüsusi diqqət yetirilirdi. Ümumiyyətlə repriza bölməsi texniki baxımdan çox mürəkkəb olduğu üçün o, əvvəlcədən bu bölmə üzərində saatlarla məşq etməyi tövsiyə edirdi. Pyesin sual intonasıyası ilə bitməsi "Mən həyatdan nə istəyirəm?" sualının fəlsəfi mahiyyətinin təsdiqlənməsi kimi izah edilirdi.

F.Listin "Poetik və dini harmoniyalar" silsiləsindən 7 №li "Matəm yürüşü" (S.154) pyesinin ifası ətrafında Yeganə Axundovanın söhbəti bizdə böyük maraq doğurdu. Onunla ətraflı müsahibədən sonra əsərin "ifa portreti" gözlərimiz önündə canlandı. Nigar xanım birinci mərhələdə əsərin obraz-emosional məzmununu və sonata formasında hər bir mövzunun obraz səciyyəsini izah edirdi. Məlum olduğu kimi bu pyes Ferens Listin, vətənpərvər musiqiçinin azadlıq uğrunda yüksələn harayını, onun şəxsi hisslərini ifadə edir. Nigar xanımın əsas tələbi pyesin böyük ruh yüksəkliyi ilə ifasından ibarət idi. O, bu pyesdə insanların qətli, onların həlak olması ilə bağlı ümumxalq kədərini göstərməyi vurğulayırdı. Pyesin sonunda isə qəhrəmanların qalibiyyətini əks etdirən koda qəhrəmanlıq himni kimi səslənməli idi. İkinci mərhələdə pyesin marş ruhunda, dərin, dəqiq və səlis səslə çalınması üzərində iş aparılırdı. "Tələsmədən və səbrlə ifa etmək" – Nigar xanım daim bunu tələb edirdi. Pyesin texniki baxımdan çətin epizodlarında, oktavaları, akkordları səliqəli çalmaq tələb olunurdu. Bu əsərin ifasında çətinlik törədən diqqətçəkən məqamlardan biri sol əlin funksiyasının artırılmasıdır. Marş janrının xüsusiyyətləri ilə bağlı sol əldə addım səslərinin qabarıq şəkildə təsviri tələb olunur. Sol əl insanların qətlə yürüşünü göstərərək, lirik xarakter daşımamalıdır.

**Nümunə №4**




Nigar xanım daim sağ əlin yumşaq səslənməsini, eyni zamanda onun fon kimi saxlanmadan, öz melodiyasının eşidilməsini tələb edirdi. “Sol əl sağ ələ mane olmamalıdır, onların hər birinin öz xətti var” – Nigar xanımın daha mühüm bir tövsiyəsi bundan ibarət idi. O, bu pyesdə sol əlin böyük imkanlarının olduğunu vurğulayırdı.

“Matəm yürüşü” pyesinin ifasında Nigar xanımın diqqət yetirdiyi əsas məqamlardan biri də pedala düzgün yanaşmadır. İntroduksiya adlanan giriş bölməsində zəng sədalarının təvsirində, sol əlin tremololarında, lirik köməkçi mövzunun ifasında və işlənmə epizodunda pedal tam fərqli tərzdə istifadə edilməlidir. Nəhayət, “Matəm yürüşü”nün obrazını yaratmaq üçün Nigar xanımın əsas hədəflərindən ən mühümü dinamika idi. Bu ifada fortedən çəkinməmək, dinamikanın yüksəlişinin hətta *fff* nüansına qədər dəqiq verilməsinin üzərində işləmək, fortenin müxtəlif çalarlarının açılması tövsiyə edilirdi. Pyesdə yüksəlişin ən böyük dalğası işlənmə epizodunda başlanır. Kodanın sonuncu xanəsindəki pianissimonun qəfil səslənişinə Nigar xanım özünəməxsus şəkildə belə açıqlama verirdi: “Koda qalibiyyəti əks etdirərək, *mf*-dən crescendo vasitəsilə fortissimoya çatır. Lakin fortissimoda uzadılan akkorddan sonra səslənmə diminuendo ilə yavaşıyır və pianissimo ifa olunur. Bu dinamika rəmzi məna daşıyır. Axı insanlar həlak olmuşdur.”

Ekspozisiya ilə müqayisədə repriza dinamikdir. Faktura çox yenilənərək, tematizm variasiya edilmişdir. Bu dinamikləşmə ilə bağlı reprizada əsas mövzunun əhəmiyyəti daha qabarıq göstərilmiş və lirika “kölgədə qalmışdır”. Repriza artıq baş verənlərin arxada qaldığını və insan həyatının sona yetdiyini, faciənin qaçılmaz olduğunu tam şəkildə təsdiqləyir. Lakonik 8 xanəli koda isə mərkəzi epizodun materialı üzərində qurulur. Bu sonluğun miqyası kiçik olsa da əsas ideya kodada bir daha təsdiqlənir. Tutqun minor tonallığı kodada eyniadlı işıqlı majorla (F-dur) əvəzlənir. Bu koda sanki mübarizədə həlak olan qəhrəmanların ölümündən intiqam almaq üçün alışıb yanan kütlənin səsini

göstərir.

Nigar Usubova tələbələrinin ifa repertuarında F.Listin etüdlərinə də xüsusi yer ayırırdı. Bunu nəzərə alaraq, F.Listin "3 konsert etüdü" silsiləsindən 3 №li Des-dur etüdü (S.144, 1848) və "Grandes Etudes de Paganini" ("Paqanini tərzində böyük etüdlər" I redaktə-1838, II redaktə 1851, S.141) silsiləsindən 2 №li Es-dur etüdünün interpretasiyası üçün Nigar xanımın verdiyi məsləhət və tövsiyələri ətraflı şəkildə cəmləşdirərək işıqlandırmağı qərara aldıq. Y.Axundova F.Listin Des-dur Etüdünün bəstəkar tərəfindən nəşrlərdən birində "Un sospiro" ("Nəfəs") adlandırmasını vurğulayaraq, onun konsert etüdü kimi texniki baxımdan çətinliyindən, mürəkkəb fakturadan söz açdı. Söhbət zamanı Yeganə xanım bu etüdün xarakteri, obraz-emosional məzmunu haqqında müəlliminin belə bir tövsiyəsini xatırladı: "Əgər F.List öz etüdünü belə adlandırmışdırsa, deməli, o, artıq sərlövhədə ifaçını müəyyən əhval-ruhiyyəyə istiqamətləndirmişdir." Nigar xanım ifaçını bu etüdün sərbəst və yüngül, hətta bir qədər mistik, fantastik ifasına yönəldirdi: "Etüd bir qədər gerçək olmayan, xəyali ifa tərzinə malik olmalıdır. Onu ifa edərkən hisslər qammasını mütləq öz daxili aləminin süzgəcindən keçirməlisən". O, etüdün ifasında səmimi obrazla yanaşı, həm də, teatral ifanı, poetik bir lövhə yaradılmasını tələb edirdi: "Etüdü elə ifa etmək lazımdır ki, buradakı bütövlük pozulmasın, harmonik və dinamik inkişaf bütün ifa boyu saxlanılsın". Onun ilk növbədə diqqət yetirdiyi cəhət burada ifa zamanı əllərin hərəkəti idi. Etüd sol əlin aşırması üzərində qurulduğu üçün o, ilk növbədə səlis aparılmanı və eyni zamanda yumşaq səslənməyə riayət edilməsini tövsiyə edirdi.

**Nümunə №5**



İkinci mühüm tövsiyə sondakı kadensiyaya aid idi. O, əlləri kiçik olan pianoçulara ifa baxımından belə passajların çətin olmasını vurğulayırdı. Nigar xanım daim belə bir fikri təkrarlamağı xoşlayırdı: “Passajlar səlis və hamar ifa edilməli, su kimi axmalıdır”. Nigar xanım Des-dur etüdünün ifası zamanı pedala çox həssaslıqla yanaşmağı, yarıpedal, gecikən pedal, hətta 1/4 pedaldan istifadə etməyi məsləhət görürdü. Etüdün birinci hissəsində pedalla zərgər dəqiqliyi ilə davranmaq tələb edirlirdi.

Müsahibə zamanı Yeganə xanım F.Listin “Paqanini tərzində böyük etüdlər” silsiləsindən 2 №li Es-dur Etüdünün ifa xüsusiyyətləri ətrafında müəlliminin verdiyi əsas metodik tövsiyələridə yada saldı. Bu göstərişlər ilk növbədə etüddəki çoxçeşidli passaj texnikasına, dəqiq applikatura üzərində işə aid idi. Etüdün birinci hissəsi və reprizanın sonundakı gərgin, möhtəşəm fortissimoda səsləndirilən passajın pianoçudan böyük qüvvə tələb etməsi, buradakı ritmik dəqiqliyin qabarıq göstərilməsi, əllərin növbələşməsi ilə bağlı Nigar xanım maraqlı məsləhətlər vermişdir.

**Nümunə №6**




Paqaninin 17-ci kaprisinin mövzusu üzərində qurulan bu etüddə virtuozluqla yanaşı fakturanın rəngarəngliyi də diqqətçəkən məqamlardandır. Üçhissəli formada qurulan etüdün birinci və orta hissəsi faktura baxımından kəskin təzad təşkil edir. Orta hissə F.Listin çox sevdiyi oktavalı gedişlərdən qurulmuşdur. Birinci hissədə yüngül, gözəl səslənmə, incə ifa və pauzalara böyük diqqət yetirilirdi. Orta hissədə xarakterin təzadlı şəkildə yenilənməsinə baxmayaraq kobud çalmamağı, zərif ifanı tövsiyə edirdi.

Ümumiyyətlə, Nigar Usubova F.Listin əsərlərinin ifasında dörd prinsipi əsas götürürdü:

1. Bəstəkarın üslubuna mükəmməl bələd olmaq;
2. İfa olunan əsərin forma və kompozisiya xüsusiyyətlərini canlandırmaq;

3. Royalın tembr palitrasına yaxşı bələd olmaq;
4. Nəhayət, Nigar xanımın fikrincə, F.Listin əsərlərini ifa etmək üçün pianoçu artıq təkmilləşmiş olmalı, onda üslub hissiyyatı tərbiyə edilməli və ifaçı mütləq əsərin yarandığı dövrü özlüyündə təsəvvür etməyi bacarmalıdır.

Nigar Usubova tələbənin repertuarına F.Listin əsərlərini daxil edərkən texniki hazırlığı və fərdi fiziki qüvvəni də nəzərə alırdı. N.Usubova öz müəllimi A.B.Qoldenveyzerdən F.Listin musiqisinin özünəməxsus dərinliyi və bütün xırdalıqlarını mənimsəyərək, bunu yaradıcı şəkildə öz tələbələrinə ötürməyi bacarırdı. O, hətta pianoçunun alətin arxasında düzgün oturuşuna və hərəkətlərinə xüsusi diqqət yetirirdi. Əlbəttə ki, hər hansı bir əsərin ifası zamanı öndə duran əsas məsələ obrazın açılması idi. Bununla yanaşı, ən xırda detallar belə Nigar xanımın nəzər-diqqətindən yayınmırdı. O, fermata və pauzalar üzərində uzun müddət çalışmağı tövsiyə edirdi. Bu, onun üçün virtuoz passajın üzərində işə bərabər idi.

Ümumiyyətlə Nigar Usubova F.Listin musiqisinin romantik üslubunun canlandırılmasına daha akademik nöqteyi-nəzərdən yanaşırdı. İstedadlı pianoçu pedaqoqun dahi macar bəstəkarının əsərlərinin ifaçılıq prinsiplərinə dair bir sıra metodik tövsiyələri bu gündə aktuallığını saxlamaqdadır.

## ƏDƏBİYYAT


1. Мильштейн Я.И. Этюды Ф.Листа. М.: Музгиз, 1961. 82 с.
2. Хохлов Ю.Н. Фортепианные концерты Ф.Листа (путеводитель) М.: Музгиз, 1961, 84 с.
3. Буасье А. Уроки Листа. Л.:Музыка, 1964, 65 с.
4. Мильштейн Я. И. Ф.Лист. М.:Музыка,1970. Т.1, 864 с.
5. Мильштейн Я. И. Ф.Лист. М.:Музыка,1971. Т.2, 600 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.12.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**УДК 78.03**

**Т.В.Горячева**
магистр
Казахская Национальная консерватория им. Курмангазы

# ФОЛЬКЛОР, ФОЛЬКЛОРИЗМ И НЕОФОЛЬКЛОРИЗМ В МУЗЫКЕ: ВОПРОСЫ ТИПОЛОГИИ

***Ключевые слова:*** *фольклор, фольклоризм, неофольклоризм, трактовка, термин*

Статья посвящена рассмотрению таких понятий, как фольклор, фольклоризм, неофольклоризм. В центре внимания оказываются вопросы исторического происхождения каждого термина, их трактовка в научных трудах видных исследователей прошлого и настоящего времени. На основе проделанной работы автор приходит к выводу о многозначности и противоречивости существующей в мире терминологии.

**T.V.Goryaçeva**

# MUSİQİDƏ FOLKLOR, FOLKLORİZM VƏ NEOFOLKLORİZM: TİPOLOGİYA MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *folklor, folklorizm, neofolklorizm, təfsir, termin*

Təqdim edilən məqalə folklor, folklorizm və neofolklorizm kimi anlayışların təhlilinə həsr olunubdur. Terminlərin tarixi təşəkkülü, keçmiş və müasir dövrün görkəmli alimlərin elmi işlərində onların təfsiri diqqət mərkəzində yerləşir. Aparılan təhlil nəticəsində məqalənin müəllifi, mövcud olan terminlərin çoxmənalı və tazadlı olması fikrinə gəlir.

**T.V.Goryacheva**

# FOLKLORE, FOLKLORISM AND NEOFOLKLORISM IN MUSIC: TYPOLOGY ISSUES

***Key words:*** *folklore, folklorism, neofolklorism, interpetation*

The article is devoted to the consideration of such concepts as folklore, folklorism, neofolklorism. The focus is on issues of the historical origin of each term, their interpretation in the scientific works of prominent researchers of the

past and present. On the basis of the work done, the author comes to the conclusion about the ambiguity and inconsistency of the terminology existing in the world.

Рубеж XX-XXI веков представляет собой пестрый калейдоскоп различных музыкальных явлений. Ученые отмечают, что прошлое столетие «знаменует собой существенный перелом в истории человека и формах его культурной деятельности» [1.С.13]. Это не говорит о наличии в данный исторический период средств музыкальной выразительности, общих для всего музыкального искусства. Скорее наоборот, наблюдается многообразие различных художественных явлений и особенностей их претворения. В частности, существующие параллельно фольклор, академическая, массовая музыка активно взаимодействуют и способствуют формированию новых музыкальных традиций. В связи с этим, важно отделить «случайное от необходимого, выявить устойчивые и перспективные образования»[1]. Такая проблема всегда усложняется отсутствием временной дистанции, естественно «отсеивающей» ценные произведения искусства от минутных, преходящих событий. В предлагаемой статье данная мысль рассматривается на примере казахской музыки начала XXI века, структура которой состоит из следующих пластов:

1. фольклор;
2. профессиональная музыка устной традиции;
3. новоевропейское музыкальное искусство;
4. массовая музыкальная культура.

Все эти пласты существуют в современной казахской музыке в первоначальном и в переосмысленном виде, и представлены в течениях фольклоризма и неофольклоризма. Как отмечает Э.Алексеев, широкое общественное внимание к фольклору в наши дни — показатель того, что судьба фольклора и судьба культуры неразделимы [3.С.7]. И хотя данное высказывание относится к 1988 году, оно не потеряло своей актуальности и по сей день.

Различные формы существования фольклора в тех или иных областях музыкального творчества обозначаются такими терминами, как фольклоризм, неофольклоризм, вторичная форма бытования фольклора, современный фольклор, музыкальная традиции, новая фольклорная волна и т.д. При этом зачастую, исследователи употребляют данные термины для обозначения схожих явлений, что приводит к терминологической путанице. С этой точки зрения одной из главных задач современного музыковедения является конкретизация таких понятий, как фольклор, фольклоризм, неофольклоризм.

В своде этнографических понятий, фольклор рассматривается как

термин, употребляемый для различных явлений народной культуры [5.С.135]. Как отмечают В.Гусев и Х.Штробах, объем этих явлений не интерпретируется однозначно ни в истории самого термина, ни в современной науке. Термин «фольклор» был введен английским специалистом по древней истории У.Томсом в 1846 году и образовался благодаря слиянию двух слов «folk» - народ и «lore» - знание. Тем самым, автор данного термина обозначал им, прежде всего, «нравы и обычаи, духовные представления, а также устно-поэтические и музыкальные традиции» [5.С.136]. С 1878 года в Англии «фольклорное общество» использовало этот термин в значении древних нравов, обрядов и церемоний прошлых эпох, превратившиеся в традиции низших классов цивилизованного общества и, как совокупность «неписанной истории народа»[2] [5.С.135].

В дальнейшем, термин «фольклор» получил широкое распространение по всему миру. В настоящее время в культурологии понятие «фольклора» определяется с этнографической, филологической, эстетической и психологической точки зрения. В своде этнографических понятий и терминов - под фольклором понимается «традиционная для этноса духовная культура, отражающая его мировоззрение, сложившееся в результате многовекового коллективного творчества путем устной коммуникации и проявляющаяся в бесконечной множественности индивидуально-личностных вариантов». Фольклор в качестве системы художественных ценностей должен обладать определенными признаками или чертами. Исследователи выделяют следующие основные признаки зарубежного фольклора:

1. устность;
2. коллективность;
3. вариантность.

В качестве специфических черт к ним добавляют полиэлементность и полифункциональность. Однако данные признаки достаточно условны, поскольку могут не отражать специфики народного творчества всех стран. Ярким примером этого является казахский фольклор. Очевидно, что выдвигая в качестве основных признаков фольклора вышеуказанные характеристики, исследователи имели в виду исполнительские и творческие аспекты. Вместе с тем, подобная характеристика не применима к казахскому фольклору, где коллективность не столь типична.

Ещё одним термином, получившим распространение в XX веке, стал фольклоризм, предложенный французским ученым П.Себийо (19 век). Подхваченный последующими поколениями исследователей, данный термин тоже получил многообразные трактовки. В частности, В. Гусев

определяет фольклоризм как «процесс адаптации и репродукции фольклора в повседневной жизни общества, в культуре и искусстве» [5.С.150]. В западной науке иногда под данным термином понималось коммерческое использование народных традиций. Фольклоризм представлял собой нечто отрицательное для искусства, поскольку, традиции отделялись от их первоначального контекста и переносились в иные условия существования, выгодные для того или иного проекта. Все эти изменения приводили иногда к полной трансформации оригинала.

В музыкознании термин «фольклоризм» утвердился намного позже, чем в практике – в 60-х годах XX века и подразумевал «новое» использование фольклора в художественном творчестве, а также «вторичные» фольклорные явления [7.С.5]. И.Земцовский не раз высказывал следующую мысль: «Понятно, что любое вторичное использование народной песни есть не фольклор, а фольклоризм» [8.С.11].

Однако можно встретить и более общую трактовку термина. В широком значении фольклоризм – это переинтонирование фольклора в композиторском творчестве. В узком значении - признак национального стиля [9.С.4].

В.Гусев включает в данное понятие «формы увлечения фольклором и освоения его в иных видах культуры» [10.С.34]. Исследователь наблюдает три этапа развития фольклоризма:

1. ранний, «наивный фольклоризм», связанный в большей степени с методом цитирования национального музыкального фольклора, продуктом которого явились многочисленные обработки и вариации на народные темы, рапсодии, сюиты;

2. «более сложный тип» фольклоризма, органично сочетающий в себе фольклорные традиции и достижения классической музыки, проявившийся в творчестве Д.Шостаковича, Т.Хренникова и других;

3. «новейший тип фольклоризма», «усложненный фольклоризм», для которого характерно проникновение во внутреннюю структуру фольклорного языка, в семантику фольклорной образности и музыкальную эстетику народного творчества. Данный стилевой метод характерен для композиторов неофольклорного направления: Г.Свиридова, Р. Щедрина, В. Гаврилина и других.

В заключении автор приходит к следующему выводу: фольклоризм в музыке - это «весьма разнообразное, сложное, развивающееся явление, и общая тенденция его развития может быть определена как эволюция от внешнего подражания фольклору к постижению внутренних закономерностей народного музыкального мышления» [10.С.25].

И.Земцовский делит фольклор на прогрессивный, основанный на глубоком знании фольклорных традиций и развлекательный,

коммерческий [8.С.8]. Музыковед отмечает, что происходит борьба не фольклора с фольклоризмом, а двух разных фольклоризмов [8.С.11].

Наряду с фольклоризмом в музыкальной науке XX века получил распространение термин неофольклоризм. Однако и здесь наблюдается терминологическая многозначность. Примером тому может служить работа А.Демченко называет «новый характер взаимоотношений композитора с фольклором» термином «фольклоризм» или «неофольклоризм» основываясь на их обработках народной музыки. Автор отмечает, что фольклоризм – это качественно новый принцип работы с фольклором [11.С.35]. Вопрос о слиянии двух понятий – фольклоризм и неофольклоризм, остается открытым. Смешение терминов встречается во многих работах, где авторы ставят знак равенства между этими двумя совершенно разными явлениями музыкальной культуры.

Неофольклоризм часто определяется следующим образом: «Неофольклоризм (греч. новый и фольклор, англ. *new folkloristics*) - термин, иногда употребляющийся по отношению к европейской музыке 1-й трети XX века, в которой фольклор цитировался и развивался с помощью технико-стилевых приёмов современной музыки» [12].

Л.Иванова на примере творчества русских композиторов рассматривает исторический путь развития данного явления в России:

1. «фольклорное направление» - собственно пласт, связанный с фольклором;

2. фольклоризм – обработка фольклора русскими композиторами 19-20 веков;

3. неофольклоризм - «понятие, относящееся к фольклорному направлению, актуализирующемуся в определенные периоды, активно использующему весь арсенал современных ему технических средств, выполняющему роль стимулятора и катализатора обновляющегося музыкального языка» [13.С.25].

Наиболее полно и точно на наш взгляд, обосновывает термин «неофольклоризм» по временным и стилевым градациям Г.Григорьева в монографии «Стилевые проблемы русской советской музыки второй половины XX века». Автор выделяет два понятия, отражающие работу композитора с фольклором во второй половине XX века: «новая фольклорная волна» и неофольклоризм. Григорьева отмечает «качественно новое отношение к фольклору: обращение к архаике, к сложным необычным ладовым и жанровым формам. В связи с данной тенденцией уместно говорить собственно о *неофольклоризме* как новом направлении с особой системой типизированных методов и приемов композиторского письма, сложившихся в результате «взаимопроникновения коренных музыкальных культур и ... новейших

приемов, получивших интернациональное распространение в музыкальной культуре XX века» [14.С.76]. Обосновывая термин *«неофольклоризм»,* Г.Григорьева приходит к выводу: «Проявления неофольклоризма *принципиально гораздо более новы* по отношению к музыке прошлого, так как лишь в начале XX столетия произошли великие открытия в глубинных слоях народного искусства, неведомые композиторской практике в XIX веке» [14.С.76].

В результате обращения к музыковедческой литературе, отражающей вопросы фольклора, фольклоризма и неофольклоризма, мы пришли к некоторым общим выводам:

1. до настоящего времени понятие фольклор, фольклоризм и неофольклоризм используются некоторыми исследователями для обозначения одинаковых культурных явлений. Помимо этого данные термины обозначают разные области в музыкальной культуре. Следовательно, необходимо разделять границы их использования;
2. понятия фольклоризм и неофольклоризм глубоко связаны с академической профессиональной музыкой, кроме того – имеют историческую хронологию возникновения в композиторском творчестве. «Кумулятивность этой триады объясняется также тем фактом, что неофольклоризм не исключает всех способов переинтонирования фольклора, произведенных в фольклоризме XIX ст., а только добавляет к ним новые приемы, иногда качественно переосмысливая и трансформируя традиционные» [18.5]. Фольклор же, относится исключительно к музыке устной традиции.

## ЛИТЕРАТУРА


1. Джумакова У.Р. Творчество композиторов Казахстана 1920-1980-х годов. – Алматы, 2003. – с. 233
2. Недлина В. Пути развития музыкальной культуры Казахстана на рубеже XX-XXI столетий: дис….канд. искусствоведения. – Москва, 2017. – с 396
3. Алексеев Э. Фольклор в контексте современной культуры. – Москва, 1988. – с.224
4. Земцовский И. Фольклор и композитор. Теоретические труды. – Москва 1978. – с 174
5. Гусев Е. Фольклор//Народные знания.Фольклор. Народное искусство// Свод этнографических понятий и терминов. – Москва, 1991. – с 135-138
6. Айтуарова А. Народные традиции в массовой музыке Казахстана (на примере творчества Н. Тлендиева: Диссертация ….канд. искусствоведения. Алма-Ата, 1992. –с. 180с
7. Михайлова А. Фольклорные и неофольклорные стилевые тенденции в музыке отечественных композиторов для баяна: автореф. дис…..канд.

искусствоведения. – Саратов, 2006. – с 20
8. Земцовский И. От народной песни к народному хору: игра слов или проблема?// Традиционный фольклор и современные народные хоры и ансамбли// Вып 2. - Ленинград, 1989. – с 6-19
9. Деревянченко Е. Неофольклоризм в музыкальном искусстве: статика и динамика развития первой половины 20 века: автореферат дис….канд.искусствоведения. – Киев, 2005 – с.19
10. Гусев В. Эстетика фольклора. – Ленинград, 1967 – с. 320
11. Демченко А. Жанр фольклорной обработки в музыкальном искусстве России начала XX века // Развитие народных традиций в музыкальном исполнительстве, творчестве и педагогике. Межвузовский сб. научных трудов.- Екатеринбург, 2000. – с.62
12. https://dic.academic.ru
13. Иванова Л. Типология фольклора в русской музыке XX века: автореф.дис. …канд.искусствоведения.- Санкт-Петербург,2005. – с. 35
14. Григорьева Г. Стилевые проблемы русской советской музыки второй половины XX века, 50-80е годы. – Москва, 1989 – с.206

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.12.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# *KULTUROLOGİYA*

**UOT 929.78**

**M.Əhmədova**
professor
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı, Şəmsi Bədəlbəyli 98

## A.MƏLİKOV HAQQINDA YUBİLEY DÜŞÜNCƏLƏRİ

***Açar sözlər:*** *müasirlik, ənənələr, yenilik, musiqi dili, bəstəkarın üslubu*

Məqalədə görkəmli Azərbaycan bəstəkarının, SSRİ və Azərbaycanın xalq artisti Arif Məlikovun əsərləri təhlil edilir. Müəllif Azərbaycanın musiqi mədəniyyəti tarixində mühüm rol oynayan bəstəkarın əsərlərini təqdim edir.

Arif Məlikovun əsərləri Azərbaycan musiqisinin milli ənənələri kontekstində nəzərdən keçirilir.

**М.Ахмедова**

## ЮБИЛЕЙНЫЕ РАЗМЫШЛЕНИЯ О АРИФ МЕЛИКОВЕ

***Ключевые слова:*** *современность, традиции, новаторство, музыкальный язык, стиль композитора*

В статье рассматриваается творчество выдающегося азербайджанского композитора, народного артиста СССР и Азербайджана Арифа Меликова. Автор концентрирует свое внимание на этапных произведениях Арифа Меликова, которые сыграли важнейшую роль в истории музыкальной культуры Азербайджана. Творчество Арифа Меликова рассматривается в контексте национальных традиций азербайджанской музыки.

**M.Ahmedova**

## ANNIVERSARY REFLECTIONS ON ARIF MELIKOV

***Key words:*** *modernity, traditions, innovation, music language, the style of the composer*

The article discusses the work of an outstanding Azerbaijani composer, people's artist of the USSR and Azerbaijani Arif Melikov. The author concentrates in detail on the composer's landmark works, which played a crucial role in the history of Azerbaijan's musical culture.

The work of Arif Melikov is considered in the context of the national traditions of Azerbaijani music.

*«Живет только такая музыка, которая обладает либо свойствами общечеловеческого искусства, либо фольклора.»*
**Джордж Гершвин**

Arif Məlikov Azərbaycan bəstəkarlıq məktəbinin parlaq nümayəndəsi, milli musiqimizi zənginləşdirən bəstəkar, görkəmli ictimai xadim, gözəl pedaqoq Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Bəstəkarlıq" kafedrasının müdiridir. O, bu gün də fəallıqla, böyük enerji qüvvəsi ilə çalışan böyük şəxsiyyətdir. A.Məlikov haqqında bir çox tədqiqatçılar (Ş.Həsənova, Ü.İmanova, K.Nəsirova, İ.Əfəndiyeva, N.Ələkbərova və b.) dəyərli tədqiqat işləri yazıblar.

Arif Məlikov dahi Azərbaycan bəstəkarı Qara Qarayevin tələbəsi olaraq, öz yaradıcılığında onun ənənələrinə sadiq qalmışdır. Arif Məlikovun əsərlərini təhlil edərkən, biz müasir bəstəkarlardan S.Prokofyevin, D.Şostakoviçin, Q.Qarayevin, eləcə də impressionist bəstəkarların təsirini qeyd etməliyik.

Onun S.Prokoyefin yaradıcılığına olan marağı dahi bəstəkar Q.Qarayevin yaradıcılığından irəli gəlir. Q.Qarayev S.Prokoyefin vacib dramuturji üsullarını mənimsəmişdir və bacarıqla istifadə etmişdir. Misal üçün, Q.Qarayev ilk dəfə öz romanslarında "На холмах Грузии", "Я вас любил" Prokofyevin alterasiyalı D funksiyasını istifadə etmişdir ( $D_7^{7\#}$). Qeyd etdiyimiz alterasiyalı dominantanı nəinki, Q.Qarayevin özü, həmçinin onun bütün tələbələri zövqlə istifadə etmişdir.

Bildiyimiz kimi S.Prokofyev böyük novator bəstəkardır. O, ilk dəfə kino musiqisinin bəzi dramaturji priyomlarını balet janrına gətirmişdir (qəfildən sürətlə kadrların dəyişməsi və digər dramaturji priyomlar).

Bu dinamik dəyişmələrdə bəstəkar əsas qəhrəmanlarının Lenni və Sarrini müxtəlif və zəngin situasiyalarda göstərməyə nail olur.

A.Məlikov öz əsərlərində bizim dahi bəstəkarımız Ü.Hacıbəylinin ənənələrini yaşadır. Bu haqqda A.Məlikov özü bir neçə radio çıxışlarında inamla və qətiyyətlə söyləmişdir. Bildiyimiz kimi A.Məlikovun muğama olan məhəbbəti, onun əsərlərində öz əksini tapır. (bununla əlaqədar biz 4-cü simfoniyanı xatırlamalıyıq). Bu simfoniyada bəstəkar xüsusi olaraq "Cahargah" və "Humayun" muğamlarının şöbələrini orjinal səpkidə istifadə edir. Lakin, bu yeganə misal deyil. Bir çox tədqiqatçılar qeyd edirlər ki, onun yaradıcılığında bu iki muğam daha böyük əhəmiyyət kəsb edir.

Öz yaradıcılığında A.Məlikov demək olar ki, bütün janrlara müraciət etmişdir.

Səkkiz simfoniya, simfonik poemalar (o cümlədən «Nağıl», «Füzulinin xatirəsinə», «Metamorfozlar»), süitalar (o cümlədən «Məhəbbət əfsanəsi» baletindən süitalar), Konsertino (fleyta ilə simli orkestr üçün), müxtəlif orkestr pyesləri (o cümlədən «Simfonik rəqslər», «8 pyes», «12 pyes») bəstəkarın

simfonik yaradıcılığını təşkil edir.

Sənət yolunun müxtəlif mərhələlərində bəstəkar səhnə musiqisinə maraq göstərmiş, baletlər («Məhəbbət əfsanəsi», «İki nəfər», «İki qəlbin dastanı», «Əlibaba və qırx quldur»), operetta («Dalğalar»), dram tamaşalarına musiqi bəstələmişdir. İnstrumental musiqi növlərindən prelüdiya (fortepiano üçün), sonata (solo skripka üçün), süita və skertso (skripka və fortepiano üçün) kimi janrlara müraciət etmiş, fortepiano üçün miniatürlər (o çümlədən «Ötəri anlar») yaratmışdır. İrili - xırdalı vokal janrlar da A.Məlikovun yaradıcılıq diqqətindən kənarda qalmayıb: o, Tofiq Bayramın, Vaqif Səmədoğlunun, başqa şairlərin sözlərinə kantata və vokal-simfonik poemalar, Nazim Hikmətin şerlərinə romans silsilələri bəstələmişdir. Bəstəkarın qələmindən çıxmış əsərlər milli musiqi incilərinə yeni həyat vermişdir.

Balet və simfoniyalar, monumental vokal–orkestr əsərləri, kamera – instrumental əsərlər, kino və dram tamaşalarına musiqi, romans və mahnılar, fortepiano silsilələri, operettalar – bütün bu janrlarda A.Məlikov olduqca orjinal və özünə məxsus çıxış edir. O, öz fərdi yaradıcı mənliyini parlaq surətdə nümayiş etdirərək bir çox dəyərli əsərləri yaratmağa müvəffəq olmuşdur.

Bəstəkar müraciət etdiyi janrları ilk növbədə mövzu və obrazlar aləmi baxımından zənginləşdirmişdir. Onun yaradıcılığında yüksək ideya, dolğun məzmun, obrazların dərin emosional – psixoloji ifadəsi – bir sözlə əsərin yüksək əhəmiyyəti, hər zaman əsas məsələlərdən biridir.

Belə ki, bəstəkarın əsərlərinin fəlsəfi məzmunu müxtəlif mövzularda və bunları təcəssüm etdirən obrazlarda öz əksini tapır. Məsələn, **nağıl** mövzusunda yazılmış "Əlibaba və qırx quldur" baleti, "Nağıl" simfonik poeması və s; **kamera** əsərlərindəki məhəbbət lirikası (Nazim Hikmətin sözlərinə yazılmış romansların bir çoxu), xüsusi olaraq **dramatik** obrazların parlaq nümunəsi olan "Məhəbbət əfsanəsi", "İki qəlbin dastanı" baletləri, daha sonra 2,4,6 nömrəli simfoniyalar, "Metamorfozlar" simfonik poeması və s.

Beləliklə, janrların müxtəlifliyi Arif Məlikov musiqisinin məzmun və obraz dairəsinin geniş apmlitudasını təşkil edir. Bəstəkar bu rəngarəng obrazlar aləmini əks etdirən əbədi mövzuları (Xeyirlə Şərin mübarizəsini, məhəbbət, vətənpərvərlik, insansevərlik və s.) öz bəstəkar baxımından keçirərək, müasir musiqi üçün səciyyəvi olan üsullar ilə dinləyicilərə aşılayır.

Eyni zamanda o, bütün əsərlərində müasir insanın zəngin daxili aləmini – onun düşüncə və duyğularını, mənəviyyatını, dünyagörüşünü formalaşdıran bir çox problemlərin üzərində düşünməyə vadar edir.

A.Məlikovun zəngin sinfonik yaradıcılığı milli musiqimizə gözəl töhfələr vermişdir! O, milli sinfonik musiqi sahəsində aparıcı rol oynayan bəstəkar olaraq, XX əsrin sonu XXI əsrin əvvəlində bu janrın əsas inkişaf istiqamətini müəyyən edib.

Gerçəkliyin problemlərini, həyatımızda baş verən müxtəlif faciələri,

təzadları simfonik konsepsiyada ümumiləşdirmək, dolğun əks etdirmək bacarığı bəstəkarın böyük istedadından, onun yüksək intellektual səviyyəsindən irəli gəlir. Bu baxımdan A.Məlikov müəllimi Q.Qarayevin ənənələrini layiqincə davam etdirməkdədir.

Simfonik təvəkkür prinsipləri bəstəkarın başqa janrlarda yaratdığı əsərlərdə də öz əksini tapır. Xüsusən də onun baletlərində bu cəhət daha qabarıq şəkildə özünü büruzə verir.

Miniatür əsərlərə gəldikdə isə (romanslar, fortepiano pyesləri) o, insan qəlbinin xəfif bir duyğusunu, bir ovqatını əsl sənətkar kimi ustalıqla ifadə edərək, dinləyicilərin emosional hisslərinə olduqca sərbəst yol tapır.

Dahi Türk bəstəkarı Əhməd Adnan Sayqun Arif Məlikovun yaradıcılığı haqqda öz fikirlərini belə söyləyib:

"Mən Arif Məlikovun yaradıcılığında humanist yönümünü görürəm, onun insanlara müraciəti, xalqa bağlılığı, doğma torpağın, suyun, göyün izlərini...

Müasir zamanda əsasən əsərin texniki tərəfi ön plana çəkilir. Çoxları

bu texniki vasitələrdə özlərinin naliyyətlərini görürlər. Lakin Arif Məlikov bir müdrik ustad olaraq buna bir məqsəd kimi baxmır".

Digər tərəfdən bəstəkarın həm iri, həm də kiçik formalı əsərlərində dərin milli hisslər duyulur. Bəstəkarın yaradıcılığı Azərbaycan musiqisinin klassik ənənələrinə, əsasən muğam sənətinə söykənir. Dahi Üzeyir Hacıbəyli yazırdı ki, - "hər bir bəstəkar bəstəkarlıq texnikasına yiyələnməzdən əvvəl, milli alətlərimizdən birində mükəmməl çalmağı bacarmalıdır ki, həm xalq musiqisini dərindən mənimsəsin, həm də milli zəmində profesional əsər yarada bilsin". Vaxtı ilə tar ifaçılığının sirlərini öyrənən, muğamların, xalq musiqi nümunələrinin gözəlliyini qəlbinə hopduran Arif Məlikov bir bəstəkar kimi püxtələşib, yetişdikdən sonra öz musiqisində həmişə dahi Üzeyir bəyin tövsiyələrinə əməl etdiyindən, əsərləri daim sevilir və daim seviləcək!

A.Məlikov nəinki görkəmli bəstakar, eyni zamanda çoxlu sayda tələbə yetişdirən gözəl pedaqoqdur. O, Bakı Musiqi Akademiyasının "Bəstəkarlıq" kafedrasına rəhbərlik edir. A.Məlikovun tələblərinin əksəriyyəti müəllimdən mənimsədikləri ənənələri ləyaqətlə davam etdirirlər. Ulu Öndərimiz Heydər Əliyev müəllimlik sənəti haqqda demişdir: "Müəllimik şərəfli sənətdir. Azərbaycan müəllimləri, bu yüksək adı ləyaqətlə daşıyırlar!" Bu müdrik sözləri cəsarətlə müəllimlik adını şərəflə daşıyan, pedaqoq A.Məlikova şamil etmək düzgün olar.

Onun sinifində təhsil alan onlarla istedadlı gənc bəstəkar müəllimin himayəsi altında böyük həyat məktəbi keçir. Onlar kompozisiyanın əsaslarını öyrənməklə yanaşı, bəlkə bundan vacib olan keyfiyyətləri – vətənə, xalqa məhəbbət hissini, milli mənəvi sərvətləri göz bəbəyi kimi qorumaq, klassik ənənələrimizi yaşadıb, inkişaf etdirmək məsuliyyətini mənimsəyirlər.

[1.] Нелли Алекберова, «Ариф Меликов» Баку, Издательство «Ишыг» 1988, стр. 5.

[2.] Azərbaycan müəllimi.- 2010.- 10 dekabr.- S.4.

Bakı Musiqi Akademiyasının "Bəstəkarlıq" kafedrasının professoru, "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" Ceyhun Allahverdiyevin öz sevimli müəllimi haqqında söylədiklərini sizə çatdırmaq istəyirik.

"Mən Arif müəllimin bütün yubileylərinin canlı şahidi olmuşam.

İlk dəfə 1993-cü ildə Arif Məlikovun 60 illik yubileyi ilə əlaqədar keçirilən, əsərlərindən ibarət konsertdə (3-cü kurs tələbəsi kimi) mən böyük müəllimimə həsr etdiyim 3 hissəli fortepiano sonatasını onun öz istəyi ilə Bakı Musiqi Akademiyasının böyük zalında ifa etdim. Bundan əlavə mən öz müəllimimə böyük ehtiram və minnətdarlıq hissimi ifadə etdirərək, 2-ci simfoniyamı da ona həsr etmişəm.

2016-cı ilin dekabrın 16-da M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında görkəmli bəstəkar, Xalq Artisti, Dövlət və Heydər Əliyev mükafatları laureatı, professor Arif Məlikovun "Not əsərlərinin tam külliyyatı"nın təqdimat mərasimi keçirilmişdir. Bəstəkarın təqdimatı keçirilən 28 cilddən ibarət "Not əsərlərinin tam külliyyatı" dövlətimizin başçısının dəstəyi sayəsində ərsəyə gəlib". Mən bu nəşrin musiqi redaktoruyam.

Eyni zamanda bu yaxınlarda A.Məlikovun yubileyində mən fəal iştirak etmişəm.

Biz əziz müəllimimizin ənənələrini qoruyaraq davam etdiririk və öz tələbələrimizə də onlara sadiq qalmağı tövsiyə edirik".

Qeyd etmək lazımdır ki, Arif Məlikov Vətəninin əsl vətəndaşdır. O, ötən əsrin 90-cı illərində baş verən qanlı Qarabağ hadisələrini dərindən duymuşdur. Öz vətəndaşlıq hiss və həyəcanlarını, doğma yurduna olan vətənpərvər münasibətini A.Məlikov "Mən ittiham edirəm..." adlı fundamental kitabında parlaq surətdə ifadə etmişdir. Kitab Bakıda "Gənclik" nəşriyyatında, 1994-cü ildə nəşr edilmişdir. Bu kitabın əsasını ölkənin siyasi və hərbi orqanlarının yalanlarını və saxtakarlıqlarını ifşa edən nadir sənədlər, eləcə də bir çox insanların şəxsi müşahidələri və dəlilləri təşkil edir. Arif Məlikovun "Mən ittiham edirəm...." kitabı müəllif tərfindən 1990-cı il 19-20 yanvar hadisələrinin qızğın və alovlu bir dövründə toplanmış materiallara əsaslanan sənədli oçerkdir.

Arif Məlikovun yaradıcılığı vətənimizin, millətimizin mədəniyyəti tarixində bütöv bir mərhələdir. Bu mərhələ kamil sənətkarın bu günki fəaliyyəti ilə davam edir.

A.Məlikov bu gün də mədəniyyətimizin tərəqqisi uğrunda çalışaraq XXI sər musiqimizin səlnaməsini yaradan sənətkarlar sırasında şərəfli bir yer tutur.

Sevimli bəstəkarımız hər zaman yaradıcılıq axtarışlarındadır. O, ölkənin ictimai həyatında fəal iştirak edir. Radio və televizyada çıxış edir. Gənc müəlliflərin yaradıcı təşəbbüslərini dəstəkləyir, onlara əl tutur. Eyni zamanda bir-birindən dəyərli və gözəl əsərlərin üzərində çalışır.

Bütün deyilənlər bir daha təsdiq edir ki, A.Məlikovun yaradıcılığı musiqi

təfəkkürünün fəlsəfi mahiyyətinin inkişafında orjinal və təkrarolunmazdır!

Üzeyir Hacıbəyli adına keçirilən Elmi Şurada hörmətli rektorumuz, SSRİ və Azərbaycan Respublikasının xalq artisti, Azərbaycanın Dövlət mükafatı laureatı, Fərhad Bədəlbəyli Arif Məlikov yaradıcılığını yüksək qiymətləndirirək, onun haqqında dəyərli və səmimi sözlər demişdir və yubilyarı təbrik etmişdir.

Onu da nəzərinizə çatdırmaq istəyirik ki, 2018-ci ilin dekabr ayında Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında böyük bəstəksarımız Arif Məlikovun 85 illik yubileyinə həsr olunmuş, pianoçuların Respublika müsabiqəsi keçiriləcək.

Müsabiqənin məqsədi gənc musiqiçiləri aşkara çıxarılmasından və onlara yaradıcı dəstəyin göstərilməsindən, onların yaradıcı potensialının inkişaf etdirilməsindən, eləcə də, Azərbaycanın piano məktəbinin ən yaxşı pedaqoji ənənələrinin qorunub saxlanmasından və inkişaf etdirilməsindən ibarətdir.

Müsabiqənin sədri Ü.Hacibəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəylidir.

Bu müsabiqənin keçirilməsi haqqında Əməkdar müəllim, professor, fortepiano fakültəsinin dekanı Nəzakət xanım Rimazi ətarflı məlumat vermişdir.

Biz məqələmizin sonunda bu müsabiqənin şərtləri ilə sizi tanış edirik:

**Arif Məlikovun 85 illik yubileyinə həsr olunmuş, pianoçuların Respublika müsabiqəsi**

17.12.2018-19.12.2018 Ərizənin təqdim olunduğu ünvan
Müsabiqə 17.12.18-19.12.18-ci tarixində Bakı şəhərində 2 mərhələdən ibarət olmaqla keçiriləcəkdir. Müsabiqədə iştirak etmək arzusunda olan pianoçular 10.11.2018-ci ilə qədər sənədləri Bakı Musiqi Akademiyasının fortepiano fakültəsinin dekanlığına və ya n.competition@outlook.com e-mail adresinə təqdim edə bilərlər, (tel.: +994513030309).

**Müsabiqəyə təqdim olunan sənədlər**

- İştirakçının ərizəsi
- Doğum haqqında şəhadətnamə və ya şəxsiyyət vəsiqəsinin surəti
- 13*18 ölçüdə rəngli fotoşəkil (2ədəd)
- 2 tur üzrə ifa olunan proqram

**Müsabiqənin şərtləri**

- Müsabiqədə 16-28 yaş arasında olan pianoçular iştirak edə bilər
- Müsabiqə 2 turdan ibarətdir
- Finala 6 iştirakçı qalacaqdır
- Qaliblər münsiflər heyəti tərəfindən müəyyən edilir və bütün iştirakçılara xüsusi sertifikat təqdim olunur
- Münsiflər heyətinin qərarı həlledicidir: şikayət qəbul edilmir və təkrar müzakirə olunmur

- Qaliblərə pul mükafatı və diplom təltif olunur:

I ci yer - 500 manat və 1-ci dərəcəli diplom.
II ci yer - 300 manat və 2-ci dərəcəli diplom
III cü yer - 200 manat və 3-cü dərəcəli diplom

- Müsabiqə laureatlarının pedaqoqlarma diplom təqdim olunacaq

**Müsabiqənin məqsədləri:**

Müsabiqənin məqsədi gənc musiqiçiləri aşkara çıxarılmasından və onlara yaradıcı dəstəyin göstərilməsindən, onların yaradıcı potensialının inkişaf etdirilməsindən, eləcə də, Azərbaycanın piano məktəbinin ən yaxşı pedaqoji ənənələrinin qorunub saxlanmasından və inkişaf etdirilməsindən ibarətdir.

**Müsabiqənin Proqramı**

I Tur (15 dəqiqə):
İ.S.Bax, D.D.Şostakoviç - Prelyudiya və Fuqa
Sonatalar: Y.Haydn, V.Motsart, L.V.Bethoven (1-ci və ya 2-3cü hissələr)
Etüdlər: F.Şopen. F.List. A.Skryabin. S.Rahmaninov, S.Prokofyev.
II Tur (20-25 dəqiqə);
XIX - XX əsrin iri həcmli əsərləri Arif Məlikovun əsəri.

**Müsabiqənin sədri:**

Ü.Hacibəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ və Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı, professor Fərhad Bədəlbəyli

- Təşkilat komitəsinin sədri:

Nəzərova Nərgiz - Bakı Musiqi Akademiyasının müəllimi Jüri üzvləri:
Nərminə Quliyeva - Azərbaycanın əməkdar müəllimi, professor Nəzakət Rimazi - Azərbaycanın əməkdar müəllimi, professor Samirə Aşumova Azərbaycanın əməkdar artisti, professor Elnarə Kəbirlinskaya - Azərbaycanın əməkdar artisti, professor.

**Layihənin müəllifi və bədii rəhbəri Nəzərova Nərgiz**

## ƏDƏBİYYAT

1. İmruz Əfəndiyeva. Axtarış yollarının bəhrəsi. – B.: “Zərdabi LTD” MMC , 2014
2. Azərbaycan Bəstəkarlar İttifaqı. Məlumat kitabçası. – B.: “Xatun PLyus” , 2012
3. Əliyeva F.Ş. XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin qaynaqları. – B.: “İçərişəhər” , 2006
4. Ramiz Zöhrabov. Azərbaycan Muğamları. – B.: “Təhsil” , 2013
5. Нелли Алекберова. Ариф Меликов. – Б.: “Ишыг” , 1988

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**tarix üzrə elmlər doktoru Fuad Məmmədov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.01**

**Ş.Baxışova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: sharafat_baxishova 1960@mail.ru

# UŞAQLARIN KULTUROLOJİ PARADİQMA BAXIMINDAN SOSİAL İNKİŞAFI

***Açar sözlər:*** *məktəbəqədər dövr, idrak fəaliyyəti, şəxsiyyət, vasitələr, sosial-mədəni prinsiplər, sosial inkişaf*

Hazırda təhsil sisteminin qarşısına qoyulmuş əsas vəzifə təhsilin dünyəvilik, sivillik, ümumbəşəri mövqedən yeniləşdirilməsi və uşaq şəxsiyyətinin formalaşdırılmasıdır. Uşaq şəxsiyyətinin formalaşması üçün təhsildə demokratikləşdirmə və humanistləşdirmə əsas şərtlərdən biridir.

Sosial-iqtisadi dəyişikliklər, təhsil sahəsində islahatlar dövründə idrak prosesinin mükəmməl təşkili birinci növbədə inkişafetdirici təlimin həyata keçirilməsini, bu prosesin təhsilin bütün pillələrini əhatə etməsini tələb edir. Getdikcə artan informasiya axını uşaqlara xas olan idrak fəaliyyətini nəzərə alaraq fikri qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkir.

**Ш.А.Бахышева**

# СОЦИАЛЬНОЕ РАЗВИТИЕ ПАРАДИГМАЦИИ ДЕТСКОЙ КУЛЬТУРЫ

***Ключевые слова***: *дошкольный этап, познавательная деятельность, личность, средства, социально-культурные принципы, социальное развитие*

В настоящее время главной задачей системы образования является образование, цивилизация, глобальные позиции, обновление и формирования личности детей. Детское образование, демократизация и гуманизация являются главными условиями для формирования личности.

Социально-экономические перемены общественной жизни нашей страны внесли соответствующие изменения в систему дошкольного образования, ставшей многофункциональной по своему предназначению.

Одним из важных направлений в развитии познавательной деятельности дошкольников выступает создание условий, обеспечивающих полноценное умственное развитие детей, связанное с формированием устойчивых познавательных интересов, умений и навыков мыслительной деятельности, качеств ума, творческой инициативы.

**Sh.A.Bakhishova**

## SOCIAL DEVELOPMENT OF CHILDREN'S CULTUROLOGY PARADIGMAGE

***Key words:*** *preschool stage, informative activity, the person, funds, socially-cultural principles, social development*

At present, the main task of the educational system to the secularization of education, civility, global position, renewal and identity formation of children. Children's education, democratization and humanization is the main conditions for the formation of person.

Social and economic changes of public life of our country have brought respective alterations in system of the preschool education, become multipurpose on the mission. As one of important directions in development of informative activity of preschool children creation of the conditions providing high-grade intellectual development of children, connected with formation of steady informative interests, skills of cogitative activity, qualities of mind, the creative initiative acts.

Hazırda təhsil sisteminin qarşısına qoyulmuş əsas vəzifə təhsilin dünyəvilik, sivillik, ümumbəşəri mövqedən yeniləşdirilməsi və uşaq şəxsiyyətinin formalaşdırılmasıdır. Uşaq şəxsiyyətinin formalaşması üçün təhsildə demokratikləşdirmə və humanistləşdirmə əsas şərtlərdən biridir.

Müasir dövrdə həyatın bütün sahələrində, o cümlədən, təhsildə baş verən dəyişikliklər insanda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, yeni şəraitdə özünütənzimləmə, özünütəyinetmə, özünütəsdiq kimi xüsusiyyətləri aşkara çıxarmaq üçün vacibdir. Bununla əlaqədar istənilən səciyyəvi tədris müəssisəsi sosial dəyişikliklərdən asılı olmadan sosial inkişafa uyğun müstəqillik və təşəbbüs göstərməyə hazır olan yaradıcı şəxsiyyətə istiqamətlənməlidir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd olunduğu kimi, "yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq zəruri tələblərdən biridir. Bu həm təhsilin məzmunu, həm də təşkili üçün əsas kriteriyalardandır" [1].

Təhsilin yaradıcı şəxsiyyət formalaşdırmaq missiyası onun humanist, humanitar xarakterini meydana çıxarır, yeni məzmun, pedaqoji texnologiyalar və idarəetmə sistemində gözlənilməsi ciddi tələb kimi nəzərə alınır. Yeni konsepsiyaya uyğun olaraq təhsilalanlarda keyfiyyət göstəricilərinin, dialoji mədəniyyətin formalaşdırılmasına üstünlük verilir.

Şəxsiyyətin sosial inkişafı sosiallaşma baxışlarından biri, onun vasitə və nəticəsidir. Fəlsəfədə şəxsiyyətin sosiallaşması anlayışı bu və ya digər mədəni ənənə üçün xarakterik olan fəaliyyət və davranış proqramlarının mənimsənilməsi, onların sosial təcrübəyə yiyələnməsi və fəal şəkildə həyata keçirilməsi prosesi kimi başa düşülür.

Uşaqların hərtərəfli inkişafı onun sosiallaşması prosesində baş verən mühüm pedaqoji prosesdir. Bu keyfiyyətlər hər bir fərdin sosial-mədəni inkişafında, cəmiyyətin mənəvi təcrübəsində özünün daxili tələblərinə uyğunlaşdıraraq mənimsədiyi, qəbul etdiyi xassələr kimi başa düşülür. Bu keyfiyyətlərin formalaşdırılması hər bir tarixi inkişaf mərhələsində tərbiyə, özünütərbiyənin mühüm vəzifələrindən biri olmuşdur.

Şəxsiyyətin sosial inkişafı fəaliyyət zamanı həyata keçirilir. Fəaliyyət zamanı, böyüməkdə olan insan özünüfərqləndirmədən, özünüdərketmədən, özünümüəyyənləşdirməyə, sosial cəhətdən məsuliyyətli davranışa, özünüreallaşdırmaya doğru yol keçir.

Sosial-iqtisadi dəyişikliklər, təhsil sahəsində islahatlar dövründə idrak prosesinin mükəmməl təşkili birinci növbədə inkişafetdirici təlimin həyata keçirilməsini, bu prosesin təhsilin bütün pillələrini əhatə etməsini tələb edir. Getdikcə artan informasiya axını uşaqlara xas olan idrak fəaliyyətini nəzərə alaraq fikri qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkir.

Təhsildə səriştəlilik-şərəf, ləyaqət, məsuliyyət, mükəmməl bilik, aldığı bilikdən istifadə edərək xeyir vermək və onu başqalarına çatdırmaq, bunlara mane olan əməllərə qarşı barışmaz mövqe tutmaq bacarıqlarını formalaşdırır. Deməli, yüksək səviyyədə səriştəlilik geniş bilik, bacarıq və vərdişlərin formalaşdırılmasında şəxsi, institusional və ictimai inkişafın əsas faktoru, təlim prosesinin keyfiyyətinin yüksəldilməsi vasitəsi olub, dünya təhsil sferasında təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir [3, 22-30].

Təhsil sisteminin inkişafının yeni mərhələsi bir sıra tendensiyalarla xarakterizə olunur:

- təhsilin mahiyyətini anlamaq üçün kulturoloji aspektlərə istiqamətlənmə;
- şəxsiyyətin sosial keyfiyyətlərin (millətlərarası, şəxsiyyətlərarası, hüquqi tərbiyə, vətəndaşlıq, tolerantlıq) vəhdəti kimi qəbul edilməsi çərçivəsindən çıxmaq və onun pedaqoji prosesin əsasını təşkil edən subyektiv

keyfiyyətlərini (muxtariyyət, müstəqillik, özünütənzimləmə, mədəni-yaradıcılıq) aktuallaşdırmaq;

- uşağa qarşı unikal fərdiyyətə malik olan mədəni ünsiyyət subyekti olaraq münasibət;
- şəxsi və sosial inkişaf mexanizmlərinin formalaşdırılması və öyrənilməsi probleminin pedaqoji prosesin təşkilinin əsası kimi aktuallaşdırılması.

Müasir təhsilin yenilənməsinin ən mühüm əsaslarından biri humanistik dəyərlərə olan ümumi istiqamətlənmə və pedaqogika nəzəriyyəsinə "kulturoloji paradiqma", "mədəni-yaradıcılıq","mənadoğuran qarşılıqlı təsir","dini maariflənmə", "sosial səriştəlilik" və s. kimi yeni kateqoriyaların daxil olmasıdır. Müasir təhsilin yenilənməsi göstərilən tendensiyalara daha çox uyğun gələn paradiqmaların intensiv axtarışı ilə müşaiyət olunur.

Hazırda mövcud olan təhsil paradiqmaları "əsas təhsil parametrləri sistemində müəyyən elementin sosiomədəni fenomen kimi üstünlük təşkil etməsindən asılı olaraq" formalaşmışdır. Təhsil sistemindəki dəyişikliklərin müasir tendensiyaları dünya elminin, mədəniyyətinin və ictimai inkişafın proqressini əks etdirən məzmun və metodlarının yenilənməsi ilə bağlıdır.

Təhsil sistemində edilən dəyişikliklərin əsas məqsədi - böyüməkdə olan nəslin müasir həyatın reallıqlarına, aktiv yaradıcı fəaliyyətə, şəxsi və qlobal problemləri həll etmək bacarığına hazırlamaqdır. Müasir şəraitdə bu məqsədə nail olmağa təhsilin kulturoloji paradiqması kömək edə bilər.

Kulturoloji paradiqmada xüsusi yeri mədəni fenomen hesab edilən uşaqlıq dövrü tutur. Tərbiyəyə qarşı humanistik yanaşmanın əsas tendensiyalarını əks etdirən müasir konsepsiyaların analizi uşaqlığı sosiomədəni mentallığın qurulması forması kimi, uşaqların dialoq vasitəsilə böyüklərin cəmiyyətinə inteqrasiyası üsulu kimi, yeni nəslin mədəniyyət aləminə inteqrasiyasının müəyyən mərhələsi kimi nəzərdən keçirməyə imkan verir.

Uşaqlığın sosiomədəni, tarixi bir fenomen olaraq qəbul edilməsi uşaqla mədəniyyətin qarşılıqlı təsirinin mahiyyətini açıqlayan bir sıra mövqeləri müəyyənləşdirməyə imkan verir.

L.S.Vıqotskinin [4] fikrinə görə, bu münasibət ikilidir: bir tərəfdən - inkişaf prosesində uşaq mədəni dəyərləri mənimsəyir, onlar onun psixikasına "hopur", digər tərəfdən - uşağın özü mədəniyyətə "hopur".Bu proses onun mədəniyyət zamanı və məkanında özünümüəyyənləşdirməsi ilə, ən sadə mədəni üsullarla ifadə edilən dəyər, üsul və hərəkətləri mənimsəməsi ilə bağlıdır. Uşağın mədəniyyətlə qarşılıqlı təsiri uşaqlıq submədəniyyətinin uşağın reallığı mənimsəməsi və orada özünütəsdiqləməsi üsulu olaraq formalaşmasını təmin edir. Mədəni dəyərlərə cəlb olunmaqla uşaq onları öz şüurunda interiorizasiya edir və bu da daxili azadlıq hissi yaradır. Sosial inkişaf probleminin uşaqlıq zaman və məkanında öyrənilməsi belə bir nəticəyə gətirib çıxarır ki, məhz

mədəniyyət fərdi yaradıcılığın inkişaf etdiyi həmin sahədir. Bir çox unikal xarakteristikaların vəhdəti ilə seçilən, azadlığa, hərəkətə, saflığa can atan uşaqlıq dövrü onun mənəvi inkişafı prosesinin baş verdiyi, aparıcı fəaliyyət növlərinə olan tələbatların reallaşdığı, insanlar arasındakı qarşılıqlı təsirin mahiyyətinin dərinləşdiyi, mədəni dəyərlərin, mədəni-yaradıcılığın interiorizasiyasının baş verdiyi sahəni yaradır.

Mədəniyyəti yaratmaq funksiyası sosial inkişafın mühüm mexanizmlərindən biri, uşaqlıq dövrünün inkişaf etdiyini göstərən aparıcı meyardır. Mədəniyyət fenomeninin özünü "insanın yaradıcı bacarıqlarının müxtəlif miqyaslı və səviyyəli subyektlərin inkişafetdirici ünsiyyəti üçün mühit təşkil edən universumu" kimi nəzərdən keçirən V.T.Kudryavtsev sübut edir ki, tarixi mədəniyyətin özü uşaq üçün didaktik maraq obyekti və ya subyektiv yenilik daşıyıcısı deyil. O, uşaq fəaliyyətinin məzmununa çevrilərək obyektiv cəhətdən yeni, bundan öncə ona xas olmayan materialın funksiyasını əldə edir və uşaq bu material üzərində ümumbəşəri bacarıqlar sistemini və bu bacarıqlarla insani münasibətlər sistemində istiqamətlənməni "yoxlayır". Deməli, uşaq mədəniyyəti sadəcə olaraq mənimsəmir, həm də yaradır. O, mədəniyyəti yeni ideya və əşyalar şəklində deyil, yeni universal bacarıqlar şəklində yaradır. Bu bacarıqlara yaradıcı təxəyyül, digər insanın mövqeyinə istiqamətlənmə, sərbəstlik, refleksiya elementləri, əşyalarla davranışın ümumi üsulları, universal təfəkkür formaları və özü kimilərə qarşı əxlaqi münasibət aid edilir.

Uşağın sosial mədəniyyətə cəlb edilməsi prosesi olaraq sosial inkişafın məqsədinin müəyyənləşdirilməsi cəmiyyətə birmənalı uyğunlaşmanı və universal sosial bacarıqların təşəkkül etməsini təmin edir və təhsildə bu istiqamətin saxlanılması məsələsini nəzərdən keçirməyə imkan verir.

Məktəbəqədər təhsilin məzmununa uyğun olaraq, sosial inkişaf aspektində mədəniyyətin bu bölmələrinə və pedaqoji prosesin təşkilinin onlara uyğun olan istiqamətlərinə toxunula bilər:

- əxlaqi tərbiyəyə daxil edilən ünsiyyət mədəniyyəti;
- vətənpərvərlik tərbiyəsi və dini maarifləndirmə prosesində reallaşdırılan milli mədəniyyət;
- beynəlmiləl tərbiyəyə daxil edilən etnik mədəniyyət;
- məzmunu hüquqi idrakın əsasları bölməsində göstərilən hüquqi mədəniyyət.

Bu cür yanaşma ekoloji, əqli, əmək, valeoloji, estetik, fiziki, iqtisadi tərbiyə bölmələrini müstəsna edərək, sosial inkişafın məzmununu bir qədər məhdudlaşdırır. Lakin bu halda, birincisi, sosial inkişafın sosial (ictimai, yəni başqa insana yönəlmiş) tərifi vasitəsilə müəyyənləşdirilməsi dəqiqləşdirilməlidir. İkincisi, bu bölmələrin vurğulanması şərtidir, belə ki, sosial inkişaf prosesinin texnoloji təchizatı kompleks yanaşmanın reallaşdırılmasını nəzərdə tutur. Üçüncüsü, bu bölmələrin bütöv pedaqoji

prosesdən şərti olaraq ayrılması qanunauyğunluğu uşağın məktəbəqədər yaş dövründə sosial eyniləşdirilməsi ilə bağlı olan zəruri əsaslardan biri ilə təsdiqlənir.

Məktəbəqədər yaş dövründə fəaliyyətin inkişafetdirici potensialı onun spesifik xüsusiyyətləri ilə bağlıdır:

- reallığın çoxsaylı problemlərini tez qəbul etmək;
- təxəyyüldə bütöv obyekti qura bilmək imkanını təmin edən universal plastiklik;
- təşəbbüskarlıq;
- motivasiyanın praqmatik olmaması;
- çoxfunksiyalılıq;
- sinkretiklik;
- məna tərəfinin əməliyyat-texniki tərəflə müqayisədə üstünlüyü;
- emosional dolğunluq və ifadəlilik;
- uşağın böyük obrazına istiqamətlənməsi (öz imkanlarının böyük obrazında şəxsləndirilməsi) (V.T.Kudryavsev).

Məktəbəqədər yaşlı uşaqların sosial inkişafı prosesi mədəni dəyərlərin uşaq tərəfindən mənimsənilməsindən çox, uşaqda ona qarşı şəxsi münasibətin yaranmasını, mədəni dəyərlərin şəklini dəyişərək onların şəxsi nailiyyətlərə çevrilməsini nəzərdə tutur.

Məktəbəqədər yaşlı uşağın psixi proses və funksiyaları inkişaf etmək xüsusiyyətinə malik olduğundan onun eyniləşdirilməsi, özünü digər insanlara oxşatma gedişində yaranan empatik hisslər əsasında mümkündür. Əksər hallarda uşaq özünü parlaq emosional reaksiya yaradan obyektlə eyniləşdirir.

Artıq məktəbəqədər yaş dövründə, sosial təcrübə ictimai təcrübənin qavranılmasının nəticəsi olaraq sosiallaşdırma-fərdiləşdirmə prosesi zamanı mühüm əhəmiyyət kəsb edir.

N.N.Poddyakov yazırdı: "Bəşəriyyətin bütün nailiyyətləri, onun mədəniyyəti axtarış fəaliyyətinin nəticəsidir... Uşaqların insani mədəniyyətə yiyələnməsi onlarda yorulmaz, tükənməz axtarış yaradır. Bu axtarış uşaq yaradıcılığının əsası kimi çıxış edir" [5,37].

Məktəbəqədər yaşlı uşaqların sosial inkişafına kommunikativ, milli, etnik, hüquqi mədəniyyətin dəyərləri tətbiq edilə bilər. Kulturoloji yanaşma, insanın doğulduğu və yaşadığı yerin hər şəraitini, onun yaxın əhatəsinin özünəməxsusluğunu və ölkəsinin, şəhərinin tarixi keçmişinin spesifikliyini, xalqının, etnosunun nümayəndələrinin əsas dəyərlərini nəzərə almağa imkan verir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Təhsil Qanunu // Təhsil xəbərləri. 2009, № 6, s.12-57.

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi”, 2013, 25 oktyabr, № 41

3. Mehrabov A.O. Təhsilalanların ümumi kompetensiyalarının formalaşmasında pedaqoji monitorinqin imkanları // Məktəbəqədər və ibtidai təhsil, 2010, № 4, s. 22-30

4. Выготский Л.С. Избранные психологические исследования. М.: АПН РСФСР, 1995, 439 с.

5. Поддяков Н.Н. Особенности психического развития детей дошкольного возроста. М.,1996,136 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 14.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Laçın Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 159.922**

**Ə.İbrahimova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: eesmaye@mail.ru

# TƏLƏBƏ GƏNCLƏRİN ŞƏXSİYYƏTLƏRİNİN STRUKTURUNDA CİNSİ XÜSUSİYYƏTLƏRİN TƏHLİLİ

***Açar sözlər:*** *Gənclik, şəxsiyyət, tələbə, universitet, təhsil, oğlanlar, qızlar*

Bu məqalədə tələbə gənclərin şəxsiyyətlərinin strukturunda mövcud olan cinsi xüsusiyyətlərdən bəhs olunmuş və onların tələbə oğlan və qızların davranışına, ünsiyyət tərzinə, ailədə və cəmiyyətdə tutduqları mövqeyə təsiri təhlil olunmuşdur.

**А.Ибрагимова**

# АНАЛИЗ ПОЛОВЫХ ХАРАКТЕРИСТИК В СТРУКТУРЕ ЛИЧНОСТИ СТУДЕНТОВ МОЛОДЁЖИ

***Ключевые слова:*** *юность, личность, университет, образование, мальчики, девочки*

В этой статье проведён анализ половых характеристик в структуре личности студентов молодёжи и его влияние на общение между студентами-мальчиками и студентами-девочками, а также их поведение и занимаемая позиция в семье и в обществе.

**A.Ibrahimova**

# ANALYSIS OF SEXUAL CHARACTERISTICS IN THE STRUCTURE OF THE PERSONALITY OF YOUNG STUDENTS

***Key words:*** *Youth, personality, student, university, education, boys, girls*

This article deals with sexual characteristics existing in the structure of student youth personality and their influence on the behaviors and communication style of the student boys and girls, the position they hold in the family and society have been analyzed.

Gənclik həyatın sosial dəyərlərə uyğun təklif etdiyi şəxsi keyfiyyətlərin müstəqil seçim dövrüdür. Gənclikdə qazanılmış xüsusiyyətlər şəxsiyyətin sonrakı yaş dövrlərində özünü göstərəcək psixoloji və sosial kamilləşmənin istiqamətini müəyyənləşdirir. Məhz bu dövrdə hər bir şəxsdə həyata müstəqil baxış, fərdi həyat imici və əxlaqi dəyərlərə uyğun müstəqil davranış formalaşır. Həm oğlan, həm də qızlar üçün gənclik dövrünə xas olan ümumi xüsusiyyətlərlə yanaşı müstəqillik əldə etmiş fərqli xüsusiyyətlər kompleks halda birləşərək gənc qız və oğlanın cinsi fərqlə xarakterizə olunan psixoloji portretini müəyyənləşdirir. Gəncliyə məxsus cinsi xüsusiyyətlər sonrakı yaş dövrlərində həyatın tələbinə uyğun təkmilləşərək yaşayış tərzinin müsbət və ya mənfi emosional çalarlarla zənginləşdirilməsində başlıca amilə çevrilir. Nümunəvi şəxsiyyət stereotipinin seçimində təhsil sisteminin tələbə gənclərə təsiri böyükdür. Nəticə isə cəmiyyət üçün yararlı, yüksək səviyyəli gənclik xüsusiyyətlərinin daşıyıcıları olan şəxsiyyətlərin mövcudluğuna zəmanətdir. Təhsildən kənarda gənclərin bu seçimi təbii şəraitdə baş verdiyindən nəticə əksər hallarda ürək açan olmur.

Tələbəlik illərini yada salsaq, bunun necə stresli bir o qədər də gözəl illər olduğunu görərik. Bu gün bütün insanlar üçün universitet oxumaq bütün problemlərin həlli olaraq görülür. Əgər tələbəni kobudca qruplaşdırsaq, yetkinliklə uşaqlıq dövrünün arasında, özünə gələcəkdə sosial yetkinlik qazanmağa və bu cəmiyyətdə bu dünyada özünə yer tutmağa çalışan fərd nəzərdə tutulur. Gənclik dönəminə tuş gələn tələbəlik ən aktiv və ən dəyişkən həyat mərhələsidir. Bu dövrdə aktivlik həm fiziki həm də psixoloji formatda biruzə verir. Hələ tələbə adının qazanılmasından əvvəl, abituriyent bir çox psixoloji gərginliklərə məruz qalır. Universitet oxumağın ən əsas məqsədi müəyyən bir peşəyə, işə sahib olmaq bununla da müəyyən sosial hörmət qazanaraq, status sahibi olmaqdır. Eyni zamanda şəxsiyyətini inkişaf etdirməkdir. Bütün bunları abituriyent gözləri qarşısına gətirərək stress dediyimiz hala düşə bilir. Tələbə adını aldıqdan sonra da yeni stress mənbələri yaranır. Adətən tələbələr imtahanlarla bağlı problemləri universitet müəllimlərinin ya da xüsusi tütorların köməyi ilə həll edirlər.

Tələbə gənclər arasında cinsi xüsusiyyətlərinə görə də fərqlər vardır. Mövcud metodika üzrə aparılmış tədqiqatdan əldə edilmiş nəticələrə əsasən tələbə qız və oğlanların fərdi-psixoloji xüsusiyyətləri təyin edilir. Məqsəd tələbə gənclərin cinsi xüsusiyyətlərinin öyrənilməsi ilə bağlıdır. Tələbə qızlarla aparılan tədqiqatlardan sonra müəyyən olunmuşdur ki, həyat şəraiti və yaş dövrləri ilə bağlı dəyişikliklərin təsiri böyükdür. A qrup qızlarda zəiflik, qayğıkeşlik, mehribançılıq və gəncliyin gözəlliyi, B qrup qızlarda övlada məhəbbət və ana olmağı ilə fəxr etmə hissi, C qrup qızlarda isə koryeraya meyllik, problemlərdən qorxmazlıq kimi xüsusiyyətlər özünü qabarıq şəkildə göstərir. Belə təbii müşahidədən bəlli olmuşdur ki, A qrupunda təsvir olunmuş

gənc qıza xas olan xüsusiyyətləri demək olar ki, əksər subay qızlarda, B qrupunda təsvir olunmuş ana obrazına xas olan xüsusiyyətləri isə ana olmuş qadınların çoxusunda izləmək mümkündür. C qrupunda təsvir olunmuş qadın surətinə xas olan xüsusiyyətlər ictimai həyatda daim öndə olmağa alışmış qadınlarda tez-tez təsadüf olunur. Təhsildə və ictimai həyatda aktiv olmayan qızlar isə həyatın onlara bəxş etdiyi yaşam tərzi ilə çox vaxt tez barışırlar. Ali arzular uğrunda mübarizəni isə çox vaxt özləri üçün əlçatmaz hesab edirlər. Deməli, qızların təlim-tərbiyəsi onların xüsusiyyətlərinin formalaşmasına təsir edən amillərdəndir. Bu proses həmçinin onların özlərinə həyat partnyorlarının seçiminə və seçimdən aslı olaraq sonrakı talelərinə də böyük təsir göstərir. Səmimilik göstəricilərinə görə aparılan tədqiqatlarda müəyyən olunmuşdur ki, qızlarda məsuliyyət və ünsiyyətcillik kimi xüsusiyyətlər daha üstünlük təşkil edir. Bu nəticə həm oğlanların qızlara verdiyi qiymətlər, həm də qızların qızlara verdiyi qiymətlər əsasında müəyyənləşdirilib. Tələbə qızların mövcud gənclik müstəqilliklərinin səviyyəsini yoxlamaq baxımından tədqiqatlar da aparılmışdır. Tədqiqatdan sonra müəyyən olunmuşdur ki, qızlar gənclik dövründə müstəqildirlər, lakin müstəqillik səviyyəsi çox da yüksək deyil. Qızların daha çox müstəqillik nümayiş etdirdikləri sahə sənət seçimi ilə bağlıdır. Qızlar ailə qurmaqla , müstəqilliklə bağlı daha az müstəqillik nümayiş etdirirlər. Belə tədqiqatlardan məlum olur ki, qızlarda müstəqilliklə bağlı səviyyənin yüksək olmaması onlarda iradi keyfiyyətlərin formalaşmasına analoji təsir edir.

"Kişilik" əks cinsdən fərqlənməyə əsas verən psixoloji və fiziloji xüsusiyyətlərin məcmusudur. Gənc kişi şəxsiyyətinin hansı səpkidə formalaşması onların ünsiyyət dairələrində olan nüfuzundan bəllidir və bu nüfuz şəxsiyyətin formalaşmasının sonrakı gedişatının praqnozunu təyin etməyə əsas verir. Gənclikdə oğlanların əldə etdikləri nüfuza əsasən onların "kişilik" stereotip seçimlərinin düzgün olub-olmaması faktını da müəyyənləşdirmək mümkündür. Kişi şəxsiyyətinin formalaşması prosesi gənclik dövründə əks cins nümayəndələri ilə münasibətdə imtahana çəkilərək gənc oğlanlara imkan verir ki, xüsusiyyətlərində olan positiv və ya neqativ yönümü müəyyənləşdirsinlər.Bu dövrdə düzgün müəyyənləşdirilməmiş seçim dəyişdirilə bilər. Gənclik dövründə həmçinin,formalaşmamış bəzi kişilik xüsusiyyətlərinin formalaşdırılmasına və ya qazanılmış kişilik xüsusiyyətlərinin sosial persepsiya qanunlarına uyğun müstəqil şəkildə tənzimlənməsinə də şans verilir. Gənclikdə təsdiqlənmiş kişilik xüsusiyyətləri sonrakı dövrlərdə möhkəmlənərək qurulmuş ailə həyatına və ailə üzvlərinin taleyinə birbaşa təsir göstərir. Təbii şəraitdə aparılmış müşahidələr nəticəsində məlum olmuşdur ki, bəzi tip oğlan tələbələr eqalitar ailə tipinə, bəzi oğlan tələbələr isə patriarxal ailə tipinə üstünlük verir. Oğlanlarla qızları müqayisə edərkən məlum olmuşdur ki, oğlanlarda təşkilatçılıq, məlumatlılıq,

kollektivçilik, həmrəylik üstünlük təşkil edən xüsusiyyətlərdəndir. Tələbə oğlanlarda iradi davranış və vərdişlərin təkmilləşməsi prosesi maneəsiz həyata keçirilir. Tələbə oğlanlar daha realistdirlər. Oğlanlar hər hansı bir məsələ ilə bağlı dəqiqliyə daha çox fikir verirlər. Qızlarda isə romantikaya meyillilik, daha tez hissiyata qapılma və həssaslıq daha yüksəkdir. Oğlanlar risk və iradi səy tələb edən işlərə girişib onu başa çatdırmağa çalışdıqları halda, qızlar xəyala dalmağı və iradi səy tələb edən işdən çəkinməyi məqbul sayırlar. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, qızlarda ünsiyyətcillik kimi xüsusiyyətin oğlanlara nisbətən üstünlük təşkil etməsinin səbəbi qızlar oğlanlara nisbətən tez dil açır və tez yeriyir. Bəzi müəlliflərin fikrincə qızların şifahi nitqinin inkişafı, onların nitq orqanlarının erkən inkişafı, onların anaları ilə dərin ünsiyyətdə olmaları ilə bağlıdır. Oğlanlarda bəzi xüsusiyyətlərin daha yüksək olmasının səbəblərindən biri də onların fizioloji imkanlarının geniş olması ilə izah olunur. Oğlanlarda cəsarətin yüksək səviyyədə olmasının səbəbi də ele budur. Tələbə oğlan və qızlar üzərində aparılmış tədqiqatlar onların kişi və qadın cinsinə uyğun müəyyən xüsusiyyətlərə malik olduqlarını və bu xüsusiyyətlərin onların davranışına, ünsiyyət tərzinə, ailədə və cəmiyyətdə tutduğu mövqeyə əhəmiyyətli dərəcədə təsir etdiyini göstərir. Tələbələrin şəxsiyyətinin strukturunda özünü göstərən cinsi xüsusiyyətlər həm də cəmiyyətdə mövcud olan gender fərqlərinə təsir göstərən amillər kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT


1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları Bakı, Adiloğlu, 2003.
2. Əzimli Q.E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Ali məktəblər üçün tədris vəsaiti; Bakı. Nurlan, 2008.
3. Qurbanova L. Tələbə gənclərin şəxsiyyətlərinin strukturunda cinsi xüsusiyyətlərin fərqi. Psixologiya elmləri namizədi adını almaq üçün təqdim edilmiş dissertasiya. Sumqayıt, 2005,136 s.



**Məqalənin redaksiyaya daxil olma tarixi:09.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# *MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ*

**UOT 374+78**

**A.H.Qəribova**
pedaqogika üzrə fəlsəfə doktoru, b/m
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MUSİQİ İNKİŞAFI PROBLEMLƏRİ

***Açar sözlər:*** *musiqi tərbiyəsi, musiqi fəaliyyəti, dinləmə və qavrama, mahnı oxuma, musiqili-ritmik hərəkətlər*

Respublikamızda təhsil sahəsində baş verən islahatlar cəmiyyətmizdə yeni insanın hərtərəfli inkişafına, onun mənəvi cəhətdən yetkinləşməsinə yönəlmişdir. Belə insanın yetişdirilməsi lap erkən yaşlarından başlanmalıdır. Musiqi tərbiyəsinin düzgün istiqamətdə həyata keçirilməsi uşaqların ümumilikdə şəxsiyyətinin formalaşmasını və musiqi qabiliyyətlərinin inkişafını müəyyənləşdirir. Burada musiqi rəhbərinin savadlı olması, yeni texnologiya və metodikalarla silahlanması böyük rol oynayır.

**А.Х.Гарибова**

## ПРОБЛЕМЫ МУЗЫКАЛЬНОГО РАЗВИТИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *музыкальное воспитание, музыкальная деятельность, слушание и восприятие, пение, музыкально-ритмические движения*

Реформы, проводимые в области образования в нашей республике, направлены на всестороннее развитие нового человека, достижения им нравственной зрелости. Воспитание такого человека должно начинаться с самого раннего детства. Правильно проводимое музыкальное воспитание определяет общее формирование личности ребенка и развитие его музыкальных способностей. Большое значение здесь имеет грамотность учителя музыки, его оснащенность новыми технологиями и методиками.

**A.H.Garibova**

## PROBLEMS OF MUSICAL DEVELOPMENT OF PRESCHOOL CHILDREN

***Key words:*** *musical education, musical activity, listening and perception, singing, musical-rhythmic movements*

The reforms carried out in the field of education in our republic are aimed at the all-round development of the new person, the achievement of moral maturity. The education of such a person should begin with the earliest childhood. Correctly conducted musical education determines the overall formation of the child's personality and the development of his musical abilities. Of great importance here is the literacy of the music teacher, his equipment with new technologies and techniques.

Respublikamızda təhsil sahəsində baş verən islahatlar cəmiyyətmizdə yeni insanın hərtərəfli inkişafına, onun mənəvi cəhətdən yetkinləşməsinə yönəlmişdir. Belə insanın yetişdirilməsi lap erkən yaşlarından başlanmalıdır. Bu işdə musiqi tərbiyəsinin də çox böyük əhəmiyyəti vardır. Uşaqlarda musiqiyə sevgi hisslərini, yüksək bədii zövqü, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün dövlətimiz uşaq baxçalarında və digər tədris müəssisələrində musiqi tərbiyəsinə geniş yer vermişdir.

Uşaqlarda musiqi qabiliyyətinin inkişafı obyektiv musiqi fəaliyyətinin nəticəsində baş verir. Fəaliyyət dedikdə biz ictimati təcrübənin, mədəniyyətin nailiyyətlərinin fəal mənimsənilməsi prosesini nəzərdə tuturuq. Bütün həyatı boyu insan müxtəlif fəaliyyət növlərini mənimsəyir ki, bunun nəticəsində onda müəyyən şəxsiyyət keyfiyyətləri formalaşır. Məktəbəqədər yaşlı uşaqların musiqi fəaliyyəti – bu uşaqlar tərəfindən musiqi sənətinin ( və dolayısı yolla ətraf həyatın və özü-özünün) müxtəlif üsullarla idrakı vasitəsidir ki, bunun köməyi ilə həm ümumi, həm də musiqi inkişafı baş verir. Musiqi fəaliyyəti gələcək üçün müasir insanların ümumi mədəniyyətinin, insani keyfiyyətlərinin üzə çıxmasına kömək edir.

Məktəbəqədər müəssisələrdə musiqi fəaliyyəti şərti olaraq üç komponentdən ibarətdir: musiqini dinləmə və qavrama, mahnı oxuma və musiqili-ritmik hərəkətlər (rəqs, oyun). Sözsüz ki, burada digər fəaliyyətlərin də (məsələn sadə alətlərdə ifa və s.) yer alması mümkündür, lakin əsasları – dediyimiz bu üç fəaliyyət növüdür.

Uşaq baxçasında musiqi fəaliyyətlərdən biri və demək olar ki, ən başlıcası musiqini dinləmə və qavramadır. Musiqini dinləyərək qavrama bacarığını biz mühüm hesab edirik, çünki qavrama baş verməzsə nə mahnı oxuma, nə rəqs nə də digər musiqi fəaliyyətləri mümkün olmaz.

Musiqi dinləmə aktiv düşünmənin əsasıdır. Musiqi dinləmə bölməsi uşaqları bir çox hadisələrlə böyüklərin əməyi ilə və uşaq bağçalarında tərbiyə alan uşaqların həyatı ilə tanış edir. Buna görə də musiqi dinləmə bölməsi uşaqların estetik tərbiyəsinə də böyük təsir göstərir.

Bəstəkar bəstələdiyi musiqi əsərləri vasitəsilə uşaqlara bizi ahatə edən xarıcı aləmin gözəlliyi haqqında məlumat verir. Musiqinin qavranılması əqli proseslərlə sıx bağlıdır. Belə ki, o diqqətlilik, düşüncə tələb edir. Uşaq əsəri dinləyərək, onun xarakterini təyin edir, musiqi ilə əlaqələndirir. Bu istiqamətdə iş düzgün aparıldıqda hətta 3-4 yaşlı uşaqlar şən, sakit, mülayim, oynaq musiqini, yüksək, alçaq, uca, yavaş səsləri, melodiyanı hansı alətin çaldığını ayırd etməyi bacarırlar. 5-6 yaşlı uşaqda musiqi təəssüratı daha da genişlənir. Musiqi haqqında aldıqları biliklərdən istifadə edərək uşaqlar nəinki suallara cavab verməyi, hətta musiqi əsərinin xarakterini müstəqil olaraq təyin etməyi bacarırlar.

Mahnı oxuma kimi müəyyənləşdirilən musiqi fəaliyyəti uşaqların səs aparatını inkişaf etdirir, nitqi təkmilləşdirir, düzgün duruşu, qaməti formalaşdırır, nəfəs almanı dərinləşdirir. Uşaqların tərbiyə işində mahnı əsas yer tutur, uşaqlar qulaq asmağı çox sevirlər. Mahnı uşaqların əhval-ruhiyyəsinə çox böyük təsir göstərir, onların ürəyini açır və şənləndirir. Mahnı oxumaqla uşaqların eşitmə və danışma qabiliyyətlərini inkişaf etdirmək, uşaqları sakitləşdirmək, şadlandırmaq olar. Mahnı oxuyarkən uşaqların qışqırmaqlarına yol vermək olmaz. Uşaqlar bərkdən oxuduqda öz zərif səs tellərini zora saldıqları üçün onları zədələyə bilərlər. Uşaqlar alçaq, əlverişli tonda oxumalıdırlar. Mahnı oxuma uşaqları birliyə, mehribanlığa öyrədir, onları mütəşəkkil edir və birləşdirir.

Mahnı oxuma ən mühüm musiqi fəaliyyəti olduğundan buna ciddi fikir vermək lazımdır. Mahnını oxuduqda və danışıq zamanı uşaqların səsinin mühafizə edilməsinə diqqət yetirmək lazımdır. Uşaqların səsi öz həcminə görə məhduddur. Mahnılar əsasən uşaqların səsinə uyqun olaraq qurulur.

Digər bir musiqi fəaliyyəti – musiqili-ritmik hərəkətlərin ifasıdır. XX əsrin əvvəllərində bir çox ölkələrdə İsveç musiqişünas və pedaqoqlar ritmik təlim sistemini geniş yaymışlar. Onların metodu bundan ibarətdir ki, məşq üçün seçilmiş xüsusi tapşırıqlardan istifadə edərək məktəbəqədər yaşdan başlayaraq musiqi eşitməni, yaddaşı, diqqəti, ritmiliyi, hərəkətin plastik ifadəliliyini inkişaf etdirmək lazımdır.

Uşaqların musiqi qabiliyyətlərinin inkişaf eşitməsinin təkmiləşməsi prosesindən və öz hərəkətini musiqi ilə uyğunlaşdırmaq bacarığından asılıdır. Bu bacarıqların uşaqlar üçün maraqlı olan və asan başa düşülən formalarından: oyunlardan, ritmik hərəkətlərdən və s. başlamaq lazımdır. Musiqi əsərlərinin təsiri altında uşaqlarda emosional hisslər və müəyyən əhval-ruhiyə yaranır və bu hərəkətlərin münasib xarakteri imkan yaradır. Hərəkətlər musiqi əsərinin

daha dolğun qavrayışına kömək edir. Bu da öz növbəsində hərəkətlərdə xüsusi ifadəlilik yaradır. Musiqili ritmik hərəkətlər uşaqların əsas özünüifadə üsnllarından biridir. Çünki uşaq şüurlu surətdə hərəkət edərək tələb olunan hərəkətləri ifa edir. Rəqslər və oyunlar uşaqlardan bir hərəkətdən digərinə keçmək və lazım olan hərəkətləri dayandırmaq bacarığı tələb edir.

Musiqili-ritmik hərəkətləri ifa edərkən uşaqlar böyük həvəslə musiqini oyunların hərəkəti ilə birləşdirirlər, musiqi ilə oxuyub-oynayırlar. Bu zaman onlarda ardıcıllıq müşahidə olunur: uşaqlar musiqini dinləyir, mövzunu təhlil edir, rolları aralarında bölürlər. Bu da onları yaratmağa, fikirləşməyə, fantaziya etməyə vadar edir, yəni uşaqlarda əqli inkişaf baş verir.

İncəsənətin başqa növləri kimi musiqinin də biliyi artırmaqda böyük rolu vardır. Musiqi təhsili ümumi mədəniyyətin inkişafına mühüm təsir göstərir. Müxtəlif tapşırıqları yerinə yetirməsində uşaqlardan diqqətli olmaq, fikri cəmləşdirmək və s. kimi keyfiyyətlərin inkişafı tələb olunur. Belə ki, ifa olunan musiqini dinləyərkən uşaqlarda mahnının bədii obrazı yaranır və bu obraz musiqidə, rəqsdə əks etdirilir. Uşaqları müxtəlif emosional obrazlı əsərlərlə tanış etdikdə biz onları yaxşı mənada həyəcanlandırırıq.

Bundan əlavə musiqi mənəvi keyfiyyətləri də tərbiyə edir. Tərbiyə məsələlərini həll etməkdə xorla oxuma, rəqslər, oyunlar daha mühüm yer tutur. Vətən haqqında musiqi əsələrləri uşaqlarda vətənə, xalqa, torpağa məhəbbət hissi aşılayır, onlara daha yaxından təsir edir və onları doğru yola çəkir. Məsələn, A.Zeynallının "Ölkəm" əsərini dinlədikdə uşaqlarda vətənə məhəbbət, qürur hissi artır.

Beləliklə, gördüyümüz kimi musiqi inkişafı uşaqların fəal musiqi fəaliyyətində formalaşır. Belə ki, emosiyanın inkişafı, musiqini duyma, hiss etmə qabiliyyəti və digər musiqi qabiliyyətləri fəal musiqili fəaliyyətlər (dinləmə, oxuma, rəqs etmə) nəticəsində əmələ gəlir.

Təlim-tətbiyə işinə müasir yanaşma bu prosesə yenilik gətirilməsinə yönəldilməlidir, ki bu da bu günkü həyat və fəaliyyətin dinamik xüsusiyyətlərindən, müxtəlif təlim texnologiyalarının spesifikasından asılıdır. Musiqi təlim-tərbiyəsini yalnız musiqi məşğələlərinin cəlbedici xarakter daşıdıqda və musiqinin qavranılması prosesinin emosional gərginlik və maraq abu-havasını yaratdıqda həyata keçirmək olar.

Gündəlik həyatdan biz müşahidə edirik ki, bu günün uşaqları hətta beş-on il öncəkilərdən çox fərqlənir. Onlar müasir "qacetlərdən" daha sərbəst, özüdə erkən yaşlardan istifadə edirlər. Təlim-tərbiyə işi ilə məşğul olan müəllimlər bunu nəzərə almalıdır və müasir həyatla ayaqlaşmanı bacarmalıdır. Belə ki, uşaq baxçasında müasir musiqi müəllimi sintezatorda ifa etməyi, minus-yazılardan və müxtəlif səsötürücülərdən (CD-çalğıçı, kolonka, karaoke və s.qurğulardan) istifadə etməyi baçarmalıdır. Lakin bu işin texniki tərəfidir.

Bundan başqa, müxtəlif müasir pedaqoji metodikalar və texno-

logiyalardan da istifadə etmək vacibdir. Uşağı necə musiqiyə yönəltmək, musiqi sənətinə qarşı marağı neçə inkişaf etdirmək, musiqini anlamağı və onun barəsində düşünməyi necə öyrətmək, özünü ifadə etmə qabiliyyətini necə inkişaf etdirmək və s. kimi problemləri yalnız pedaqoji texnologiyaların köməyi ilə həll etmək olar ki, bu texnologiyalar uşaq şəxsiyyətinin mənəvi-yaradıcılıq potensialının inkişafına qulluq etməlidir.

Respublikamızda bir-çox uşaq baxçalarında musiqi pedaqogikası hələ yeni texnologiyalardan kənar qalmışdır. Bu onunla izah olunur ki, bir-çox yeni texnologiya və konsepsiyalar (inkişafedici təlim, modul təlimi, evristik təlim və s.) məktəb yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Lakin məktəbəqədər təlim-tərbiyə sistemində də dəyişikliklər asta olsa da baş verir.

Yeni pedaqoji konsepsiyalardan biri müasir innovasiyalı metodlara (sağtərəfli və soltərəfli metodlların birləşməsi) əsaslanır və məktəbəqədər tədris ocaqlarında (MTO) musiqi tərbiyəsinin həyata keçirilməsinə istiqamətlənmişdir. Tərbiyə prosesinin strategiyasının əsas məzmunu – nəticə-məqsədlərə nail olmadır: qarmonik inkişaf etmiş, yaradıcı və istedadlı şəxsiyyətin tərbiyəsi. Bu yeni konsepsiyanın əsasını aşağıdakılar təşkil edir: intuisiya, kifayət qədər mürəkkəb anlayışların və təlim informasiyasının emosional-obrazlı tərzdə, yüngül, əyləncəli və fantaziyalı oyun-səyahət formasında verilməsi, təhsil + əyləncə + maraq prinsipinə əsaslanma.

Sonralar bu soltərəfli təlimə sağtərəfli problemli metod əlavə olunmalıdır ki, o, bilikləri hazır verməyə deyil, idraka, fəaliyyətə, fəaliyyətdə həyacanlamaya, emosional ixtiralara (proqrama müvafiq müəyyən bir informasiyanın, anlayışların), “ixtira oyununa” istiqamətlənmişdir. Müəllim hazır informasiyanı uşağın ağlına salmaqla məşğul olmamalıdır, o, eyni zamanda əks əlaqə quraraq uşaqları bu informasiyanı müstəqil əldə etməyi öyrətməlidir – budur müasir təlim proqramların əsas prinsiplərindən biri.

Musiqi tərbiyəsinin metodları müxtəlifdir. Onlar musiqi fəaliyyətinin müxtəlif növlərinin xarakterindən, şəraitindən asılıdır. Müasir pedaqogikada əsas metodlar bunlardır: a) İnandırma; b) Alışdırma; c) Çalışdırma.

İnandırma – bu metodla tərbiyə prosesi bilavasitə musiqi ilə əlaqədardır. Musiqinin ifası aydın, ifadəli, təsirli olmalıdır. Ancaq bu zaman uşaqlarda estetik həyacan və emosional cavab formalaşdırmaq olar. Deməli, musiqinin ifadəli ifa olunması musiqi əsərinin xüsusiyyətlərinin dinləyiciyə çatması üçün əsas şərtidir. İfa etmə ifadəli, asan, əlverişli olsun deyə əsəri yaxşı bilmək, məzmunlu ətraflı düşünmək, xarakterini təsəvvür etmək, əhval-ruhiyyəsini duymaq lazımdır. Buna əsərin çoxlu çalınması kömək edər. Düşüncəli ifa etmə uşaqlara güclü təsir edir, onlarda müxtəlif hisslər oyadır. Uşaqlar mütləq bilməlidirlər ki, musiqi nədən bəhs edir. Oxu zamanı hansı tələbləri, hərəkətləri yerinə yetirmək lazımdır. Uşaqları mövzunun məzmunu, musiqinin ifadə vasitələrini izah etməklə inandırmaq lazımdır.

Alışdırma və çalışdırma metodları – musiqiyə estetik münasibət üçün uşaqlara aktiv hərəkət etməyi, diqqətlə musiqiyə qulaq asmağı, səslənmənin xarakter xüsusiyyətlərini müqayisə etməyi və bir-birindən ayırmağı, musiqinin incəliklərini duymağı öyrətmək lazımdır. Bu iş ildən-ilə, gündən-günə ardıcıllıqla aparılır. Uşaqlarda musiqiyə estetik münasibəti aşılayarkən musiqi rəbəri çoxlu səy, səbr və inad göstərməlidir.

Beləliklə, musiqi tərbiyəsinin düzgün istiqamətdə həyata keçirilməsi uşaqların ümumilikdə şəxsiyyətinin formalaşmasını və musiqi qabiliyyətlərinin inkişafını müəyyənləşdirir. Burada musiqi rəhbərinin savadlı olması, yeni texnologiya və metodikalarla silahlanması böyük rol oynayır.

## ƏDƏBİYYAT

1. A.H.Qəribova. Məktəbəqədər yaşlı uşaqların bağçada musiqi tərbiyəsi. Bakı, ADPU, 2008
2. J.Qədimova. Musiqinin tədrisi metodikası. Bakı, ADPU, 2007
3. Современные образовательные программы для дошкольных учреждений / Под ред.Т.И.Ерофеевой, - М., 1999.
4. Радынова О.П. Практикум по методике музыкального воспитания дошкольников.- М., 1999.
5. Azərbaycan Respublikası Məktəbəqədər tərbiyə müəssisələri haqqında Əsasnamə // Azərbaycan Respublikası Nazirlər kabinetinin qərarı. B., 2008

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376**

**N.Hüseynova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Bakı ş., Ü.Hacıbəyli 68, AZ.1000
e-mail: nailyahuseyn72@gmail.com

# ANADANGƏLMƏ AÇIQ RİNOLALİYALI UŞAQLARDA YAZILI NİTQİN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *rinolaliya, anadangəlmə damaq və dodaq yarığı, yazı pozulmaları, səs tələffüzü, samit səslər, sait səslər, ağız və burun səsləri*

Anadangəlmə damaq və dodaq yarığı olan təxminən 50% məktəbli savadın və düzgün yazılışın mənimsənilməsində ciddi çətinliklərlə üzləşir. Nitq patologiyasına baxıldığı zaman sistemli yanaşma prinsipindən istifadə etmək vacibdir. Nitq fəaliyyətinin inkişaf prinsipinə tabe olan sistemli analizi nitq-hərəkət analizatoru və eşitmə qavrayışı arasında, tələffüz fəaliyyəti və fonematik təsəvvürün formalaşması arasında, şifahi və yazılı nitq arasında möcvud olan əlaqəni açıqlayır.

**Н.Гусейнова**

# ОСОБЕННОСТИ ПИСЬМЕННОЙ РЕЧИ У ДЕТЕЙ С ОТКРЫТОЙ ВРОЖДЕННОЙ РИНОЛАЛИЕЙ

***Ключевые слова:*** *ринолалия, врожденная расщелина губы и неба, нарушения письма, звукопроизношение, гласные звуки, согласные звуки, ротовые и носовые звуки*

Около 50% школьников, имеющих врождённую расщелину губы и нёба, испытывают значительные затруднения в овладении грамотой и правописанием. При рассмотрении речевой патологии необходимо использовать принцип системного подхода Системный анализ речевой деятельности, подчинённый принципу развития, раскрывает связи, существующие между функцией речедвигательного анализатора и слухового восприятия, между произносительной деятельностью и формированием фонематических представлений, между устной и письменной речью.

**N.Huseynova**

## FEATURES OF WRITTEN SPEECH IN CHILDREN WITH OPEN CONGENITAL RHINOLALIA

***Key words:*** *rhinolalia,congenital cleft lip and palate,writing disorders, sound pronunciation, consonant sounds, vowel sounds, the oral and nasal sounds*

50% of the students with open congenital rhinolalia have difficulty with correct writting. It is important to use the principle of the system approach in speech pathologies.The systematic analysis which submissive the principle of development of speech activity between speech-action analysis and hearing perception based on pronunciation activity and phonemic imagination explains that the existing relationship between verbal and written speech.

Anadangəlmə damaq və dodaq yarığı olan təxminən 50% məktəbli savadın və düzgün yazılışın mənimsənilməsində ciddi çətinliklərlə üzləşir. Nitq patologiyasına baxıldığı zaman sistemli yanaşma prinsipindən istifadə etmək vacibdir. Nitq fəaliyyətinin inkişaf prinsipinə tabe olan sistemli analizi nitq-hərəkət analizatoru və eşitmə qavrayışı arasında, tələffüz fəaliyyəti və fonematik təsəvvürün formalaşması arasında, şifahi və yazılı nitq arasında möcvud olan əlaqəni açıqlayır.

Uşaq nitqinin inkişaf qanunauyğunluqlarını tədqiq edərkən A.N.Qvozdev qeyd edir ki, uşağın nitqinin səs sahəsini mənimsəməsinin ümumi yolu eşitmə və motor sferasının birgə fəaliyyəti ilə təyin olunur.

Beləliklə, hesab edilir ki, nitq səslərinin qavranılması və onların tələffüzü bir-birini dəqiqləşdirən və tamamlayan qarşılıqlı əlaqəli və qarşılıqlı şərtlənmiş iki prosesdir.

Yazılı nitqin formalaşmasında artikulyasiyanın müstəsna əhəmiyyətindən danışıraq A.R.Luriya qeyd edir ki, yazı prosesində, nitq kinesteziyasının necə rol oynadığını aşkarlayaraq, yazılmış sözün deyilməsi sadəcə "akkomponement", yazı hesab olunmur, həmçinin onun mövcud tərkib hissələri hesab olunur. Belə "danışıq" səslərin necə yazılacağını dəqiqləşdirməyə, oxşar səsləri bir-birindən fərqləndirməyə və yetəri qədər aydın olmayan səs nüanslarını dəqiq fonemlərə çevirməyə imkanverir.

L.K.Nazarovanın kütləvi məktəblərin birinci sinfində aparılmış eksperimentində yazılmış sözü demək imkanı olmayan şagirdlər yoxlama sinfinin şagirdlərindən 7 dəfə çox səhv etdilər.

Saitlərin tələffüzü zamanı yüksəklik, sıra və dodaqlanma əlamətlərinə görə səslərin qarşılaşdırılmasının gizlənməsi ilə differensiallaşmayan artikulyasiya qeydə alınır.

"A" saiti, demək olar ki, qapalı ağızla, dil divarının bir qədər qalxması və dil

ucunun arxaya getməsi ilə artikulyasiya edilir.

Arxa sıra, üst və orta qalxma saitləri olan “u” və “o” saitlərinin tələffüzü dil divarının artıq qalxması və az labillik ilə xarakterikdir ki, bu da öz növbəsində bu iki səsi tələffüzdə yaxınlaşdırır. Ön sıra orta qalxma saiti olan “e” dil divarının və kökünün həddən artıq qalxması, dil ucunun geriyə getməsi ilə tələffüz olunur ki, nəticədə “e” səslənmədə “ı” səsinə yaxın alınır.

Ön sıra orta qalxma saitlərin tələffüzündə dil ucu arxaya gedir, bu da həmin saitləri tələffüzdə “ı” səsinəyaxınlaşdırır.

Bütün sait səslər burun çaları ilə tələffüz olunur:

- “ı” və “u” səsləri tələffüzdə daha az rinofonik, daha çox nazallaşmış səslənir.

Rinolaliyalı uşaqlarda samit səslərin qüsurlu tələffüzü tamamilə geniş yayılmışdır. Fitli “s, z” səsləri dil kökünün və divarının həddən artıq qalxması və dil ucunun geriyə getməsi ilə tələffüz olunur. Onlar üçün fışıltılı siqmatizm xarakterikdir. Akustik cəhətdən onlar “s – ş”, “z – j” arasında nəsə bir orta səs kimi qəbul olunurlar. Çox hallarda yan və incə səslənmə qeydə alınır, tez-tez fitli səslərin incə tələffüzü yan səslərlə birləşir. “Z” səsinin təhrif olmuş “s” səsi ilə əvəzlənməsi müşahidə olunur. Fitli səslər tələffüzdə daha çox nazallaşmış olur ki, bu da həmin səslərin anlaşılmamasında özünü göstərir.

Fışıltılı “j, ş” səslərinin tələffüzündə xarakterik qüsur onların incəlməsi və fitli “z” səsinə yaxınlaşmasıdır. “J” və “ş” səsləri dil divarının orta hissəsinin qalxması, dil ucunun aşağı buraxılması və arxaya getməsi ilə artikulyasiya edilir ki, bu da həmin səslərin incə tələffüzünü şərtləndirir. Çox hallarda yan tələffüz, “j” və “ş” səslərinin təhrif olunmuş “s” və “z” səsləri ilə əvəzlənməsi müşahidə olunur.

Dil divarının arxa hissəsinin incə hərəkətlərinin çətinliyi rinolaliyalı uşaqlarda “k, q” səslərinin olmamasına gətirib çıxarır, frikativ “x ya təhrif olmuş “q” ya da “d” səsi ilə əvəzlənir. “Q” səsinin karlaşması müşahidə olunur. “T, d” səsləri incəlir və “k, q” səslərinə yaxınlaşır. Qüsurlu tələffüz zamanı bu səslər dil divarının orta hissəsinin qalxması və dil ucunun arxaya getməsi ilə artikulyasiya edilir, nəticədə “k, q” səslərinə yaxın səslər alınır. Burun və burun-udlaq boşluğunun patoloji vəziyyəti zamanı, həmçinin nazallığın ağır forması zamanı “t” və “d” səsləri burun samiti “n” ilə əvəzlənir. Həmçinin “d” səsinin təhrif olmuş “q” səsi ilə əvəzlənməsi müşahidə olunur. “R” samitinin tələffüzünün ən çox yayılmış qüsurları damaq arxası, yan, birvurğulu tələffüz, “r” səsinin “l” ilə əvəzlənməsidir. “L” səsi daha çox incə tələffüz olunur, nazallığın ağır forması zamanı “n” səsi ilə əvəz olunur, bir çox hallarda yan tələffüz, “v” səsi ilə əvəzləmə müşahidə olunur.

“M” səsinin tələffüzü zamanı dodaqlar az hərəkətlidir, demək olar ki, səs əmələ gətirmədə iştirak etmirlər. Burun səsləri arasında ciddi oxşarlıq var, eləcə də, onlar arasında artikulyasiya fərqliliyinin pozulması onların eşitmə ilə fərqləndirilməsini çətinləşdirir, bu da öz növbəsində bu fonemlərdən hər birinin formalaşmasını müstəqil əmələ gəlmə kimi təqdim edir. Bir çox hallarda, “m” və

"n" burun samitlərinin qarşılığı olan "b, d" samitləri ilə əvəzlənməsi müşahidə olunur, bu da yalnız damaq-udlağın birləşməsi qüsuru ilə deyil, eləcə də burun və burun-udlaq boşluğunun patoloji vəziyyəti ilə şərtlənir.

Beləliklə, rinolaliyalı uşaqlarda tələffüz qüsurları səsin olmaması, təhrifi, müxtəlif növ əvəzlənmələri, həmçinin saitlərin (uo, ao, ıi və s.) və samitlərin (sş, zj, ç, dq, tx, rl, mn qalınlar və incələr və s.) artikulyasiya quruluşlarının oxşarlığı ilə özünü göstərir. Bu, dodaqların və çənələrin hərəkət məhdudiyyəti, burun və burun-udlaq boşluğunun patoloji vəziyyəti, qidanı itələmək üçün dilin gücləndirilmiş işi nəticəsində (əsasən kök və yanların) və damaq yarığını dillə bağlamaq vərdişi səbəbilə dilin yanlış inkişafı və fəaliyyəti ilə (dil kökü qalınlaşmış, arxaya, udlağa tərəf itələnmişdir, dil divarının arxa hissəsi yuxarı qalxma tendensiyasına malikdir, dil ucu alt kəsicilərdən uzaqlaşmış və artikulyasiyada iştirak etmir) bağlıdır.

Yumşaq damağın funksiyasının pozulması və deməli, damaq-udlaq bağının natamamlığı, eləcə də nəticə olaraq, ağız boşluğunda hava təzyiqinin zəif olması və onun burun boşluğundan sızması (77-80%) səslərin "ağız-burun" əlamətlərinə görə qarşılaşdırılmasının pozulmasına, onların artikulyasiyada yalnız yerinə görə deyil, eləcə də əmələ gəlmə üsullarına görə fərqlərinin azalmasına (frikativ - bitişik - affrikat - titrəyən) gətirib çıxarır. Sait və samit səslərin artikulyasiyasının differensiallaşmaması, həmçinin səs akkomponementlərinin yetərli səslənməməsi səslərin qarışdırılması, onların nitqdə davamlı işlədilməməsi, onların işlədilməsində böyük variativlik ilə özünü göstərən tələffüz qüsurlarını şərtləndirir. Səslərin əvəzlənməsi və qarışdırılması müəyyən fonetik qruplar arasında müşahidə olunur. Burun səslərinin (m - n, n - m), burun və ağız səslərinin (m - b, n - d, n - q, n - l, l - n), fitli fışıltılı səslərin (s - ş, z - j, ç - s, ş - s) əvəzlənməsi və qarışdırılması, fitli səslər (s - ц, ц - s) və fışıltılı səslər (ş - ç, ş - щ, ç - щ, ç - ş) qrupları içərisində, r və l, cingiltili və kar (p - b, t - d, k - q, ş - j, s - z, f - v), incə və qalın, t, d və k, q, x səsləri (t - k, q - x, k - t, d - q, k - d, d - t) arasında qarşılıqlı əvəzlənmə və qarışdırılma belədir.

Ağız-burun əlamətlərinə görə səslərin qarşılaşdırılmasının pozulması, onların artikulyasiyada fərqlərinin hiss olunmaması yalnız yerinə görə deyil, eləcə də əmələ gəlmə üsullarına görədir (frikativ bitişik affrikat titrəyən).

Sait və samit səslərin differensiallaşmayan artikulyasiyası.

Sadalanan qüsurlarla birlikdə uşaqlarda sait və samit səslərdə məxsusi şıqqıldayan səsə, bənzər, xorultu, fit, nəfəsli səs, qırtlaq səsi qeydə alınır, yəni yalnız artikulyasiya deyil, nitqin prosodik elementləri də zərər görür.

Danışıqda artikulyasiya-fonoloji qarşılaşdırmanı yerinə yetirə bilməməsi, həmçinin səs akkomponementinin yetəri qədər səslənməməsi yalnız şifahi nitqdə deyil, eləcə də yazı nitqində səslərin dəqiq fərqləndirilməsinə mane olur.

Kinestetik dəstəyin olmaması sözün tərkibindəki səslərin dəqiqləşdirilməsi zamanı artikulyasiya fərqliliklərinə əsaslanmaq imkanını əlindən alır. Şifahi nitqdə əksər hallarda əks fonem cütlərinin hər hansı bir əlamətinin yetəri qədər

fərqləndirilməməsi müşahidə olunur. Bu hadisə səslərin əvəzlənməsində də aşkarlanır. Lakin uşaqlarda daha mürəkkəb fonematik əlaqəni əks etdirən qarışdırmalara rast gəlinir ki, bu da şifahi və xüsusilə də yazılı nitqin kobud şəkildə təhrif olunmasına gətirib çıxarır. Məsələn, "qarağat" sözü əvəzinə uşaqlar qaradat, qaramat, qarakat, qaravat, "pərdə" sözünün əvəzinə mərdə, bərdə, nərdə, tərdə yaza bilər.

Beləliklə, müəyyən sait və samit səslərə müvafiq hərf əvəzləmələri ilk növbədə fonemlərin formalaşmaması, onların yetəri qədər fərqləndirilməməsini əks etdirir, bu da kinestetik (artikulyasiya) analizinin keyfiyyətsiz olması ilə şərtlənir.

Sözü düzgün yazmaq üçün onun səs xarakteristikasını seçmək və dəqiqləşdirmək yetərli deyil, həmçinin səslərin kinestetik əsası, yeri və əmələ gəlmə üsullarına görə fəqləndirmək vacibdir. Rinolaliyalı uşaqlarda yazının psixoloji zəminlərindən biri yazılmış sözün deyilməsidir, hansı ki, yalnız sözlərin səs tərkibini konkretləşdirməyə deyil, eləcə də həmin anda eşidilən səs variantlarının dəqiq nitq səslərinə - fonemlərə çevirməyə kömək edir.

*Yazı pozulmasının xarakteristikası.* Anadangəlmə dodaq və damaq yarığı olan şagirdlər üçün ilk növbədə dilin fonematik sisteminin inkişaf ləngiməsini əks etdirən səs əvəzləmələri xarakterikdir.

1. Ağız və burun səslərinə uyğun hərf əvəzləmələri daha spesifikdir: pn, ln, dn, tn - mb, bm; burun səslərinə uyğun hərflərin qarşılıqlı dəyişiklikləri: “mn, nm”. Məsələn, balta "banta", dad "nad", dənə "dətə" və s. Bu səhvlər nitqin çalarının fonem əmələ gətirmə prosesinə təsirindən xəbər verir.

2. Sait səslərdə hərf əvəzləmələri çoxluq təşkil edir. Məktəblilər səhvləri yalnız saitlər vurğusuz olduğu halda etmirlər: "böçək" əvəzinə “boçaq”, həmçinin vurğu altında olduqda da səhv edirlər, məsələn, “u” və “a” hərfləri əvəzinə o istifadə olunur: "Dunya" əvəzinə Donya, "tut" əvəzinə tot, "tarla" əvəzinə torla və s.

3. Tez-tez özündən əvvəlki samitin incə olduğunu bildirən saitin əvəzlənməsinə yol verilir: "torba" əvəzinə “törbə”, və s.

4. “I” və “ı “ hərflərinin istifadəsində səhvlər incə və qalın səslərin tam fərqləndirilməməsi ilə əlaqəlidir: "tısbağa" əvəzinə tisbağa, "balıq" əvəzinə baliq və s.

5. Bu səhvi çox vaxt yumşalma yalnış istifadə müşayiət edir: "mələk" əvəzinə “malak”, "lampa" əvəzinə “ləmpə”, və s.

6. Önəmli sayda spesifik hərf əvəzləmələri cingiltili və kar səslərə aiddir, məsələn: "gəldim" əvəzinə gəltim, "bayraq" əvəzinə payraq və s.

7. Bu cür müxtəlif səhvlər müşahidə olunur: bəzi hallarda cingiltilinin karla əvəzlənməsi, digər hallarda karın cingiltili ilə əvəzlənməsi, üçüncü halda isə hərflərin ikitərəfli əvəzlənməsi, məsələn: "Əminə" əvəzinə “Əmidə”.

8. Fitli səslərə uyğun hərflərin əvəzlənməsi geniş yayılmışdır: "sərçə" sərsə, "balıqçı" balıqsı, "qaç" qas, fitli və xışıltılı səslərə uyğun hərflərin əvəzlənməsi: "şar" əvəzinə sar, "bazar" əvəzinə bajar, "tərəzi" əvəzinə tərəji və s.

9. Affrikatların parçalanmasını əks etdirən səhvlər böyük qrup təşkil edir: "dələ" əvəzinə tələ, "çay" tay, "dolça" dolta, "çürük" türük, "xalça" xalta və s.

10. Samitlərin yanlış işlədilməsi həmçinin bunlarla xarakterizə olunur:

-"t, d, k, q, k" səslərinə uyğun gələn hərflərin qarşılıqlı qarışdırılması: "təmir" əvəzinə dəmir, "kökə" kötə, "qaşıq" daşıq;

-"b, v, d, f, t", p səslərinə uyğun gələn hərflərin əvəzlənməsi: "daxma " baxma, "sabun" sapun , "qabaq" qapaq, "boşaltmaq" doşaltmaq və s;

- fitli və fışıltılı səslərə uyğun hərflərin x hərfi ilə əvəzlənməsi: "jaket" xaket, "müjdə" müxdə;

- l və v səslərinə uyğun hərflərin l və y hərfləri ilə qarışdırılması: " gəlirəm" əvəzinə gəyirəm, "bala" əvəzinə baya, ".

- r və l səslərinə uyğun hərflərin qarşılıqlı qarışdırılması: "qırmızı" əvəzinə qılmızı, "barmaq" balmaq, "darıxmaq" dalıxmaq, "qarpız" qalpız və s.

11. Hərflərin fonematik əvəzlənməsi ilə yanaşı, imlada samit çoxluğunun qısaldılması ("jurnal"əvəzinə junal, "məktub" mətub ), hərflərin buraxılması ("şəkil" əvəzinə əkil, "saat" sat), artıq hərflərin əlavə edilməsi ("ailə" əvəzinə ayilə, "şair" şayir, "səliqəli"səlyiqəli ), sonluğun tam yazılmaması ("xətt" əvəzinə xət, "qalın " qalı,). Bu cür səhvlərə normal nitq inkişafı olan məktəblilərdə də rast gəlmək olar, lakin fonetik-fonematik inkişaf ləngiməsi olan şagirdlərdə bu səhvlər daha davamlıdır və geniş yayılmışdır.

## ƏDƏBİYYAT


1. Кравцова О.А. Расщелины губы и неба // Здоровье и образование в 21 веке. 2012. Т. 14. №2. С. 112.
2. Лаврова Е.В., Коптева О.Д., Уклонская Д.В. Нарушение голоса. М.: Академия, 2006.128 с.
3. Репина З.А. Нарушения письма у школьников с ринолалией: Учебное пособие к спецкурсу. Свердловск: Свердл. пед. ин-т., 1988. - 80 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.1**

**P.M.Həsənova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: perisanhesenova@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL-MƏNƏVİ İNKİŞAFI MÜASİR DÖVRÜN PROBLEMİ KİMİ

***Açar sözlər:*** *ailə tərbiyəsi, ailə dəyərləri, sosial-mənəvi tərbiyə*

Uşaqların sosiallaşması və mənəvi tərbiyəsinə təsir edən amillər çoxdur. Məqalədə bu amillərin sosial-mənəvi tərbiyəyə təsiri araşdırılır. Cəmiyyətə və ətraf aləmə sosial-psixoloji adaptasiya üçün ilk sosiumların – ailənin və uşaq bağçalarının üzərinə böyük məsuliyyət düşür. Uşaqların mükəmməl şəxsiyyət kimi yetişdiilməsində, gələcək məktəb həyatına hazırlanmasında erkən sosiallaşma, öz yaşıdları və böyüklərlə ünsiyyətin rolu böyükdür.

Ailədə və uşaq bağçasında xeyirxah əhvalla fəaliyyət göstərən valideyn və pedaqoqlar uşaqlara ən yaxın insanlardır. Onlar uşağın daxili aləminin formalaşmasında həlledici rol oynayırlar.

**П.М.Гасанова**

# СОЦИАЛЬНО-НРАВСТВЕННОЕ РАЗВИТИЕ ДОШКОЛЬНИКОВ - ПРОБЛЕМА СОВРЕМЕННОСТИ

***Ключевые слова:*** *семья, образование, семейные ценности, социальное и нравственное воспитание, принципы*

Есть много факторов, которые влияют на социализацию и нравственное воспитание своих детей. В статье анализируется влияние этих факторов на социально-нравственного воспитания. Общество и окружающая среда является первым, чтобы адаптироваться к социальной и психологической sosiumların - большая ответственность ложится на семью и детских садах. Обучение детей в качестве совершенного человека прийти к школьной жизни в раннем развитии социализации, коммуникации играет важную роль в их сверстниками и взрослыми.

С хорошей атмосферы в семье и детском саду для детей родителей и воспитателей, близких людей. Они играют решающую роль в формировании внутреннего мира ребенка.

**P.M.Hasanova**

## THE SOCIAL AND MORAL DEVELOPMENT OF THE PRESCHOOLERS - THE PROBLEM OF MODERNITY

***Key words:*** *family, education, family values, social and moral education, principles*

There are many factors which affect moral education and socialization of children. It is investigated in this article which affect this factors to social and moral education. Society and the environment is the first to adapt to the social and psychological sosiumların - great responsibility falls on the family and children's gardens. The training of children as the perfect person to come to school life in the early development of socialization, communication plays an important role in their peers and adults.

With a good atmosphere in the family and kindergarten children to parents and caregivers, loved ones. They play a role the formation of the child's inner world.

Məktəbəqədər yaş dövrü hər bir insan həyatının çox parlaq və təkrarolunmaz səhifələridir. Məhz bu dövrdə uşağın sosiallaşması dövrü başlayır, məişət sferalarının – insanlar aləmi, təbiət, əşya aləmi ilə əlaqələri qurulur, mədəniyyətə və ümumbəşəri dəyərlərə münasibət formalaşdırılır. Məktəbəqədər yaş dövrü həmçinin şəxsiyyətin formalaşması, özünüdərketmənin və fərdiləşmənin əsasının qoyulması dövrüdür.

Sosiallaşma təhsil və tərbiyə ilə əlaqədar olsa da, onu bütövlükdə bu amillərlə şərtləndirmək düzgün olmaz. Şəxsiyyətin sosiallaşması sosial nəzarət, təşkilati – isiqaməterici, həmçinin spontan yranan kortəbii şərtlərin məcmusunun təsiri ilə həyata keçir. O, şəxsiyyətin həyat tərzini göstərir və onun şərti və nəticəsi kimi də izah oluna bilər.

Uşağın tərbiyəsi və təlimi ətraf aləmə daxil olmaq üçün bir addımdır. Uşaqların sosial adaptasiya proseslərinin optimallaşdırılmasında məktəbəqədər təhsil müəssisələrinin rolu böyükdür. Çünki məhz bu müəssisələrdə onların şəxsiyyət kimi formalaşması fəal surətdə izlənilir və şərait yaradılır. Uşağın sosiallaşması xarici və daxili mühit amilləri ilə bağlıdır.

Uşağın sosiallaşmasının xarici amillərinə sosial institular aiddir. Onlar uşağın sosiallaşmasının məzmun və formalarını, sosial kompetensiyaların formalaşması istiqamətini müəyyənləşdirir. Şəxsiyyətin sosiallaşması funksiyasını daşıyan xüsusi sosial institutlara məktəbəqədər təhsil müəssisələri, məktəblər, peşə məktəbləri, uşaq və gənclər təşkilatları və ailə aiddir.

Daxili amillərə uşağın yaş dövrləri və fərdi xüsusiyyətləri aid edilir. Bunlar uşaqların sosial münasibətlərində və dünya təsəvvürünün formalaşması

sisitemində özünü büruzə verir.

Sosiallaşmanın ən mühüm amillərindən biri də şəxsiyyətin mədəni surətdə özünüaktuallaşdırması, sosial cəhətdən kamilləşməsi üçün öz üzərində işləməsidir ki, bu proseslər daha yuxarı mərhələlərdə həyata keçirilir.

Uşaqların sosiallaşmasında ətraf aləmin oyunda reallaşdırılması əvəzolunmaz nəticələr verir. Onlarda öz davranış və hərəkətlərinə nəzarət yaranır. Cəmiyyət içərisində "mən" və "başqaları" mövqeyi formalaşır. Oyun ətraf aləmin modelləşdirilməsi üsullarını uşaqlar üçün əlçatan edir. N.Leontyev və D.B. Elkonin oyuna uşaqların sosial münasibətlər aləminə praktik nüfuz etmələrinin xüsusi forması kimi baxırdılar. Oyunda uşaqlar təbiidir, fəal hərəkət edirlər, səmimi hisslər keçirirlər, nəsə fikirləşib tapırlar, yradaırlar,təxəyyülü genişlənir [4,76].

Məktəbəhazırlıq dövrü məktəbəqədər təhsil müəssisəsi səviyyəsində uşağın sosiallaşmasının sonuncu və məktəb dövrü üçün başlanğıcı hesab edilir. Bu mərhələdə uşaqların həyatında bir sıra əhəmiyyətli dəyişiliklər baş verir. Uşaq bağçasına gəlməklə ondan sosial adaptasiya sisteminin mənimsənilməsi tələb olunur: yeni sosial şəraitdə yaşamaq bacarığı, yeni sosial rolun – "bağça uşağı" rolunun dərk edilməsi, öz həyatında yeni dövr olduğunun başa düşülməsi, ətrafdakılarla əlaqədə şəxsi fəallıq, qrupun müəyyən qaydalarına riayət edilməsi və s.

Cəmiyyətə və ətraf aləmə sosial-psixoloji adaptasiya üçün ilk sosiumların – ailənin və uşaq bağçalarının üzərinə böyük məsuliyyət düşür. Uşaqların mükəmməl şəxsiyyət kimi yetişdiilməsində, gələcək məktəb həyatına hazırlanmasında erkən sosiallaşma, öz yaşıdları və böyüklərlə ünsiyyətin rolu böyükdür. İnsanın gələcək həyatının nücə qurulması , demək olar ki, bu dövrdən çox asılıdır. Çünki bu mərhələdə insan şəxsiyyətinin 70% formalaşmış olur.

Beləliklə, sosiallaşan uşaq üçün sosial mühitin dəyişkənliyinin müvafiq etalonları ailə, məktəbəqədər təhsil müəssisəsi və ətrafındakılardır. Bir sosial mühitdən digərinə keçid zamanı uşaq böhran keçirir, adaptasiya ləngiyir və fərdiləşmə prosesi həmin sosial mühitə inteqrasiya ilə başa çatır. Bu cür hallarda uşaqlarla aparılan oyun texnikları onların yeni sosial şəraitə adaptasiyasını yüngülləşdirir, özünü və başqalarını adekvat qəbul etməyə, konstruktiv davranış formalarını və cəmiyyətdə kommunikabelliliyin əsaslarını mənimsəməyə kömək edir.

Qeyd olunan dəyərlərin aşılanmasında ilk növbədə təlim prosesində uşaqların idrak fəallığının rolu əvəzolunmazdır. Bunun üçün müasir təhsil modelində uşaqların məktəb təliminə müvəffəqiyyətlə hazırlığı üçün bərabər imkanların yaradlılması, hərəkətliliyə diqqət yetirilməsi, hafizənin inkişafı, hər bir fəaliyyətin dərk olunması xüsusi əhəmiyyət daşıyır. Fiziki və idraki fəaliyyətin dinamikliyinin yüksəlməsi, xarakter, əqli və iradi keyfiyyətlərin və

motivin formalaşması, ünsiyyətə daxili tələbatın artması ilə uşağın sosiallaşması müfəffəqiyyətlə davam edir.

Məktəbəqədər yaşlı uşaqların sosiallaşmasında tərbiyənin şəxsiyyət-yönümlü modelinin tətbiqi məqsədəuygundur.

Tərbiyəçinin bütün qrupla apardığı iş zamanı hər bir uşağın fərdi ünsiyyətini nəzərə alması qarşılıqlı anlaşmanı, etibarlı münasibətin qurulmasını təmin edir.

Tərbiyəçi elə situasiya və oyunlar təklif etməlidir ki, burada ən azı 4-5 uşaq və ya bütöv qrup iştrak etsin. Bu prosesdə tərbiyəçi diqqəti ən çox ünsiyyət etməyən uşağa yönəldir və onun müsbət cəhətlərini yaşıdlarına söyləyir. Bu cür yanaşma passiv uşaqda özünəinam yaradır və kollektivə qoşulmağa sövq edir.

Uşağın sosiallaşmasına təsir edən xarici amillərdən biri də kütləvi informasiya vasitələridir (KİV). Bir çox hallarda onlar uşaqların dünyagörüşünün formalaşmasına, fəaliyyət aktivliyinin oyanmasına müsbət təsir göstərir. KİV – cəmiyyətə informasiyaların verilməsinin bütün kanallarını birləşdirən anlayışdır (mətbuat, kitablar, televiziya, internet və s.).

Sosial mühitdə olan neqativ təsirlər ( davakarlığı təbliğ edən filmlər, uşaqların yaşına uyğun olmayan, mənəviyyatına mənfi təsir göstərən cizgi filmləri, internet məlumatları, yaşıdları arasında olan aqressivlik) uşaqalrın şəxsiyyət kimi inkişafına, sosial-mənəvi dəyərlərin formalaşmasına mənfi təsir göstərir. Məktəbəqədər yaşlı uşaqların inkişafında ən təsirli və ali institut ailə institutudur. Uşaq ailədə qazandığı dəyərləri gələcək həyatı boyu qoruyur və onlara müvafiq yaşayır.

“Ailə uşağın mənəvi inkişafının beşiyidir. Ailə tərbiyədə əsas, uzunmüddətli və mühüm rol oynayan kollektivdir. O, uşağın özünü dərk etməsini və sevgi, qayğı, nəvazişə olan tələbatını təmin edən ənənəvi institutlardan biridir” [3,c.35].

Cəmiyyətdə baş verən hadisələr, mədəniyyətdə gedən proseslər daim mövcud olan dəyərlərin, normaların dəyişiləsini tələb edir. Özündə dinamik sistemi əks etdirən edən uşaq daim fasiləsiz dəyişikliklərə və inkişafa məruz qalır. Bu cür halda o, qarşılaşdığı problemləri müstəqil həll etməyə çalışır və öz şəxsi inkişafını daxili hərəkətverici qüvvə hesabına reallaşdırır. Uşaq ilk növbədə ailədə əldə etdiyi təcrübə nəticəsində bunların öhdəsindən gəlməyə çalışır. Ona görə ki, uşağın fiziki, mənəvi, əxlaqi, estetik və əmək tərbiyəsi istiqamətində şəxsiyyət kimi ilkin formalaşması məhz ailədə baş verir. Ailədə yalnız deyilənlərin əsası qoyulmur, həmçinin mənəvi dəyərlərə daim və ardıcıl olaraq qoşulmaq nəticəsində uşağın şəxsiyyəti mükəmməlləşir ki, bu da öz növbəsində onun əxlaqında, davranışında, dünyagörüşündə özünü büruzə verir və daxili aləminin zənginləşməsinə geniş imkanlar açır. Məhz ailə vasitəsi ilə uşaq ictimai həyata nüfuz edir, onun dəyərlərini, davranış normalarını, təfəkkür üsullarını və dili mənimsəyir. Başqa sosial institutlardan fərqli olaraq ailə bütün

həyatı boyu övladın bütün hərəkətlərinə təsir etməyə qadirdir.

Məlumdur ki, azərbaycanlılar ən qədim dövrlərdən bəri ailəyə böyük dəyər verən millət olmuşdur. Dövlətimizin ən ali və ilkin dəyəri ailədir. Sağlam düşüncəli ailələrə malik olan dövlətin uğurlu gələcəyi olar. Ona görə də ailəyə laqeyd münasibət onun nüfuzunun aşağı düşməsinə, mənəvi-əxlaqi ənənələrin itməsinə, eqoist şüurun formalaşmasına, təhsilin humanitar sferasının dağılmasına səbəb ola bilər. Təəssüf ki, bütün bunlar həqiqətdir. Boşanmağa tez qərar verən cütlüklər bunun uşaqların taleyinə nə qədər pis təsir edəcəyi barədə heç də düşünmürlər və onları tam qayğıdan məhrum edirlər.

Cəmiyyətdə baş verən neqativ proseslərdən sivilizasiya prosesi tormozlana bilər. Bu prosesdə ailənin rolunun yüksəlməsi aydın görünür. Ailədə tərbiyə imkanlarının möhkəmlənməsi ölkədə mənəvi-əxlaqi mühitin sağlamlaşdırılmasının əsas istiqamətlərindən biridir. Ailədə tərbiyə potensialını tam təsvir etmək, onu dinamikada, mürəkkəb vəziyyətdə və ziddiyyətlərdə görmək onun gələcəkdə təkmilləşməsi, ailədaxili mənəvi imkanlarını istifadə etmək üçün dəqiq yollar axtarmağa şərait yaradır.

Ailənin sosial-mənəvi tərbiyəsində baba və nənələrin xidmətləri böyükdür. Onlar xalq nəğmələri, nağıllar, bayatılar, məsəllər vasitəsi ilə böyüklərə, ailə ənənələrinə, vətənə məhəbbət aşılayır və bunun gündəlik davranışda istifadə edilməsinə nail olurlar. Uşaqlar bilməlidirlər ki, qohumlarla, valideynlərlə, bacı və qardaşlarla mehriban davranmadan insan xoşbəxt ola bilməz. Onlar baba və nənələrinin necə ömür yaşadıqlarını, hansı şəraitdə böyüdüklərini və sınaqlardan necə çıxdıqlarını öyrənməlidirlər.

Hər bir evdə ailə haqqında əşyaların, şəkillərin qorunması uşaqlarda keçmişinə qarşı maraq yaradır, onlar öz baba və nənələri haqqında qürurla danışırlar. Uşaqlarda mənəviyyat və qarşılıqlı anlaşma pozuntusu ailədə yaranan münaqişələr zamanı baş verir. Hansı ailədə ki, qışqırıq, fiziki cəza, uşaqalra qarşı mütəmadi kobudluq və zor tətbiq edilirsə, əvvəlcə psixi pozuntular üçün şərait yaranır, sonra isə onların davranışında normadan kənar hərəkətlər müşahidə olunur.

Uşağın öz təşəbbüskarlığına təzyiq göstərmədən onun dostu və məsləhətçisi olmaq, mülayim şəkildə fikrini düzgün istiqamətə yönəltmək ailədə mənəvi tərbiyənin əsas şərtidir. İnsanların emosional vəziyyətini, əxlaqi, şəxsiyyətyönlü işgüzar keyfiyyətlərini, müxtəlif fəaliyyət növlərində imkanlarını dərk etmək üçün təbii yaranmış situasiyalardan və ya xüsusi təşkil olunmuş situasiyalardan istifadə etmək zəruridir.

Uşağın yaşadığı, inkişaf etdiyi cəmiyyətin, ailənin və təhsil müəssisəsinin daxili mədəniyyətinin əsasını mənəvi-əxlaqi tərbiyə təşkil edir. Ailədə və uşaq bağçasında xeyirxah abu-hava ilə fəaliyyət göstərən valideyn və pedaqoqlar uşaqlara ən yaxın insanlardır. Onlar uşağın daxili aləminin formalaşmasında həlledici rol oynayırlar.

Ailədə sosial-mənəvi tərbiyə əvvəllər olduğu kimi valideynlərin maarifləndirilməsi hesabına uşaqların uğur qazanmaları və problemləri həll etmələri deyil. Yeni pedaqoji paradiqma (fəal tərbiyə, inkişafetdirici təlim, pedaqoqların peşəkarlığının yüksəldilməsi və ailənin pedaqoji potensialının artırılması) informativ-ibrətamiz tərbiyə modelindən uşaq və böyüyün əxlaqi şüurunun, hisslərinin və davranışının inkişaf modelinə, pedaqoq və valideynlərin psixoloji və pedaqoji kompetensiyalarının artırılması modelinə, uşağın təlimi və sosiallaşması üçün şəxsiyyətlərarası və ailədaxili sosiomədəni texnologiyaların mənimsənilməsi modelinə keçməyi tələb edir.

Məlumdur ki, tərbiyədə uşaq-valideyn münaibətləri çox əhəmiyyətlidir, ailə üzvləri arasında qarşılıqlı münasibətlər mexanizmi isə sosial-mənəvi tərbiyənin inkişafında müstəsna rol oynayır. Bəzi valideynlər uşaqlarının istəyini, tələbatlarını başa düşmür, hər şeyi təzyiq vasitəsi ilə həyata keçirmək istəyir. Onlar öz şəxsi işləri ilə məşğul olaraq uşaqları ilə ünsiyyət etməyə, gəzməyə, oynamağa, maraq və istəklərini təmin etməyə vaxt çatdırmırlar. Uşaqlarda sosial-mənəvi inkişafı təmin etmək üçün məktəbəqədər yaşlı uşaqların bəzi xüsusiyyətlərini nəzərə almaq zəruridir.

## ƏDƏBİYYAT


1. Həsənova P.M. Məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişafı (Dərs vəsaiti). Bakı, 2017.
2. Выготский Л. С. Психология развития человека. Москва: «Изд-во Смысл» Эксмо, 2005, 1136 с.
3. А.В.Мудрик. Социальная педагогика. Москва: Издательский центр «Академия», 2000. - 200 с.
4. Эльконин Д.Б. Детская психология. 4-е изд., стер. — Москва.: Издательский центр «Академия», 2007, с.384
5. Попова А.Д. Социализация детей старшего дошкольного возраста в игровой деятельности // Молодой ученый. 2015, №1, с. 477-479.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 05.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376**

**Z.Məmmədova**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ1000 Bakı ş., Ü.Hacıbəyli 68

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLAR ÜÇÜN TƏLİM STRATEGİYALARI

***Açar sözlər:*** *Xüsusi qayğıya ehtiyacı olan uşaqlar, strategiya, differensial təlim, sosial və emosional yardım, qabiliyyət, maraq*

Xüsusi qayğiya ehtiyaci olan və təhsildə çətinlikləri olan uşaqların müxtəlif xarakterli inkişaf xüsusiyyətlərinin, təhsillə bağlı ehtiyaclarının, sağlamlığının və inkişaf səviyyəsinin müəyyənləşdirilməsi onlarla aparılan təlim işinin səmərəliyindən asılıdır. Həmçinin, belə uşaqların təhsil ehtiyaclarının təmin edilməsi məqsədilə düzgün təlim strategiyalarının müəyyənləşdirilməsi vacib şərtlərdəndir.

**З.Мамедова**

## СТРАТЕГИИ ОБУЧЕНИЯ ДЛЯ ДЕТЕЙ С ОСОБЫМИ ПОТРЕБНОСТЯМИ

***Ключевые слова:*** *дети с особыми потребностями, стратегия, дифференциальное обучение, социальная и эмоциональная поддержка, способности, интерес.*

Определение различных характеристик развития, образовательных потребностей, здоровья и развития детей с особыми потребностями и трудностями в обучении зависит от эффективности их учебной работы.

**Z.Mamedova**

## LEARNING STRATEGIES FOR CHILDREN WITH SPECIAL NEEDS

***Key words:*** *children with special needs, strategy, differential learning social and emotional support, ability, interest*

Characterizing the various characteristics of development, educational needs, the level of health and development of children with special needs and learning difficulties depends on the effectiveness of their educational work. It is

also important to identify appropriate learning strategies to meet the educational needs of these children.

Ölkəmizdə 1999-cu ildən təhsil sistemində həyata keçirilən islahatın əsas məqsədlərindən biri təhsil alanların tələb və ehtiyacları nəzərə alınaraq onların istedad və qabiliyyətlərinin inkişafına yönəldilməsidir. 2005-ci ildən "Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramı" həyata keçirilir. Proqram çərçivəsində 17 ümumtəhsil məktəbi və 13 uşaq bağçasında 200-dən çox sağlamlıq imkanları məhdud uşaq inklüziv təhsilə cəlb olunmuşdur.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2013-cü il 24 oktyabr tarixli Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının qəbul olunması hazırkı dövrün tələblərinə uyğun olaraq təhsil sisteminin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Strategiyada beş strateji istiqamətdə genişmiqyaslı tədbirlər nəzərdə tutulur. Strateji hədəflər və tədbirlərin 4.3-cü bəndində "... xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf"ının da nəzərə alınması vacib hesab edilir. Bu baxımdan xüsusi qayğıya ehtiyacı olan uşaqların dəstəklənməsi, təlim və fəaliyyətinin düzgün təşkil edilməsi yalnız bir müəssisənin, bir kollektivin işi ola bilməz. Bu ümumdövlət qayğısı və ümumxalq işidir.

Təhsil sistemi əqli və fiziki durumundan asılı olmayaraq bütün uşaqları əhatə etməli, onların hər birinin təhsil tələbatları, fərdi xüsusiyyətləri nəzərə alınaraq bərabər imkanlar yradılmalıdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların öz yaşıdları ilə eyni şəraitdə təhsil almaları onların inkişafı üçün geniş imkanlar yaradır. Belə ki, qabiliyyət və ehtiyaclarından asılı olmayaraq uşaqların hamısı təlm prosesində birgə iştirak edir və təlim prosesinin tam hüquqlu üzvünə çevrilirlər. Prosesin belə düzgün qurulması onların hər birinin fərdi keyfiyyətlərinin, ehtiyaclarının və istedadlarinin aşkarlanaraq dəstəklənməsinə imkan yaradir.

Xüsusi qayğiya ehtiyaci olan və təhsildə çətinlikləri olan uşaqlar araşdırılıarkən aydın olur ki, belə uşaqlarda müxtəlif xarakterli inkişaf xüsusiyyətlərinin, təhsillə bağlı ehtiyaclarının, sağlamlığı və inkişaf səviyyəsinin müəyyənləşdirilməsi də işin səmərəli qurulması üçün vacib şərtlərdəndir. Belə ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsildə uğur qazanmasının və ya qazana bilməməsinin başqa səbələri də mövcuddur. Bu səbəblər uşağın ailə vəziyyəti ilə, onun təminatı ilə, ona təhsil verən mütəxəssislərlə və eyni zamanda onlarla olan qarşılıqlı münasibətlə bağlı ola bilər. Belə uşaqların cəmiyyətə və təhsilə uğurlu inteqrasiyası üçün bu şərtlərin nəzərə alınması vacibdir.

Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslərin təhsili Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir. Bu qanun sağlamlıq imkanları məhdud şəxslərin təhsili sahəsində yaranan münasibətləri tənzimləyir, xüsusi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Xüsusi təhsil ehtiyacları olan uşaqlarla işləyərkən onların maraq və qabiliyyətlərini nəzərə almaq, inkişaflarının təmin edilməsi məqsədilə səmərəli təlim mühitini yaramaq vacib şərtlərdəndir. Bu vacib məsələlərin həll edilməsi üçün müvafiq tədbirlərin vaxtında və düzgün tətbiq edilməsi hər bir müəllimdən pedaqoji ustalıq tələb edir.

Təlim fəaliyyətinin səmərəliliyini təmin etmək üçün uşaqların mənimsəmə imkanlarının aşkara çıxarılması da zəruridir. Onların mənimsəmə imkanlarının aşkara çıxarılmasında senzitiv dövrlər haqqında məlumatların toplanması əhəmiyyətli hesab olunur. Uşağın inkişafının ayrı-ayrı mərhələlərində psixikanın bu və ya digər istiqamətdə inkişafı üçün daha əlverişli şərait yaranır. Bu cür yaş dövrləri bu və ya digər psixi xüsusiyyət və keyfiyyətin inkişafı üçün nisbətən optimal olarsa, həmin dövrləri senzitiv dövrlər adlandıra bilərik. Məsələn, nitqin inkişafı üçün bir yaşdan beş yaşa qədər olan dövr, riyazi qabiliyyətlərin formalaşması üçün 15-20 yaş senzitiv dövr hesab olunur. Psixi inkişafın senzitiv dövrlərinin əhəmiyyətini qeyd edərək L.S.Vıqotski yazırdı: "Bu dövrdə hissi həssaslıq inkişafda dərin dəyişikliklər əmələ gətirərək onun bütün gedişinə müəyyən təsir göstərir. Başqa vaxtlarda həmin şərtlər özü tamamilə neytral olar, ya da inkişafın gedişinə əks təsir göstərə bilər. Senzitiv dövrlər bizim təlimin optimal müddətləri adlandırdığımız anlarla tam uyğun gəlir". Ona görə də uşaqlarla aparılan təlim işini onların psixi inkişaflarının "senzitiv" dövrlərinə uyğunlaşdırmaq təlim prosesini optimallaşdırmağın mühüm şərtlərindən biridir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təlim strategiyaları içərisində təlim prosesinin diferensiallaşdırılması mühüm əhəmiyyətə malikdir. Məlumdur ki, təhsil sistemində həyata keçirilən islahatların əsas məqsədlərindən biri, təhsil alanların maraq və qabiliyyətlərini nəzərə alaraq onların inkişafını təmin edən səmərəli təlim prosesinin qurulmasıdır. Təlim prosesinin müasir konsepsiyasında göstərilir ki, təhsil alanların gələcək fəaliyyətə hazır olmaları onların fərdi qabiliyyəti və daxili tələbatı ilə müəyyən edilir. Müasir təhsil sisteminin başlıca vəzifəsi uşağın təhsil ehtiyaclarının ödənilməsinə yönəldilməlidir. Belə ki, müasir təhsil sisteminin başlıca vəzifəsi şəxsin təhsil ehtiyaclarinin ödənilmənilməsini təmin etməkdir. Fundamental fəaliyyətin elmi əsaslarını təşkil etmiş diferensiallaşdırılmış təlimin təşkili həyata keçirməlidir. Diferensiallaşma pedaqoji texnologiya kimi uşaqların fərdi xüsusiyyətlərini, psixoloji durumunu nəzərə alaraq öyrənməyə, biliklər sisteminə yiyələnməyə maraqların yüksəldilməsinə xidmət edir. Diferensiallaşdırma eyni zamanda uşaqların fəallıq, sərbəstlik kimi fərdi xüsusiyyətləri ilə qarşılıqlı əlaqədə olub, bu keyfiyyətlərin inkişafını təmin etməklə yanaşı, həm də onun təhsil səviyyəsinin yüksəlməsinə geniş imkanlar açır. Araşdırmalr göstərir ki, tədris-təlim prosesində müvəffəqiyyətsizliyin, uğursuzluğun, verilən materialın mənimsənilməsində ləngimənin pedaqoji-psixoloji məsələləri müxtəlif formalı diferensial yanaşmanın tətbiqi nəticəsində həll edilə bilər. Bu problemlərin həlli ilə bağlı təlimin məzmununun, metodlarının,

təşkilat formalarının müasir tələblər səviyyəsində qurulması məqsədəmüvafiqdir.. Başqa sözlə, hər bir təhsil alanın intellektual, psixofiziki imkanları nəzərə alınaraq mövcud proqramın məzmununun mənimsənilməsinə, onun reallaşdırılmasına və həm də fərdi ehtiyaclarına uyğun həyata keçirilməsinə istiqamətlənir. Bu ideya iki şərt daxilində daha səmərəli həyata keçirilə bilər:

- müvafiq təlim ənənələri saxlanmaqla;
- təhsil alanın təbii dərk etmə qabiliyyətinin inkişafının, onun əqli fəaliyyətinin formalaşma səviyyəsinə uyğunlaşdırılması.

Təlimdə diferensiallaşdırılmanın həyata keçirilməsi və inkişafı, bu halda kompensasiya edilmiş (müvazinətləşdirilmiş) təlimlə müşaiyət olunmalıdır. Əks halda, korreksiya və kompensasiyaya ehtiyacı olan uşaqların intellektual inkişafında ciddi maneələr, əngəllər və çətinliklər yaranacaq.

Differensial təlimi proses kimi başa düşmək lazımdır. Yəni tərbiyəçi uşaqlar üçün maksimum səmərəli şərait yaratmaq istədikdə daim bu təlimin differensiallaşdırılması məqsədi üzərində işləməlidirlər. Təlimin diferensiallaşması prosesinə başlamazdan əvvəl təlim prosesinin özünün nədən ibarət olmasına nəzər salmaq məqsədə uyğundur.

Təlimin diferensiallaşması haqqında düşünən mütəxəssis mütləq təlim prosesinin komponentlərinin hər birinin diferensiallaşması barədə düşünməlidir.

Bu komponentlər aşağıdakılardır:

*Məzmunun diferensiallaşması.* Bildiyiniz kimi təhsil sisteminə cəlb olunan hər hansı bir uşaq (xüsusi qayğıya ehtiyacı olan uşaq və tipik uşaq) müəyyən bilik və bacarıqlara yiyələnməlidir. Bilik və bacarıqların lazımi səviyyəsini müəyyənləşdirmək üçün məzmun standartları müəyyənləşdirilmişdir. Məzmun standartları uşaqların müəyyən yaş səviyyəsində nəyi bilməli və bacarmalı olduqlarını müəyyən edir. Məzmun standartlarının reallaşması istiqamətində təlim prosesi planlaşdırılır.

Məzmun standartları təlimin nəticələrini müəyyən edərək məzmunun bütün uşaqlar tərəfindən mənimsəməsini təmin edir. Müəllimlər standartları reallaşdırarkən şagirdlərin standartların tələblərinə uyğun bacarıqlara yiyələnmələri məqsədilə gözlənilən məqsədə çatmağa onları motivasiya edirlər. Xüsusi təhsil ehtiyacları olan uşaqların müəyyən bacarıqlara yiyələnməsi məqsədilə diferensial təlim üsullarından istifadəyə üstünlük verilir. Təlim tapşırıqlarının onların anlama səviyyələrinə uyğun müəyyənləşdirilməsi işin səmərəli qurulmasına şərait yaradar.

Fərqli qabiliyyət və maraqlara, eləcə də fərqli öyrənmə xüsusiyyətlərinə malik uşaqlara eyni anlayış və bacarıqları necə öyrətmək olar? Dərs üçün ayrılmış məhdud vaxt çərçivəsində bunun öhdəsindən necə gəlmək olar?

Bunu nəzərə alaraq diferensial təlimin iki fundamental prinsipini qeyd etmək olar:

- Diferensiasiya bütün uşaqların ehtiyaclarını qarşılamaq üçün –onların nə öyrəndiyinə (məzmun), informasiyanı necə mənimsədiklərinə (informasiyanın

emalı), bilik və bacarıqlarını necə nümayiş etdirmələrinə (nəticə) və tədrisin harada və kiminlə baş tutmasına (təlim mühiti) dəyişiklik etməklə hazırlanmış öyrətmə metodudur.

● "Diferensiasiya təlim reseptlərindən ibarət toplu deyil. Əslində bu, uşaqların sinifdə lazımi təlim təcrübəsi qazanması üçün "öyrətmə və öyrənmə haqqında düşünmək tərzidir".

Bunu nəzərdə tutaraq, fərqli qabiliyyətlərə malik uşaqların təlim ehtiyaclarını ödəmək üçün istifadə edə biləcəyiniz xüsusi texnikalardan istifadə vacibdir:

1. Diferensiasiyaya keçid tədricən təşkil olunmalıdır.

Təhsil müəssisəsində çalışan mütəxəssislər bilirlər ki, hər bir uşağın güclü və zəif tərəfləri, arzu və istəkləri, maraq və dünyagörüşü vardır və hər bir uşaq xüsusi öyrənmə üslubuna malik olur. Bu da uşağın təlim prosesi zamanı göstərdiyi nailiyyətlərini həm sürətləndirir, həm də ləngidə bilir. Xüsusi təhsil ehtiyacları olan şagirdlər də istisna deyil. Ona görə də, şagirdə yönəlmiş təlim zamanı bütün şagird amilləri nəzərə alınmalıdır və onların üzərində səmərəli təlim prosesi qurulmalıdır. Şagirdlər üçün güclü olan tərəfləri daha gücləndirmək və bacardıqlarını daha da genişləndirmək üçün şərait yaradılmalıdır. Mütəxəssislər xüsusi təhsil ehtiyacları olan şagirdlərin bilmədiklərini və bacarmadıqlarını yox, bildiklərini, maraqlandıqlarını və bacardıqlarını daima nəzərə almalıdırlar və onlardan istifadə etməyi bacarmalıdırlar. Uşaqlara məşğələnin sonunadək iki-üç yazı işi mövzusundan birini seçərək yazı yazmaq təklif edilərsə bunu diferensiasiyaya tədrici keçidin başlanğıcı hesab edə bilərik.

2. Yüksək nailiyyətli şagirdlərə sıxlaşdırılmış (kompakt) proqram təqdim edilməlidir.

Üsullar və materiallar, tapşırıqlar və fəaliyyətlər planlaşdırılan zaman xüsusi təhsil ehtiyacları olan və hətta tipik şagirdlərin fərqli öyrənmə üslubları müəyyən edilməli və nəzərə alınmalıdır.

Deməli, təlimin diferensiallaşdırılması, müasir pedaqogikada qarşılıqlı əlaqədə olan müxtəlif təşkilati-pedaqoji tədbirlər əsasında uşaqların psixo-fiziki imkanları nəzərə alınaraq onların səmərəli təlim almaları və inkişaflarının təmin olunması üçün optimal təlim mühitinin yardılmasını tələb edir. Bu isə qeyd etdiyimiz kimi tədris-təlim prosesində müxtəlif yollarla həyata keçirilə bilər.

Diferensial təlim əhəmiyyətli hesab edilən məzmunu, müxtəlif öyrənmə və düşüncə tərzinə malik olan uşaqlara öyrətmək və mənimsəməni təmin etmək üçün tətbiq olunan təlim üsuludur. Qeyd etmək lazımdır ki, diferensial təlim nəinki xüsusi təhsil ehtiyacları olan uşaqlar, eyni zamanda normal uşaqların da təlim nailiyyətlərinin yüksəldilməsi üçün ən perspektiv və səmərəli təlim metodlarından biri hesab edilir. Ona görə də təlimin diferensiallaşdırılması prosesinə başlamazdan əvvəl, təlimin bir-biri ilə sıx əlaqədə olan əsas aspektlərini nəzərə almaq lazımdır:

- Məzmun və gözlənilən nəticə

➢ Öyrənənlərin bilik və bacarıqları, inkişaf və hazırlıq səviyyələri və xüsusi ehtiyacları

➢ Təlim üsulları, əyani vəsaitlər, əlavə təlim materialları, öyrənməni möhkəmləndirmək üçün tapşırıqlar

➢ Təlim nailiyyətlərinin qiymətləndirilməsi üsulları.

Inklüziv komponentli sinifdə çalışan müəllimlər və onların köməkçiləri ailələrlə işləmək vərdişlərinə malik olmalı və onlarla mütəmadi səmərəli iş aparmalıdırlar. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla təlim prosesində və dərsdən kənar tədbirlərdə aparılan işlərdə valideynlərin iştirakı və onların dəstəyinin zəruriliyi həlledici rol oynayır. Valideynlər bu prosesdə, həm də tərəf müqabili kimi çıxış etməlidirlər. Bu münasibətlərin formalaşmasında valideynlərə və təhsilalanlara aşağıdakı yardımın göstərilməsi xüsusilə əhəmiyyətlidir:

➢ Sosial və emosional yardım

➢ Informasiya mübadiləsi

➢ Valideynlərin uşaqların təlimində iştiraka cəlb edilməsi

➢ Uşaqlar və valideynlər arasında qarşılıqlı münasibətlərin yaxşılaşdırılması və səmərəliliyin artırılması

Xüsusi qayğıya ehtiyacı olan uşaqların inkişafı və təlim prosesində ailələrlə səmərəli əməkdaşlığın qurulması üçün müəllimlər aşağıdakı xüsusi strategiyaları nəzərə almalıdırlar

- Sosial və emosional yardım çərçivəsində müəllim və psixoloqun valideynlərlə birgə işinin təşkili
- Informasiya mübadiləsi çərçivəsində inklüziv təlim proqramlarının məzmunu;
- Uşağın inkişafında, davranışında müşahidə olunan irəliləyişlər, təlim prosesinin təkmilləşdirilməsi ilə bağlı toplanmış və ümumiləşdirilmiş informasiyalar barədə valideynlərin müntəzəm məlumatlandırılması
- Valideynlərin dərslərdə iştiraka həvəsləndirilməsi nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla ünsiyyət və onların bir-biri ilə davranış vərdişlərinin inkişaf etdirilməsi.

Təlimin səmərəli təşkilini nəzərə alaraq müəllim müxtəlif temperamentli uşaqlar üçün öyrənməyə şərait yaradan təlim otağını təşkil etməlidir. Konkret davranışın hansı səbəbdən doğmasından asılı olmayaraq, müəyyən işdə iştirak etməkdən çəkinən, yaxud ümumiyyətlə aqressivlik göstərən uşaqlara münasibətdə istifadə etmək üçün müəyyən strategiya repertuarını inkişaf etdirməlidir.

Bəzi uşaqlar müəyyən işlərdə zəif iştirak edirlər, utanır, yaxud iştirak etməkdən çəkinirlər. Belə uşaqlar onları digər uşaqlarla sosial ünsiyyətə vadar edən davranışa tam şəkildə yiyələnə bilmirlər. Sosial davranışın inkişafını asanlaşdırmaq üçün müəllim (tərbiyəçi) aşağıda sadalanan strategiyalardan istifadə edilə bilər:

**1.** Uşaqların fəaliyyətləri daim müşahidə edilməlidir**-** Vaxtaşırı olaraq aparılan müşahidələr vasitəsilə bir çox irəliləyişlər əldə edilə bilər ki, onlar müşahidənin

nəticəsindən asılı olaraq digər fəaliyyət növündə də fəal şəkildə iştiraka cəlb edilərlər.

**2.** Davamlı şəkildə yanaşmanın təmin edilməsi- bu zaman heç kəsə yovuşmayan uşaq özünü daha rahat hiss edəcəkdir.

**3.** İştirakı asanlaşdırmaq- müəllim (tərbiyəçi) xüsusi qayğı və diqqət tələb edən uşaqların müəyyən bir işdə işirakını həvəsləndirmək məqsədilə müxtəlif strategiyalardan istifdə edə bilər.

**4.** Pozitiv gücləndirmə - Təbəssüm, baş bulama, yaxud əl çalma böyük bir qrupun qarşısında rəsmi təstiqindən daha çox təsirli ola bilər. Həvəssiz uşağı müəyyən bir işdə iştirak etməyə məcbur etməməli, ancaq ona uşağın fəaliyyətə qoşulmazdan əvvəl ehtiyacı olduğu inamını yaratmaq üçün fərdi diqqət yetirmək son dərəcə mühümdür.

**5.** Diqqəti gözlənilən nəticənin üzərində cəmləşdirmə- Xüsisi qayğıya ehtiyacı olan uşaqlar üçün hər hansı bir işin yaxud fəaliyyətin son nəticəsini bilməkdən daha çox onun göstərdiyi səyləri qiymətləndirmək daha yaxşıdır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların müvafiq proqramları mənimsəməsi tərbiyəçi və ya pedaqoji heyətdən uzun müddət gözlənilən müsbət nəticəyə inamla baxmağı tələb edir, bu halda onlar uşağın inkişafı qayğısına qalmağı borc bilən digər mütəxxəsis və agentliklərlə əməkdaşlıq etməkdən çəkinməməli, və o cümlədən bu çətinlikləri ətraflı şəkildə öyrənməlidirər.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların özləri kimi, valideynləri də həssas olurlar, ona görə ki, cəmiyyətə daxil olmağa tam hazır deyillər, yaxud cəmiyyət onları qəbul etməyə hazır deyil. Ona görə də, özlərini və öz uşaqlarını müdafiə edərkən, belə insanlar bir qayda olaraq, ya çox əsəbi, ya da ki, çox passiv, öz taleyi ilə barışan, həyata küskün olurlar. Ona görə də belə insanlara kömək etmək daha çox pedaqoqların üzərinə düşür.

Hər hansı bir problemi həll etmək üçün xüsusi qayğıya ehtiyacı olan və tipik uşaqların valideynləri ilə birgə söhbət aparmalı, onlara təhsildə bərabər imkanlar haqqında ətraflı məlumat verməlidir. Tipik uşaqların valideynlərinin bu iclaslarda iştirak etmələri, pedaqoqlar və uşaqlar üçün çox faydalıdır, çünki, tipik uşaqların valideynləri öz uşaqlarına kiçik yaşdan anlatmalıdırlar ki, insanlar müxtəlif cür doğulurlar. Həyata gələn hər bir insan fiziki və əqli cəhətdən çətinliyi olsa belə, cəmiyyətin bərabər hüquqlu üzvüdür. Onların da diqqətə, məhəbbətə, qayğıya, hörmətə ehtiyacları var. Bizlərdən bu cür insanlara kömək və dəstək olmaq tələb olunur. XQE olan uşaqların valideynləri başqaları tərəfindən olan bu qayğını, dəstəyi görəndə özlərini cəmiyyət tərəfindən qəbul olunmuş hesab edirlər. Onlar inanırlar ki, tək deyillər və onlara kömək ediləcək və cəmiyyətin layiqli üzvü kimi qiymətləndiriləcəklər.

## ƏDƏBİYYAT

1. Abbasov A. Pedaqogika. B. Mütərcim, 2010
2. Kərimov Y.Ş. Təlim metodları. B.2007
3. Təhsil sisteminin idarə olunmasının pedaqoji-psixoloji problemləri. B.2011
4. Korreksion pedaqogikanın müasir məsələləri. B.2012
5. İnklüziv təhsil. Məktəbəqədər təhsil pilləsi üçün metodik vəsait. B.2013
6. Hüseynova  N.T. İnklüziv təhsil. B.2014
7. Xüsusi psixofiziki inkişafa malik uşaqların tərbiyə və təlimi. B. 2016

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376**

**S.A.Abasova**
müəllim
fəlsəfə doktoru proqramı üzrə dissertant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
e-mail: s-asadzade@mail.ru

# DAUN SİNDROMLU UŞAQLARDA NİTQİN İNKİŞAFI ZAMANI LOQORİTMİK MƏŞĞƏLƏLƏRİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *Daun sindromu, əzələ tonusu, eşitmə qavrayışı, görmə qavrayışı, loqoritmika, loqopedik məşğələlər*

Loqoritmikanın arsenalındakı bütün oyun növləri iki qrupa bölünür. Bu qruplardan biri qeyri-nitq proseslərinin, yəni ümumi və kiçik motorikanın, hərəkətlərin əlaqələndirilməsinin, məkan daxilində oriyentasiyanın inkişaf etdirilməsinə, əzələ tonusunun yüksəldilməsinə, eləcə də diqqət və yaddaş kimi digər psixi proseslərin inkişafına yönəldilmişdir. Digər qrup isə birbaşa olaraq düzgün tənəffüs, səs, artikulyasiya və mimikanı idarəetmə bacarığını, nitq və ətraf səsləri dərk etməni, passiv və aktiv nitqi, eləcə də səslərin düzgün tələffüzünü, nitqin temp və intonasiyasını inkişaf etdirən nitq məşqlərini təmsil edir.

**С.А.Абасова**

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЛОГОРИТМИЧЕСКИХ ЗАНЯТИЙ ПРИ РАЗВИТИИ РЕЧИ У ДЕТЕЙ С СИНДРОМОМ ДАУНА

***Ключевые слова:*** *синдром Дауна, мышечный тонус, слуховое восприятие, зрительное восприятие, логоритмика, логопедические занятия*

Все виды игровой деятельности в арсенале логоритмики делятся на две группы. Одна из этих групп направлена на развитие непроизвольных процессов речи, то есть на развитие общей и мелкой моторики, внутренней пространственной ориентации, а также на другие психические процессы, в том числе памяти и внимания. Другая группа направлена прямо на развитие правильного дыхания, фонации, артикуляции и на развитие управления мимических навыков; восприятие окружающих звуков, пассивной активной речи; а также представляет речевые занятия на развитие правильного произношения, темпа речи и интоноционной стороны.

**S.A.Abasova**

# THE MAIN DIRECTIONS OF LOGICAL TRAINING IN THE DEVELOPMENT OF SPEECH IN CHILDREN WITH DOWN SYNDROME

***Key words :*** *Down Syndrome, muscle tone, auditory perception, visual perception, logorhythmics, speech therapy exercises*

The main directions of logic exercises during speech development in children with Down syndrome. All games in the arcade of the loghority are divided into two groups . One of these groups focuses on the development of non-speech processes, such as general and small motorics, the coordination of movements, orientation within space, the increase of muscle tone, and the development of other mental processes such as attention and memory. The other group directly represent correctly about breathing, sound reproduction and mimics, speech and surround sound, passive and active speech, as well as speech pronunciation that improves speech pronunciation and speech intonation.

Loqopedik ritmika uşağın nitqindəki çətinliklərin aradan qaldırılmasına yönəlmiş, loqopedik, müsiqili ritmik və fiziki hərəkətləri əhatə edən korreksiya xarakterli özünəməxsus təlim formasıdır. Loqoritmika məşğələlərində nitq, musiqi və hərəkət çox sıx şəkildə bir-birinə qovuşur.

Loqopedik məşğələlər qavrama, eşitmə diqqəti və eşitmə yaddaşının inkişafına yönəldilmişdir. Onlar optik-məkan təsəvvürlərini, ümumi və kiçik motorikanın əlaqələndirilməsi vərdişlərini inkişaf etdirir, temp və ritm hissi aşılayır, nəğmə oxumağı və hekayə danışmağı öyrənməyə kömək edir .

Loqoritmikanın arsenalındakı bütün oyun növləri iki qrupa bölünür. Bu qruplardan biri qeyri-nitq proseslərinin, yəni ümumi və kiçik motorikanın, hərəkətlərin əlaqələndirilməsinin, məkan daxilində oriyentasiyanın inkişaf etdirilməsinə, əzələ tonusunun yüksəldilməsinə, eləcə də diqqət və yaddaş kimi digər psixi proseslərin inkişafına yönəldilmişdir. Digər qrup isə birbaşa olaraq düzgün tənəffüs, səs, artikulyasiya və mimikanı idarəetmə bacarığını, nitq və ətraf səsləri dərk etməni, passiv və aktiv nitqi, eləcə də səslərin düzgün tələffüzünü, nitqin temp və intonasiyasını inkişaf etdirən nitq məşqlərini təmsil edir.

Loqoritmika məşğələləri aşağıdakı oyun-məşq növlərini əhatə edə bilər.

1. Müxtəlif istiqamətlərdə yerimə. Bir qayda olaraq, bu məşqlər giriş və yekun məşqləri olurlar. Onlar əl və ayaq hərəkətlərinin dəqiq əlaqələndirilməsinə kömək edir, qaməti düzəldir, məkanda oriyentasiya olunmaq bacarığını formalaşdırır, hərəkətin sağ və sol tərəfə istiqamətlənməsinin qavranılmasını möhkəmləndirir, şifahi təlimatları anlamağı öyrədir.

2. Əzələ sistemini idarə etmək qabiliyyətinin, yəni, müəyyən əzələ qruplarının düzgün gərilməsi və boşaldılması,lazımi hərəkətləri sərbəst şəkildə yerinə yetirmək bacarığının inkişaf etdirilməsinə yönəldilmiş oyunları məşq etdirir.

3. Aydın danışmaq üçün düzgün tənəffüs və artikulyasiya yaratmaq lazımdır. Ona görə də, loqoritmikaya tənəffüs, səs və artikulyasiyanın inkişaf etdirilməsinə yönəldilmiş oyun-məşqləri daxil edilmişdir.

4. Diqqət və təlim yaddaşını fəallaşdıran, genişləndirən və fəaliyyətinə kömək edən oyun-məşqləri. Hər bir uşağın öz diqqətini bir neçə fəaliyyət növünə yönəltməyi öyrənməsi vacibdir. Bununla isə bütün yaddaş növləri – hərəkət, göz və eşitmə yaddaşı inkişaf edir.

5. Musiqi müşayiəti olmadan nitq məşqləri. Onların məğzi hərəkətlərin yerinə yetirilməsi ilə eyni vaxtda şer mətninin ritmlə deyilməsindədir. Bu məşqlərdə şer mətni müəyyən hərəkətin yerinə yetirilməsi üçün ritmik əsasdır. Bu, ümumi və kiçik motorikanı təkmilləşdirməyə və hərəkətin əlaqələndirilməsini yaxşılaşdırmağa imkan verir.

6. Ritm məşqləri. Onlar nitqin tempi və ritminin düzəldilməsinə yönəldilərək hecanın, sözün və cümlənin ritmik əsasına istiqamətlənməyi uşağa öyrədir. Uşaq çox hecalı sözü deyərkən onun ritmik əsasını düzgün əks etdirə bilmədiyi hallarda, bu xüsusilə faydalıdır. Belə ki, uşaq onu hiss etmir. Bu, Daun sindromu olan uşaqlarda tez-tez baş verir.

7. Nəğmə bütün uşaqların tənəffüsünü , eşitmə qabiliyyətini və səsini inkişaf etdirir.

8. Uşaq musiqi alətləri ilə oynama kiçik motorika və eşitmə qabiliyyətini inkişaf etdirir, musiqi ritmini duyma hissini formalaşdırır, diqqəti və yaddaşı möhkəmləndirir.

9. Barmaq oyunları. Yaddan çıxarmaq lazım deyil ki, uşağın barmaqlarının cəldliyini və hərəkətliliyini inkişaf etdirməklə biz onun nitq qabiliyyətinin inkişafını sürətləndiririk.

10. Mimika və artikulyasiyanı inkişaf etdirən oyunlar. Daun sindromu olan uşaqlarda hissiyyat aşağı olduğundan onlar üz nahiyələrini yaxşı hiss etmirlər və üzün kiçik əzələlərini sərbəst hərəkət etdirə bilmirlər. Loqoritmikanın bu bölməsinə daxil olan oyunlar onlarda mimika və artikulyasiya motorikasını, yəni, çənə, dodaq, yanaq və dilin iradi hərəkətini yaxşılaşdırır.

11. Əgər uşaqda fonematik eşitmə qabiliyyəti kifayət qədər inkişaf etməyibsə, onun sözü düzgün tələffüz etməyi çətinləşir. Fonematik diqqət və qavrama adlandırılan, yəni, dilin səs vahidlərini eşidərkən fərqləndirmə qabiliyyətini inkişaf etdirən məşqlər uşağın tələffüzünün yaxşılaşmasına əhəmiyyətli dərəcədə yardım edir.

Loqoritmika materialının düzgün seçilməsi Daun sindromu olan uşaqlar üçün xarakterik olan "zəif tərəfləri" inkişaf etdirməyə kömək edir. Bu əzələ tonusunu tənzimləməyə, bütün əzələ sisteminin dəqiq və birgə iş təcrübəsi qazanmağa,

eşitmə, səs, diqqət və yaddaşı inkişaf etdirməyə imkan verir. Şifahi təlim metodu qoyulmuş tapşırığı başa düşməkdə uşağa yardım edir və aşağıdakı üsulları əhatə edir :

1.İzah etmə. Yeni hərəkətləri nümayiş etdirərək böyük uşağa nəinki əyani göstərir, həm də nağıl edir. Məsələn: Bu quşdur, o belə oxuyur; "Çik çirik", bu isə ayıdır, ayı belə nərildəyir: "E-e-e",-və s.

2. Şifahi işarə etmə. Lazımi hərəkəti yerinə yetirməsi üçün bu hərəkəti nümayiş etdirməklə uşağa şifahi izah etdikdə, onun əlavə "pıçıltı"ya və ya dəqiqləşdirməyə ehtiyacı olur. Məsələn: "əllərimizi yuxarı qaldırırıq" və ya "indi isə yumruğumuzu sıxırıq". Bu, elə şifahi təlimatdır. Pedaqoqlar çox vaxt onları şifahi göstəriş, hərdən isə sadəcə xahiş adlandırırlar. Bu göstərişlərin uşaqların anlaya bildiyi dildə, dəqiq və konkret ifadə edilməsi vacibdir.

3. Söhbət. Körpəyə yeni məşqlər və ya hərəkətli oyun təklif edərkən onunla uyğun oyuncaq və ya şəkli nəzərdən keçirmək, onun diqqətini bu və ya digər obrazın xarakterik cəhətlərinə yönəltmək lazımdır. Məsələn: "Bu pişikdir. Myau-myau! Məstan! Bax-gör, boynunu necə əyir?! Di, gəl biz də boynumuzu əyək! İndi sən pişik kimi boynunu əy, mən isə, sənin boynunu tumarlayım" və s.

4. Komanda, əmr və xəbərdarlıq. Uşaq ikən oyuna bağladığınız saymanı və ya oyuna sövq etməni xatırlayın. Yadınızdadırmı? "Kim maraqlı oyun oynamaq istəyir. Amma, deməyəcəyəm hansını...". Bu, elə, birlikdə oynamağa çağıran sövqetmədir. "Bir, iki, ü-ü-üç!" Bu da hamıya tanış olan və hərəkətin başlanmasına səslə xəbərdarlıq edən komandadır.

Loqoritmika məşğələlərinin sadədən mürəkkəbə doğru prinsipi ilə qurulması məqsədəuyğundur. Uşaq tədricən müəyyən vərdişlər əldə edərək, onları möhkəmləndirərək əvvəllər mənimsədiyi bacarıqlara əlavə edir.

İndi isə üç yaşdan yeddi yaşa qədər Daun sindromu olan uşaqlar üçün ən çox əhəmiyyət kəsb edən və loqoritmikanın inkişaf etdirməyə və möhkəmləndirməyə imkan verdiyi vərdiş və bacarıqlar üzərində ətraflı dayanaq.

Loqoritmika prosesində aşağıdakıların üzərində işləmək vacibdir:

- yerimə vərdişinin sonrakı inkişafı;
- yerimə, qaçma və tullanma zamanı müvazinət hissinin məşq edilməsi;
- məkanda oriyentasiya qabiliyyətinin məşq etdirilməsi;
- uşaqların tapşırılmış tempdə hərəkət qabiliyyətinin inkişaf etdirilməsi;
- öz hərəkətlərini işarəyə uyğun tənzimləmək bacarığı;
- musiqi və ya ritmin dəyişməsi ilə hərəkət istiqamətini dəyişmək bacarığı;
- musiqi sədaları altında və ya musiqi verilmədən əşyalarla davranmaq vərdişləri;
- əvvəlcə böyüklə, sonra isə başqa bir uşaqla ikilikdə birgə hərəkət bacarığı;
- sürət, güc və çəldliyin inkişaf etdirilməsi;
- biləyin və əl barmaqlarının sərbəst hərəkətinin inkişaf etdirilməsi.

Əzələ tonusunun zəifliyi nəticəsində Daun sindromu olan uşaqlarda artikulyasiya aparatının hərəkətliyi zəifləyir və nəticədə uşaq artikulyasiya aparatını sərbəst idarə edə bilmir. Loqoritmika məşğələlərinə aşağıdakı hərəkətləri daxil etmək vacibdir:

- böyüyün hərəkətini (dili göstərmək – gizlətmək, ağızı geniş açmaq – bağlamaq) təkrarlamaqla ən sadə artikulyasiya hərəkətinin uşağa öyrədilməsi;
- əsas artikulyasiya vəziyyətlərinin məşq edilməsi. Məsələn: 3-4 yaşlı uşaqlara dodağın "gülüş", "borucuq" vəziyyətində saxlanması və 4-5 yaşlı uşaqlara ağızın "geniş" – "dar" vəziyyətdə saxlanmasının öyrədilməsi.

Dünyaya gəldiyi ilk aylardan Daun sindromu olan uşaqlarda diqqətin necə inkişaf etdiyini təsəvvür etmək vacibdir. Belə ki, məhz diqqət bir çox cəhətdən yaddaş, nitq, düşünmə və fəaliyyət kimi psixi funksiyaların gələcək inkişafını müəyyən edir. Daimi şəkildə uşağın onunla təşkil edilmiş oyun və məşğələlərdə diqqətini saxlamaq, nisbətən kiçik zaman kəsiyində get-gedə daha böyük yükləri qavraması üçün diqqətini artırmaq bacarığını məşq etdirmək, eləcə də diqqət yetirmək və diqqətiu yönəltməyi öyrətmək çox vacibdir.

Loqoritmika məşğələlərində Daun sindromu olan uşaqlar üçün vacib olan diqqət, qavrama və eşitmə yaddaşının inkişafına yer verilir. Aşağıdakılar üzərində işləmək lazımdır:

- qeyri-nitq səslərini, məsələn, suyun səsini, kağızın xışıltısını və ya əl çalmanı fərqləndirmək və tanımaq qabiliyyətinin inkişaf etdirilməsi;
- səsin gücünün (zəif – güclü), yüksəkliyinin (alçaq – uca) fərqləndirilməsi;
- tanış nəğmələrin melodiyasının tanınması;
- uşağın gündəlik həyatda eşitdiyi ətraf mühitdəki səslərin, məsələn, it hürməsinin və ya qapı çırpıntısının və ya metro qatarının küyünün tanınması;
- uşaq musiqi alətlərindən ( **zəng**, dəf, zınqırov, təbil) istifadə etməklə eşitmə qavrayışının və qulaq yaddaşının formalaşması.

Loqoritmika məşğələləri uşağın aktiv və passiv nitqinin inkişafına təkan verir. Çünki, o, aşağıdakı imkanlara malik olur:

- böyüyün tələffüz etdiyi səslər, hecalar və sözləri təkrar etmək;
- fəal şəkildə danışmaq, səsləri, hecaları və sözləri tam tələffüz etmək;
- müraciət edilən nitqi başa düşməyi öyrənmək;
- sözləri hecalarda söyləmək, yəni, heca strukturunu formalaşdırmaq;
- qulaq asarkən ona məlum olan səsləri, hecaları və sözləri tanımaq və ayırmağı bacarmaq;
- səsinin yüksəkliyini və gücünü tənzimləmək (zəif-güclü səslə, alçaqdan – ucadan danışmaq);
- sözlərin tələffüzünü düzəltmək;
- aktiv və passiv lüğəti genişləndirmək.

Məşğələlərə aşağıdakı fəaliyyət növləri daxildir:

- müxtəlif istiqamətlərdə yerimə və addımlama;

- diqqəti fəallaşdıran oyun məşqləri;
- əlin kiçik motorikasını inkişaf etdirən oyun məşqləri;
- tənəffüsün, səsin, artikulyasiyanın inkişafına yönəldilmiş məşqlər;
- əzələ tonusunu və müxtəlif əzələ qruplarının işinin əlaqələndirilməsini tənzimləyən oyun və məşqlər;
- ritm məşqlər;
- nəğmə;
- musiqi sədaları olmadan nitq məşqləri;
- uşaq musiqi alətlərində ifa etmə.

Loqopedik ritmika məşğələləri üçün praktik materialları məşğələlərdən əvvəl toplamaq vacibdir.Təlimin ilkin mərhələsində ən sadə məşqlərdən istifadə etmək lazımdır. Bundan sonra isə uşağın təqdim edilmiş materialı mənimsəmə dərəcəsindən asılı olaraq məşğələyə daha mürəkkəb fəaliyyət növlərini daxil etmək olar. Beləliklə, məşğələ addımlama və ya yerimə ilə başlanır. Yerimə bədənin ayrı-ayrı hissələrinin hərəkətinin müvazınətini saxlamaq və əlaqələndirmək bacarığının inkişafını tələb edən təbii hərəkət növüdür. Hər bir loqoritmika məşğələsinə mütləq yerimə daxil edilməlidir. Belə "giriş məşqi" uşaqlara şaquli vəziyyətdə müxtəlif üsullarla yerdəyişməni (yəni, sərbəst dairəvi yeriş, ikilikdə və qrup halında yerimə, müxtəlif əşyaların yanından onlara toxunmadan dövrələmə keçmə bacarığı, tapşırılan hərəkət istiqamətini saxlamaq, göstərilən oriyentir üzrə hərəkət, yanakı hərəkət, arxaya hərəkət və s.) öyrənməyə yardım edir.

## ƏDƏBİYYAT

1. Сапожникова Т.В., Коношенко Л.И., Першина Н.А. «Особенности развития и обучения грамоте детей с синдромом Дауна» Учебно-методическое пособие, Бийск - 2014

2. Жиянова П.Л. «Формирование навыков общения и речи у детей с синдромом Дауна» Пособие для родителей , Москва-2016

3. Мойра Питерси и Робин Трилор «Маленькие ступеньки» Программа ранней педагогической помощи детям с отклонениями в развитии, книга 3 «Навыки общения» , Москва-2001

**Məqalənin redaksiyaya daxil olma tarixi:09.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376**

**S.S.Bəşirova**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş. , Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: sulhane. besirova@gmail. com

# AUTİZMİN DİGƏR PATOLOGİYALARDAN FƏRQLƏNDİRİLMƏSİ, ŞİZOFRENİYA, ƏQLİGERİLİK VƏ HİPERAKTİVLİKLƏ DİFERENSİASİYASI

***Açar sözlər:*** *özünəqapanma, ünsiyyətdən qaçma, dolaşıq düşüncə, əqli gerilik, hiperaktivlik, aktivlik dərəcəsi*

Hər bir patologiyada ayrı-ayrı səbəblərdən yaranan dezinteqrasiya və sosiallaşma problemi özünü göstərir. Autislər qeyri-reallıqla yaşamır, şizofrenlər isə reallıq və qeyri-reallıq arasındakı fərqi hiss etmir. Autislər təması sevmir, qucağa alınmaqdan xoşlanmadıqları halda əqli gerili uşaqlar ünsiyyətə, qayğı və sevgiyə böyük ehtiyac duyurlar. Həm hiperaktiv həm də autik uşaq sosial münasibətlərdə çətinlik çəkir. Autik uşaq özünə qapanıb ümumiyyətlə ünsiyyətdən çəkindiyi halda, hiperaktiv uşaq sosialdır, yəni ünsiyyət qurmağa çalışır, ancaq hərəkətlərini, danışıqlarını nəzarət altına ala bilmir, danışanın sözünü kəsir, öz növbəsini gözləmir, tələsərək fikirlərini təhrik olunmuş formada söyləyirlər.

**С.С.Баширова**

# ДИФФЕРЕНЦИАЦИЯ АУТИЗМА ОТ ДРУГИХ ПАТОЛОГИЙ, ШИЗОФРЕНИЯ, УМСТВЕННАЯ ОТСТАЛОСТЬ И ГИПЕРАКТИВНОСТЬЮ

***Ключевые слова:*** *замкнутость, необщительность, запутанное мышление, умственная отсталость, гиперактивность, степень активности*

В каждой патологии проявляется проблема дезинтеграции и социализации, разделенных отдельными причинами

И гиперактивные дети и дети-аутисты испытывают трудности в социальных отношениях. В отличии от детей-аутистов, которые замыкаются в себе и ограждаются от общения, гиперактивные дети социальны, то есть они пытаются общаться, только не могут контролировать свои поступки, речь, перебивают говорящего, не ждут своей очереди, второпях высказывают свое мнение в провоцирующей форме.

**S.S.Bashirova**

## DIFFERENTIATION OF AUTISM FROM OTHER PATHOLOGIES, SCHIZOPHRENIA, MENTAL RETARDATION AND HYPERACTIVITY

***Key words:*** *seclusion, avoidance of relationships, mental retardation, tangled thinking, hyperactivity, level of activity*

In each pathology, the problem of disintegration and socialization, separated by separate causes is manifested.

Both hyperactive and autistic children have difficulty in social interactions. Autistic children are afraid of to communicate and they are self-isolated, but hyperactive children are social, they want to communicate, but they can not control of their action and conversation, they stopped someone's conversation and say their thoughts in distorted form.

Bir çox inkişaf qüsurları vardır ki, məhz sosial münasibətlərin pozulması, cəmiyyətdən uzaqlaşma kimi təzahür edir. Bu zaman həmin inkişaf anomaliyalarını bir-birindən fərqləndirmək üçün hər bir inkişaf qüsurlarının digər spesifik xüsusiyyətlərini nəzərə almalıyıq.

Geniş yayılmış inkişaf anomaliyalarından autizm, şizofreniya, əqli gerilik və hiperaktivliyin əsas simptomlarına ayrı-ayrılıqda nəzər salaq və daha sonra onların differensasiyasını analiz edək.

Autizm – erkən yaş dövründən başlayan, sosial münasibətlər və ünsiyyət sferasında pozulmaların olması ilə özünü göstərən neyro-psixiatrik pozulmadır. Autizm sözünün mənası yunancadan tərcümədə "autos" - "özü" deməkdir. Autizm kifayət qədər geniş yayılmış patologiya olub, özunə qapanma , real həyatdan uzaqlaşma kimi təzahür edir. Bu patologiyanı ilk dəfə 1943-cu ildə Amerikalı uşaq psixiatrı Leo-Kanner "İlkin uşaq autizmi"adı ilə təsnif etmişdir. Autizmin əsas əlamətləri aşağıdakılardır:

- ətraf-mühitə qarşı etinasızlıq;
- göz kontaktının olmaması;
- predmetlərə bağlılıq;
- dəyişikliklərə qarşı aqressiv reaksiya;
- oyunlara qarşı marağın olmaması, eyni oyunları oynaması;
- özünə qapanma;
- təkliyə meyillilik və ünsiyyətdən qaçma;
- səbəbsiz ağlama və ya gülmək;
- təmasdan qaçmaq və qucağa alınmaqdan xoşlanmamaq;
- stereotip hərəkətlər;
- exolaliya (cavab vermək əvəzinə deyilənləri eyni ilə təkrar etmək )tipli nitq;
- səslərə qarşı həddindən artıq həssaslıq və ya əksinə tam laqeydlik;

- həddindən artıq hiperaktivlik və ya hipoaktivlik.

**Şizofreniya** – dağınıq fikirlər, dolaşıq düşüncə, yanılmalar və hallüsinasiyalarla təzahür edən əqli xəstəlikdir. Şizofreniya sözünün mənası yunancadan tərcümədə "şizo"-dağılmaq, parçalanmaq, "phren"-ağıl, idrak sözlərinin birləşməsindən yaranıb mənası ağlın parçalanması, dağılması kimi tərcümə edilir. Bu termini ilk dəfə Yucin Bleyler 1908-ci ildə elmə gətirmişdir. Şizofrenlər dağınıq fikirli, dolaşıq düşüncəli, məqsədsiz hərəkətli şəxslərdir. Onlar realliq və qeyri- reallıq arasındakı fərqi hiss etmir. Hallüsinasiyalar onları narahat edir. Hallüsinasiya başqalarının görmədiyi məfhumların, eşitmədikləri səslərin şizofrenlər tərəfindən görülməsi, eşidilməsidir. Onlar tez-tez xəyal gördüklərini, onlara başqa varlıqların və səslərin təsir etdiyini, həmçinin başqaları tərəfindən izləndiklərini söyləyirlər. Elə buna görə də onlar reallıq və qeyri-reallıq arasındakı fərqi müəyyən etməkdə çətinlik çəkirlər. Qəribə inamlar və yanılmalar, eləcə də hallüsinasiyalar şizofrenlərin həyatına əhəmiyyətli dərəcədə təsir edir. Beləki, onlar reallıqdan uzaq düşür, insanlardan çəkinir, evdən bayıra çıxmaq istəmir, yaxınları ilə əlaqələrini kəsirlər. Bu isə onların sosial münasibətlərinə, cəmiyyətə inteqrasiya və adaptasiyasına mənfi təsir göstərir. Bu cəhət şizofreniyanı autizmlə bir qədər eyniləşdirmiş olur. Məhz buna görə ilk baxışda şizofrenlər dezinteqrasiya problemləri baxımından autizmə oxşayır. Ancaq, bu patologiyaları eyniləşdirmək qətiyyən mümkün deyil.

Şizofreniyanın digər əsas simptomlarına nəzər salaq:

- qavrama səviyyəsinin aşağı olması;
- anlaşılmaz nitq, inversiya(söz sırasının pozulması) olunmuş sözlər, məntiqsiz nitq;
- zəif sosial fəaliyyət, əmək qabiliyyətinin aşağı olması;
- yanılmalar, qəribə inamlar, hallüsinasiyalar, əmrlər və şərhlər verən səslərin eşidilməsi;
- reallıq və qeyri-reallıq arasındakı fərqi hiss etməmək;
- ruh düşkünlüyü, susqunluq, hislərin zəif ifadəsi və süstlük, simalarında boş ifadəsiz görünüş;
- anidən təhqiretmə, ittihametmə, qəti və kobud təsirli emosiyalar;
- heç nəyə və heç kimə qarşı marağın olmaması (asosiallıq);
- koqnitiv (idrak) problemlər-psixi proseslərin-diqqət, yaddaş, qavrayış, hafizə, təfəkkür, təxəyyül, nitq və s. lə bağlı problemlərin olması onları normal həyat tərzindən uzaqlaşdıran ən təhlükəli simptomlardır.

Şizofreniyanın başlaması üçün riskli yaş 15-25 yaş aralığıdır ki, bu da yeniyetməlik və gənclik dövrünə təsadüf edir. Bu xəstəliyə 10 yaşdan aşağı, 40 yaşdan yuxarı nadir rast gəlinir.

Şizofreniya 3 mərhələdə özünü göstərir: I mərhələ-xəstəliyin başlanması mərhələsidir ki, bu zaman aqressiv davranışlar, qəzəb partlaması, kobud davranışlar təzahür edilir. II mərhələdə xəstə qarabasmalardan,

hallüsinasiyalardan, kimsə tərəfindən izlənmələrdən şikayətlənməyə başlayır ki, artıq bu mərhələdə diaqnoz dəqiqləşdirilir. III mərhələ isə müalicə mərhələsidir ki, bu mərhələdə kompleks müayinə-tibbi, psixoloji, sosial (ailə və cəmiyyətin dəstəyi) müayinə tətbiq edilməlidir. Əgər müalicə uğurlu olarsa bu zaman xəstəliyin zəiflədiyini, əksinə əks təsirli müalicə getdikdə isə daha da kəskinləşdiyini, yəni rezidiv mərhələyə keçdiyini müşahidə edəcəyik. Şizofreniyalı xəstələrin müayinəsində idrak-davranış terapiyası böyük əhəmiyyətə malikdir. Bu terapiya şəxsin qəribə fikirləri haqqında daha real yolla fikirləşməsinə kömək edən söhbət terapiyasıdır ki, bu terapiya xəstəni depresiyadan qurtararaq normal həyat tərzinə qayıtmasına çox böyük kömək edir.

**Nəticə olaraq qeyd edə bilərik ki, hər iki patologiyada ayrı-ayrı səbəblərdən yaranan dezinteqrasiya və sosiallaşma problemi ortaya cıxır.**

Autizm və şizofreniyanın **fərqli cəhətlərinə** də nəzər salaq:

- autizm özünə qapanma, öz dünyasında yaşama, təkliyə meyillilik, göz kontaktının olmamasıilə səciyyələndiyi halda şizofreniya fikir dağınıqlığı, dolaşıq düşüncə, qəribə inamlar, yanılmalar və hallüsinasiyalarla özünü göstərir.
- Autislər ətraf-aləmə qarşı etinasız və maraqsız olduqları halda şizofrenlər ətrafda olanlara laqeyd qalmaz, hətta baş verən hadisələrdən təsirlənərək müxtəlif davranışlar təzahür etdirirlər.
- Autislər reallığı dərk edir, qeyri-reallıqla yaşamır. Şizofrenlər isə reallıq və qeyri-reallıq arasındakı fərqi hiss etmir.
- Autislərdə mutizm və ya exolaliya tipli nitq özünü göstərdiyi halda şizofrenlərdə inversiya edilmiş sözlər, mənaca sıx bağlı olmayan cümlələr-məntiqsiz nitq özünü göstərir.
- Autislərdə hiperaktivlik və ya hipoaktivlik, stereotip hərəkətlər özünü göstərdiyi halda şizofrenlərdə məqsədsiz hərəkətlər, kobud-qəddar davranışlar, bəzən isə süstlük və ruh düşkünlüyü izlənilir.

Defektologiyada **"Əqli gerilik" -** termini altında mərkəzi sinir sisteminin üzvü zədələnməsi nəticəsində dərketmə fəaliyyətinin pozulması və inkişafdan qalması nəzərdə tutulur. Əqli cəhətdən geri qalan uşaqların ən çoxsaylı qrupu oliqofreniya sindromlu uşaqlardır və onların aparıcı simptomu əqli gerilikdi. Oliqofreniya yunan sözü olub, mənası "olyiqos"-az, "phren"-ağıl sözlərinin birləşməsindən yaranıb "ağlın azlığı, zəifliyi"mənasını ifadə edir. Bu termini ilk dəfə alman psixiatrı E.Krepelen əqli cəhətdən geri qalan uşaqlar üçün işlətmişdir. Əqli geriliyin 3dərəcəsi müəyyən edilmişdir: **idiotluq, imbesillik, debillik.**

**İdiotluq -** əqli geriliyin ən ağır forması olub, öz spesifik xüsusiyyətlərinə görə digər formalardan fərqlənir. İdiot uşaqlarda baş beyin qabığının diffuz zədələnməsi onlarda intellektin aşağı səviyyədə olmasına, hərəkət, nitq, eşitmə və digər analizatorların inkişafdan qalmasına səbəb olur. İdiot uşaqlar ətraf aləmi mənalandırıb qavraya bilmir, onun emosional-iradi sferası, idraki prosesləri kobud pozulmalara məruz qalır. Onlarda nitq, hərəkət və tənzimetmə funksiyaları çox

ləng və məhdud, bəzi hallarda isə heç inkişaf etməməsi ilə müşahidə olunur. İdiotlar sadə ozünəxidmət bacarıqlarını da yerinə yetirə bilmirlər, təlim-tərbiyəyə çətinliklə cəlb olunurlar.

**İmbesillik -** əqli geriliyin orta dərəcəsi hesab edilir. İmbesil uşaqlar nitqə, sadə əmək vərdişlərinə yiyələnmək imkanına malikdirlər. Lakin onlarda psixi proseslərin, koqnitiv və kommunikativ funksiyaların inkişafdan qalması onların təlim-tərbiyəyə cəlb olunmasını qeyri-mümkün edir. Ancaq, təcrübələr göstərir ki, imbesil uşaqları sadə oxu-yazı, hesab vəelementar əmək vərdişlərinə yiyələndirmək mümkündür.

**Debillik** - əqli geriliyin yüngül formasıdır. İdiotlardan və imbesillərdən fərqli olaraq debillər özünəxidmət vərdişlərinə, oxu-yazı, hesab bacarıqlarına yiyələnə bilirlər. Ancaq, onlarda ali-sinir fəaliyyətinin funksiyalarının pozulması onların ümumtəhsil məktəb fənlərinə yiyələnməsinə imkan vermir. Somatik pozulmalar, ümumi fiziki zəiflik, motorika pozulmaları , emosional-iradi sferanın pozulmalari və davranış xüsusiyyətləri debil uşaqların gələcək peşə-əmək fəaliyyətlərinin əhatə dairəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırır.

Əqli gerilik ilə autizmin **fərqli cəhətlərinə** nəzər salaq:

- Autislər kommunikativ münasibətlər qurmadığı üçün onlarda qavrama səviyyəsi aşağıdır, əqli gerili uşaqlarda isə baş beyin qabığının diffuz zədələnməsi qavramanın aşağı səviyyədə olmasına səbəb olur.
- Autislər təması sevmir, qucağa alınmaqdan xoşlanmadıqları halda əqli gerili uşaqlar ünsiyyətə, qayğı və sevgiyə böyük ehtiyac duyurlar.
- Autislər özünəxidmət vərdişlərinə, oxu-yazı bacarıqlarına malikdirlər, əqli gerili uşaqlar isə bu bacarıq və vərdişlərə qismən malikdirlər(imbesillər), və ya malik deyillər(idiotlar).
- Autislər hərəkətli və ya hərəkətsiz olduqları halda əqli gerili uşaqlar ləng və süst olurlar.
- Autislərdə mutizm və ya exolaliya, əqli gerili uşaqlarda isə dislaliya, dizartriya, alaliya kimi nitq qüsurları özünü göstərir.

**Hiperaktiv -** sözü yunan mənşəli söz olub, yunanca "hiper"-yüksək, "aktivas"-isə hərəkətli mənasını ifadə edir. Hiperaktivlik sözü də bu iki sözün birləşməsindən yaranıb "aktiv", "hərəkətli, davranış sistemini tənzimləyə bilməyən" mənasını təzahür etdirir. Hiperaktiv uşaqlarda aktiv hərəkətliliklə yanaşı diqqətin dağınıqlığı da spesifik xüsusiyyətdir. Ona görə də bu patologiya hiperaktivlik və diqqətin defisiti sindromu kimi ifadə olunur.

Hiperaktivlik və diqqətin defisiti sindromu-ilk dəfə 1845-ci ildə doktor Henrich Hoffman tərəfindən təsvir edilmişdir. 1998-ci ildən etibarən Xəstəliklərin Beynəlxalq Təsnifatında diaqnoz qoyulmuş və hiperaktivliyin əsas əlamətləri müəyyən edilmişdir.

Əsas əlamətləri:

- sakit olması tələb olunan yerdə sakit ola bilmirlər;

- asanlıqla yayınırlar;
- başqalarının sözünü kəsir və öz növbəsini gözləmirlər;
- çox düşünmədən uyğunsuz fiziki təhlükəli işlərə cəlb olunurlar;
- sakit oyunları oynaya bilmirlər;
- öz yerlərində çox fırlanırlar, dönürlər, əşyaları və paltarları dartışdırırlar;
- dəfələrlə yerlərindən qalxır və ətrafı dolanırlar;
- uzun müddət otura bilmirlər;
- fəaliyyət növünü tez-tez dəyişirlər.

Əgər valideynlər bu əlamətləri uşaqlarında müşahidə edərsə ona qarşı laqeyd yanaşmamalı, dəcəllik-şıltaqlıq deyib üstündən keçməməlidir. Onu müayinə etdirməli və diaqnostikasına uyğun korreksiya işini təşkil etməlidir.

Hiperaktivliyin 3tipi aktualdır:Birləşmiş tip- həm yüksək hərəkətlilik, həm də diqqətin əksikliyi ilə müşahidə olunur;

II tip - hiperaktivlərdə diqqətin əksikliyi az müşahidə edildiyi halda hərəkətliliyin yüksək həddi xarakterikdir;

III tip - hiperaktivlərdə isə diqqətin yüksək səviyyədə dağınıqlığı hərəkətlilikdən daha öndədir.

Hiperaktivliyin başlanğıc yaşı 3-4 yaş qəbul edilsə də ancaq onun əlamətlərinin daha kiçik yaşlarda da müşahidə olunması istisna deyil. Əsasən bu sindroma məktəbəqədər və məktəbyaşı dövründə daha çox rast gəlinir. Məktəbə başlayan 100uşaqdan təxminən 2-3 uşaq hiperaktivdir. Yaş dövrü keşdikcə onun əlamətləri bir qədər zəifləyir(məsələn, hərəkətliliyin miqdarı azalır)ancaq tam itmir. Tədqiqatlara əsasən oğlanlarda hiperaktivliyə qizlarla müqayisədə daha çox rast gəlinir. Hiperaktivlər çox danışır, başqalarının sözünü kəsir, işinə müdaxilə edir, sual verilən zaman axıra kimi dinləmir, tələsərək tez və səhv cavab verir, başladıqları işi bitirə bilmirlər. Onlar bəzən çox dözülməz olurlar, bəzən isə sadə tapşırıqların həllində belə çətinlik çəkirlər. Təlim prosessində hərəkətlərini nəzarətdə saxlamaq və digər uşaqların hərəkətlərini təkrar etməmək üçün müəllimə yaxın əyləşmələri məsləhətdir. Və təbii ki, hiperaktivlər nəzarətsiz qalsalar, onlar üçün lazımi tədbirlər görülməzsə onlar dərslərinə laqeyd yanaşır və get-gedə təlimdən uzaqlaşırlar. Xüsusilə qeyd etmək lazımdır ki, onlarda diqqət dağınıqlığını nəzərə alaraq təlim prosesində dil, məntiq, hesab və bu kimi xüsusi diqqət tələb edən dərsləri idman, əmək, musiqi və s. dərslərlə növbəli şəkildə keçmək daha çox məqsədə uyğundur.

Hiperaktivlikdə üzə çıxan patologiya aktivliyin miqdarı ilə deyil, onun nəzarət altına alınma dərəcəsi ilə bağlıdır.

**Autizm və hiperaktivliyin oxşar cəhətləri:** Həm hiperaktiv həm də autik uşaq sosial münasibətlərdə çətinlik çəkir. Autik uşaq özünə qapanıb ümumiyyətlə ünsiyyətdən çəkindiyi halda, hiperaktiv uşaq sosialdır, yəni ünsiyyət qurmağa çalışır, ancaq hərəkətlərini, danışıqlarını nəzarət altına ala bilmir, danışanın sözünü kəsir, öz növbəsini gözləmir, tələsərək fikirlərini təhrik olunmuş formada

söyləyirlər.

**Fərqli cəhətlər:** Autizm psixoloji qapanmadir, hiperaktivlik emosiyaların gərginliyi diqqətin dağınıqlığı kimi təzahür edir;

- autistlər sosial deyillər, ünsiyyətə can atmırlar, hiperaktivlər isə sosialdırlar, ancaq düzgün ünsiyyətə girə bilmirlər;
- autistlər dəyişiklikləri sevmirlər, dəyişikliklərə aqressiv reaksiya göstərdikləri halda hiperaktivlər fəaliyyət növünü tez-tez dəyişirlər;
- autiklər bəzən hərəkətli, bəzən süst olduqları halda hiperaktivlər hərəkətliliyin yüksək dərəcəsi və onun nəzarət altına alına bilməməsi ilə xarakterizə olunurlar.

Sözügedən patologiyaların əsas simptomlarını analiz edərək deyə bilərik ki, hər 4 patologiyada aşağıdakı sferalarda pozulmalar özünü göstərir:

1. **Şəxsiyyət problemləri** - özünəinamın itməsi, fikir mübadiləsi, təşkilatçılıq və planqurma bacarıqlarının olmaması, məqsədsizlikvə s.
2. **Koqnitiv problemlər** - diqqət, yaddaş, iradə, qavramanın-psixi proseslərin zəif inkişafı.
3. **Emosional-iradi sferanın pozulması -** yersiz ağlamaq və ya gülmək, qəddar davranışlar və s.
4. **Kommunikativ problemlər -** nitq və ünsiyyətə girməmək
5. **Sosiallaşma problemləri -** cəmiyyətdən təcrid olunma.

## ƏDƏBİYYAT


1. Nailə Hüseynova "İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası". Bakı-2017.
2. Коган В. Е. "Аутизм у детей" Москва-1981.
3. Брязгунов И. П. , Касатикова Е. В. Дефицит внимания с гиперактивностью у детей. Мед. Практика. -м. :ПЕР СЭ, 2002.
4. Либлинг М. М. "Подготовка к обучения детей с ранним детским аутизмом". Дефектология, 1997.
5. Nadir İsmayılov, Fuad İsmayilov "Tibbi psixologiya və psixoterapiya". Bakı-2002.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.09.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376.37**

**A.Səfərəliyeva**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68
e-mail: defektolog_ 87@mail.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI NİTQİ QÜSURLU UŞAQLARLA APARILAN KORREKSİON İŞDƏ MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ

***Açar sözlər**: məktəbəqədər yaş, korreksion iş, innovasiya texnologiyaları, kompyuter oyunları, sağlamlıq imkanları məhdud uşaqlar*

Məqalədə müasir dövrümüzdə informasiya texnologiyaların insanlara təsirindən, kompyuter oyunlarının məktəbəqədər yaşlı uşaqlara təsirindən danışılır. Kompyuter oyunlarının müxtəlif növlərinin birləşdirilərək sağlamlıq imkanları məhdud uşaqlarla korreksion işdə tətbiq olunması təhlil olunur. Bunun üçün bir neçə metod işlənib hazırlanıb. Məqalədə həmçinin korreksion işdə mütəxəssis, valideyn və uşağın birgə işinin vacibliyindən bəhs olunur.

**А.Сафаралиева**

# ПРИМЕНЕНИЕ СОВРЕМЕННЫХ ТЕХНОЛОГИЙ В КОРРЕКЦИОННОЙ РАБОТЕ ПРОВОДИМОЙ С ДЕТЬМИ ДОШКОЛЬНОГО ВОЗРАСТА С РЕЧЕВЫМИ НАРУШЕНИЯМИ

***Ключевые слова:** дошкольный возраст, коррекционная работа, инновационные технологии, компьютерные игры, дети с ограниченными возможностями здоровья*

В статье рассматривается влияние информационных технологий на людей, влияние компьютерных игр на детей дошкольного возраста. Анализируется внедрения сочетаний различных типов компьютерных игр в коррекционной работе с детьми с ограниченными возможностями здоровья. Для этой цели было разработано несколько методов. В статье также обсуждается важность сотрудничества специалиста, родителя и ребенка в коррекционной работе.

**A.Safaraliyeva**

## THE USE OF MODERN TECHNOLOGY IN THE CORRECTIONAL WORK CARRIED OUT WITH CHILDREN WITH SPEECH DISORDERS OF PRESCHOOL AGE

***Key words:*** *preschool age, correctional work, innovative technologies, computer games, children with disabilities*

The article discusses the impact of information technology on people, the impact of computer games on children of preschool age. The introduction of a combination of various types of computer games in correctional work with children with disabilities is analyzed. Several methods have been developed for this purpose. The article also discusses the importance of cooperation between a specialist, a parent, and a child in remedial work.

İnformasiya axını olan müasir dövrümüzdə insanlar qeyri-ixtiyari olaraq olsa da müxtəlif texnologiyaların köməyinə əl atırlar. Indi televizor, kompyuter, elektrik çaydan, soyuducu və s. istifadə etməyən insan təsəvvür etmək çətindir. Bizim həyatımız o qədər özümüz tərəfindən icad edilmiş əşyalardan asılıdır ki, biz fikirləşirik ki, insanlar onlardan məhrum olsalar mövcud ola bilməzlər. Biz informasiya əsrində, kompyuter revalyusiyası əsrində yaşayırıq. Biz artıq digər sahələrə daxil olmuş kompyuterlərin məktəblərə və evlərə də daxil olduğunun şahidi oluruq. Kompyuter oyunları haqqında ortaya bir çox suallar meydana çıxır. Bizim istəyimizdən asılı olmayaraq bunlar kütləviləşir və uşaqlar üçün əlçatan olur. Kompyuter yeni bir əşya kimi uşaqların aləminə daxil olur. Uşaq bu superoyuncağa erkən yaşlarından yiyələnir və onun təsirinin nəticələri böyüklərin buna münasibətindən asılı olur.

Kompyuter oyunları 2 yerə ayrılır. Birinci növ proqramlara əyləncəli və treninq tipli proqramlar, ikincilərə isə öyrədici və inkişaf etdirici xarakterli proqramları aid etmək olar. Birinci tip proqramları oynamaq daha asandır, çünki onları oynamaq üçün xüsusi intellektual səviyyə tələb olunmur. Belə proqramlar əsasən motor bacarıqlar və reaksiyaların cəldliyinə görə nəzərdə tutulub. Digər tərəfdən, ikinci tip proqramlar uşaq üçün daha cəlb edicidir, belə ki onlar rəngli, musiqilidir, özlərində cizgifilm elementlərini cəmləşdirir; lakin onların istifadəsi oyunun ibarət olduğu kompyuter əməliyyatlarını və onların ardıcıllığını bilmək və məntiqini başa düşməyi tələb edir. Əgər kompyuter oyunu oyun fəaliyyətinə çevrilirsə onda o uşaqdan təkcə sensomotor bacarıqlar tələb etmir, həmçinin müşahidə etmək və öz davranışını təhlil etmək bacarığını tələb edir.

Loqopedik işdə öyrədici kompyuter oyunları köməkçi xarakter daşıyırlar. Qarşıda onu məşğələvi əyləncə gözlədiyini bilən uşaq, artikulyar bacarıqların qazanılması ilə bağlı olan tapşırıqları daha yaxşı yerinə yetirir. Məşğələnin sonuna yaxın loqoped uşağın səviyyəsinə uyğun olan bir oyunu seçir və uşaq digər fəaliyyət növünə keçərək nitq vərdişlərini oyun formasında inkişaf etdirir.

Təlim fəaliyyətində kompyuterin rolundan danışarkən qeyd etmək lazımdır ki, indi dərslər haqqında qeydiyyatını "əl ilə" qeyd edən mütəxəssislər qalmayıb. Sənədlərin saxlanılması, faylların dəyişdirilməsi, hesabatların hazırlanması və fərdi dəftərlərin hazırlanması – hər biri kompyuter vasitəsilə həyata keçirilir. Beləliklə, hamıya – mütəxəssislər və uşaqlara təhlükəsizlik qaydalarına əməl etməklə onlardan istifadə etmək vacibdir.

Nitqi qüsurlu uşaqlarla aparılan korreksion işdə müasir texnologiyaların tətbiqi zamanı bir neçə vəzifə yerinə yetirilir:

- Məktəbəqədər təhsildə mütəxəssislər öz təlim və yaradıcı bacarıqlarını göstərə bilirlər ki, bu da həmkarları ilə öz təcrübəsini bölüşmə imkanı verir.
- Gənc mütəxəssislərə daha təcrübəlilərə müraciət etmək imkanı verir.
- Valideynlərə uşaqlarına lazım olan mütəxəssisi konsultasiya almaq və gələcək iş haqqında danışmaq məqsədi ilə daha tez tapmaq imkanı verir.
- Uşaqlar nitqin bütün tərəflərini inkişaf etdirə biləcək yeni oyunlar ilə tanış ola biləcəklər.

Beləliklə kompyuter texnologiyalar uşaqlara keyfiyyətli kömək göstərməkdə, həmçinin öz yaradıcı potensialını göstərməkdə maraqlı olan bütün mütəxəssisləri birləşdirir.

Nitqi qüsurlu uşaqlarla aparılan korreksion işin ənənəvi metodikalarını istifadə etmək kifayət deyildir. Bununla əlaqədar olaraq pedaqoqlar yeni yanaşmalar, texnologiyalar və yollar axtarırlar. Psixo-pedaqoji tədqiqatın, təhsilin və monitorinqin müasir texnologiyaları işin keyfiyyətini artırmağa imkan verir.

İnnovasion texnologiyalar:

1. İnformasiya-kommunikativ (loqopedin valideynlərlə həmkarlığı: konsultativ, təbliğat, diaqnostik, öyrədici istiqamətlər)

Məqsəd – uşaq və valideynlərin öyrənilən materiala və korreksion işin keyfiyyətinə olan marağının artırılması.

Bu texnologiya öyrənmənin ənənəvi və müasir vasitə və üsullarını birgə istifadəsinə imkan verir.

2. Nağıl terapiyası:

- Loqopedin uşaqlar və uşaqların bir biri ilə əməkdaşlığı
- Məşğələlərdə uşaqlar üçün əlverişli şəraitin yaradılması
- Uşaqların keçmiş və yeni mədəniyyətə, xalq folkloruna uyğunlaşdırılması

3. Art-terapiya:

- Musiqi terapiyası (musiqi alətlərində oyunlar);
- Kinezioterapiya (rəqs terapiyası);
- Loqoritmika;
- Gülüş terapiyası;
- Aromaterapiya.

Məqsəd – verbal kommunikasiya vasitələrinin formalaşdırılması, nitqli ünsiyyət motivasiyası, lüğətin aktivləşdirilməsi, rabitəli nitqin inkişafı, nitqin qrammatik quruluşunun formalaşdırılmasıdır.

Bu texnologiya yüksək həyat tonusunun və ətraf aləmin harmonik münasibətlərin formalaşdırılmasına, uşaqlar arasında, həmçinin uşaq və böyük arasında qarşılıqlı anlaşmanın inkişafına, nitqli ünsiyyətin motivasiyası, lüğətin artırılması və aktivləşdirilməsinə, uşağın özünüifadə etməyə öyrətməyə, öz hisslərini, emosiyalarını, təəssüratlarını idarə etmək bacarığını öyrətməyə imkan verir.

4. Sağlamlıq qənaəti:

- Barmaq gimnastikası;
- Hərəki gimnastika;
- Aktikulyar gimnastika;
- Nəfəs gimnastikası.

Məqsəd – artikulyar apparatın əzələlərinin inkişafına imkan yaratmaq, hərəkətlərin koordinasiyasını inkişaf etdirmək, düzgün nəfəsi inkişaf etdirməkdir.

Bu texnologiyanın istifadəsi hesabına təhsil prosesinin effektivliyini artırır.

5. Nitqin inkişafı üçün istifadə edilən Izo-terapiya:

- Barmaqla şəkil çəkmək;
- Yumşaq kağızla şəkil çəkmək;
- Manna yarmasında şəkil çəkmək;
- Yarpaq, çubuq, daşlarla şəkil çəkmək texnikası;
- Pambıq ilə iz qoymaq texnikası;
- Əlin içi ilə şəkil çəkmək

Məqsəd – stressə davamlılığı artırmaq, təfəkkür fəaliyyətinin, yaddaşın və diqqətin, əhvalın və həmçinin insanın özünü necə hiss etməsini şərtləndirməkdir.

Bu texnologiyanın istifadəsi hesabına təhsil prosesinin effektivliyini artırır.

6. Toxunma yönümlü texnikalar:

- Bioenerqoplastika – artikulyar apparatın əlin barmaqlarının hərəkəti ilə birləşməsi;
- Relaksasiya üçün tapşırıqlar – rahatlaşmağa, özünənəzarət etməyə imkan verir.

Məqsəd – iradi hərəkətlərin (yemək yemək, yerimək, oynamaq, danışmaq) inkişafına və yerinə yetirilməsinə imkan verir.

Bu texnologiya uşağın özünüifadə etməyə öyrətməyə, öz hisslərini, emosiyalarını, təəssüratlarını idarə etmək bacarığını öyrətməyə imkan verir.

7. Mnemotexnika (hər bir sözə və ya söz birləşməsinə şəkil düşünülür və bütün mətn belə sxematik şəkildə göstərilir, sxemlərə baxaraq uşaq mətni informasiyanı asanlıqla ifadə edə bilir)

Məqsəd-əlavə assosasiyalar yaratmaqla yaddaşın həcmini artırmağa imkna verir.

Bu texnologiya rabitəli nitqin, assosiativ təfəkkürün, görmə və eşitmə yaddaşının, görmə və eşitmə diqqətinin, təxəyyülün, avtomatlaşma prosesinin sürətlənməsinin və qoyulmuş səslərin differensasiyasının inkişafına kömək edir.

8. SU-COK terapiya:

- Ovucların müxtəlif rəngli daş, metallik və ya şüşə toplarla massaj;
- Çimdiklə massaj
- Qoz, şabalıdla massaj
- Altıbucaqlı qələmlərlə massaj
- Çötkə ilə masaj
- Zondla, zondəvəzedicilərlə masaj

Məqsəd – fikri fəaliyyəti aktivləşdirmək, nitqin beyin qabığı sahəsini stimullaşdırmaq, əzələ tonusunun normallaşdırmaqdır.

Bu texnologiya nitq pozuntularını korreksiya etməyə, müsbət emosional təsir göstərməyə kömək edir, barmaqların kiçik matorikasına müsbət təsir edir, həmçinin nitqin inkişafına imkan verir.

9. Oyun texnologiyası:

- Idman dəqiqələri
- 3D konstrukturlaşma
- Isinmə hərəkətləri

Məqsəd-əlverişli sosiolizasiyaya imkan vermək, şəxsiyyətin sosial aktivliyini, özünü reallaşdırmanı formalaşdırmaqdır.

Bu texnologiya uşaqların təlim fəaliyyətinə stimulyasiya edir, ünsiyyətə maraq və tələbat yaradır, koqnitiv prosesləri inkişaf etdirir.

Təsirin innovativ metodları loqopedin işində nitq pozulmaları olan uşaqlarla korreksion-inkişafetdirici işində perspektiv vasitələr olurlar.bu metodlar effektiv korreksiya vasitələrinə daxildirlər və məktəbəqədər yaşlı uşaqlarda nitq çətinliklərinin aradan qaldırılmasında maksimal dərəcədə uğur qazanmağa kömək edirlər. kompleks loqopedik kömək fonunda innovativ metodlar, xüsusi güc tələb etmədən uşaqların nitqinin korreksiya prosesini optimallaşdırır və bütün orqanizmin sağalmasına imkan verir.

## ƏDƏBİYYAT

1. Акименко В.М. Новые педагогические технологии. Ростов н/Д; изд. Феникс, 2008.

2. Акименко В.М. Развивающие технологии в логопедии.- Ростов н/Д; изд. Феникс, 2011.

3. Белякова Л.И. Использование новых технологий в логопедии // Школьный логопед. 2007. № 3.

4. Кукушкина О.И. и др. Информационные технологии в обучении произношению. М., 2004.

5. Лизунова Л.Р. Использование информационно-коммуникационных технологий в логопедической работе.

6. Онишина В.В. Здоровьесберегающие технологии в процессе обучения дошкольников. - М., 2006.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur**

**UOT 376**

**S.R.Aslanova**
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: sabina-aslanova@bk.ru

# BÖYÜK YAŞLI ŞƏXSLƏRDƏ DİZARTRİYANIN BULBAR FORMASININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər :*** *səs tələffüzü, nitq pozulmaları, dizartriyanın formaları, beyin zədələnməsi, patoloji dəyişikliklər*

Dizartriyanın bulbar forması əsasən uzunsov beyində kəllə-beyin sinirləri (ayrı-ayrılıqda bir və ya bir neçə cüt) nüvəsinin ocaq zədələnməsi ilə əlaqədardır.Bulbar dizartriyalı böyüklərdə ətrafdakıların danışığını anlamaq, ürəyində oxumaq və yazmaq bacarığı tamamilə saxlanılmışdır. Bulbar dizartriya zamanı nitq artikulyasiyası pozulur və deməli, nitqin fonetik quruluşu, eyni zamanda qrammatik quruluşu pozulur və lüğətdən istifadə imkanları əsasən həcmcə dəyişilmir. Belə xəstələrin danışığı aydın olmayan, örtülü, anlaşılmazdır. Dinləyənlər üçün qavranılması çətin olur.

**С.Р.Асланова**

# ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ БУЛЬБАРНОЙ ФОРМЫ ДИЗАРТРИИ У ВЗРОСЛЫХ

***Ключевые слова:*** *звукопроизношение, речевые нарушения, формы дизартрии, травмы мозга, патологические нарушения*

Бульбарная форма дизартрии основана на поражении продолговатого отдела мозга и определенных нервных ядер окончаний центрального отдела нервной системы. У взрослых, с бульбарной формой дизартрии абсолютно сохранны навыки понимания разговорной речи, чтения про себя и процессы письма. При бульбарной форме дизартрии, во время речевого процесса нарушается артикуляция речевого аппарата, то есть страдают фонетическая, грамматическая структуры речи, при этом не меняется обьем словарного запаса. У этих взрослых дизартриков , речь невнятная, не понятная, трудна для восприятия собеседника.

**S.R.Aslanova**

# CHARACTERISTIC FEATURES OF DYSARTHRIA BULBAR FORM IN ADULTS

***Key words:*** *sound pronunciation, speech disorders, forms of dysarthria, brain injury, pathological disorders*

A description of the dementia bulbar form in older adults.

Bulbar shaped dysarthria is a formed as a result of damage to the prolonged portion of the brain and nerve cells. Bulbar dysentery adults have the ability to understand their surroundings, to read and write in their hearts. Bulbar dysarthria breaks the articulation of the speech and, consequently,the phonetic structure of the speech, as well as its grammatical structure, and the use of the dictionaru is not greatly varied. Such patients speech is unclear , imprecise , incomprehensible, and difficult for those who are listening.

Dizartriya səs tələffüzü və prosodiya pozulmalarını özündə birləşdirən mürəkkəb nitq pozulmalarını təşkil edir. Bu hadisə şifahi nitqin əmələ gəlmə prosesini təmin edən əzələlərin neyromotor aparatının patologiyası ilə əlaqədardır.

Dizartriyanın bulbar forması əsasən uzunsov beyində kəllə-beyin sinirləri (ayrı-ayrılıqda bir və ya bir neçə cüt) nüvəsinin ocaq zədələnməsi ilə əlaqədardır.

Dizartriyanın psevdobulbar forması - mərkəzi kortik-nuklear sinirlərin (piramida yolu) ikitərəfli ocaq zədələnməsinin nəticəsi hesab olunur.

Dizartriyanın beyincik forması - beyincik nüvəsinin və ötürücü hərəkət yolunun zədələnməsi nəticəsidir.

Dizartriyanın qabıqaltı forması nüvənin bazal zədələnməsi zamanı müşahidə edilir. Bazal nüvə dedikdə quyruqlu nüvə və solğun nüvənin funksional birləşməsi başa düşülür.

Dizartriyanın qabıq forması dinamik yarımkürənin ikinci dərəcəli hərəkət bölgəsinin zədələnməsini təşkil edir (böyük yarımkürə qabığının aşağı premotor və ya aşağı post-mərkəzi bölgəsi).

Beyin zədələnmələrinin səbəblərinin və səviyyələrinin bütün müxtəlifliyi ilə dizartriyanın ümumi "doğmalığını" izləmək olar. Bütün dizartriya formaları şifahi nitqin həyata keçirilmə hərəkətlərinin pozulmasını özündə birləşdirir. Nitq hərəkətlərinin pozulmaları neyro-əzələ intizamının patologiyası ilə, yəni əzələ tonusunun patoloji dəyişiklikləri və apraksiya hadisələri ilə şərtlənir.

Dizartriya zamanı şifahi nitqin pozulma dərəcəsi ən müxtəlif ola bilər: səs tələffüzünün eşitmə ilə güclə tutmaq mümkün olan xüsusiyyətlərindən, ekspressiv nitqin tamamilə mümkün olmamasına qədər.

Dizartriyalı böyük yaşlı şəxslər danışığı və yazı nitqini başa düşməsini saxlayır, lakin öz fikrini şifahi formada deməkdə çətinlik çəkir.

Dizartriyanın bulbar forması uzunsov beyin madfəsinin və kəllə-beyin sinirlərinin nüvəsinin zədələnməsi ilə əlaqəli süst ifliclə şərtlənir. Buradan ötürücü yollar keçir (enən və qalxan), hansı ki, uzunsov beyni onurğa beyni, beyin gövdəsinin yuxarı hissəsi, striopallidar sistem, böyük yarımkürələrin qabığı, retikulyar formasiya, limbik sistemlə əlaqələndirir.

Digər dizartriya formalarından fərqli olaraq, bulbar dizartriya zamanı ayrı-ayrı əzələ qrupları zədələnmiş ola bilər, hansı ki, konkret kəllə-beyin və ya onurğa-beyin siniri (iki tərəfdən), həmçinin onların kombinasiyasının funksiyalarının pozulması ilə bağlıdır.

Süst iflic şəklində hərəkət pozulmasının simptom kompleksi 9-cu (dil-udlaq), 10-cu (azan) və 12-ci (dilaltı) kəllə-beyin sinirlərinin nüvə, kötüklər və ya periferik gövdəsinin ocaq zədələnməsi ilə əlaqədardır. Bu sinirlətin hərəkət telləri udlaq əzələlərini, qırtlaqaltının qırtlağını, yumşaq damağın dilçəyini, dili innervasiya edir. Bu əzələlər nitq artikulyasiyasını, səslənməni, udqunma aktını təmin edir.

Udlaq əzələlərinin iflici udqunmanın çətinləşməsinə gətirib çıxarır. Qırtlaqaltı əzələlərin iflici duru qidanın qırtlağa və traxeyalara düşməsinə gətirib çıxarır.

Yumşaq damaq əzələlərinin iflici qidanın burun boşluğuna axmasına səbəb olur.

Qırtlaq əzələlərinin iflici səs tellərinin sallanmasına gətirib çıxarır, səs eşidilməz olur, yəni afoniya əmələ gəlir.

Yumşaq damağın sallanmasına görə səs nazallıq çaları qazana bilər. Artikulyasiya və səsin pozulması ilə yanaşı çeynəmə və udma kimi vacib qeyri-şərti reflektor funksiyalar da zərər görür (disqrafiya və ya afoniya). Böyük yaşlı xəstələrdə udqunma avtomatizminin itməsi ağır mürəkkəbləşmə hesab olunur, xüsusi təlimlər olmadan bərpası mümkün deyil.Damaq və udlaq refleksləri itir. Dizartriyanın kliniki formasına "təmiz" şəkildə, iflic olana qədər nitq funksiyası tam formalaşmış və normal fəaliyyət göstərən böyüklərdə klinikada beyinin ocaq zədələnməsinə rast gəlinir.

Disqrafiya udqunma prosesindəki çətinliklər və udqunma hərəkətlərinin tamamilə olmaması kimi özünü göstərir. Belə hallarda disqrafiya aspirasiya pnevmaniyası ilə mürəkkəbləşə bilər ki, bu da həyati təhlükə hesab olunur. Normal udqunma üçün müəyyən funksional şərtlər vacibdir: dodaq əzələlərinin yetəri gücü, çənənin yanlara normal döndərmə hərəkətləri, dilin hərəkətliliyi. Növbəti udqunma mərhələləri var:

* oral-hazırlıq mərhələsi. Bu mərhələ kəllə-beyin sinirlərinin 5-ci, 7-ci, 12-ci cütlərinin işi ilə təmin olunur. Bu mərhələdə ağız boşluğu əzələlərinin hərəkəti ixtiyaridir;

* oral-transfer mərhələsi. Yemək və ya maye ağız boşluğunda olur, dodaqlar birləşir, qida çeynənilir, ağız suyu ilə qarışır, dil, damaq, yanaq əzələlərinin köməyi ilə qida topası əmələ gəlir. Bu mərhələ o zaman başlayır ki, qida topası dilin arxa hissəsində hərəkət etməyə başlayır. Bu zaman yumşaq damağın qısalması sayəsində nazal boşluq bağlanır. Udqunma refleksi həyata keçməyə başlayır;

* faringial mərhələ. Udqunma refleksinin işə salınması ilə başlayır, bu zaman qırtlaq qalxır, önə tərəf meyllənir ki, bu da qırtlaqaltının enməsinə gətirib çıxarır. Səs telləri sıxlaşır, tənəffüs isə bir qədər dayanır;

* ezofazal mərhələ (qida borusu). Qida borusunun perestalsisinin köməyilə qida mədədə hərəkət edir. Bu hərəkətlərin idarə olunmasında kəllə-beyin sinirlərinin 10-cu cütü iştirak edir.

Birinci mərhələdən başqa, qalan bütün mərhələlər anadangəlmə hərəkətlərdir.

Disfaqiya simptomları çeynəmə çətinlikləri, udqunma zamanı qidanın ağızdan düşməsi, xırıltılı, "quruldayan" səs, tənəffüs pozulmaları ola bilər.

Nitq pozulmasının əsas xarakteristikası əzələ zəifliyi, əzələ tonusunun aşağı olması və bu pozulmaların tempə, nitq artikulyasiyasının həcminə və dəqiqliyinə təsiri ilə izah oluna bilər. Bu dizartriyanın digər adı — "paretik", yəni süst dizartriya da əzələlərin vəziyyəti ilə izah olunur.

Bulbar iflic zamanı periferik aparatın artikulyasiya, səs və tənəffüs bölgələrinin əzələləri aşağı tonusa malik olur və hipotoniya, hətta atoniyaya qədər qan təchizatı pozulması ilə xarakterizə olunur. Xüsusilə qan axını kəskin pisləşir. Əzələlər həcmcə kiçilir, kəskin zəifləmiş, hipotonik və ya tamamilə atonik olur və qıcıqlandırmaya reflektor reaksiya vermir (arefleksiya).

Dizartriyanın bu formasında əzələlərdə atrofik hadisələr müşahidə olunur, bununla əlaqədar olaraq da, fastikulyasiya və fibrilyasiya qeydə alınır. Faskulyasiya sakit halda əzələ liflərində gözlə görülə bilən aritmik, ayrı-ayrı tərpənmələri özündə birləşdirir; fibrilyasiya — xaricdən görünməyən ayrı-ayrı əzələ liflərinin spontan qısalmasıdır.

Atonik əzələlərdə qıcıqlara cavab olaraq, yığılma qabiliyyəti kəskin pozulmuşdur, bu da qeyri-şərti reflekslərin zəifləməsi ilə müşayiət olunur. Bulbar dizartriya zamanı atrofik hadisələr, hipotoniya, hiporefleksiya və hətta arefleksiya olur.

Dizartriyanın bulbar forması zamanı nitq periferik aparatının əzələlərin süst iflici olan hissəsində nə ixtiyari nə də qeyri-ixtiyari hərəkətlər olmur. İxtiyari və qeyri-ixtiyari hərəkətlərin olmaması və ya kəskin zəifləməsi zədələnmiş neyronun fəaliyyət aktivliyinin pozulması ilə əlaqədardır.

Beləliklə, əzələ periferik sinirin ötürdüyü sinir təkanlarını almır. Ağız boşluğunun müayinəsi zamanı aşkar olunur ki, dil əzələsinin iflici vəziyyətində dil nazilir bəzən göyərmə qeydə alınır, bir çox hallarda bəzi hissələr solğun rənglə zolaqlanmış olur (atrofiya), qabarıq atrofiya hallarında fiskulyasiya görünür. Xəstə ixtiyari hərəkətləri həyata keçirmək vəziyyətində deyil: dili önə, yanlara, aşağı və yuxarı etmək.

Yumşaq damağın süst iflici zamanı onun solğun olması qeydə alınır, o, çox zaman kiçik dilçək ilə dil ucuna toxunaraq ağız boşluğuna sallanır.

Dodaqlar göyərmiş, nazilmişdir, təbəssüm kimi tərpənə, dodaqları "borucuq" kimi edə, bir-birinə kip birləşdirə bilmir. Sifət solğun, ammimikdir.

Bulbar dizartriyalı böyüklərdə ətrafdakılatın danışığını anlamaq, ürəyində oxumaq və yazmaq bacarığı tamamilə saxlanılmışdır. Bulbar dizartriya zamanı nitq artikulyasiyası pozukur və deməli, nitqin fonetik quruluşu, eyni zamanda qrammatik quruluşu zərər görür və lüğətdən iatifadə imkanları bütöv həcmdə dəyişilmir. Belə xəstələrin danışı aydın olmayan, örtülü, anlaşılmazdır, dinləyənlər üçün qavranılması çətin olur.

Səs telləri əzələlərinin izolyasiyalı süst parezi zamanı samit səslərin tələffüzü pozulur. Onların kar-cingiltili prinsipi üzrə qarşılaşdırılması zəifləyir, bəzən isə tamamilə itir. Nitqdə kar və ya yarımcingiltili variantları qalır. Səs telləri əzələlərinin parezi zamanı, bütün istənilən patoloji proseslərdə olduğu kimi, müsbət və mənfi kompensator hadisələri müşahidə olunur. Belə ki, səs tellərinin innervasiyasının pozulması zamanı kompensator olaraq, udlaq və dil kökü əzələlərinin gərginliyinin güclənməsi baş verir. Belə hallarda sait səslər çox vaxt mürəkkəb küylü səs birləşmələri kimi səslənməyə başlayır, məsələn: "a" əvəzinə xəstə "xa" tələffüz edir, yəni saitlərin müstəqilliyi itir və nəticədə nitqdə də səslərin formalaşması dəyişir.

Damaq pərdəsi əzələsinin parezi ağız rezonatorundan seçimlə istifadə etməyə imkan vermir. Bütün nitq səsləri həm ağızdan həm də burundan rahat buraxılan hava ilə tələffüz olunur və bu zaman səs nazallaşmış olur.

Artikulyasiyada daha kobud pozulma dil əzələsinin parezi zamanı müşahidə olunur, hansı ki, çox vaxt alt çənə əzələsinin parezi ilə müşayiət olunur ki, bu da şifahi nitqin həyata keçirilməsində onun iştirakına mane olur. Paretiklik ilk növbədə bununla özünü göstərir ki, buraxılan hava axının yolunda tam maneənin əmələ gəlmə imkanı itir.

Samit səslər əlamətlərinə görə: kar-cingiltili, incə-qalın həmçinin əmələ gəlmə yerinə görə qarşılaşdırılır: çatlaqlar, bitişənlər, affrikatlar, titrəyənlər. "L" səsi bitişməsini və dil kökünün gərginliyini itirir (məsələn, "lampa"— "vampa"— "ampa"). Dil ucu əzələsinin izolyasiyalı parezi ən mürəkkəb vibrant olan "r" səsinin tələffüzünü mümkünsüzləşdirir, hansı ki, böyük dil əzələlərinin dəqiq izolyasiyalaşdırılmış hissəsində əzələ liflərinin yüksək

koordinasiyalaşdırılmış və xüsusiləşmiş aktivləşdirilməsini tələb edir (məsələn, "рак" — "ак", "лак" —"ак").

Həm "l" həm də "r" parez halında vibrant və partlayan əvəzinə çatlaq olurlar. Dilin bütün əzələlərinin zədələnməsi halında daha çox ən differensial dilönü səslər pozulur. Dil kökü əzələlərində parez olduğu halda dil arxası səslərin artikulyasiyasının pozulmasının üstünlüyü müşahidə olunur (məsələn, "kartof" əvəzinə "tartof"). Partlayan dil arxası səslər çatlayan dil arxası səslər kimi tələffüz olunur (" грам" — "хвам", "гоca" — "хаса").

Beləliklə, incə səslərin artikulyasiyası dil əzələlərinin daha az differensiallaşmış innervasiyasını tələb edir, nəinki qalın səslərin artikulyasiyası. Lakin dil əzələlərinin süst iflici zamanı incə səslər qalın səslərdən daha az zərər görür.

Dil kökü əzələlərinin iflici zamanı qırtlaq əzələlərinin kompensator gərilməsi baş verir və çatlaq səs yuxarı və aşağı-qırtlaq çaları əldə edir.

Ağızın dairəvi əzələlərinin və dodaq əzələlərinin iflici partlayan səslərin və affrikatların tələffüzünün pozulmasına gətirib çıxarır. Onlar çatlaq səslərə uyğun səslərə çevrilirlər. Bu zaman dodaq-çatlaq səslər kar səthi-çatlaq, dodaq-dodaq səslərinə konversiya edir ("budaq" — "putaq").

Nəticələr:

1. Bulbar dizartriya beyinin uzunsov hissəsində motor neyronlarının üzvi zədələnməsi ilə əlaqədar olaraq, nitq aparatı əzələlərinin tonusunun aşağı düşməsi ilə xarakterikdir.

2. Nitqin fonoloji sisteminin motorlu həyata keçirilməsinin pozulması.

3. Xəstələnənə qədər şifahi nitqi formalaşmış şəxslərdə dilin səs sisteminin motorlu həyata keçirilməsi pozulur:

* səs tellərinin titrəyiş əzələlərinin onların amplitudunu kəskin zəiflədən parezi. Özü ilə birlikdə saitlərin və samitlərin kar-cingiltili, küylü-sonant, sait-samit əlamətləri üzrə fonoloji qarşılaşdırılmasının silinmiş tələffüzündə saitlərin və samitlərin karlaşmasına gətirib çıxarır;

* damaq pərdəsinin ağız boşluğuna passiv sallanmasına səbəb olan yumşaq damaq əzələlərinin parezi.

Nazallıq prinsipi;

* dodaqlar və dil əzələlərinin parezi;

* dodaqlar, dil və alt çənə əzələlərinin parezi sait səslərin yüksəklik, sıra və dodaqlanma əlamətləri üzrə saitlərin fonoloji qarşılaşdırılmasının fərqliliyinin silinməsinə səbəb olur.

## ƏDƏBİYYAT

1. Белякова Л.И., Волоскова Н.Н. Логопедия. Дизартрия. - М. : Гуманитар, изд. центр ВЛАДОС, 2009

2. Блыскина И.В. Массаж в коррекции артикуляционных расстройств / И.В.Блыскина, В.А.Ковшиков. - СПб.: Сатис, 1995.

3. Винарская, Е.Н. Дизартрия и ее диагностическое значение в клинике очаговых поражений мозга / Е.Н. Винарская, А.М. Пулатов. - Ташкент, 1973.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 159.9**

**T.Şahvələdli**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
e-mail: 91turan@gmail.com

# DİQQƏT DEFİSİTİ VƏ HİPERAKTİVLİK SİNDROMU OLAN UŞAQLARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ NEYROPSİXOLOJİ KORREKSİYASI

***Açar sözlər:*** *relaksasiya, sinkineziya, neqativlik, məsuliyyətsizlik, stress, musiqi terapiyası, artterapiya, nağılterapiyası, tənəffüs gimnastikası, autogen məşq, dərin əzələ relaksasiyası, meditasiya*

DDHS olan uşaqların emosional-şəxsi xüsusiyyətlərinin tədqiqi göstərir ki, onlar üçün uğursuzluq zamanı zəif psixoemosional davamlılıq, özünə inamsızlıq, aşağı özünü qiymətləndirmə xarakterikdir. Bir çox hallarda sadə sosial fobiyalar, qıcıqlıq, kobudluq, aqressiv davranış, asılılığa meyllilik müşahidə olunur. DDHS olan uşaqların neyropsixoloji korreksiyasına əzələ dartılmaları, tənəffüs, göz hərəkətləri, dil və çənə əzələləri, resiprok bədən hərəkətləri, xırda əl motorikasının inkişafı, relaksasiya və vizualizasiya, kommunikativ və koqnitiv sferanın inkişafı üçün məşğələlər daxil edilməlidir.

**Т.Шахвеледли**

## ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ И НЕЙРОПСИХОЛОГИЧЕСКАЯ КОРРЕКЦИЯ ДЕТЕЙ С СИНДРОМОМ ДЕФИЦИТА ВНИМАНИЯ И ГИПЕРАКТИВНОСТИ

***Ключевые слова:*** *релаксация, синкинезия, негативность, безответственность, стресс, музыкальная терапия, арт-терапия, сказкотерапия, дыхательная гимнастика, аутогенные упражнения, глубокое расслабление мышц, медитация*

Изучение эмоционально-личностных характеристик детей с СДВГ показывает, что слабая психоэмоциональная стабильность и низкая самооценка характерны для детей с таким диагнозом. Во многих случаях проявляется простая социофобия, раздражительность, грубость, агрессивное поведение, склонность к зависимости. Нейропсихологическая

коррекция детей с СДВГ должна включать упражнения для снятия напряжения мышц, для дыхания, для движений глаз, для мышц языка и челюсти, для повторяющихся движений тела, для развития мелкой моторики рук, для расслабления и визуализации, для коммуникативной и когнитивной сферы.

**T.Shahvaladli**

## PSYCHOLOGICAL FEATURES AND NERROCYCHOLOGICAL CORRECTIVE OF CHILDREN WITH DISEASES OF DEFINITION AND HYPERSKY INTRODUCTION

***Key words:*** *relaxation, sinkinezia, negativity, irresponsibility, stress, musical therapy, art therapy, story therapy, respiratory gymnastics, autogenous exercise, deep muscle relaxation, meditation*

The study of emotional-personality characteristics of children with ADHS shows that poor psycho-emotional stability, self-esteem, and low self-esteem are characteristic for failure. In many cases, simple social phobia, irritability, roughness, aggressive behavior, tendency to dependence. Neuropsychological correction of children with ADHS should include exercises for muscle removal, respiration, eye movements, tongue and jaw muscles, recurrent body movements, development of small hand motorics, relaxation and visualization, communicative and cognitive spheres.

Son dövrlərdə artmaqda olan DDHS-uşağın nəinki idraki proseslərinin səviyyəsini aşağı salan, həmçinin emosional iradi sferasını, yaxın ətrafı, yaşıdları ilə münasibətlərini pozan, məktəb dezadaptasiyası ilə təzahür edən minimal beyin disfunksiyasının formalarından biridir. DDHS olan uşaqların psixoloji problemləri sistemli xarakter daşıyır, demək olar ki, ömür boyu qalır. Bu cəhətdən həm psixoloji, həm də tibbi medikamentoz olmaqla korreksiya işləri aktualdır. Uzun illər ərzində hiperaktiv uşaqların məktəb çətinliklərini onların əqli inkişafsızlığı ilə izah edirdilər. Onların intizamsızlıqlarını isə ciddi nizam intizam qaydaları ilə korreksiya etməyə çalışırdılar. Artıq tədqiqatçılar sübut etmişlər ki, hiperaktivliyin mənbəyini sinir sisteminin pozulmalarında axtararaq korreksiyaedici tədbirləri də məhz pozulmalara uyğun planlaşdırmaq lazımdır. Tədqiqatçıların ümumi fikrinə görə bu halda davranış pozulmalarının əsas səbəbi sinir sistemində oyanma və ləngimə proseslərinin disbalansıdır. Problemə cavabdeh sahə retikulyar formasiyadır. MSS-nin bu şöbəsi insanın enerjisinə, emosiyalara nəzarət edir. Pozulmaların əsas səbəbi minimal beyin disfunksiyasıdır, yəni beyin strukturlarının doğum travması, asfiksiya kimi

çoxsaylı mikrozədələnmələrinin nəticəsidir. Bu zaman beynin kobud ocaqlı zədələnməsi müşahidə edilmir.

DDHS olan uşaqların emosional-şəxsi xüsusiyyətlərinin tədqiqi göstərir ki, onlar üçün uğursuzluq zamanı zəif psixoemosional davamlılıq, özünə inamsızlıq, aşağı özünü qiymətləndirmə xarakterikdir. Bir çox hallarda sadə sosial fobiyalar, qıcıqlıq, kobudluq, aqressiv davranış, asılılığa meyllilik müşahidə olunur.

Müasir dövrdə DDHS olan uşaqlarla psixokorreksiya işinin böyük arsenalından istifadə olunur: musiqi terapiyası, artterapiya, nağılterapiyası, tənəffüs gimnastikası, autogen məşq, dərin əzələ relaksasiyası, meditasiya və s. Lakin korreksion işin səmərəsi onun sistematikliyindən və düzgün istifadəsindən asılıdır. DDHS olan uşaqlarla psixokorreksiya işinin innovasiyalı texnologiyalarına Qum psixoterapiyasını misal göstərmək olar. Terapiyanın bu forması təcrübədə daha geniş aktuallıq tapmışdır. Bu qeyri adi texnikaya görə uşaq qum və kiçik fiqurların köməyilə öz şəxsi aləmini qurur. O həvəslə adamların, heyvanların, ağacların, binaların, avtomobillərin və körpülərin miniatür fiqurlarından istifadə edir. Oyun prosesində uşaq qumla suyu qataraq təpəciklər, müxtəlif formalar düzəldir. Bu zaman o ani olaraq şüurunda yarananları qumda ifadə edir. Qum terapiyası uşaqda hislərin sıçrayışına, daxili aləmin zahiri ifadəsinə kömək edərək onu daha çox özünə inamlı edir. Ümumiyyətlə, insan narahatçılığının səbəbini bildikdə sakitləşir. Panik hislər müəyyənlik və əminlik hisləri ilə əvəz olunur.

DDHS olan kiçik yaşlı məktəblilərin emosional-iradi sferasının xüsusiyyətləri yüksək səviyyəli narahatlıqla, özünə inamsızlıqla, özünə nəzarətin zəifliyi ilə xarakterizə olunur. Onların stressə qarşı fizioloji müqavimətləri zəifdir, ətrafdakıların onlardan gözlədiklərinə uyğun olmamaq qorxusu var. Özlərini ifadə etməyə qorxurlar. Şəxsiyyətlərarası münasibətlərdə inamsızlıq, laqeydlik, küsəyənlik, neqativlik, məsuliyyətsizlik nümayiş etdirirlər. Sosial normalara qarşı çıxırlar.

Qeyd olunanları nəzərə alaraq DDHS olan uşaqlarla psixokorreksiya işinin əsas vəzifələrini ayırd etmək mümkündür:

1. İdrak proseslərinin inkişafı. Diqqətin həcminin və davamlılığının inkişafı, material üzərində diqqəti toplamaq bacarığı. Mnemik funksiyaların, əyani-obrazlı, sözlü-məntiqi təfəkkürün inkişafı.

2. Psixo-emosional vəziyyətin normallaşdırılması, emosional- iradi davamlılıq bacarıqlarına yiyələnmə.

3. Özünə pozitiv yanaşma, özünü anlama və özünü olduğu kimi qəbul etmə

4. Ətraf aləmlə qarşılıqlı əlaqənin müvəffəqiyyətli strategiyasının işənilməsi.

5. DDHS olan uşaqlara fərdi psixoloji yanaşma probleminin vacibliyi haqqında valideynlərlə konsultasiya. DDHS-nun xüsusiyyətləri və əlamətləri, belə uşaqlarla münasibətlərin qurulması haqqında praktik tövsiyyələr.

DDHS olan uşaqlarla ən effektiv psixokorreksiya metodlarına qumla oyun terapiyası, artterapiya, nağıl terapiyası, tənəffüs gimnastikası və s. aiddir.

DDHS olan uşaqların neyropsixoloji korreksiyasına əzələ dartılmaları, tənəffüs, göz hərəkətləri, dil və çənə əzələləri, resiprok bədən hərəkətləri, xırda əl motorikasının inkişafı, relaksasiya və vizualizasiya, kommunikativ və koqnitiv sferanın inkişafı üçün məşğələlər daxil edilməlidir.

Əzələ dartılmaları hipertonus və hipotonusu normallaşdırır. Tonusun normallaşdırılması neyropsixoloji korreksiyanın ən vacib məsələlərindən biridir. Optimal tonusdan hər hansı bir kənara çıxma uşağın psixi və hərəki aktivliyində dəyişikliklərə səbəb olaraq uşağın ümumi inkişafına neqativ təsir edir. Hipotonus uşağın psixi və hərəki aktivliyinin zəifliyi ilə əlaqədardır, reflektor və iradi reaksiyalarda qüsurlara gətirib çıxarır. Hipotonus sinir proseslərinin ləngiməsi, emosional halsızlıq, motivasiya və iradi gücün zəifliyi ilə müşayət olunur. Hipertonusun olması hərəki narahatlıqda, emosional labillikdə, yuxu pozulmasında özünü göstərir. Belə uşaqlar üçün iradi diqqətin, differensiallaşmış hərəki və psixi reaksiyaların formalaşmasının ləngiməsi xarakterikdir ki, bu da DDHS-nun yaranmasına səbəb ola bilər. Hiperaktiv uşaqlarda xarici stimullara qarşı bütün hərəki, sensor və emosional reaksiyalar tez yaranır və tez də sönür. Belə uşaqlar çox çətinliklə rahatlanırlar. Məhz buna görə də məşğələlərin əvvəlində uşağa öz tonusunu hiss etdirməli və əyani, sadə misallar üzərində onunla işlənəcək variantları göstərmək lazımdır.

Əzələ tonusunun tənzimlənməsi hərəkətlərin inkişaf qanunlarına uyğun olmalıdır: baş və boyundan aşağı ətraflara doğru (sefalo-kaudal qanunu), boyun və çiyinlərdən əllərə və ayrı-ayrı barmaqlara, eləcə də dizlərdən ayaq barmaqlarınadək (proksimodistal qanun).

Tənəffüs üzrə məşğələlər orqanizmin ritmini yaxşılaşdıraraq, özünənəzarəti və iradililiyi inkişaf etdirir. İnsanın iradi idarə edə bilcəyi yeganə ritm tənəffüs və hərəkət ritmidir. Neyropsixoloji korreksiya uşaq orqanizminin çox mərhələli yollarla avtomatlaşdırılması və ritmləşdirilməsi ilə qurulur. Orqanizmin ritminin pozulması (beynin elektrik aktivliyi, tənəffüs, ürək döyüntüsü, bağırsaq peristaltikası, damar pulsasiyası və s.) uşağın psixi inkişafının pozulmasına səbəb olur. Tənəffüsə iradi nəzarət etmək bacarığı davranışa nəzarəti inkişaf etdirir. DDHS-lu uşaqların korreksiyası üçün tənəffüs məşğələləri xüsusilə səmərəlidir. Tənəffüs məşğələlərini nəfəs vermə mərhələsindən başlamaq, sonra pauza, daha sonra ağız və ya burun vasitəsilə dərin nəfəs almaq lazımdır. Diafraqmanın hərəkət etməsinə və çiyinlərin sakit qalmasına nəzarət edilməlidir. Dərindən nəfəs alarkən döş qəfəsinin yuxarı hissəsi mütləq hərəkətdə olacaq. Dərindən nəfəs almağı öyrənmə mərhələsində

uşağa öz əlini diafraqmanın hərəkət sahəsinə qoymaq təklif olunur ki, o nəfəs alarkən əlinin qalxdığını və nəfəs verərkən əlinin endiyini hiss etsin. Tənəffüsün müxtəlif mərhələlərini dilin və gözlərin müxtəlif hərəkətləri ilə müşayət etmək olar.

Göz hərəkətləri məşğələləri görmə sahəsinin genişlənməsinə və qavrayışın yaxşılaşmasına imkan verir. Gözün və dilin eyni istiqamətli və müxtəlif istiqamətli hərəkətləri yarımkürələrarası əlaqələri inkişaf etdirir və orqanizmin enerjisini artırır.

Böyük yarımkürələr qabığının hərəki (motor) sahəsinin çox hissəsi nitqi formalaşdıran qırtlağın, dilin, ağızın, çənə və gözlərin əzələ hərəkətlərində iştirak edir. Bədən və barmaqların korreksiyaedici hərəkətləri yarımkürələrarası əməkdaşlığın inkişafını, sinkineziyaları və əzələ sıxmalarının aradan qaldırılmasını təmin edir. Bundan başqa, uşağın öz bədənini hiss etməyə başlaması bədən tərəfindən qəbul edilən sensor informasiyanın differensasiyasına və daha da zənginliyinə imkan verir. Məlumdur ki, motor koordinasiya mərkəzi beynin daxili nitq və özünə nəzarətə cavabdeh olan alın payında yerləşir. Uşaqların yüksək hərəki aktivliyi nəticəsində sinir torlarının miyelinizasiyası baş verir. İnkişafın həyati vacib mərhələsi olan iməkləmə mərhələsini keçməmiş uşaqlar təlimdə çətinliklə üzləşirlər. Çünki iməkləmə zamanı döyənək cismin inkişafını aktivləşdirən əllərin, ayaqların, gözlərin çarpaz hərəkətlərindən istifadə olunur.

Resiprok hərəkətlərin mütəmadi yerinə yetirilməsi çoxsaylı sinir yolları yaranaraq miyelinizasiya olunur. Bu da baş beyin yarımkürələrini əlaqələndirərək psixi funksiyaların inkişafını təmin edir. Aramla çarpazvari hərəkətlərin yerinə yetirilməsi vestibulyar aparatın və beynin alın paylarının aktivləşdirilməsinə səbəb olur.

Musiqiçilərdə, xüsusilə piano ifaçılarında, barmaqların yüksək aktivliyi nəticəsində xırda hərəki koordinasiya və döyənək cisim inkişaf edir. Məlumdur ki, musiqi məşğələləri riyazi bacarıqların inkişafını stimullaşdırır.

Bundan başqa, ifadəli hərəkətlər insanın emosional, hissi sferasının əsas komponentidir. Belə ki, elə bir emosiya, narahatlıq yoxdur ki, bədən hərəkətləri ilə ifadə olunmasın. Nəticədə uşaqlar öz bədənlərini daha yaxşı hiss edir və dərk edirlər.

Sinkineziya- qeyri iradi formada yerinə yetirilən hərəkətlər. Bu hərəkətlər ya bilərəkdən, ya da avtomatik baş verir. Məsələn, gəzərkən əllərin hərəkətləri

Funksional məşğələləri üç əsas istiqamət üzrə keçirmək məqsədəuyğundur:

- Diqqətin, iradənin və özünə nəzarətin inkişafı ;
- Hiperaktivlik və impulsivliyin aradan qaldırılması;
- Qəzəb və aqressiyanın aradan qaldırılmsı.

Korreksiya ayrıca bir funksiyadan başlayaraq mərhələ ilə keçirilməlidir. Hiperaktiv uşaq eyni zamanda həm diqqətli, həm qeyri impulsiv, həm də sakit

ola bilməz. Bir funksiya üzrə davamlı müsbət nəticələr əldə edildikdən sonra, eyni zamanda iki, daha sonra isə üç funksiyanın inkişaf etdirilməsinə keçmək olar. Məsələn, diqqətin iradi paylanılmasını inkişaf etdirərkən impulsivliyə nəzarəti azaltmaq və hərəki aktivliyə məhdudiyyət qoymamaq vacibdir. İmpulsivliyi azaldarkən diqqətin mərkəzləşdirilməsi üzərində işləmək və hərəkəti məhdudlaşdırmaq lazım deyil.

Uşaqlarda müstəqilliyin inkişafı üçün məşğələlərə ancaq sözlü komanda ilə həyata keçən hərəkətlər daxil edilir. Uşaq sözlü instruksiyanı eşidir, başa düşür və ona uyğun hərəkət edir. Məşğələ prosesində uşağın müstəqillik səviyyəsi fərqli ola bilər. Məsələn, uşağa "istədiyin kimi et" dedikdə xüsusi proqram tələb olunmur. Bu zaman fəaliyyət mexaniki xarakter daşıyır və müstəqillik səviyyəsi enir. Müstəqilliyin inkişafı üçün optimal variant dəqiq instruksiyanın olmasıdır ki, nəticədə uşaqda tədricən öz şəxsi proqramını tərtib etmək bacarığı yaranır. Məşğələlərin dəqiq və təkrar strukturda olması çox vacibdir. Müstəqilliyin inkişafı şərtlərindən biri də uşaqların qaydalara, adətlərə və zaman reqlamentinə riayət etmələridir. Bundan başqa hər bir iştirakçıya növbə ilə lider rolu vermək, avtomatik olaraq onların dominantlıq səviyyəsini qaldırır, demək, uşağın özünü idarə etməsində, proqramlaşdırma, özünə və ətraf mühitə nəzarətdə müstəqilliyinin artması ilə nəticələnir.

Kommunikativ məşğələlər üç mərhələyə bölünür :

1. Fərdi məşğələlər şəxsi bədən ilə kontaktın bərpasına və dərinləşməsinə, vəziyyət və münasibətlərin qeyri verbal ifadəsinə istiqamətlənir.

2. Cüt məşğələlər tərəfdaşı hiss etmək, anlamaq və onu qəbul etməyə kömək edir.

3. Qrup məşğələlərində birgə fəaliyyətin təşkili ilə uşaqda kollektivlə əməkdaşlıq bacarıqları yaranır.

Vizualizasiya mövcud olmayan obyektin, hadisənin (görmə, eşitmə, işarəvi, hissi, iylə və s.) beyində canlandırılmasıdır. Vizualizasiya beynin hər iki yarımkürəsində yaranır, döyənək cismin inkişafına effektiv təsir edir. Məşğələlər gözləri bağlamaqla yerinə yetirilə bilər.

Relaksasiya həm məşğələlərin əvvəlində, həm də sonunda keçirilə bilər. Bədəndə inteqrasiya (relaksasiya, özünümüşahidə, hadisələrin və hislərin xatırlanması ) vahid prosesin tərkib hissəsidir. Onun ardınca hərəkətdə inteqrasiya (qeyri verbal komponent) və müzakirə (verbal komponent) gəlir. Bu üç tərkib hissəsi uşağın məşğələ prosesində əldə etdiyi hiss və bacarıqların refleksiyası üçün lazımi şərait yaradır.

Korreksiya işinə massajın müxtəlif növləri daxil edilməlidir. Barmaqların və qulaq seyvanının massajı çox effektivdir. Mütəxəssislər qulaq seyvanında bədənin müxtəlif hissələrinə təsir edən 148 nöqtə olduğunu hesablamışlar. Qulaq seyvanının yuxarı hissəsindəki nöqtələr ayaqlara, sırğalıqdakı nöqtələr isə başa təsir edir.

Hər bir korreksiya prosesinin vacib şərtlərindən biri də mükafatlandırma və cəzalandırma prosesidir. Cəza kimi uşağın oyundan uzaqlaşdırılması, liderlikdən kənarlaşdırılması və s. ola bilər. Mükafatlandırma kimi isə müxtəlif mükafatlar, sevimli musiqi, oyunda aparıcı rol və s. ola bilər. Korreksiya işi zamanı nəzərə almaq lazımdır ki, hiperaktiv uşaqlar uzun müddət qrup qaydalarına tabe ola bilmir, tez yorulur, instruksiyaları sona qədər dinləyib yerinə yetirə bilmirlər. Onlarla fərdi işləməklə tədricən qrup işinə keçmək olar. Bndan başqa hər uşaq üçün fərdi strategiya və birgə fəaliyyət taktikası işlənilməlidir.

## ƏDƏBİYYAT


1. И.И.Мамайчук «Психокоррекционные технологии для детей с проблемами в развитии» - 2006 г
2. Е.Ю.Азбукина, Е.Н.Михайлова «Основы специальной педагогики» -2006
3. Сиротюк А.Л. «Синдром дефицита внимания с гиперактивностью. Диагностика, коррекция и практические рекомендации родителям и педагогам.», Сфера, 2002
4. Г.Монина, Е.Лютова-Робертс, Л.Чутко «Гиперактивные дети: психолого-дагогическая помощь», Монография-2007
5. Политика О.И. «Дети с синдромом дефицита внимания и гиперактивностью», Речь, 2005


**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 376**

**A.A.İsrəfilova**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: afet-israfilova@mail.ru

# ATİPİK İNKİŞAFIN PSİXOLOJİ SƏCİYYƏSİ

***Açar sözlər;*** *atipik inkişaf, senzitiv dövr, şüur, psixi funksiya, sinir sistemi, tipik inkişaf*

Atipik inkişafı öyrənmək üçün klinik simptomların əsasında duran normal psixi fəaliyyətin pozulma mexanizmlərini öyrənmək lazımdır. Atipik inkişafın əlamətləri bir növ defekt dairəsindən çox fərqlənir. Tipik və atipik uşaqların psixofiziki inkişafının qanunları eynidir və buna əsaslanaraq, demək olar ki, hər pozulma inkişafın gedişini anomal edərək kökündən dəyişir. Bu dəyişikliklər uşağın yaşından və psixi funksiyanın bu yaşda inkişaf etməsi səviyyəsindən asılı olaraq, müxtəlif olur. Atipik inkişafın strukturuna həm də sosial amillər, yəni tərbiyə təlim və korreksiya şəraiti təsir göstərir.

**А.А.Исрафилова**

# ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА АТИПИЧНОГО РАЗВИТИЯ

***Ключевые слова***: *атипичное развитие, когнитивный период, сознание, психическая функция, нервная система, типичное развитие*

Чтобы узнать об аномальном умственном развитии, вам необходимо изучить механизмы нормальной умственной деятельности, основанные на клинических симптомах. Признаки аномального развития отличаются от некоторых дефектных кругов. Законы психофизического развития нормальных и аномальных детей одинаковы, и на этом основании почти каждое ухудшение радикально отличается от хода развития. Эти изменения различаются в зависимости от возраста ребенка и уровня психического развития в этом возрасте. На структуру аномального развития также влияют социальные факторы, такие как воспитание, обучение и коррекционные условия

**A.A.Israfilova**

# PSYCHOLOGICAL CHARACTERISTIC OF ATYPICAL DEVELOPMENT

***Key words:*** *atypical development, cognitive period, consciousness, mental function, nervous system, typical development*

To learn about anomalous mental development, you need to learn the mechanisms of normal mental activity that are based on clinical symptoms. Signs of anomalous development are different from some defect circles. The laws of the psychophysical development of normal and abnormal children are the same, and on this basis, almost every deterioration is radically different from the course of development. These changes are different depending on the child's age and the level of mental development at this age. The structure of anomalous development also affects social factors, such as education training and correctional conditions.

Uşaqlarda pozulmanı təyin edərkən patofizioloji baxımdan o xarakterizə edilirsə, patoloji simptomu müəyyən edərkən normal psixi fəaliyyət modelindən istifadə edilməlidir. Bu zaman uşağın normal psixi inkişafdan bu və ya digər tərəfə nə dərəcədə əyilməsini təyin etmək vacibdir.

L.S.Viqotski anomal ontogenezin öyrənilməsində bioloji və sosial-psixoloji inkişaf yolunu əsas götürür və hesab edir  ki, şəxsiyyətin anomal inkişafı bilik və vərdişlərin mənimsənilməməsi kimi əyintilər meydana çıxarır.

Uşaqlarda psixi inkişafın təsvirini ilk dəfə 1787-ci ildə alman filosofu Tideman “Uşağın şüuri inkişafının müşahidəsi” adlı yazısında vermişdir. Tideman anadan olandan 3 yaşınadək bir oğlanı müşahidə edərək, onun sensorikasında, dayaq-hərəkət sferasında  baş verən dəyişiklikləri göstərmişdir. Uşağın şüuri inkişafının yaş dövrlərindən asılılığını qeyd etmişdir. Bundan əlavə anomal psixi inkişafı olan uşaqları tədqiq etməyə XIX əsrdən Fransıs psixologiya məktəbi maraq göstərir. 1895-ci ildə A.Bine fərqli analiz metodundan istifadə etməklə əqli geri qalmış uşaqları və zəkalı uşaqları tədqiq etməsi onların əqli inkişafını qanunauyğuluqlarını öyrənməyə başlamışdır. 1905-ci ildən A.Bine və T Simon intellektin inkişafıı ölçmə yolu ilə əqli geri qalmış uşaqları müəyyən edərək, onları normal məktəb təlimindən azad edirdilər. Artıq Fransız psixologiya məktəbində belə uşaqların psixi funksiyalarının korreksiyasının mümkünlüyündən danışılırdı.

Atipik inkişafı öyrənmək üçün klinik simptomların əsasında duran normal psixi fəaliyyətin pozulma mexanizmlərini öyrənmək lazımdır. Atipik inkişafın əlamətləri bir növ defekt dairəsindən çox fərqlənir. Tipik və atipik uşaqların

psixofiziki inkişafının qanunları eynidir və buna əsaslanaraq, demək olar ki, hər pozulma inkişafın gedişini anomal edərək kökündən dəyişir. Bu dəyişikliklər uşağın yaşından və psixi funksiyanın bu yaşda inkişaf etməsi səviyyəsindən asılı olaraq müxtəlif olur. Anomal inkişafın strukturuna həm də sosial amillər, yəni tərbiyə təlim və korreksiya şəraiti təsir göstərir.

İ.P.Pavlovun "Heç bir şey hərəkətsiz, sərt qalmır, hər şey yaxşıya doğru dəyişə bilər, təkcə lazımı şərtlər yardılarsa" sözlərinə əsaslanaraq belə nəticəyə gəlmək olar:əgər tərbiyə və korreksiya işi düzgün qurularsa, hər uşaqda anomaliyanın azalması və stabilləşməsi üçün kompensator və potensial imkanlar var. Psixi inkişafın əsas və mühüm əlaməti psixi funksiyaların tək kəmiyyət yox həm də keyfiyyətcə qarşıəlaqəli və qarşıtəsirli dəyişməsidir. Zəif inkişaf etmiş və ya tam inkişafdan qalmış funksiya o biri psixi funksiyaların geridə qalmasının səbəbi olur. Məsələn, məlumdur ki, eşitməsi pozulmuş uşağın ünsiyyət yaratmaq imkanları məhdud olduğundan, onda şifahi nitqin inkişafı kobud pozulur. Əgər eşitmə erkən yaşlarında və ya sonradan xeyli pozulubsa, onda ətrafdakıların nitqini təqlid etmək imkanı yox dərəcəsində olur. Nitq inkişafının pozulması uşaq psixikasının ümumi inkişafının gedişinə təsir edir. Erkən yaşından eşitməyən uşaq özü danışmağa başlamayacaq. Ancaq xüsusi təlim zamanı, sağlam hiss üzvlərindən gələn informasiyanı mənimsəyərək, uşaq danışmağa başlaya bilər.

Psixi inkişaf nəzəriyyəsinin müəllifi L.S.Viqotski yazır ki, "əsas psixi funksiyalara (mürəkkəb qavrama, fəal yaddasaxlama, iradi yaddaş, məntiqi təfəkkür) inkişaf zamanı özünü biruzə verən daxili xassə və qabiliyyət kimi baxmaq olmaz. Bu mürəkkəb proseslər böyüklərlə ünsiyyətin və mühitin təsiri altında əmələ gəlib, inkişaf edir və mükəmməlləşir. Atipik inkişafda bu proseslərin gedişi prinsipi və proseslərin yaşa aidiyyatı, normada olduğu kimi, eyni qanunlara tabe olur. Atipik inkişafın xüsusiyyəti psixi inkişafın tempinin pozulmasında və bununla əlaqədar yaş dövrləşməsinin dəyişməsidir. Bəzən inkişaf müəyyən istiqamətdə pozularaq psixi fəaliyyətin o biri sahələrində inkişafın gözə çarpan dərəcədə ləngiməsinə gətirib çıxarır. Tipik uşaqda intellektual törəmələr tədricən psixi inkişaf zamanı əmələ gəlir. Atipik uşaqlarda isə hər qeyri-normal proses və ya funksional pozulma şəxsiyyətin bütövlükdə, müntəzəm və arasıkəsilməz psixi inkişafın üzərinə gedərək, öz təsirini göstərir.

Məlumdur ki, normal ontogenezdə psixi fəaliyyəti beyin mexanizmlərinin formalaşmasında müəyyən ardıcıllıq mövcuddur. Beyin analizator sistemlərinin inkişafını qabaqlayır. Tənzimləyici sistemlərin disfunksiyası bütün psixi inkişafa neqativ təsir göstərir. Xüsusi pozulma isə lokal xarakter daşıyıb, çox vaxt salamat qalmış tənzimləyici və digər xüsusi sistemlərin köməyi ilə kompensasiya olunur.

Tədqiqatçılar atipik inkişafı zədənin vaxtı ilə də əlaqələndirirlər. Beləki zədə nə qədər erkən yaş dövründə alınmışsa bir o qədər inkişafdan qalma dərin olacaq. Deməli sinir sisteminin aldığı zədənin vaxtından asılı olaraq atipik inkişafın dərinliyindən danışa bilərik. Vaxt təkcə xronoloji baxımdan deyil, həm də ontogenezdə bu və ya digər funksiyanın inkişaf dövrünü əhatə edir. Qısa inkişaf dövrü olan funksiya tez zədələnir. Beyin qabıqaltı yerləşən funksiyaları erkən formalaşdığından daha tez-tez zədələnmiş olurlar. Beynin qabıq funksiyaları isə daha uzun müddət ərzində inkişaf etdiyindən onlar zədələndikdə ya inkişafdan qalma, ya da onların müvəqqəti inkişafının ləngiməsi müşahidə olunur.

Bu və ya digər funksiyanın zədələnməsi vaxt parametri ilə sıx bağlıdır. Çünki psixi inkişaf zamanı hər bir funksiya müəyyən vaxt ərzində senzitiv dövrdə olur. Yəni bu dövr ərzində o, intensiv inkişaf edir və həmçinin, mühitin zədələrinə, təsirlərinə davamsız olduğundan tez pozulur. Senzitiv dövrdə müxtəlif amillərə tez məruz qalma bütövlükdə uşağın psixi inkişafına təsir edir. Uşağın əsas senzitiv dövrləri 0-3 yaş və 11-15 yaşı əhatə etdiyindən, bu dövrlərdə psixi pozulmaların ehtimalı böyükdur. 4-11 yaş dövrü isə müxtəlif zərərli amillərə qarşı davamlıdır.

Senzitiv dövrdə olan psixi funksiyalar zərərli təsirə məruz qaldıqda reqress(tənəzzül) müşahidə olunur. Yəni o, əvvəlki inkişaf mərhələsinə qayıdır. Məsələn 0-3 yaş dövründə olan uşaq ağır somatik xəstəlik keçirərək müəyyən müddət yataqda olarsa nəticədə o, gəzmək vərdişini itirir, cümlə quraraq danışırdısa, yenidən tək-tək sözlərlə danişmağa başlayır. Bu cür ağır hallarda təkcə senzitiv dövrdə olan funksiyalar deyil, formalaşmamış funksiyalar da reqrese məruz qala bilir. Məsələn; şok halı ilə müşayiət olunan psixi zədə zamanı uşaqlarda kəskin şizofrenik proses başladıqda və.s.

Reqresdən əlavə uşaqlarda anomal psixi inkişaf zamanı psixi funksiyaların dağılması prosesi də müşahidə olunur. Əgər reqress psixi funksiyanın daha erkən inkişaf mərhələsinə qayıtmasıdırsa, dağılma-psixi funksiyanın zədələnib aradan çıxması kobud pozulmasıdır. Uşağın sinir sisteminin zədəsinin ağırlıq dərəcəsindən asılı olaraq kəskin reqress və ya dağılma proseslərindən danışmaq olar. Anomal psixi inkişafın profilini qurarkən onun salamat qalmış, müxtəlif dərəcələrdə zədələnmiş reqresləyən və dağılmış funksiyalarını qeyd etmək lazımdır.

Uşaqlarda atipik inkişaf zamanı funksiyalararası əlaqələrin pozulması müşahidə olunur. Funksiyalararası əlaqələrin patologiyası zamanı ierarxik koordinasiya da pozulur. Hər hansı çətinlik zamanı ierarxik kordinasiyada reqress, qeyri-sabitlik diqqəti cəlb edir. Məsələn, saymaq vərdişini qazanmış psixi inkişafı gecikmiş uşaq yüngül bir çətinlik hiss edən kimi yenidən

barmaqları ilə sayır. Bu hal tipik uşaqlarda da müəyyən müddət müşahidə olunur, lakin atipik uşaqlarda bu hal həmişə olur və xüsusi korreksiya tələb edir.

## ƏDƏBİYYAT


1. **Səməd Qasımov, Elmira Kərimova** .”Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası” Bakı: “Çaşıoğlu”, 2004.
2. **Şəfiyeva E.İ.** “Anomal inkişafın psixologiyası” Bakı: ADPU nəşriyyatı, 2012.
3. **İsmayılov N.V., İsmayılov F.N.** “Tibbi psixologiya və psixoterapiya” Bakı: “Maarif” nəşriyyatı, 2002
4. **Qədirov Ə.Ə.** “Yaş psixologiyası”. Bakı, 2000.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 13.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 316.3**

**N.Qibləliyeva**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
e-mail: nərgizqibləliyeva@mail.ru

# ASPERGER SİNDROMUNUN PEDAQOJİ-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *sindrom, intellekt, nitq, hərəkət, inkişaf, psixoloji, ləngimə*

Psixiatr Hans Asperger tərəfindən 1944-cü ildə təsvir edilmiş sindromdur. Asperger sindromundan əziyyət çəkən uşaqla təması olan hər bir şəxs bu uşaqların xüsusiyyətləri və təhsil tələbatları haqqında məlumatlı olmalıdırlar. Asperger sindromu ünsiyyət bacarıqları yaxşı inkişaf etməyən, yaşıdları ilə empatya qura bilməyən və fiziki olaraq hərəkət və davranışlarında nizamlılığı qoruya bilməyən uşaqları ayırd etimişdir.

**Н.Гиблалиева**

# ПЕДАГОГИКО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ СИНДРОМА АСПЕРГЕРА

***Ключевые слова:*** *синдром, интеллект, речи, движение, разработка, психологические, задержка*

Синдром получил название в честь психиатра Ганса Аспергера, который в 1944 году описал детей, отличавшихся отсутствием способностей к невербальной коммуникации, ограниченной эмпатией по отношению к сверстникам и физической неловкостью. Синдром Аспергера проявляется с раннего детского возраста, в то время как шизоидное расстройство личности с позднего детского, либо с подросткового возраста.

**N.Giblaliyeva**

# PEDAGOGICAL-PSYCHOLOGICAL FEATURES OF ASPERGER SYNDROME

***Key words:*** *syndrome, intellect, speech, movement, development, psychological, delay*

The syndrome was named after the psychiatrist Hans Asperger, who in 1944 described children who lacked the ability to non-verbal communication, limited empathy towards peers and physical awkwardness. Asperger's syndrome occurs from early childhood, while schizoid personality disorder from late childhood or adolescence.

Bu autistik spektrli pozuntular qrupuna aid olan və psixiatr Hans Asperger tərəfindən 1944-cü ildə təsvir edilmiş sindromdur. Bu, XBT-10 və DSM-5-də Asperger sindiromu adlanır. Asperger sindromunun yaşları 7-16 arasında olan uşaqlarda görülməkdədir. Qızlarda sayı 1/10-1000 oğlanlarda 1/15 qədərdir. Asperger sindiromu digər autist uşaqlara görə irsidir. Bu pozuntunun nozoloji müstəqilliyi təyin olunmayıb, uşaq autizmi üçün sosial qarşılıqlı əlaqələrin keyfiyyətcə pozulması, məhdud stereotipiya, təkrarlan maraq və məşğuliyyət yığımı ilə xarakterizə olunur. Autizmdən fərqli olaraq, burada nitqin və koqnitivin ümumi ləngiməsi və ya yox olmasına rast gəlinmir. Əksər uşaqlarda normal intellekt olur, amma, yöndəmsizlik qeyd olunur; bu vəziyyət çox hallarda (8:1 nisbətindədir). Bu pozuntuların yeniyetmə və yetkin yaşda da qalmaq tendensiyası vardır. Ehtimal ki, bunları fərdin xüsusiyyətləri kim göstərmək olar, hansılar ki, mühitin təsirinə məruz qalmırlar. Çox az hallarda gənclik yaşında psixotik epizodlar inkişaf edə bilər. Asperger sindromunun müalicəsində əsas vəzifə sosial kommunikasiyanın və partnyor münasibətlərin inkişafına yönəlir. Müdaxilə həmyaşıdlarının maraqlarına cavab verən qarşılıqlı əlaqələrin formalaşmasından başlayır. Əksər hallarda Asperger sindromlu uşaqlar çox yaxşı verbal akademik müvəffəqiyyətlərə malik olurlar. Asperger sindromlu uşaqlar və yeniyetmələr ciddi qaydaya və işə mühafizəkarcasına yanaşırlar ki, bu da onlar üçün çətinlik mənşəyinə səbəb olur. Diqqətin çatışmazlığı hiperaktiv sindromu (DÇHS) autistik spektirli pozuntularda tez-tez rast qəlinir.

Asperger sindromu - Qeyri-müəyyən nozologiyalı (nosos- yunanca xəstəlik) pozğunluq olub, autizm üçün xarakterik olan və maraq və məşğuliyyətin məhdudluğu, stereotipliyi və monotonluğu ilə birgə rast gəlinən keyfiyyət anomaliyaları ilə xarakterizə olunur.

Asperger sindromu verbal ünsiyyət bacarıqları yaxşı inkişaf etməyən, yaşıdları ilə empatya qura bilməyən və fiziki olaraq hərəkət və davranışlarında koordinasiya, tarazlıq və nizamlılığı qoruya bilməyən uşaqları ayırd etimişdir. Asperger sindiromunda motor inkişafın ləngiməsi müşahidə olunur. Belə uşaqlar velosipedə minmə, topu tutma, banka qapağı açma, hündürə dırmaşmaq kimi bacarıqlar zəif olur. Tez-tez vurub tökmələr, düz və tərpənmədən yerişləri, qəribə duruşları, zəif əl bacarıqları, nəzərə çarpacaq dərəcədə əl-göz koordinasyası pozulmuş olur. Motor bacarıqlarındakı bu əlamətlər yaşca daha böyük autizimli digər uşaqlarda da müşahidə olunur. Szatmari və başqaları (1990) digər yüksək autizm əlamətləri olan şəxslərin əl

sürəti və bacarıqlarının Asperget sindiromlu uşaqlardan daha yaxşı olduğu göstərilir. Autizimli sindromlu uşaqlar daha bacarıqlı olması, Asperger sindromlu uşaqların isə zəkalarının daha çox yaxşı olması açıqlanmışdır. Autizimli uşaqlar əsasən danışmadan əvvəl yeriyir, Asperget sindromlu uşaqlar isə yerimədən əvvəl danışmağa başladıqları müəyyən olunmuşdur.

Ancaq yüksək funksiyalı autizmli uşaqların zəkası yüksək olsa da nitqin inkişafında gecikmə ola bilər. Asperger sindromunda nitqin inkişafında axıcılıq müşahidə olunmur (Klin və Volkmar 1995, Gillberg,1991) Asperger sindromlu uşaqların əksəryyətində çox yaxşı sözlü anlama bacarığının və beş yaşına çatdıqda normal nitq bacarığının olması ilə birlikdə anlama- qavrama və dildən istifadə etmə ilə bağlı problemlərə rast gəlmək mümkündür (Kugler 1998). Qeyri- verbal ünsiyyətdə də çətinliklər olur.Van Krevelen (1971) autizmli uşaqlar dilin ünsiyyət funksiyasını qazanmadığını, Asperger sindromu olan uşaqların isə nitqdə informasiyanın tək tərəfli ötürülməsi fikrini bildirmişdir. Asperger sindromu olan uşaqlar nəzərə çarpacaq şəkildə nitqində lazımsız sözlər istifadə edir. Bəzi tədqiqatçılar bu əlamətin Asperger sindromu olan uşaqlar üçün əsas əlamət olduğunu deyir. Belə uşaqlar dayanmadan danışma bilir. Nitqləri, ümumən, maraqlandıqları mövzular ilə əlaqəlidir. Əsasən dinləyicinin maraqlanıb-maraqlanmadığı, söhbəti təkib edib-etmədiyinə fikir vermirlər. Uzun monoloq dinləyərkən bir nətiycəyə gələ bilməzlər. Söhbətin məntiqli və ya anlaşıqlı olmasını dərk etməkdə çətinlik çəkirlər (Klin Volkmar 1995). Ətraf–mühit haqqında danışır, lakin tutarsızlıq ya da anlamanın itməsi hiss olunur. Nitqində tez-tez tutarsızlıq və kommunikasiyanın olmaması, tək tərəfli və " Mən " mərkəzli olur. Fikir bildirmə və mövzunu dəyişməkdə çətinlik çəkirlər. Asperger sindromlu insanlar daxilən danışarkən də səsli danışırlar. Səsin tonu və intonasiyasının monotonluğu digər autizmli uşaqlarda olduğu kimi olmasa da, nitqdə intonosiya, ton, vurğu, sözlərin birləşməsi, axarlığı, surəti, və cümlənin sonunda səhvlər olur. Tonlama və intonasiya Asperger sindromlu uşaqlarda daha çətin olur. Asperger sindromu olan uşaqlarda digər autizmli uşaqlardan daha yaxşı sözü anlama bacarığının olub-olmadığını dəyərləndirmək üçün aparılan tədqiqatlar müxtəlif nəticələr vermişdir.

Asperger sindromlu uşaqlar digər autizmli uşaqlardan fərqli olaraq ancaq 7 yaş və daha əvvəlki yaşlarda hiss olunur və valideynlər uşağın nitq inkişafı haqqında dolğun fikir söyləyə bilmirlər. Ancaq bununla birlikdə Asperger sindromu ilə digər autizmli uşaqların nitqində, inkişafında gecikməni ayıran elə bir meyar yoxdur. Szatmarı və başqalrı qarşı fikirlərin olmasına baxmayaraq yüngül dərəcədə əqli geriliyi olan şəxslərdə Asperger sindromu əlamətlərinin ola biləcəyi fikrini irəli sürmüşlər. Klinik dəyərləndirmədə zəka 70-60-ın altındadırsa Asperger sindromu diaqnozu nadir halıda qoyulur. (Gillberg 1998). Əsasən digər autizmli uşaqlarla müqayisədə Asperger sindromunda sözlü zəka (intellekt)in yüksək, əməli təfəkkür və ya uyğun intellektin aşağı səviyyədə olduğu irəli sürülmüşdür (Kugler 1998). Bu vəziyyət yüksək funksiyalı autizmdə tam əksinədir. Sözlü zəka (intellekt) dedikdə

nitqin ifadə olunması deyildir. Onun praqramatik (yəni öyrədici, tətbiq edici) sahələrdə aşağı inkişafını göstərir (Gillberg 1998). İntellekti 70 və daha yuxarı olan autist şəxslərlə tədqiqat apararkən Asperger sindromu olan insanların intellektinin yüksək olduğu müəyyən olunmuşdur.

Şəxsiyyətin formalaşmasında emosional-iradi sfera əsas rol oynayır. İradə davranışın və düşüncənin ixtiyari şəkildə idarə olunmasıdır. Emosiyalar isə birbaşa bu prosesə təsir edir. Emosiyalar insanın ehtiyac və tələbatı ilə bağlıdır. Asperger sindromu normal koqnitiv və nitq inkişafı fonunda streotip, təkrarlanan hərəkətlərlə müşaiyət olunan sosial davranışın pozulmasıdır. Oğlanlarda qızlara nisbətən 8 dəfə çox olur (8:1). Simpton əsasən irəli yaşlara qədər qalır. İş qabiliyyəti olan, ancaq digər insanlarla şəxsiyyətlərarası münasibətə daxil olanda çətinlik çəkirlər, nadir halda nigaha daxil olurlar. Belə insanlar 3 yaşa qədər tipik inkişaf editr. Bu yaşdan sonra yaşıdları və yaşlılarla ünsiyyətdə problemlər yaranır. Nitqi monoton olur, maraq dairəsi streotipləşir. Davranışında emplusivlik, affekt. Bəzi uşaqlarda özünə və ətrafdakılara qarşı qeyri-adi dərketmə müşahidə olunur. Məntiqi təfəkkür nisbətətn yaxşı inkişaf edir, lakin bilik əldə etmə müəyyən çərçivədədir. İxtiyari və qeyri ixtiyari diqqət yaxşı inkişaf etməyib.

Mimikası sönük, gözləri sanki boşluğa baxır. Matorikası zəif, hərəkətləri ritmik deyil, streotipdir. Nitqin kommunikativ funksiyası zəifləyib, özünə məxsus intonasiya, ritm və tempə malik, sakit, lakin kəskin olur, evə bağlıdır, lakin yaxınlarına yox. Ünsiyyətdə və sosial qarşılıqlı təsir sahəsində pozuntu müşahidə olunur ( erkən autizmdən fərqli olaraq), məhdud streotip davranış və təlimə maraq ümumi nitqin və koqnitiv inkişafın ləngiməsi olur. Asperger sindromundan əziyyət çəkən uşaqla təması olan hər bir şəxs (məktəb personalı, həm də həmyaşıdları), bu uşaqların xüsusiyyətləri və təhsil tələbatları haqqında məlumatlı olmalıdırlar. Asperger sindromundan əziyyət çəkən uşaqlar daxil olan məlumatların işlənməsində çətinlik çəkirlər. Onların mənimsəmə, informasiyanı saxlama və ondan istifadə etmək qabiliyyətləri, normal uşaqlardan xeyli fərqlənir.

Asperger sindromu uşaqlarda həyəcanın idarə olunması. Öz çətinliklərimizin öhdəsindən gəlmək üçün emosiyalarımızı nəzarətdə saxlamaq lazımdır, əksi halda onlar depressiya, həyəcan, qəzəbin yaranmasına səbəb olacaqdır. Bu isə həyat maneələri dəf etmək üçün ağıl və məntiqdən istifadə etməyə imkan verməyəcək. Əgər emosiyalara nəzarət etməsək, onda problemi müzakirə etmək mümkün deyil. Axı məhz dil vasitəsilə biz öz davranışına nəzarət edirik. Asperger sindromulu uşaq üçün həyəcan - əsas ilkin emosiyadır. Demək olar ki, bu çox zaman ikincili emosiya olan qəzəbə, təcavüzə, ağlamağa və digər pozuntulara səbəb olur. Həyəcanı təkcə davranışın təzahürü və qeyri verbal yol ilə tapmaq mümkün deyil. Uşaq öz narahatlığını tərslik, söyüş, ağlamaq,stolun altına girmək və s. vasitələrlə nümayiş edə bilər. Bunların hamısı həyəcanın təzahürləridir.

Asperger sindromunda ən çox müşahidə olunan əlamət məhdud maraq dairəsi olmasıdır.Asperger sindromu olanlar ,öz maraq dairələrinə uyğun olan

informasiyanın ilk sosial münasibətdə olduğu insana ötürmək istəyirlər.Məhdud maraq dairəsini uşaqlıq dövründə ayırd etmək çətindir.Çünki iki və daha çox maraq göstərdiyi sahələr ola bilər. Asperger sindromlu uşaqlar yüksək funksiyalı autist uşaqlar kimi rutin (təkrarlanan) hərəkətlər edən uşaqlar olaraq bilinsə də Asperger sindromlu uşaqlar əsasən erkən uşaqlıq dövründən maraqlarını paylaşan uşaqlar olaraq bilinirlər (Kugler 1998). Asperger sindromlu uşaqlarda digər autizmli uşaqlara nisbətən anormal məşğuliyyətlər və maraqlar daha çox görünür. Bu məşğul olduqlarını digər insanlara çatdırmaqda bacarıqlı olmaq Asperger sindromunun xüsusiyyətidir. Asperger sindromuna hiportrofik (əzələ inkişafı) bacarıqların olması, məhdud maraq və bir çox sahələrdə duyarsızlığın olması əlamətlərini aid edilir. Asperger sindromlu uşaqlarda semantik praqmatik pozuntular. Bu uşaqlar anlamada çətinlik çəkir. Exololiya, kasad lüğət və jestlərdən istifadə edə bilməmək. Bu uşaqlarda erkən yaşda davranış pozuntularına da rast gəlinir.

Asperger sindromu olan şəxslərdə ümumi intellektual səviyyə və əməli intellekt səviyyə ( təqdim etmə) digər autizmli insanlardan gah yuxarı, gah aşağı olur. Bu da müəyyən kriteriyaları müəyyənləşdirməyə maneə olur. Xüsusi bacarıqlar arasında sözlü mühakimə bacarığı digər autizmli uşaqlardan daha yaxşı inkişaf etmişdir. Bununla birlikdə məkan bacarıqları yaxşı inkişaf etməmişdir.Asperger sindromlu uşaqlar hərfləri və sayları anlamasalar da səsləndirə bilirlər. Yüksək funksiyalı autist pozulma olan şəxslərdə Rorschach testi edərək qavrama və kornitiv bacarıqlar müəyyən olunur. Asperger sindromu olan şəxslərdə isə qarışıq düşünmə və daxili yaşantılara daha çox mərkəzlişdikləri irəli sürülmüşdür. Asperger sindromlu uşqlarda isə erkən uşaqlıq dövründə öz sevgisini göstərən və maraqlarını paylaşan olurlar. Bu əlamətlərin yeniyetməlik yaşına qədər qaldığı müşahidə olunur.Asperger sindromlu uşaqlar dostluk etməyə və insanlarla tanış olmaya daha istəkli kimi görünsələr də sosial və emosional olarak digər insanlarla əlaqə qurma bacarıqları olmadığından onlara qarşı qəribə və uygunsuz yanaşırlar. Van Krevelen autistik uşaqların öz dünyalarında yaşadıklarını və başqa insanlar yoxmuşkimi davrandıklarını, Asperger sindromu olan insanların isə öz tərzində bizim dünyamız da yaşadıklarını və diğer insanların fərqində olduğunu, ancak onlardan qaçdıqlarını bildirmişdir.Asperger sindromlu uşaqlar digər autistik uşaqlarda olan yoldaşlıq etmə və insanlarla tanış olmaga daha maraqlı görünə bilərlər ancak sosial və emosional olaraq diğer insanlarla yaxşı əlaqə qura bilmədikləri üçün qəribə və uyumsuz münasibet o qururlar.

## ƏDƏBİYYAT

**1.** Qafarov T.Ə., Əliyev N.A., Əliyev Z.N. Autizm spektrli pozuntular (dərslik), Bakı, 2018

2. Asperger Sendromlu ve Yüksek İşlevli Otistik Çocukların Eğitimden Yararlanma Düzeyler.Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Özel Eğitim Dergisi 2007, 8 (2) 23-43
3. Asperger Sendromu ve Yüksek Fonksiyonlu Otizmin Tanısal Ayırımı.Özgür YORBIK, Hakan ERMAN, Teoman SÖHMEN . Klinik psikiyatry 2000;3 s.102-110.
4. Erişkinde Asperger Sendromu ve Bipolar Bozukluk Birlikteliği: Bir Olgu Sunumu. Hamiyet İpek Toz, Nur Öztürk, Ürün Özer, Güliz Özgen. February 03, 2015
5. Erişkinlikte Asperger Sendromu: Bir Gözden Geçirme .Ali Evren Tufan, İbrahim Durukan, Umut Işık./Journal of Clinical and Analytical Med. 152-156
6. Özəl eğitim və rehabilitasyon merkezi yaygın gelişimsel bozukluklar destek eğitim programı, Ankara, 2008
7. Otizmde eğitim, terapi ve tedavi yöntəmləri, Tohum otizmvaktı, 2012
8. Лебединска К.С, Николска О.С.- Диагностика раннего детского аутизма

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur**

**UOT 376**

**M.N.Abdullayeva**
laborant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
e-mail: 85melahet@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARLA İNKLÜZİV TƏHSİLİN TƏŞKİLİ YOLLARI

***Açar sözlər**: xüsusi qayğıya ehtiyacı olan uşaq, davranış, mühit, xüsusi təhsil, məktəbəqədər yaşlı uşaqlar*

İnklüziv təhsil uşaqların fiziki, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə birgə təhsilə cəlb edilməsidir.”Əlillərin hüquqları haqqında” Konvensiyanın 24-cü maddəsinə əsasən, əlilliyi olan bütün şəxslər digər vətəndaşlar kimi təhsil almaq hüququna malikdirlər.

Azərbaycanda Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bir sıra addımlar atılmışdır. İlk növbədə İnklüziv təhsil haqqında proqram işlənilib hazırlanmışdır. Sözü gedən proqram 2005-2009-cu illərdə işlənərək hökumətə təqdim edilmiş və 2005-ci il fevralın 3-də Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar təhsil müəssisələrində normal uşaqlarla birgə təhsil alaraq özlərini cəmiyyətin bərabərhüquqlu nümayəndəsi kimi hiss edir və onlarda motivasiya yaradır.

**М.Н.Абдуллаева**

# ПУТИ ОРГАНИЗАЦИИ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова**: дети с особыми потребностями, поведение, окружающая среда, специальное образование, дети дошкольного возраста*

Инклюзивное образование является вопросом участия со своими сверстниками, независимо от их физических, интеллектуальных и других характеристик». Согласно статье 24 Конвенции о правах инвалидов инвалиды имеют право на образование в качестве других граждан. Инклюзивное образование является вопросом участия со своими сверстниками, независимо от их физических, интеллектуальных и других

характеристик». Согласно статье 24 Конвенции о правах инвалидов инвалиды имеют право на образование в качестве других граждан.

В Азербайджане был сделан ряд улучшений для детей с особыми потребностями. Прежде всего, была разработана программа инклюзивного образования. Программа была разработана и представлена правительству в 2005-2009 годах и была принята Кабинетом министров 3 февраля 2005 года. Дети с особыми потребностями должны обучаться вместе с нормальными детьми в учебных заведениях и чувствовать себя равными членами сообщества и мотивировать их.

**M.N.Abdullayeva**

## WAYS OF ORGANIZING INCLUSIVE EDUCATION IN PRESCHOOL CHILDREN

***Key words:*** *children with special needs, behavior, environment, special education, pre-school children*

Inclusive education is involvement in education with their peers, regardless of their physical, intellectual, or other characteristics.In accordance with Article 24 of the Convention on the Rights of Persons with Disabilities, persons with disabilities have the right to education as other citizens.
A number of improvements have been made in Azerbaijan for children with special needs. First of all, an inclusive education program has been developed. The program was developed and submitted to the government in 2005-2009 and was adopted by the Cabinet of Ministers on February 3, 2005. Children with special needs need to be educated together with normal children in educational institutions and feel themselves as equal members of the community and motivate them.

İnklüziv təhsil uşaqların fiziki, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə birgə təhsilə cəlb edilməsidir."Əlillərin hüquqları haqqında" Konvensiyanın 24-cü maddəsinə əsasən, əlilliyi olan bütun şəxslər digər vətəndaşlar kimi təhsil almaq hüququna malikdirlər.

Azərbaycanda Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bir sıra addımlar atılmışdır. İlk növbədə İnklüziv təhsil haqqında proqram işlənilib hazırlanmışdır. Sözü gedən proqram 2005-2009-cu illərdə işlənərək hökumətə təqdim edilmiş və 2005-ci il fevralın 3-də Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar təhsil müəssisələrində normal uşaqlarla birgə təhsil alaraq özlərini cəmiyyətin bərabərhüquqlu nümayəndəsi kimi hiss edir və onlarda motivasiya yaradır.

"Ölkəmizdə məktəbəqədər təhsilin yüksək səviyyədə olması üçün

dövlətimiz kompleks tədbirlər həyata keçirərək Təhsil Nazirliyində Dövlət Proqranı hazırlamışdır. Azərbaycan Respublikasının Prezidentinin 12 aprel 2007-ci il tarixli, 2089 saylı Sərəncamı ilə "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi proqramı (2007-2010) təsdiq edilmişdir. Proqramda müəssisələrin maddi-texniki bazanın möhkəmləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi, kadr təminatının yaxşılaşdırılması, yeni kurrikulumun hazırlanması, 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi və həmçinin İnklüziv təhsil öz əksini tapmışdır. Bununla da İnklüziv təhsilin inkişafı ilə bağlı yeni dövr başlanmışdır.

26 fevral 2018-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları»nda xüsusi məktəbəqədər təhsilin məzmununda istifadə ediləcək didaktik prinsiplər müəyyənləşdirilir: Bunlar: korreksiyaedici təlim-tərbiyə, inkişafyönlülük, azərbaycançılıq, müxtəlifliyin qəbul olunması və s-dir. Eyni zamanda burada təhsilin məzmunu müəyyənləşdirilərkən sağlamlıq imkanları məhdud uşaqların potensial imkanlarını və yaşını, istək və maraqlarını nəzərə alaraq, onların əqli, fiziki, sosial, emosional və nitq qabiliyyətlərini inkişaf etdirməklə öyrənmə mühitinin yaradılması, uşağın sosial mühitdə və cəmiyyətdə səmərəli şəkildə yaşamasına imkan verən fərdi sosial və mənəvi keyfiyyətlərin formalaşdırılması və s. də nəzərə alınır: Eləcə də xüsusi məktəbəqədər təhsilin yaş səviyyələrinə uyğun inkişaf sahələri üzrə ümumi təlimin nəticələri də verilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti«Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları»nın təsdiq edilməsi haqqında qərarı ilə 7.2. maddəsinə əsasən Xüsusi məktəbəqədər təhsil korreksiyaedici istiqamətli olmalıdır. Bu Standartların 6.1-ci bəndində göstərilən sahələrin inkişaf etdirilməsi sağlamlıq imkanları məhdud uşaqların kateqoriyasının, yaş və fərdi inkişaf səviyyəsinin, potensial və kompensator imkanlarının və «gələcək inkişaf zonasının» nəzərə alınmasını tələb edir.

XQEU uşaqlara erkən yaş dövründə xüsusi xidmətlər göstərilməlidir, lakin bu o demək deyil ki, onların təhsili xüsusi çərçivəli proqram əsasında olmalıdır. Bu xidmətlər məktəbəqədər yaş dövründən başlanmalıdır. Bu tipli uşaqların qrupa daxil olması həm uşaqlar, həm tərbiyəçi, həm də valideynlər üçün çətin andır. Valideynlər böyük ümüdlərlə mütəxəssisə arxalanaraq övladlarını mühitə, kollektivə buraxır və müşahidə edirlər. Uşaq yeni mühitə daxil olmaqla yeni rejimə, davranış qaydalarına yiyələnir, həmyaşıdları ilə tanış olur. Bu proses tədricən baş verir, yəni qrupa daxil olmazdan əvvəl valideyn uşaqla birlikdə bağça və qrupla tanış olur. Tərbiyəçi və valideyn münasibətlərinin düzgün qurulması üçün evdə görüşlər təşkil edilir. Uşağı tədricən alışdırmaq məqsədilə qupda ilk zamanlar çox qısa müddət qala bilər. Bağçada qalma müddəti tədricən uzadılaraq yavaş-yavaş uşağın kollektivə adaptasiyasına nail

olunur. XQEU-ın anası qrupda gün ərzində həm qısa, həm də uzun müddət qala bilər. İndividual olaraq uşaq haqqında geniş məlumat almaq üçün müşahidənin əhəmiyyəti böyükdür. Tərbiyəçi uşağı müşahidə edərək onun təlim bacarıqları və qabiliyyətləri haqqında məlumat toplayır. Tərbiyəçilər öz simalarında elə nümunə göstərməlidirlər ki, digər uşaqlar XQEU-ı qəbul etsinlər.

Bağçada XQEU-lu uşaqlara pedaqoqla yanaşı psixoloji xidmətin də böyük əhəmiyyəti var. Bu xidmət təkcə uşağa yox, valideynə də lazimdır. Hər hansı problemi həll etmək üçün XQE uşağın valideyni ilə yanaşı tipik uşağın valideyni ilə də söhbətlər aparılmalıdır. Başa salmaq lazımdır ki, həyata gələn hər bir insan fiziki və ya əqli cəhətdən problemi olsa da onlar da cəmiyyətin bərabərhuquqlu üzvüdürlər. Onların da diqqət, qayğı, təhsilalma, sosiallaşma kimi hüquqları var və onları cəmiyyətdən tədric etmək olmaz.

Oyun zamanı tərbiyəçilər uşaqlara müxtəlif psixoloji köməklik göstərə bilərlər. Situasiyadan asılı olaraq ünsiyyət vərdişləri aşılamaq, özünənəzarət, emosional hisslərini cilovlamq, fikir formalaşdırmaq, psixoloji gərginliyi aradan qaldırmaq və uşağın potensialını inkişaf etdirmək.

Xüsusi məktəbəqədər təhsil müəssisəsində qruplar üzrə uşaqların sayı aşağıdakı kimi müəyyənləşdirilir:

| | 1-3 yaşadək | 3-7 yaşadək |
|---|---|---|
| kor uşaqlar | 6 | 6 |
| zəifgörən, çəpgöz və ambliopiyalı uşaqlar | 6 | 6 |
| kar uşaqlar | 6 | 6 |
| zəifeşidən uşaqlar | 6 | 8 |
| nitqi ümumən inkişaf etməyən uşaqlar | 6 | 10 |
| kəkələyən uşaqlar | - | 10 |
| nitqi fonetik cəhətdən inkişaf etməyən uşaqlar | - | 12 |
| əqli cəhətdən geri qalan uşaqlar | 6 | 6 |
| dayaq-hərəkət aparatının funksiyalarının pozuntuları olan uşaqlar | 6 | 6 |
| mürəkkəb çatışmazlıqları olan uşaqlar | - | 6 |

* *Azərbaycan Respublikası Nazirlər Kabinetinin2018-ci il 26 fevral tarixli 62 nömrəli qərara istinadən*

Emosional şəraitin yaradılması ilə uşaqda özünəinam hissi yaranır və onun uğur qazanmasına stimul verir.

Emosional narahatlıqlara malik olan uşaqlar ətrafdakılarla ünsiyyət zamanı bəzi çətinliklərlə üzləşdiyinə görə onlarda aqressiv və destruktiv davranış formaları meydana çıxmasına səbəb olur, bu da ətrafdakılarda gülüş doğurur. Erkən yaş dövründə yaradılmayan özünəinam hissi sonra bir sıra problemlərə gətirib çıxarır. XQEU-lu uşaq yeni sosial davranış tiplərini yaşıdlarını təqlid etməklə öyrənir. Bu zaman yaxşı nümunənin yaradılması tərbiyəçidən asılıdır. Nəticə etibarilə İnklüziv bağçanın əsas məqsədlərindən biri emosional baxımdan əlverişli mühitin yaradılmasıdır ki, XQEU-u uşaq digər uşaqlarla ünsiyyəti zamanı problem yaşamasın.

Ümumilikdə götürdükdə isə inklüziv təhsil XQEU-ın hərtərəfli inkişaf etdirilməsi, sosial mühitə inteqrasiyası, eyni zamanda bu uşaqların valideynlərinin maarifləndirilməsinə və bu sahədə çalışan müəllimlərin metodik hazırlığını inkişaf etdirilməsinə xidmət edir.

## ƏDƏBİYYAT

1. İnklüziv təhsil “Məktəbəqədər təhsil pilləsi üçünmütodik vəsait”, Ülviyyə Mikayılova, L.Şərəfxanova, D.İlyasova, və d.Bakı-2011
2. İnklüziv təhsil .Korreksion pedaqogika. N.T.Hüseynova. Bakı 2014
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti.«Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları»nın təsdiq edilməsi haqqında qərar № 62
4. 2018-2024-cü il inklüziv təhsilin inkişafı üzrə dövlət proqramı.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 24.09.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.3.016:502**

**A.Ş.Hüseynova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
e-mail: afina.huseynova@gmail.com

# UŞAQLARIN HƏRTƏRƏFLİ İNKİŞAFINA ƏTRAF ALƏMLƏ TANIŞLIĞIN TƏSİRİ

***Açar sözlər:*** *təbiət; ətraf mühit; təbiətə məhəbbət; estetik hiss; formalaşma*

Məktəbəqədər yaş dövründə uşaqlarda təbiətə məhəbbət hissinin formalaşdırılması olduqca vacibdir.Onlar üçün ilk sevinc, həzz, estetik hiss mənbəyi təbiətlə tanışlıqdır. Buna görə də uşaqlarda təkcə gözəlliyi sevib, ondan zövq almaq hisslərini  deyil, onları qorumaq hissini də aşılamaq lazımdır. Bu proses nə qədər çətin olsa da tərbiyəçi ona nail olmağa çalışmalıdır. Yaddan çıxarmamalıdır ki,uşaqlıq dövründə onlarda təbiətə düzgün münasibətin formallaşdırılması onların yaddaşında silinməz izlər buraxır və uşaqların hərtərəfli inkişafına mühüm təsir göstərir.

**А.Ш.Гусейнова**

# ВЛИЯНИЕ ОЗНАКОМЛЕНИЯ С ОКРУЖАЮЩИМ МИРОМ НА ВСЕСТОРОННЕЕ РАЗВИТИЕ ДЕТЕЙ

***Ключевые слова:*** *природа; окружающая среда; любовь к природе; эстетическое чувство; формирование*

В дошкольном возрасте  у детей важно формировать чувство любви к природе. Первое знакомство с природой это их радость, удовольствие и эстетическое чувство. Вот почему детям нужно не только любить красоту, но и наслаждаться чувством защиты. Воспитатель должен заботиться об этом, если даже это сложно. Не следует забывать, что формализация правильного отношения к природе в детстве оставляет неизгладимый отпечаток в их памяти и оказывает значительное влияние на всестороннее развитие детей.

**A.Sh.Huseynova**

## THE EFFECT OF THE DEVELOPMENT OF CHILDREN ACQUAINTANCE WITH THE OUTSIDE WORLD

***Key words:*** *nature; environment; love to nature; aesthetic feel; formation*

In preschool age, it is important for children to feel the sense of nature in nature. It is their first acquaintance with the nature of the joy, joy, and aesthetic feelings. That's why children need not only love beauty but also enjoy the sense of protecting them. The harder it is, the caregiver should try to achieve it. It should not be forgotten that the formalization of the right attitude towards nature during childhood leaves an indelible imprint on their memory and has a significant impact on the comprehensive development of children

Uşağın sosial fəallığı təmin etməkdə əsas vasitələrdən biri olan ətraf aləmi dərk etməsi və təbiətlə tanışlıqdır. Lakin məktəbəqədər yaş dövründə təbiətlə uşaqları tanış etmək, ona məhəbbət hissini formalaşdırmaq çətin məsələdir. Çünki onlar təbiətə məhəbbət məhfumunu tam mənasında dərk edə bilmirlər. Böyük rus pedaqoqu K.D.Uşinski deyirdi: "Təbiət insanın tərbiyəsində ən qüdrətli amillərdən biridir və dəqiq tərbiyə bu amilin iştirakı olmadığı təqdirdə quru, birtərəfli və xoşagəlməyən süniliyə malik olacaqdır. Çöl çiçəyini üzmədən, geniş torpaq üzərindəki otları tapdalamadan böyüyən uşaq yazıqdır. O, uşaq heç bir zaman insan ruhunun qabil olduğu dolğunluq və tezliklə inkişaf edə bilməz. Onun inkişafında qapalı binanın boğucu havasının verdiyi təsir hiss olunacaqdır".

Doğrudan da təbiət insanın ilk tərbiyəçisi, ilk müəllimidir. O, gözəllik və ilham mənbəyidir.

Təbiət münbit torpağı, bol günəşi, şəfa qaynağı olan istili-soyuq suları, ətirli havanı yurdumuza səxavətlə vermişdir. Respublikamız gözəlliklər diyarıdır. Turizm fəaliyyəti prosesində, ekskursiyalar zamanı uşaqlar torpaqlarımızın fauna və florası haqqında xalqımızın yaratdığı əfsanələri xatırlayır və hər bir çiçəyin, gülün insanlara nə kimi fayda verəcəyini öyrənirlər. Onlar belə bir həqiqəti də dərk etməlidirlər ki, ata-babalarımız övladlarına təbiətin ən gözəl çiçəklərinin, quşların və heyvanların adlarını vermişlər.

İnsanı əhatə edən hər nə varsa ətraf aləmə aiddir. Müəyyən mənada insanı əhatə edən mühitin təsnifatını vermək olar.Bu təsnifatlardan birində bizi əhatə edən mühit:təbii,sosial və texnogen olaraq verilir.

Təbii mühitə təbiətin bütün canlı və cansız obyektləri daxildir: bitkilər, heyvanlar, okeanlar, torpaq, dağlar,planetlər,ulduzlar vəs.

Sosial mühitə bizi əhatə edən insanlar daxildir.

Texnogen dedikdə isə insanın yaratdığı obyektlər başa düsülür.Digər mühitləri də misal göstərmək olar:mədəni,informasiya.

Ətraf mühit canlı varlıqların enerji, maddələr,informasiya mübadiləsi etdiyi yaşayış mühitidir.Ətraf aləm uşaqlara təbiyət haqqında,ictimai mühit,insan həyatı və insanın ozü haqqında hərtərəfli biliklər verir.

Məktəbəqədər yaşlı uşaqlar o zaman hər hansı problemin həllində iştirak etməyə can atırlar ki, problemin bir tərəfi onlar üçün tanış olsun. Əgər problemin iki tərəfi də uşaq üçün qaranlıqdırsa, uşaq problemin həllində iştirak etmək istəməyəcək və yaxud ən yaxşı halda onunla maraqlanmaq istəməyəcəkdir. Tərbiyəçi də uşağa yeni biliyi məcburi qəbul etdirmək istəməməlidir. Məsələn, tərbiyəçi uşaqlara bildirir ki, meyvə uşaqlara lazımdır. Nə üçün? Bu haqda söhbət apardıqdan sonra uşaqların gözü qarşısında müxtəlif meyvələrdən (uşaqların zövqünə görə) şirə hazırlaya, onu növbə ilə uşaqlara təklif edə bilər. Sonra proses barədə onların fikrini öyrənə bilər. Daha sonda tərbiyəçi fikirlərini əsaslandıra bilər və meyvələrin bol olması üçün təbiətə qayğılı münasibətin vacibliyini diqqət mərkəzində saxlayar. Bu isə humanist tərbiyənin başlanğıcıdır, hansı ki, bununla tolerantlığın, empatiyanın, altruistlik (alicənablıq) kimi keyfiyyətlərin əsasını qoymaq olar.

Uşaq hələ erkən yaşlarından yaşlıların bir-birinə və ətraf mühitə əxlaqi-etik münasibətlərinin şahidi olmalıdır. Uşağın yaradıcı inkişafının, dərk etmə aktivliyinin, yüksək insani keyfiyyətlərini (dostluq, insanlara sevgi, bütün canlılara qoruyucu münasibət, ehtiyacı olanlara kömək) istiqamətləndirilməsi tamamilə pedoqoji prosesdən keçir.

Uşaqların erkən yaş dövründə mutərəqqi inkişafını pedaqoji şərtləri hansılardır?Bu ən əvvəl uşaqların ətraf muhitinin təşkilidir:həyati ehtiyaclarının (qida,istilik,hərəki aktivlik və s.), uşaqların inkişafını təmin edəcək avadanliqların (mebel, dərs ləvazimatları,oyuncaqlar,lazımı məişət əşyaları və s.)təmin olunmasıdır.Ətraf aləm haqqında ilkin biliklər uşaqlarda yaxın məkana bələdləşmə prosesinde yaranır.Bunagörədəerkən uşaqlıq dövründə əşya muhitinin təşkilinin əhəmiyyəti böyükdür.Usağın ilk növbədə qarşılaşdığı və fərdi xüsusiyyətlərinin,intellektinin inkişaf etməyə başladığı ətraf məkanda əşyavi dünyanı seçmək lazımdır.

Böyüklərlə ünsiyyət qurduqca və özünün aktiv ətraf aləmini mənimsədikcə uşaq psixofizioloji rifaha çatır.Beləliklə,”psixoloji rifah”nəinki böyüklərin səyinin nəticəsidir,həmdə uşağın aktivliyinin şərtikimi də əmələ gəlir.Ona görədə uşağı əhatə edən əşyavi dünyası elə təşkil olunmalıdırki,o, əlçatan vasitələrin köməyilə hər yaş dövründə öz mümkün kəşflərinin sevincini hiss və dərk edə bilsin.

Artıq böyük və məktəbəhazırlıq qrupunda uşaqlar quş, ağac, gül və balıqların da təbiətin bir hissəsi olduğunu, onların da bütövlükdə götürdükdə təbiət adlandığını bilirlər. Bu onların təfəkkür tərzindəki inkişafla bağlıdır.

Təbiətə qayğılı münasibət bu gün bəşəriyyətin ən aktual problemlərindəndir. Təbiətə qayğı onun ən ali varlığı olan insana qayğı deməkdir. Uşaqları başa salmaq olar ki, təbiət olmasa insan da olmaz.Həmçinin təbiətə biganə münasibətdən birinci

insan zərər çəkəcəkdir.

Uşaqlar vətənimizi qarış-qarış gəzməklə yorulmamalı, maddi-mədəniyyət abidələrinin tarixini öyrənməklə kifayətlənməməlidirlər.Eyni zamanda, uşaqlar təbiətin özünü, onun fauna və florasının sirlərini öyrənməyə çalışmalıdırlar.

Azərbaycanın əsrarəngiz gözəlliklərlə zəngin təbiəti canlı bir kitabdır.Hər bir çiçək, hər bir gül, dağlar, dərələr, çaylar, göllər, meşələr, geniş düzənliklər bu nəhəng təbiət kitabının ayrı-ayrı səhifələrini təşkil edir. Uşaqlar belə bir kitabın hər səhifəsini səylə oxumalı, onun sirlərinə bələd olmağa çalışmalıdırlar.

Görkəmli pedaqoq V.A.Suxomlinski yazırdı ki, "Təbiət gözəlliyi yeniyetmə üçün hər şeydən əvvəl estetik qavrama mədəniyyəti məktəbidir.Təbiət gözəlliyi hisslərin zərifliyini tərbiyə edir, insanın gözəlliyini duymağa kömək edir. Mən öz tərbiyə vəzifəmi onda gördüm ki, uşaqlıq illərində yeniyetmə yaşında təbiətlə ünsiyyət prosesində qazanılmış emosional-estetik zənginliklər mənəvi həyata ən dərin insanı tələblərdən biri kimi daxil olmuş olsun, təbiət gözəlliyinin dərk edilməsi uşaqlığa nisbətən öz-özündə olan gözəlliyi, ucalığı daha dərindən dərk etməyə, insan ləyaqətini təsdiq etməyə kömək etmiş olsun. Oğlanlar və qızlar təbiət gözəlliyinin çalarlarını dərk edərək, mənəvi qüvvələrin şən dolğunluğunu hiss edir, estetik zənginliklərinin yeni-yeni mənbələrinin dərk edilməsi istəyində olurlar".

Müəllim-tərbiyçilərin, valideynlərin başlıca vəzifələrindən biri də uşaqlarda doğma yurda, onun flora və faunasına məhəbbət tərbiyə etməkdən ibarətdir.

Müasir şəraitdə uşaqlarda ekoloji mədəniyyətin formalaşması sahəsində müvafiq işlər aparılır.Ekoloji mədəniyyətin mahiyyətinin uşaqlar tərəfindən düzgün qiymətləndirilməsi üçün onların vaxtaşırı təbiətin seyrinə çıxarılması gözəl vasitədir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Pespublikasında Məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil texnologiyaları Mərkəzinin nəşriyyatı, 2014, 95 s.
2. L.Cəfərova. Məktəbəqədər yaş dövründə təbiətlə tanışlıq. Bakı, 2007.
3. Mursaqulova R., Əliyeva Ş. Bağça yaşlı uşağın təbiətlə tanış edilməsinin metodikası. Bakı, 1993

**Məqalənin redaksiyaya daxil olma tarixi: 20.09.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 371.3**

**A.Əhmədova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: ayshen.ramazanli@gmail.com

# TEXNOLOGİYA MƏŞĞƏLƏLƏRİNDƏ İSTIFADƏ OLUNAN OYUNLAR

***Açar sözlər:*** *məktəbəqədər təhsil, texnoloji biliklər, oyun, oyun-təlim, yaradıcı təxəyyül*

Müasir məktəbəqədər təhsil sisteminin əsas məqsəd və vəzifəsi kiçik yaşlı uşaqları təlim-tərbiyə mühitinə uyğunlaşdırmaq, uşaqların gələcək həyatında əhəmiyyətli olan tərbiyə amilinin əsasının qoyulmasından ibarətdir. Məktəbəqədər təhsil sisteminin obyekti kiçik yaşlı uşaq olduğundan təlim fəaliyyətinin əsas hissəsini oyun təşkil edir. Texnologiya məşğələlərində hər bir uşağın potensial imkanını ortaya çıxarmaq, inkişafyönümlü fəaliyyətini təşkil etməyin ən əsas şərti oyunların düzgün seçilməsidir.

**А.Ахмедова**

## ИГРЫ, ПРИМЕНЯЕМЫЕ НА УРОКАХ ТЕХНОЛОГИИ

***Ключевые слова:*** *дошкольное образование, технологические знания, игра, образовательно-игровой, творческое воображение*

Основная цель и обязанность современной системы дошкольного образования заключается в обеспечении адаптации малолетних детей к образовательно-воспитательной среде, закладке основы фактора воспитания, представляющим важность для будущего детей. Поскольку объектом системы дошкольного образования является малолетний ребенок, основная часть образовательной деятельности составляет игра. На уроках технологии самым главным условием для выявления возможности потенциала каждого ребенка, организации деятельности, направленной на развитие ребенка, является правильный выбор игр.

**A.Ahmedova**

## GAMES APPLICABLE FOR TECHNOLOGY LESSONS

***Key words:*** *preschool education, technological knowledge, game, educational and gaming, creative imagination*

The main goal and duty of the modern system of preschool education is to ensure the adaptation of young children to the educational environment, laying the foundation of the parenting factor being important for the future of children. Since the object of the preschool education system is a young child, the main part of the educational activity is a game. In technology lessons, the most important condition for identifying the potential of each child's potential, as well as for the organization of activities aimed at the development of a child is the right choice of games.

İnsan övladının dünyaya gəldiyi gündən öyrənmə ehtiyacı vardır və ömrünün sonuna qədər davam edir. İnsanın nizamlı öyrənmə cəhdinin təməlləri isə ilk altı yaşdan başlayır. Bu dövrə erkən uşaqlıq dövrü də deyilir. Erkən uşaqlıq dövrünün təlim-tərbiyəsi ailədə başlayır və məktəbəqədər müəssisəyə daxil olmaqla davam edir.

Azərbaycan son zamanlarda məktəbəqədər təhsil sahəsində qəbul edilmiş qanunlar və qərarlar məktəbəqədər təhisilin önəmini artırmış və hər bir uşağın məktəbəqədər müəssisələrdə təhsil almasını təmin etməyə yönəldilmişdir.

Oyun uşaq həyatının akademiyasıdır. Oyun uşaq həyatının bütün dövrləri üçün vacib fəaliyyətdir. Oyun bir uşaq üçün heç zaman boş vaxtın doldurulması üçün olan fəaliyyət deyildir. Uşaqlar oyunu sadəcə xoş vaxt keçirmək və ya məşğul olmaq üçün oynamamalıdır. [1. 120—125 s ]

Oyun uşaq şəxsiyyətinin formlaşdırlmasına xidmət etməlidir. Bu səbəbdən də oyun uşaqlar üçün təbii öyrənmə və əylənmə üsuludur. Uşaqların təbiəti, böyüklərin əmək fəaliyyətini, cəmiyyətdə baş verən hadisələri dərk etmələrində oyunlar, yaradıcı düşünmə qabiliyyətlərinin inkişafında önəmli bir yerə malikidir.

Oyun prosesində uşaqlar maraqlandıqları hadisələri reallaşdırmağa çalışır ki, bu da onların təxəyyülünü inkişaf etdirir. Bu cür təxəyyül gücü uşaqların sonrakı həyatına, insanlara, hadisələrə və özlərinə olan baxışın formalaşmasına şərait yaradır. Uşaq oyunlarının son dərəcə sosial olduğunu söyləyən Piaje, oyunu uşaqlar üçün sosial bir davranış şəkili olaraq göstərməklə və sosial bacarıqların qazandırıldığı bir vasitə olaraq dəyərləndirmişdir. [4.33s]

Uşaq həyatının başlanğıcından etibarən necə hərəkət edəcəyini öyrənməyə başlayır. Bu öyrənmənin əsasında isə təlim durur. Uşaqların ətraf aləmi

öyrənmələrində, həyati bacarıqlara, texnoloji biliklərə texnologiya məşğələlərinin rolu böyükdür. Uşaqların əşyaları, hadisələri qavramaq üçün texnologiya məşğələlərinin xüsusi yeri var. Məktəbəqədər yaşlı uşaqların texnologiya fəaliyyətində ən sevdiyi iş olan kartondan şəkillərin kəsilməsi, plastirindən fiqurların düzəldilməsi, kərpiclərdən, ev, qala düzəltmək və s. kimi işlər həm də onlara zövq verir.

Tərbiyəçi uşaqlara kartondan gül, heyvan yaxud başqa əşyaların hazırlanmasını təklif edir. Uşaq bu tapşırıqları edərkən həmin kəsdikləri şəkil haqqında məlumat toplayır. Öyrəndikləri bilikləri bir-birilə paylaşırlar.

Uşaqların oyun fəaliyyətlərini rəngarəngləşdirmək üçün plastirindən də istifadə edilir. Plastirindən heyvan fiqurları yaxud həndəsi fiqurlar düzəldirlər. Uşaqlar həndəsi fiqurları düzəldərkən sadə riyazi biliklərə də yiyələnmiş olurlar. Tərbiyəçi plastirindən bayraq , gerb düzəltməyi tapşırır ki, bu fəaliyyətlər uşaqları milli, vətənpərvər ruhda böyüməyə yönəldir.

Uşaqları daha müxtəlif fəaliyyətlərlə öyrətmək üçün rəngli kərpiclərdən də istifadə olunur. Rəngli kərpiclərdən ev düzəldərkən uşaqlar yaradıcı düşüncələrini ortaya qoymaqla yanaşı bir—birilə də rəqabət yaradaraq daha yaxşı "ev"i düzəltməyə çalışırlar. [2. 25s ]

Yuxarıda sadaladığımız oyunlar uşaqların zehni və psixoloji inkişafına müsbət təsir edir, kollektivdə işləmək bacarığı inkişaf etdirilir.

## ƏDƏBİYYAT


1. Şəhla Əliyeva "Məktəbəqədər pedaqogika". Bakı, 2010, 179 s.
2. Rəhimova S.Ə Məktəbəqədər yaşlı uşaqların emi fəaliyyətində əməyin rolu // Məktəbəqədər və ibtidai təhsil, 2009 ,№ 3
3. Axundova S.M "Məktəbəqədər yaşlı uşaqların həyatında xalq oyunlarının əhmiyyəti" // Elmi əsərlər məcmuəsi ,№ 4 ,1971]
4. T.Sadıqova, Z.Əliyeva "Mətəbəqədər təhsilin icmal və sxemləri"// "Nərgiz" , Bakı -2010
5. www.bagcam.az
6. www.okuloncesiegitim.com.tr



**Məqalənin redaksiyaya daxil olma tarixi: 20.09.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**A.Əsədova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
e-mail: aysen.esedova.95@bk.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MİLLİ-MƏNƏVİ TƏRBİYƏSİNDƏ BAĞÇANIN AİLƏ İLƏ ƏLBİR İŞİ

***Açar sözlər:*** *ailə tərbiyəsi, birgə fəaliyyət, uşaq bağçası*

Məqalədə uşaqların cəmiyyətə yararlı ahəngdar inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında milli-mənəvi dəyərlərin rolu, əxlaqi və iradi keyfiyyətlərin formalaşması, milli adət-ənənələrimizin uşaqların inkişafına təsiri, uşaqların vətənpərvərlik ruhunda tərbiyəsi məsələləri nəzərdən keçirilir. Ailənin uşağın ilk tərbiyəçisi kimi qəbul edilməsi gələcəkdə təlim-tərbiyə prosesinin məzmunlu qurulması, əlverişli münasibətlərin yaranması üçün vacib amildir. Valideyn və tərbiyəçilərin ümumi səyləri uşaq haqqında məlumatların əldə olunmasına, uşağın davranışı, rəftarı, münasibətləri ilə bağlı fikir və mülahizələrin bölüşdürülməsinə, ən əsası, uşağın böyüməsi və inkişafı üçün daha əlverişli şəraitin yaradılmasına yönəldilir.

**А.Асадова**

# СОТРУДНИЧЕСТВО ДЕТСКОГО САДА И СЕМЬИ В ОБЛАСТИ НАЦИОНАЛЬНОГО И ДУХОВНОГО РАЗВИТИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *семейное образование, совместные действия, детский сад*

В статье рассматриваются вопросы о влиянии национальных духовных ценностей, нравственного воспитания, о воздействии национальных обычаев и традиций, воспитания патриотического духа на развитие ребенка, полезным для общества , и на формирование его как гармонично развитой личности. Признание семьи как первого воспитателя ребенка является важным фактором для структуры содержания образовательного процесса в будущем, для создания благоприятных отношений. Родители и воспитатели совместными усилиями получают информацию о ребенке, делятся мыслями и решениями по поводу поведения ребенка, его отношений, взаимоотношений, а самое главное,

создают более благоприятные условия для роста и развития ребенка.

**A.Asadova**

## COOPERATION OF KINDERGARTEN AND FAMILY IN THE FIELD OF NATIONAL AND SPIRITUAL DEVELOPMENT OF CHILDREN OF PRESCHOOL AGE

***Key words***: *family Education, joint action, preschool*

The article discusses the impact of national spiritual values, moral education, the impact of national customs and traditions, education of the Patriotic spirit on the development of the child, useful for society , and the formation of it as a harmoniously developed personality. Recognition of the family as the first educator of the child is an important factor for the structure of the educational process in the future, to create favorable relations. Parents and care with joint efforts receive information about the child and share their thoughts and solutions about the behavior of the child, his relations, relationships, and most importantly, create a better environment for the growth and development of the child.

Ailə cəmiyyətin özəyidir. O hər bir insanın həyatında xüsusi yer tutur. Ailədə valideynlər və uşaqlar arasında mənəvi bağlılıq var. Ailənin mənəvi mədəniyyəti cəmiyyətin mənəvi mədəniyyətini əks etdirir.

Təcrübə göstərir ki, uşaqların erkən yaşdan millilik ruhunda tərbiyə edilməsi ilk öncə ailədə, sonra isə bağçada həyata keçirilir. Uşaq bağçası və ailə arasında vahidlik prinsipinin gözlənilməsi məqsədə müvafiqdir. Valideynlər uşaq bağçaları ilə əlaqədə olur və onlara dəstək göstərirlər. Uşaqların millilik ruhunda tərbiyə edilməsində valideynlər və pedaqoqlar daim əməkdaşlığı öz müsbət təsirini göstərir. Çünki uşaqların yaşadığı mühit nə qədər milli dəyərlərlə zəngin olsa uşaq daha çox əxlaqi keyfiyyətlərə, mənəvi dəyərlərə yiyələnəcək.

Valideynlər uşaqlarla keçirilən bütün kütləvi tədbirlərdə, təlimdə, problemlərin həllində iştirak etməyə cəlb edilirlər. Valideynlər tərbiyəçilərlə birlikdə uşağın inkişafının stimullaşdırılmasında fəal iştirak edir, səy göstərirlər. Bunun üçün, ilk növbədə, qruplarda mənimsənilən bilik və bacarıqlar ailədə möhkəmləndirilir. Belə bir qarşılıqlı əməkdaşlıq uşağın əqli fəaliyyətinin zənginləşməsinə, özünəinamın yaranmasına, nəticə etibarilə, məktəb həyatına daha rahat uyğunlaşma dövrünü keçməyə təsir göstərir.

Uşaqların ailədə hərtərəfli inkişafının təmin edilməsi, onlara milli-mənəvi və dini dəyərlərin mənimsədilməsi uşaqların cəmiyyətdə xoşbəxt yaşaması üçün

şəraiti yaradır. Ailə cəmiyyətin təməlini möhkəmləndirən və ona dəstək olan əsas faktordur. Hər şeydən əvvəl ailə uşağı cəmiyyət üçün yetişdirməli, ona vətən, millət sevgisini aşılamalıdır.

Ailə ilə uşaq bağçasının birgə fəaliyyətində aşağıdakıların nəzərə alınması məqsədəuyğundur.

1. Tərbiyəçi və valideynlərin uşaqların təlim-tərbiyəsində tərəfdaş olması;
2. Tərbiyəçi və valideynlərin uşaqların məktəbəhazırlıq təhsilinin məqsəd və vəzifələrini bilməsi;
3. Tərbiyəçi və valideynlər tərəfindən uşağa kömək, hörmət və inamın göstərilməsi;
4. Valideynlər üçün vaxtaşırı maarifləndirici seminarların, dəyirmi masaların təşkili.

Valideynlərin maarifləndirilməsi, onların pedaqoji-psixoloji bilik səviyyəsinin, bacarıqlarının və vərdişlərinin artması üçün mühüm əhəmiyyət kəsb edir. Bu, uşaqların şəxsiyyət kimi formalaşdırılmasına və hərtərəfli inkişafını təmin etmək üçün lazımi şərait yaradır.

Məktəbəqədər təhsil müəssisələrinin pedaqoji kollektivinin valideynlərlə apardığı işin məqsədi göstərilmişdir:

- ailə mikroiqliminin yaxşılaşdırılması;
- ailədə müsbət qarşılıqlı münasibətlərinin formalaşması;
- məktəbəqədər müəssisənin fəaliyyətində valideynlərin aktiv fəaliyyətə cəlb edilməsi;
- valideynlərin pedaqoji mədəniyyətinin onların aktiv maarifləndirilməsi yolu ilə yüksəldilməsi;

Təcrübə göstərir ki, "valideyn-uşaq" münasibətləri problemi daima aktual məsələlər hesab olunmuşdur. Aktuallıq aşağıdakılarla şərtlənir:

Birincisi, həyatının ilk günlərindən uşağın inkişafı üçün ailədə psixoloji iqlimin vacibliyi məsələsi mühüm əhəmiyyət kəsb edir.

İkincisi, ailədə uşaqları müxtəlif ailədaxili münasibətlərə və fəaliyyətə cəlb etmək üçün şərait yaranır,eləcə də uşaq özü haqqında informasiya alır, burada o özünə dair ilk qərarı qəbul edir və onun ilk sosial təbiəti inkişaf etməyə başlayır.

Üçüncüsü valideynlər arasında,valideynlər və uşaqlar arasında qarşılıqlı münasibət,davranış, fəaliyyət modelləri məktəbəqədər yaşlı uşaqlar tərəfindən qaydaların,başqa insanlarla ünsiyyət üslubunun dərk edilməsinə təsir göstərir, sonra isə xüsusi davranışa çevrilir.

Beləliklə, uşaqların milli ruhda tərbiyə olunmasında uşaq bağçası və ailə daim birgə əməkdaşlıq etməli, tələblərdə vahidliyi gözləməli, uşaqların böyüklərə hörmət, əməksevər, vətənpərvər, insanpərvər, qayğıkeş, sədaqətli, düz, doğruçul, cəld, çevik, möhkəm, sadə, təmkinli, xeyirxah, ədəbli, diqqətcil, milli-mənəvi dəyərlərə hörmət, onları qoruyaraq yaşatmaq, düşmənə nifrət və s.

kimi hisslərin tərbiyə edilməsində uşaq bağçası və ailənin birgə əməkdaşlığı böyük rol oynayır. Bu əməkdaşlıq düzgün qurularsa eyni məqsədə söykənərsə, vahidlik gözlənilərsə uşaq şəxsiyyətinin formalaşmasında, əxlaqi hisslərin tərbiyəsində böyük rol oynamış olar.

## ƏDƏBİYYAT


1. Baxşəliyev Ə. Azərbaycanda milli – mənəvi dəyərlərin, sosial psixoloji mahiyyəti. Elm və təhsil nəşriyyatı , 2011
2. Fətəliyev X. Ailədə milli tərbiyə . Bakı. 1996
3. Sadıqova T., Həsənova İ.H., Məmmədova K.R. Uşaq bağçasının Ailə ilə birgə işi. Bakı . 2012
4. Quliyev M.C. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti . "Maarif" nəşriyyatı. Bakı. 1987



**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.09.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 371**

**S.Muxtarlı**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: muxtarli.sevda@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL-ƏXLAQİ İNKİŞAFI

***Açar sözlər:*** *məktəbəqədər, sosial, fəaliyyət, aktual*

Psixoloji-pedaqoji ədəbiyyatda uşağın sosial inkişafının ana xətti, pedaqoji işin məzmunu, uşaqların sosial aləminin formalaşdırılması texnologiyası göstərilmişdir. Bu məsələlərin həyata keçirilməsi, pedaqoqlar və valideynlər tərəfindən hər bir uşağın unikallığı qəbul olunmadan, cins, fərdilik, psixikanın yaş xüsusiyyətləri nəzərə alınmadan mümkün deyil.

**С.Мухтарлы**

## СОЦИАЛЬНО-ПОВЕДЕНЧЕСКОЕ РАЗВИТИЕ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *дошкольное, социальное, деятельность, актуальное*

В психологической педагогической литературе основным направлением социального развития ребенка является содержание педагогической работы и технология формирования социального мира детей. Реализация этих проблем невозможна без признания личности каждого ребенка педагогом и родителями без возраста, пола, индивидуальности.

**S.Mukhtarlı**

## SOCIAL MORAL DEVELOPMENT OF PRESCHOOL CHILDREN

***Key words:*** *pre-school, social, activities, urgent*

In the psychological pedagogical literature, the main line of social development of the child is the content of the pedagogical work and the technology of shaping the social world of children. The realization of these issues is impossible without the recognition of the identity of each child by the educator and parents, without the age, gender individuality.

Məktəbəqədər pedaqogikada sosial-şəxsi inkişafa kompleks proses kimi baxılır. Uşaq yaşamalı olduğu cəmiyyətin dəyərlərini, ənənələrini, mədəniyyətini mənimsəyir. Bu prosesin metodoloji əsası, insan və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında insanın bir dəyər olaraq nəzərdən keçirilməsi (aksioloji yanaşma), ətraf mühitin və özünün dəyişdirilməsində insanın fəal rolu haqqında fəlsəfi fikirdir.

Uşaqların sosial inkişafının çətinlikləri uşaqların böyüklər aləmində yaşamaları, öz üzərində sosial-iqtisadi bərabərsizliyi, insanlar arasında qarşılıqlı münasibətlər və ünsiyyət mədəniyyətini, xeyirxahlıq və diqqət qıtlığını hiss etmələri ilə izah olunur. Sosial davranış təzahürünün qeyri-əlverişli variantları çox vaxt ətrafdakıların mənfi hərəkətləri, bir sıra televiziya verilişlərinin təsiri altında yaranır.

Psixoloji-pedaqoji ədəbiyyatda uşağın sosial inkişafının ana xətti, pedaqoji işin məzmunu, uşaqların sosial aləminin formalaşdırılması texnologiyası göstərilmişdir. Bu məsələlərin həyata keçirilməsi, pedaqoqlar və valideynlər tərəfindən hər bir uşağın unikallığı qəbul olunmadan, cins, fərdilik, psixikanın yaş xüsusiyyətləri nəzərə alınmadan mümkün deyil.

Sosial inkişafın psixoloji əsasları bir çox görkəmli alimlərin tədqiqatlarında açıqlanır.

L.S.Vıqotskinin fikrinə görə, inkişafın sosial vəziyyəti, verilən yaşda olan uşaqla sosial reallıq arasındakı münasibətlər sistemindən başqa bir şey deyil. Bir çox psixoloqlar sosial təcrübə nailiyyətlərinin, əxlaq normaları və davranış qaydalarının mənimsənilməsində uşağın ətrafdakılarla əməkdaşlığının rolunu qeyd edir. Uşağın sosial inkişafı, həmçinin, yaşıdları ilə ünsiyyət zamanı da baş verir. Uşaq bağçası qrupunun sosial-psixoloji xarakteristikasını və onun uşağın inkişafında olan sosiallaşdırıcı rolunu araşdırarkən, uşaqlar arasındakı qarşılıqlı münasibətlərin xarakterini pedaqoqların onlarla ünsiyyət üslubundan asılılığında göstərdiyi aydınlaşır.

Uşaq cəmiyyəti və ya uşaq bağçası qrupu mühüm sosiallaşdırıcı amildir. Uşaq məhz yaşıdları ilə bir qrupda öz fəallığını göstərir, ilk sosial yerini qazanır ("ulduz", "lider", "rədd edilmiş"). Sosial yerin əlamətinin möhkəmləndirilməsi meyarları şəxsiyyətin təməl xüsusiyyətləridir (bacarıq, fəallıq, müstəqillik, davranış sərbəstliyi, yaradıcılıq, iradilik).

Uşaq üçün, bir qrup yaşıdları bir çox müsbət emosiyaların mənbəyidir. Burada onun özünü qiymətləndirməsi, iddia səviyyəsi korreksiya olunur. Özünü digər uşaqlarla müqayisə etməsi, davranışının yaşıdları tərəfindən qiymətləndirilməsi böyüməkdə olan şəxsiyyətin müsbət özünütəsdiqi üçün bünövrəni təmin edir. Uşağın qrupla münasibətləri sosiallaşmanın vacib mərhələlərindən biri olan sosial emosiyalar vasitəsilə ifadə olunur və beləliklə də, şəxsiyyətin cəmiyətə daxil olması prosesini müəyyənləşdirir. Alimlərdən

Ə.Əlizadənin, H.Əlizadənin, A.V.Zaporojesin, L.S.Vıqotskinin və b. tədqiqatlarında sosial emosiyaların tənzimləyici rolu, uşağın davranışının vadaredici motivləri ilə onların qarşılıqlı əlaqəsi göstərilmişdir. Sosial emosiyaların inkişafı yalnız sosial təcrübənin (davranışın norma və qaydaları haqqında biliklərin həcmi olaraq qiymətləndirici kateqoriyaların, mədəni simvolların) mənimsənilməsini deyil, həm də sosial-emosional etalon adlandırıla bilən bu biliklərə münasibətin formalaşdırılmasını tələb edir. Bir sıra psixoloji-pedaqoji tədqiqatların nəticəsində aşkar olunub ki, məktəbəqədər yaşlı uşaqlarda sosial emosiyaların inkişafının yüksək səviyyəsi uşağın uşaq bağçası qrupundakı liderlik mövqeyi və yüksək səviyyəli intellekti ilə müsbət cəhətdən müqayisə olunur. Sosial emosiyalar nəinki uşağın qrup aləminə daxil olması prosesini, həm də özünü ("Mən" obrazı), öz münasibətlərini, hisslərini, vəziyyətini dərk etməsi prosesini də asanlaşdırır.

Tədqiqatlar və nəticələr bizə uşaqların sosial inkişafında "uşaq cəmiyyətinin" funksiyalarını dəqiq müəyyənləşdirməyə imkan verir. Nəticənin müddəaları aşağıdakılardan ibarətdir:

— ümumi sosiallaşma. Uşaqlar qrupla ünsiyyət, qarşılıqlı təsir, əməkdaşlıq, birlik zəminində ilk sosial təcrübələrini qazanır. Bu, bir qayda olaraq, oyun, əmək, bədii-estetik və başqa fəaliyyət növlərində baş verir;

— cinsi sosiallaşma və cinsi fərqləndirmə prosesinin intensivləşdirilməsi. 5 yaşından başlayaraq, uşaqlar ünsiyyətdə, müştərək fəaliyyətdə, qrup münasibətləri sistemində öz cinsindən olan yaşıdlarına üstünlük verirlər;

— qrupun dəyər istiqamətlənməsinin formalaşması və məlumatı. Burada uşaqlıq subkulturasının, uşaq bağçasında tədris prosesinin xüsusiyyətlərinin rolu böyükdür;

— uşağın özünü qiymətləndirməsinin və iddia səviyyəsinin formalaşmasına, onun əxlaqi davranışına təsir edən qiymət.

Uşaq bağçası pedaqoqu uşaq cəmiyyətinin imkan və funksiyalarının həyata keçirilməsi üçün şərtləri qabaqcadan düşünməlidir:

— uşaqların müxtəlif müştərək fəaliyyət növlərində olan və uşağın yaşıdları ilə qrupdakı vəziyyətini, sosial-əxlaqi təsəvvürlərini, emosional vəziyyətini, davranışını, təcrübi bacarıqlarını üzə çıxarmağa imkan verən ünsiyyət və qarşılıqlı münasibətlərinin diaqnostikası metodlarından istifadə;

— uşaqlarla qarşılıqlı təsirin demokratik (yardım edən) üslubundan istifadə;

— qrupda müsbət, emosional-fəal münasibətlərin, mikroiqlimin yaradılması;

— uşaqlarda istiqamətləndirilmiş müsbət arzuların, digərlərinə istiqamətlənməyə, empatiya, altruizm təzahürlərinə əsaslanan taktikanın formalaşdırılması;

— ənənələrdən, mərasimlərdən istifadə;

— uşaqların müxtəlif qruplardan olan uşaqlarla müştərək fəaliyyətinin təşkili;

— uşaqların yaradıcılığının fərdi sərgilərinin, vernisajlarının təşkili;

— uşaqların sosial davranışının vaxtında korreksiyası: davranışa məsləhət formasında nəzarət, “anlamaq, hisslərinə şərik olmaq, hərəkət etmək” prinsipi üzərində qurulan xüsusi tərbiyəvi vəziyyətlərin yaradılması.

Məktəbəqədər yaşlı uşağın sosial inkişafının əsas anlayışlarını müəyyənləşdirməyə çalışaq və bunları sadalayaq: sosial təcrübə, hisslər, reallıq, ətrafdakıların təsviri, şəxsiyyətin sosiallaşması. Bu anlayışlar arasında iyerarxik əlaqələr mövcuddur. Sosial aləmdə anadan olan uşaq bu aləmi ona daha yaxın olandan, yəni, qarşılıqlı təsirə girməyə başladığı sosial reallıqdan dərk etməyə başlayır. Ətrafındakıların sosial təsviri uşaqda müxtəlif emosiya və hisslər oyadır. Hələ sosial aləmin dəqiqlikləri və dərinliklərini bilmədən, uşaq bu aləmin hadisə və əşyalarını qavrayır və onu hiss edir, hisslərinə şərik olur. Başqa sözlə desək, ilkin olaraq sosial hisslər yaranır, sosial təcrübə isə tədricən toplanır, bu zəmində də, sosial qiymətlənmənin, davranışın, insanlar aləminin dərk edilməsi, başa düşülməsi, qəbul edilməsinin əsasında duran və sosial inkişafa, sosiallaşmaya gətirib çıxaran sosial təcrübə formalaşır.

Sosiallaşmanı və onun təzahürlərini üçlü vəhdət şəklində nəzərdən keçirək: sosial aləmə uyğunlaşma; sosial aləmin reallıq kimi qəbul edilməsi; sosial reallığı və sosial aləmi dəyişmək tələbatı və bacarığı.

Sosiallaşdırılmış şəxsiyyətin göstəricisi onun başqa insanlara və özünə qarşı yönəlməsidir (istiqamətləndirilməsidir). Özünü dərketməyə özünə qarşı marağın formalaşması daxildir (fiziki “Mən”, emosional “Mən” və b.). Pedaqoqun vəzifəsi – uşaqlarda həm özünə, həm də, digər insana, onun əmək aləminə, hisslər aləminə, xüsusilə də, şəxsiyyətinə marağın formalaşdırılmasıdır.

Sosiallaşma prosesinin əsasına milli və planetar komponentlərin uyğunluğunun ziddiyyətli anlaşılması da qoyulmuşdur. Uşaqlarda sosial mənşəyindən, irqi və milli aidiyyatından, dilindən, cinsindən, yaşından asılı olmayaraq ətrafındakı uşaqlara və böyüklərə qarşı səbrli olmaq bacarığını tərbiyə etmək zəruridir. Özünü Yer kürəsinin sakini hiss etməsi müəyyən mədəniyyətə aidiyyatının dərk etməsi ilə uyğunlaşmalıdır.

Sosial inkişaf konsepsiyasına bir neçə fikirləri özündə birləşdirən texnoloji hissə daxildir:

— mexanizminə görə, sosiallaşma prosesi əxlaqi tərbiyə ilə uyğun gəlir (təsəvvürlərin, hisslərin, davranışın formalaşdırılması);

— sosiallaşma iki tərəfli prosesdir, o, xarici təsir altında (cəmiyyət) baş verir və subyektin cavab reaksiyası olmadan mümkün deyil.

Sosial inkişaf uşağın həyatının ilk günlərindən başlayır və kiçik məktəbəqədər yaşdan böyük məktəbəqədər yaşa qədər yaş spektrini əhatə edir.

Sosial inkişaf uşaqlar tərəfindən əxlaqi dəyərlərin mənimsənilməsi üçün əsas, etik cəhətdən dəyərli ünsiyyət vasitələrini yaradır. Formalaşmış şəxsiyyətlərarası münasibətlər, öz növbəsində, uşaqlarda sosial davranışın, vətənpərvərlik hissinin – doğma ölkəsinə, yurduna məhəbbətin, orada yaşayan insanlara qarşı münasibətdə bağlılığın, sədaqətin formalaşmasının əxlaqi əsasına çevrilir.

Uşaq bağçası pedaqoqu məktəbəqədər yaşlı uşağın özünü emosional qəbul etməsi, özünü qiymətləndirməsi və sosial aləmlə əlaqəsi vasitəsilə, onun şəxsiyyətinin vahid sosiallaşma-fərdiləşmə prosesini təmin etməlidir. Sosiallaşma prosesi bu istiqamətlərdə həyata keçirilir: sosial adaptasiya – sosial istiqamətlənmə – sosial bacarıq – sosial-əxlaqi istiqamətlənmə. Sosial-əxlaqi inkişafın yekunu məktəbəqədər yaşlı uşaqların ümumi və şəxsi sosiallaşmasıdır. Uşağın məktəbəqədər yaşı boyunca özünə hörmət, şəxsi mənlik hissi, optimist əhval-ruhiyyəsi inkişaf edir.

## ƏDƏBİYYAT

1. Abdulov R. Sənin sosial fəallığın. Bakı, 2002
2. Əlizadə Ə. Sosial pedaqogikanın aktual problemləri emləri. Bakı, 1998
3. Андреева Г.М. Социальная педагогика. М.1998
4. Кон И.С. Ребенок и общество. М.1998

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.09.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 15.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37**

**Ş.Şahbazova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: shahbazova.shefiqe.mail.ru

# UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA OYUNUN ROLU

***Açar sözlər***: *tərbiyəçi, uşaq, ailə, oyun, şəxsiyyət*

Məktəbəqədər yaşlı uşaqların inkişafında oyunun rolu böyükdür. Oyun uşağın şəxsiyyətinin formalaşması, həyatı öyrənməsi üçün geniş vasitədir. Oyun vasitəsilə uşaqlarda doğruluq, düzlük, əməksevərlik, əmək adamlarına hörmət, vətənə məhəbbət kimi mənəvi hisslər formalaşır.

**Ш.Шахбазова**

## РОЛЬ ИГРЫ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ РЕБЕНКА

***Ключевые слова:*** *воспитатель, ребенок, семья, игра, личность*

Роль игры в развитии детей дошкольного возраста велика. Игра является отличным инструментом для изучения личности ребенка. На протяжении всей игры в игре формируются моральные чувства, такие как честность, порядочность, трудолюбие, уважение к трудящимся и любовь к родине.

**Sh.Shakhbazova**

## THE ROLE OF THE GAME IN THE FORMATION OF CHILD PERSONALITY

***Key words:*** *kindergarten teacher, child, family, play, identity*

Games play a big role in the development of pre school children. Games are main means from personality of a child and learning life for a child. Moral feelings such as honesty? Hard-work and respecting working people, being patriotic are formed by the help of games.

Böyüməkdə olan nəslin hərtərəfli inkişafında onun əsas fəaliyyəti olan oyunun rolu böyükdür. Oyun uşağın şəxsiyyətinin formalaşması, marağının yönəlməsi, həyatı öyrənməsi üçün geniş vasitədir. Müasir məktəbəqədər tərbiyədən bəhs edən ədəbiyyatların bəzilərində oyuna "uşaq ədəbiyyatının akademiyası" adı verilmişdir. Oyunun uşaqların təşəbbüsü ilə yaranan azad,

yaradıcı fəaliyyət olaraq cəlbedici olmağı, onun potensial imkanlarından, aparıcı yeri və rolundan asılıdır. Görkəmli pedaqoqlardan l.S.Vıqotskinin, A.N.Leontyevin tədqiqatlarında oyunun məzmunlu xarakteristikası verilmiş, onun uşaöın psixikasında baş verən ən mühüm dəyişikliklərə , gələcək inkişaf zonasının yaradılmasına olan təsiri göstərilmiştir.

Y.A.Komenski oyunların uşaqları şənləndirməsini və onların hərtərəfli inkişafına təsirini nəzərə alaraq, böyüklərin uşaqların oyunlarına diqqətlə yanaşmasını, ağıllı rəhbərlik etməsini məsləhət görürdü.

D.B.Elkonin, "oyunun, məzmununa, təbiətinə, mənşəyinə görə sosial olduğuna, yəni uşağın cəmiyyətdəki həyat şəraitlərindən yarandığını" qeyd edir. Sujetli-rollu oyunlar, uşaq oyununun əsas forması olaraq sosial şərtiliyi, səbəb və quruluş cəhətdən həyata keçirilir. Böyüklərin istehsalçı fəaliyyətində real iştirak imkanına malik olmayan uşaq, əşyalarla, alətlərlə hərəkətləri, oyunları sayəsində sosial-ictimai, ailə münasibətlərinin modelini quraraq, onun bir növ iştirakçısına çevrilir.

Müasir elmi ədəbiyyatda uşaqlara, ünsiyyət sənətini, şəxsiyyətlərarası münasibətlərin qurulması, neqativ təzahürlərin qarşısının alınmasını öyrətməyə imkan verən oyunun psixoterapevtik effekti çox yaxşı göstərilməlidir. Uşaq bağçası pedaqoqu uşağın psixikasının xüsusiyyətlərini əks etdirən və mahiyyətini, uşağın oyun zamanı həzz alıb almamasını bilməlidir. Düzgün qurulan oyun zamanı  uşaq müqavimətlərin öhdəsindən gəlməyi öyrənir, onun hərəkətləri daha iradi, yaradıcılıq və düşüncəsi isədaha aydın olur. Oyun uşağa istək, davranış, ünsiyyətin yeni formasını verir.

Oyunun müxtəlif növlərini, onların özünə məxsusluğunu, keçirilmə texnologiyalarını bilmək, onun aşağıdakı funksiyalarından istifadə etməyə imkan verir: tərbiyəedici, inkişafetdirici, maarifləndirici, təşkilatcılıq və s.

Oyunların bir neçə təsnifatı mövcuddur. Ümumi qəbul olunmuş təsnifat oyunların uşaqların təşəbbüsü ilə yaranan yaradıcı (sujetli-rollu) və böyüklər tərəfindən təşkil olunan qaydalı oyunlara (didaktik və mütəhərrik) bölünmüşdür.

Müxtəlif oyun növləri, məktəbəqədər təhsilin bütün istiqamətlərində həyata keçirilir. Oyunu təşkil edən zaman pedaqoq müxtəlif oyun növləri arasından düzgününü seçməyi bacarmalıdır. Məktəbəqədər yaşlı uşaqlarda süjetli-rollu oyun aparıcı fəaliyyətə çevrilir.

Tərbiyəçi uşaqlarla birgə oynamalıdır, bütün məktəbəqədər uşaqlıq dövrü boyunca oynamalı, amma oyunu elə qurmalıdır ki, uşaqlar onun qurulmasını yəni, daha mürəkkəb üsulunu "kəşf etsin" və mənimsəsinlər. Oyun bacarıqlarının formalaşdırılması zamanı eyni zamanda uşağı həm oyun hərəkətlərini həyata keçirməsinə, həm də tərəf müqabillərinə, özündən böyüyə və yaşıdına onun mənasını izah etməsinə istiqamətləndirilməlidir.

Məktəbəqədər müəssisələrdə əşyavi oyunların mühüm əhəmiyyəti vardır.

əşyavi oyun mühiti müəyyən prinsiplərə cavab verməlidir: bu hər şeydə əvvəl uşağın oynamaq hüququna nail olma azadlığıdır ki, o, oyununun mövzusunu, sujetini, oyuncaqları, oyunun məkan və zamanını seçmək hüququ kimi həyata keçirilir. Pedoqoqun mövqeyi onun oyuncaqların seçilməsi zamanı uşaqların yaş xüsusiyyətlərini nəzərə almasından başqa həm də tədris proqramının həyata keçirilməsi üçün şərait yaratmasından ibarətdir. Uşaq guşələrinin əşyavi oyun ləvazimatları ilə doldurulması, müxtəlif oyun növlərinin təşkili üçün yararlıdır. Bu prinsip, uşaqların özünə, tərbiyəçilərlə birlikdə oyun mühitini, onun oyun növünə, məzmununa və inkişaf perspektivlərinə uyğun olaraq şəklini dəyişərək, qurmaq və dəyişməyə imkan verir.

Əşyavi oyun mühiti inkişafetdirici olmalı, yəni oyun vasitəsilə uşağın inkişafını funksional modelləşdirilməlidir. Belə mühit, həmçinin, oyun sahəsinin tamlığını təşkil edən, pedaqoji nöqteyi-nəzərindən seçilmiş oyuncaq növləri ilə təqdim olunan sistemlilik prinsipinə cavab verir.

Kiçik məktəbəqədər yaş dövründə oyuncaqlar, əşyalar müstəqil oyunların başlanğıc, stimullaşdırıcı məqamı qismində çıxış edir. Uşaqlar hərəkətdən düşünməyə doğru gedirlər. Buna görə də, oyuncaqların göz qabağında olması vacibdir. Uşaq aktivliyinin və rola girmək bacarığının inkişafı üçün real əşyaların eynisi olan oyuncaqların olması zəruridir. Oyuncaqları elə qruplaşdırmaq lazımdır ki, 3-4 yaşı uşaqlar onlar arasında məna əlaqəsini qura bilsinlər.

Oyunun fəaliyyət olaraq inkişaf etdirilməsinə, uşaq kollektivinin tərbiyə olunmasına və hər bir uşaqda əxlaqi-iradi keyfiyyətlərin formalaşdırılmasına yönələn, uşaq oyunlarına məqsədyönlü rəhbərlik tərbiyəçinin iş planında öz əksini tapmalıdır.

## ƏDƏBİYYAT


1. Məktəbəqədər təhsil proqramı (kurikulumu)
2. M.Ə.Həmzəyev- " Pedaqoji ünsiyyətin formalaşması yolları" Azərbaycan məktəbi 1990 N 1.( Səh. 45-50).
3. R.Əliyev- " Uşaq şəxsiyyətinin formalaşmasında oyunun rolu" İbtidai məktəb və məktəbəqədər tərbiyə 1989. N 3. (Səh. 45-49).
4. Ə.Bayramov- " Şəxsiyyətin tərbiyəsinə diqqətin artırılması" Azərbaycan məktəbi. N 5. (Səh 19-23).
5. A.Həsənov- " Məktəbəqədər pedaqogika" Bakı 2011. (Səh. 27-36).



**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 796:011**

**A.İ.Əhmədli**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: aysen.axmedli @ mail.ru

# UŞAQLARDA DAVRANIŞ NORMALARININ TƏRBİYƏ EDİLMƏSİNİN YOLLARI VƏ VASİTƏLƏRİ

***Açar sözlər:*** *davranış, əxlaq tərbiyəsi, uşaq , ünsiyyət, qrup*

Məktəbəqədər yaşlı uşaqlarda davranış mədəniyyətinin formalaşdırılması əxlaq tərbiyəsi sistemində əsas yer tutur. Uşaqlarda bir sıra əxlaqi keyfiyyətinin mahiyyətini başa salmaq və onların hərəkət və davranışlarında bu keyfiyyətləri aşılamaq bu prosesin mahiyyətini təşil edir. Tərbiyəçi ayrı-ayrı yaş qruplarında olan uşaqlara söz, nümunə,oyun, gəzinti, rejim, kütləvi tədbirlər,əmək və digər yol və vasitələrdən istifadə etməklə zəruri əxlaqi keyfiyyətlərin tərbiyə olunmasını özünün gündəlik işinə çevirməlidir.

**А.И.Ахмедли**

# ПУТИ И СРЕДСТВА ВОСПИТАНИЯ ПОВЕДЕНЧЕСКИХ НОРМ У ДЕТЕЙ

***Ключевые слова***: *поведение, мораль, ребенок, общение, группа*

Формирование поведенческой культуры у детей дошкольного возраста является ключевым элементом системы нравственного воспитания. Понимание сущности некоторых моральных качеств у детей и привитие этих качеств в их действиях и поведении является сущностью этого процесса. Воспитатель должен превращать отдельные повседневные занятия для детей в обучение необходимым моральным качествам, используя слово, образец, игру, ходьбу, режим, массовые действия, труд и другие средства.

**A.I.Ahmadli**

# WAYS AND MEANS OF CULTIVATING BEHAVIORAL NORMS IN CHILDREN

***Key words:*** *behavior, morale, child, communication, group*

Formation of behavioral culture in pre-school children is a key element in the moral education system. Understanding the essence of some moral qualities in children and instilling these qualities in their actions and behaviors is the essence of this process. The educator should turn children into separate daily activities by teaching them the necessary moral qualities by using word, sample, game, walking, regime, mass actions, labor, and other means.

Əxlaq tərbiyəsi mürəkkəb və ikitərəfli prosesdir. Bu prosesdə bir tərəfdən tərbiyəçi, müəllim. Valideyn uşağa təsir göstərir, o biri tərəfdən uşaq bu təsirlər nəticəsində öz mənəviyyatını təkmilləşdirmək üçün fəallıq edir, öz üzərində işləyir, cəmiyyətdə necə davranmağın, nə kimi mənəvi norma və prinsipləri rəhbər tutmağın vacibliyini öyrənir, rəftar və hərəkətlərində bu qaydalara, cəmiyyətin birgə yaşayış normalarına əməl etməyə çalışır.

Uşaqların mədəni davranış tərbiyəsində əsas yerləri səmimilik, sadəlik, təvazökarlıq, xeyirxahlıq, dosta-yoldaşa sadiqlik, sədaqətli olmaq, düzlük, doğruçuluq, dostluq, yoldaşlıq, ədalətlilik, və s. kimi keyfiyyətlər tutur. Bunlar mühüm əxlaqi keyfiyyətdir. Nəcib əxlaq üçün səciyyəvi olan bu keyfiyyətlər əxlaq tərbiyəsinin məzmununda mühüm yer tutur. Bu keyfiyyətləri hələ uşaqlıqdan gənc nəslə aşılamaq son dərəcə vacibdir.

Böyük məktəbəqədər yaşlı uşaqlar davranışın bəzi normalarını şüurlu surətdə dərk edirlər. Onlar yaxşı və pis haqqında müəyyən təsəvvürlərə malik olmaqla yanaşı, davranışında əxlaq normalarına müəyyən qədər əməl etməyə çalışırlar. Bu yaşda baş beyin qabığının analizedici və sintezedici fəaliyyəti inkişaf etməyə başladığı üçün uşaq onun davranışına göstərilən tələbləri dərk etməyə, hərəkətlərini və rəftarını aydınlaşdımağa qadir olurlar. Buna görə də uşaqlarda daxili ləngimə prosesini tədricən məşq etdirərək və möhkəmləndirmək zəruridir. Onlarda təmkinli olmağı tərbiyə etmək, bəzi özünü məhdudlaşdırma qabiliyyətini inkişaf etdirmək, hərəkəti əxlaq qaydaları motivlərinə tabe etmək bacarığını formalaşdırmaq lazımdır.

Tədqiqatlar göstərir ki, məktəbəqədər yaşlı uşaqların əxlaqi davranışlarında şüur hələ həlledici qüvvəyə malik olmadığından şüur çox vaxt uşağın pis rəftara yol verməsindən sonra fəaliyyətə başlayır. Məhz bu rəftarın və davranışın düzgün olmadığını, səhv hərəkətlər etdiyini sonradan başa düşür və deyir.

Uşağın nəyin yaxşı, nəyin pis olması haqqında təsəvvürləri onun təcrübəsi, həyəcanları ilə sıx əlaqəlidir. Uşağın müşaidə etdiyi faktlar, obrazlı təəssüratlar və s. ilə bağlı olan hər şey əsasən ona anlaşıqlı olur. Uşaq üçün xarakterik olan təfəkkür konkretliyi bununla izah edilir.

Respublikamızda 1998-ci ildə qəbul edilən "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nda və bundan sonra 2012-ci ildə qəbul edilən "Məktəbəqədər təhsilin Proqramı"nda (Kurikulum) uşaqların əxlaq tərbiyəsinə

verilən tələblər xeyli təkmilləşdirilmiş, uşaqlarda milliliyin, insanpərvərliyin, qarşılıqlı xeyirxahlıq münasibətlərinin, kollektivçiliyin əsası üzrə tərbiyə işinin məzmunu dəqiqləşdirilmiş, onlarda yüksək mənəvi keyfiyyətlərin formalaşması üçün normaların məzmunu konkretləşdirilmiş, uşaqların və aparılan işlərin qrupdan-qrupa zənginləşməsi, inkişafı nəzərə alınmışdır. Bu proqramların məzmunu uşaqda öz fəaliyyətini təşkil etmək bacarığının formalaşması, tərbiyəçinin tələblərini yerinə yetirməsi, öz hərəkətini başqalarının hərəkəti ilə razılaşdırması və s. ilə müəyyən edilmişdir.

Proqramlarda uşaqların davranış və ünsiyyət mədəniyyətinin əsasında mehribanlıq, səmimilik, təvazökarlıq, insaflılıq, ədalətlilik, xeyirxahlıq, rəhimlilik, əliaçıqlıq, qayğıkeşlik və s. kimi keyfiyyətlər qoyulmuşdur. Həmçinin, bununla əlaqədar uşaqlara yaşıdlarla davranış tərzini seçmək bacarığının verilməsi də nəzərdə tutulmuşdur.

Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi hiss və adətlərinin tərbiyə edilməsində yüksək nəticələrə nail olmaq üçün bu hiss və adətləri uşaqların şüuru ilə əlaqələndirməyə çalışmaq, bununla da əxlaqi hisslərin, adətlərin və şüurun vahidliyinə nail olmaq lazımdır. Məhz bu zaman tərbiyədən gözlənilən nəticəni almaq mümkündür. Uşaqların tərbiyəli hərəkət etmək, ədəb-ərkan dairəsində davranması üçün belə hərəkət və davranışın xarakteri və əhəmiyyəti haqqında müvafiq biliklərə, anlayış və təsəvvürlərə malik olmalı, onları öz əqidəsinə çevirməlidirlər. Bu işdə ilk növbədə məhz şüuru və əqidəni formalaşdırmağa yönəldən tərbiyə məsələlərinə həsr edilmiş söhbətlər, oyunlar, gəzintilər və s. üsullardan istifadə olumalıdır. Bu işlərin əsas vəzifəsi – tərbiyə ilə bağlı anlayışları uşaqlara aydınlaşdırmaqdan, izah etməkdən, insani keyfiyyət və münasibətlərin, o cümlədən davranış mədəniyyətinin vacibliyinə uşaqları inandırmaqdan, bu barədə onlarda lazımi əqidə yaratmaqdan ibarətdir. Sözün böyük tərbiyəvi gücü ilə uşaqlarda inam və əqidə yaradılmalıdır.

Yaşlı nəsil sözün gücündən istifadə edərək min illər ərzində öz övladlarına, nəvə və nəticələrinə nəyin yaxşı, nəyin pis, nəyin gözəl, pis olduğunu, nəyin düz, nəyin əyri, hansı hərəkətlərin baş ucaltdığını, hansının alçaqlıq gətirdiyini; böyüklə, kiçiklə, qoca ilə, öz yaşıdı ilə başqa insanlarla necə davranmanın ləyaqətli, necə münasibətin ləyaqətsiz olduğunu öyrətmişlər. Söz metodu güclü təsir vasitəsi olduğundan hal-hazırda da uşaqların tərbiyəsində ondan geniş istifadə edilir. Buna görə də məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində sözdən və sözlü metodlardan istifadəyə geniş yer verilməlidir. Bununla yanaşı, oyun, idman, ekskursiya, əmək, süjetli-rollu oyunlar və s. metod və vasitələrdən istifadə etməklə onlarda mühüm davranış normaları tərbiyə edilməlidir.

Məktəbəqədər yaşlı uşaqların əxlaqi keyfiyyətləri onların davranışında təzahür edir. Bununla belə, təkcə davranışa əsasən uşağın əxlaqi tərbiyəsi haqqında söz demək bir qədər çətindir. İnsanın, o cümlədən uşağın müəyyən şəraitdə necə hərəkət etməsi ilə yanaşı, ikinci bir məsələdə uşağın nəyə görə

başqa cür deyil, məhz bu cür hərəkət etməsi də çox vacib problemlərdəndir. Elə uşaq vardır ki, bağçada uşaqlar içərisində bir cür, təklikdə isə başqa cür hərəkət edirlər. Əslində isə uşaqlar elə tərbiyə edilməlidir ki, hər iki halda əxlaq normalarını pozmasınlar. Bu baxımdan uşağın niyə məhz bu cür hərəkət etməsini də öyrənmək lazımdır.

Böyüklər kimi uşaqların da niyə başqa cür deyil, məhz bu cür hərəkət etməsi motivlərlə bağlıdır. Motivlər insanı hərəkətə təhrik edən səbəblərdir. Motivlər arasında gedən mübarizə isə əxlaq tərbiyəsində hərəkətverici qüvvə kimi çıxış edir. Belə ki, bəzən uşağın formalaşmış adətləri ilə irəli sürülən yeni tələblər uyğun gəlmir və öz aralarında daimi mübarizəyə girişir. Ziddiyyətin həlli inkişafa gətirib çıxarır. Lakin formalaşmaqda olan əxlaqi keyfiyyətlər köhnə adətləri asanlıqla sıxışdırıb aradan çıxara bilmir. Ona görə də tərbiyəçinin başlıca vəzifəsi uşaqda özünün köhnə adətlərinə qarşı mübarizə apara bilməsi üçün daxili tələbat yaratmaqdan ibarətdir. Əgər bu cür tələbat yaxşı formalaşmış olarsa, köhnə adətləri aradan qaldırmaq nisbətən asanlaşır.

Uşaqlarda davranış normalarının formalaşdırılması üçün başlıca metod və vərdişlərin biri də pedaqoji situasiyaların yaradılmasıdır. Elə situasiyalar ki, onlar uşağı müəyyən seçimlər qarşısında qoymaqla, yaxşını, düzü, vacib olanı seçməyə imkan yaratsın. Tərbiyə prosesində elə pedaqoji situasiyalar yaratmaq lazımdır ki, uşaqlar müəyyən çətinlik qarşısında qalsın. Mümkün olan müxtəlif hərəkətlərdən ən düzgün olanını seçməyə onlarda daxili tələbat yaranmış olsun və hansı işin daha vacib oluğunu özü müəyyənləşdirə bilsin. Uşaq fikrini əsaslandırmğı və müdafiə etməyi bacarmalıdır. Uşaqda müəyyən daxili tələbat vardır və o, həmin tələbatın icrası üçün can atır. Çalışmaq lazımdır ki, belə tələbatlar müsbət istiqamətli olsunlar.

Məktəbəqədər yaş dövründən başlayaraq uşaqları mədəni davranış qaydalarına alışdırmaq lazımdır. Bu məqsədlə ailədə, ictimai mühitdə və uşaq bağçalarında müntəzəm olaraq iş aparılmalıdır. Uşaqların həyatının ilk günlərindən valideynlərin, yaxın adamların, tərbiyəçinin köməyi ilə həyata keçirilən bu işlərin uşaqlar böyüdükcə onların tədricən müstəqil surətdə bu hərəkət və davranışı yerinə yetirmələrinə nəzarət etmək lazımdır.

Təcrübə və tədqiqatlar göstərir ki, tərbiyə və təlim prosesində uşaqlara əxlaq normalarının mənimsənilməsi heç də həmişə onlar tərəfindən mədəni davranış vərdiş-lərinin yaranmasına gətirib çıxarmır. Həmin normaları uşaq yaxşı öyrənə bilər. Lakin heç də özünü tələb olunduğu kimi aparmaz və əksinə o, davranış norma və qaydalarını dərk etmədən praktik təcrübəsinə əsaslanaraq düzgün, mədəni davrana bilər. Buna görə də tərbiyə prosesində bunların vəhdət halında formalaşmasına nail olmalıdır.

Müşahidələr göstərir ki, məktəbəqədər yaşda bəzi uşaqlar necə davranmağı sadə şəkildə bilsə də bəzən bildiyi kimi hərəkət etmir. Bəzən də düzgün davranır, lakin belə davranışa aid qaydanı izah etməkdə çətinlik çəkir. Buna

görə də məktəbəqədər təhsil müəssisələrində uşaqlar məktəbə gedənə qədər onlarda davranış qaydaları haqqında düzgün anlayış yaradılmasına çalışmaq və buna nail olmaq lazımdır. Onların yaş və anlaq səviyyəsini nəzərə alınmaqla bu anlayışa müvafiq davranmaq, hərəkət etmək vərdişləri formalaşdırılması zəruridir. Bunlar əqidənin ilk elementlərinin yaradılmasına səbəb olduğundan bunu uşaqlarda kiçik yaşlardan formalaşdırılması olduqca vacibdir.

Uşaq elə tərbiyə edilməlidir ki, rəftar və münasibəti, yoldaşları ilə ünsiyyəti mövcud əxlaq normalarına davranış qaydalarına uyğun olsun və nəyin necə olduğunu, onların mahiyyətini anlaya bilsin. Etdiyi hərəkəti şüurlu surətdə dərk etsin.

## ƏDƏBİYYAT

1. Mursaqulova R., Rüstəmova N. Məktəbəqədər pedaqogika. Dərslik. Bakı: ADPU, 2012.
2. Əliyeva Ş.Q. Məktəbəqədər təhsilin aktual problemləri. Monoqrafiya. Bakı: Elm, 2010.
3. Abdulov R.Sənin Sosial fəallığın. Bakı, 1998
4. Əlizadə. Ə. Sosial Pedaqogikanın aktual probl emləri elmləri. Bakı 1998

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.2**

**M.Fərzalı**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: mfrzli@bk.ru

# MÜXTƏLİF FƏALİYYƏT PROSESLƏRİNDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL İNKİŞAFI

***Açar sözlər:*** *məktəəqədər, uşaq, sosial, şəxsi*

Məktəbəqədər yaşlı uşaqların sosial inkişafının əsas komponentləri – sosial təcrübənin olması, sosial-məna oriyentasiyası, mədəni-yaradıcılıq, müxtəlif fəaliyyət növlərinin funksiyalarıdır. Bu funksiyaların psixoloji mexanizmləri yamsılama, refleksiya, emosional eyniləşdirmə, reflektor, normativ və induktiv tənzimləmə, qiymətləndirmə və özünüqiymətləndirmədir.

**M.Фарзали**

## СОЦИАЛЬНОЕ РАЗВИТИЕ ДОШКОЛЬНИКОВ В РАЗНЫХ ВИДАХ ДЕЯТЕЛЬНОСТИ

***Ключевые слова:*** *дошкольное, социальное, личностное, ребенок*

В статье раскрывается сущность социального развития старшего дошкольника, его включение в систему общественных отношений. Описывается процесс социального развития дошкольников, который включает различные виды деятельности, отличаются выдвигаемые требования, реализуемые в дошкольных образовательных учреждениях и обязательный минимум содержания куррикулума, разъясняются задачи, стоящие перед педагогами.

**M.Farzali**

## PRESCHOOL AGED IN DIFFERENT ACTIVITIES SOCIAL DEVELOPMENT OF CHILDREN

***Key words:*** *pre-school, social, private, child*

This article deals with content of the social development of the pre-scool pupils, their including of the public relations. Process of the social-personal improvement, which includes various types of activities is described in the article. Requiment realized in pre-school proqrammes, teachers aims are discussed in the article, too.

Sosial inkişaf prosesi zamanı uşaq yaşadığı cəmiyyətin dəyərlərini, ənənələrini, mədəniyyətini mənimsəyir. Oynayarkən, məşğul olarkən,

böyüklərlə və yaşıdları ilə ünsiyyətdə olarkən o, digər insanlarla yaşamağı, onların maraqlarını, cəmiyyətdə qəbul olunmuş davranış norma və qaydalarını nəzərə almağı öyrənir, yəni sosial cəhətdən bacarıqlı olur".

Kiçik vətəndaşın sosial inkişafına nə təsir edir? Şübhəsiz ki, bu prosesin kökləri ilk öncə ailə ilə bağlıdır. Axı məhz ailə bilikləri, dəyərləri, münasibətləri, ənənələri nəsildən-nəslə ötürür. Ailədə olan abu-hava, uşaq və valideynlər arasında olan isti münasibətlər, ailə daxilində qəbul olunmuş və valideynlərin öz uşaqlarına ötürdüyü norma və qaydalarla təyin olunan tərbiyə üslubu – bunların hamısı körpənin ailədəki **sosial** inkişafına böyük təsir göstərir. Lakin uşaq uşaq bağçasına gedirsə, o günün çox hissəsini orada keçirir və bu zaman onun sosiallaşması prosesinə tərbiyəçilər və uşaq bağçasının digər işçiləri də cəlb olunur.

Qrupun tərbiyəçisi uşaq üçün çox vacib bir insandır. Uşaq ona etibar edir, onun şübhəsiz nüfuza, mümkün olan bütün müsbət keyfiyyətlərə – gözəlliyə, xeyirxahlığa, müdrikliyə malik olduğuna inanır. Bu təəccüblü deyil, çünki uşağın uşaq bağçasındakı həyatı bütövlükdə Əsas Böyükdən asılıdır.

Uşağın sosial inkişafının əsas şərtlərindən biri cəmiyyətin inkişafı, münasibətlərin qurulması, yaşıdları ilə dostluq münasibətlərinin formalaşmasıdır.

Ünsiyyət insanlar arasında olan qarşılıqlı təsir prosesidir Həyatının ilk altı ili ərzində uşaqlarla böyüklər arasında bir neçə ünsiyyət forması ardıcıl olaraq yaranır və bir-birini əvəz edir.

Ilk öncə, uşağa ən yaxın olan böyüklərlə bilavasitə-emosional ünsiyyət yaranır. Bu ünsiyyətin əsasında uşağın ətrafdakılar tərəfindən diqqətə və özünə qarşı xeyirxah münasibətə olan tələbatı durur. Körpənin böyüklərlə ünsiyyəti hər hansı digər fəaliyyətdən kənar baş verir və bu yaşda olan uşağın aparıcı fəaliyyətini təşkil edir. Əsas ünsiyyət vasitələri mimik hərəkətlərdir.

6 aylığından iki yaşına kimi uşaqlarla böyüklər arasında situativ-işgüzar ünsiyyət forması yaranır. Bu ünsiyyət formasının əsas xüsusiyyəti uşaq və böyüyün praktik qarşılıqlı təsiridir. Diqqət və xeyirxahlıqdan əlavə, uşaq həm də böyüyün əməkdaşlığına ehtiyac duymağa başlayır (uşağı köməyə çağırmaq, müştərək işə cəlb etmək və s.). Bu, uşağa əşyaları tanımaqda, bu əşyalarla davranış üsullarını mənimsəməkdə kömək edir.

Situasiyadankənar-idraki ünsiyyət forması üç yaşından beş yaşına kimi davam edir. Üçüncü ünsiyyət formasının təzahür olunma əlamətləri uşaqda əşyalar, onlar arasında olan müxtəlif qarşılıqlı əlaqələr barədə sualların yaranması ola bilər. Bu mərhələdə ən mühüm ünsiyyət vasitəsi nitqdir, çünki yalnız nitq konkret situasiyanın hüdudlarından kənara çıxmaq üçün imkanlar açır. Bu ünsiyyət növü zamanı, uşaq böyüklərlə əşyaları və ətraf aləmdə baş verən hadisələri müzakirə edir. Bu, kitab oxumaq xahişi, müxtəlif suallar, oxuduqları, gördükləri, fantaziyaları haqqında danışdıqları ola bilər. Bu

ünsiyyət tipinin əsas motivi uşağın yeni informasiya almaq və ya ətraf aləmdə baş verən müxtəlif hadisələrin mümkün səbəblərini müzakirə etmək məqsədi ilə böyüklərlə ünsiyyətə can atmasıdır.

5-6 yaş arası dövrdə situasiyadankənar-şəxsi ünsiyyət forması mövcuddur. Bu forma uşaqlara insanların sosial aləmini dərk etməkdə kömək edir. Bu ünsiyyət növü müstəqil şəkildə mövcuddur və kommunikativ fəaliyyəti əks etdirir. Aparıcı motivləri şəxsi motivlərdir. Bu ünsiyyət forması zamanı müzakirə obyekti insandır. Bu ünsiyyət formasının əsasında uşağın emosional dayağa olan tələbatı, onun qarşılıqlı anlaşmaya və hisslərini bölüşməyə can atması durur.

Hər bir mərhələdə olan ünsiyyət bilik və bacarıqların müəyyən səviyyədə olmasını, yəni vərdişin olmasını tələb edir. Kiçik insanın nəzərində böyüklər yüksək səriştəyə malikdir və onun üçün nümunədirlər. Uşaq böyüyün davranış normaları və qarşılıqlı təsir üslubunu təbii olaraq qəbul edir və özünün ünsiyyət üslubunu analoji şəkildə qurur. Bu prosesdə uşağın yaşıdları böyük rol oynayır. Buna görə də, tərbiyəçi ünsiyyət prosesini nə cür qurmalı olduğunu bilməli, uşaq kollektivində olan ümumi şəraiti xarakterizə edən müsbət abu-havanı yaratmağı bacarmalıdır. Uşaq kollektivində olan ümumi şərait aşağıdakılarla təyin olunur:

1. tərbiyəçi ilə uşaqlar arasında olan münasibətlərlə;
2. uşaqlar arasında olan münasibətlərlə.

Uşaqlar fərdiliklərini qoruyaraq özlərini sərbəst hiss etdikdə, lakin bu zaman başqalarının da öz fərdiliyini qorumaq hüququna hörmət etdikdə, qrupda əlverişli şərait yaranır. Tərbiyəçi qrupda olan mikroiqlimə güclü təsir göstərir. Məhz o, uşaqlarla bərabərhüquqlu mövqe tutaraq qrupda sərbəstlik, səmimilik şəraitini yaradır. Şübhəsiz ki, bərabərhüquqlu dedikdə, biz tam bərabərlikdən danışmırıq. Bərabərhüquqlu ünsiyyət üçün məkanın təşkili mühüm əhəmiyyət kəsb edir. Xüsusən də, uşaqla qarşılıqlı təsir zamanı pedaqoq "hamıya bir gözlə baxmaq" mövqeyindən istifadə etməlidir. Bu mövqe pedaqoqun dominantlığını müstəsna edir. Bundan başqa, uşaqlarla məşğələləri, söhbətləri təşkil edərkən elə şəkildə oturmaq və ya durmaq lazımdır ki, partnyorların hamısı bir-birinin gözlərini görə bilsin (optimal variant dairə formasıdır).

Qrupda müsbət mikroiqlim yaratmaq üçün uşaqların bir şəxsiyyət olaraq hissləri ilə, əhvalı ilə, düşüncələri ilə səmimi şəkildə maraqlanmaq lazımdır. Biz özümüz uşaqların bizə olan münasibətinə laqeyd olmamalı və öz növbəmizdə onlara hörmətlə yanaşmalıyıq, belə ki, bu zaman uşaqlar özlərinin sevimli, istəkli olduğunu hiss edir.

Uşaqlarla ünsiyyətdə olarkən tərbiyəçi sadəcə olaraq ünsiyyət qurmağı bacaran insan deyil. Ünsiyyət zamanı səriştənin olması pedaqoqun peşəkarlığından xəbər verir. Uşağın sosial inkişafına nə cür kömək etmək olar?

Birincisi, onların müxtəlif oyun formalarını dəstəkləmək lazımdır. Axı

məktəbəqədər yaş dövründə oyun aparıcı fəaliyyət formasıdır, ünsiyyət isə onun bir hissəsi və şərtidir. Bu yaşda, uşağı ilk dəfə olaraq şəxsiyyət adlandırmağa əsas verən nisbətən dayanıqlı daxili aləm əldə olunur. Bu şəxsiyyət tam kamilləşməsə də gələcəkdə inkişaf etməyə və təkmilləşməyə qadirdir.

Məhz oyun zamanı uşağın, onun bütün psixi proseslərinin, emosional sahəsinin, sosial bacarıq və vərdişlərinin inkişafı baş verir. Oyunun digər fəaliyyət növlərindən fərqi ondan ibarətdir ki, oyun nəticəyə deyil, prosesin özünə istiqamətlənir və oyun zamanı uşaq bu prosesin özündən həzz alır. Uşaq üçün oyun prosesi kifayət qədər cəlbedicidir. Çox zaman biz məktəbəqədər yaşlı uşaqların eyni oyunu uzun müddət oynadığını, onu dəfələrlə təkrar etdiyini və bunun növbəti gün, həftə, ay və hətta, il ərzində baş verdiyini görürük.

Təxəyyülündə olan şəraiti yaradaraq, oyuncaqlardan, əvəzedici əşyalardan istifadə edən və böyüklər arasında olan qarşılıqlı münasibətləri canlandıran uşaq sosial aləmə qoşulur, onun iştirakçısına çevrilir. Məhz oyun zamanı uşaqlar münaqişələri həll etməyi öyrənir, yaşıdları ilə ünsiyyət zamanı öz mövqeyini tapır, oyun tərəfdaşlarına dayaq olur, müsbət və mənfi rəyini bildirir və onlar tərəfindən də eyni münasibətlə qarşılaşır, yəni oyun zamanı uşaqlarda adekvat qarşılıqlı təsir üsulları formalaşır.

Oyun qaydalarının, rolların, süjet xətlərinin və s. sürətlə ötürüldüyü uşaq cəmiyyəti oyunun təşkil olunmasında mühüm rol oynayır. Lakin uşaqlar oynamağı, rolu qəbul etməyi, süjeti inkişaf etdirməyi bacarmırsa, pedaqoq öz üzərində düşünməlidir. Oyun bütöv təlim-tədris prosesinin nəticəsi, tərbiyəçinin siması, onun əməyinin, peşəkarlığının göstəricisidir.

Məşğələlər, oyunlar, çalışmalar, cəmiyyətlə tanışlığa istiqamətlənən söhbətlər, ədəbiyyatla, incəsənətlə, musiqi ilə tanışlıq, şəxsiyyətlərarası münaqişələrin müzakirə olunması, uşaqların əxlaqi cəhətdən müsbət hərəkətlərinin, bir-birinə qarşılıqlı kömək etmələrinin, əməkdaşlıqlarının dəstəklənməsi, uşağın mənliyini alçaltmamaq şərti ilə onun davranışına nəzarət uşağın sosial inkişafına səbəb olur.

## ƏDƏBİYYAT

1. Abdulov R.Sənin sosial fəallığın. Bakı, 2002
2. ƏlizadəƏ.Sosial pedaqogikanın aktual problemləri emləri. Bakı, 1998
3. Андреева Г.М.Социальная педагогика. М.1998
4. Кон И.С. Ребенок и общество.М.1998

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 16.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.2.016**

**V.Mahmudova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: mvusala1994@bk.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL İNKİŞAFI

***Açar sözlər:*** *məktəbəqədər, sosial, prinsip, şəxsi, uşaq*

Şəxsiyyətin inkişafı həmin şəxsiyyətin davranış və idrakında baş verən dəyişikliklərin ardıcıl və irəliləyən şəkildə baş verməsidir. Sosial inkişaf bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda olan və uşağın sosiomədəni mühitə daxil edilməsinə istiqamətlənmiş iki prosesin: sosiallaşma və interiorizasiya proseslərinin nəticəsi prosesidir. Həyat təhsil və tərbiyənin nəzəriyyə və təcrübəsi qarşısına ənənəvi-müasir şəraitdə nəyi və necə öyrətmək suallarından başqa, prioritet problem də çıxarır: tarixi inkişafın bu mərhələsində cəmiyyətin tələblərinə cavab verə biləcək insanı nə cür formalaşdırmalı? Bu səbəbdən də biz bu gün uşağın şəxsiyyətinə, onun formalaşmasına təsir edən proseslərin təhlilinə müraciət edirik.

**В.Махмудова**

## СОЦИАЛЬНО-ЛИЧНОСТНОЕ РАЗВИТИЕ ДОШКОЛЬНИКОВ

***Ключевые слова:*** *дошкольное, социальное, личностное, ребенок, принципы*

В статье раскрывается сущность социального развития дошкольника, его включение в систему общественных отношений. Описывается процесс социально-личностного развития дошкольников, который включает различные виды деятельности, отличаются выдвигаемые требования, реализуемые в дошкольных образовательных учреждениях и обязательный минимум содержания программы (проекта стандарта дошкольного образования), разъясняются задачи, стоящие перед педагогами.

**V.Mahmudova**

## PRE-SCHOOL ADULT SOCIAL PRIVATE DEVELOPMENT OF THE CHILDREN

***Key words:*** *pre-school, social , principle, private, child*

This article deals with content of the social development of the pre-school pupils, their includinq of the public relations. Process of the social-personal improvement, which includes various types of activities is described in the article. Requiment realized in pre-school proqrammes (standards of the pre-school education), teachers aims are discussed in the article, too.

Tərbiyə ictimai və mədəni həyatda aktiv iştiraka hazırlanması məqsədi ilə şəxsiyyətin məqsədyönlü, sistematik şəkildə formalaşdırılması prosesidir.

İnteriorizasiya prosesi nəticəsində uşaq sosial reallıqdan mənimsədiyi yeni şəxsi keyfiyyətlər əldə edir. [4,45]

Şəxsiyyətin inkişafı həmin şəxsiyyətin davranış və idrakında baş verən dəyişikliklərin ardıcıl və irəliləyən şəkildə baş verməsidir.

Sosial inkişaf bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda olan və uşağın sosiomədəni mühitə daxil edilməsinə istiqamətlənmiş iki prosesin: sosiallaşma və interiorizasiya proseslərinin nəticəsi prosesidir.

Həyat təhsil və tərbiyənin nəzəriyyə və təcrübəsi qarşısına ənənəvi - müasir şəraitdə nəyi və necə öyrətmək suallarından başqa, prioritet problem də çıxarır: tarixi inkişafın bu mərhələsində cəmiyyətin tələblərinə cavab verə biləcək insanı nə cür formalaşdırmalı? Bu səbəbdən də biz bu gün uşağın şəxsiyyətinə, onun formalaşmasına təsir edən proseslərin təhlilinə müraciət edirik.

Müasir cəmiyyət "özünü" və həyatda öz yerini tapmağa, milli mənəvi mədəniyyəti bərpa etməyə qadir olan mənəvi cəhətdən dayanıqlı, sosial cəhətdən uyğunlaşmış, özünüinkişafı və özünütəkmilləşdirməyi bacaran təşəbbüskar cavan insanların olmasını tələb edir. Şəxsiyyətin əsas keyfiyyətləri insan həyatının ilk illərində formalaşır, bu isə o deməkdir ki, yuxarıda sadalanan keyfiyyətlərin böyüyən nəslə aşılanması və tərbiyəsi məsuliyyəti əsasən ailənin və məktəbəqər təhsil müəssisələrinin üzərinə düşür.

Bununla bağlı olaraq, sosial inkişaf problemi - uşağın ətraf aləmlə qarşılıqlı təsirdə olaraq inkişaf etməsi - müasir mərhələdə xüsusilə aktualdır.

Sosial bacarıqların inkişaf etdirilməsi - uşağın ictimai həyat və ictimai münasibətlər təcrübəsini mənimsəməsi prosesində onun sosiallaşmasının vacib və zəruri mərhələsidir. İnsan öz təbiətinə görə ictimai məxluqdur. Kiçik uşaqların cəmiyyətdən məcburi şəkildə təcrid olunması ("mauqli" uşaqlar) hallarının hamısı göstərir ki, bu cür uşaqlar heç bir zaman cəmiyyətin tam dəyərli üzvünə çevrilmir: onlar insanların nitqini, elementar ünsiyyət, davranış formalarını mənimsəyə bilmir və başqalarından tez ölürlər.

Məktəbəqədər təhsil müəssisələri şəraitində sosial-pedaqoji fəaliyyət uşaq, pedaqoq və valideynlərə öz individuallığını inkişaf etdirməyə, öz psixoloji vəziyyətini yaratmağa kömək edən; ünsiyyət zamanı yaranan problemləri həll etməyə və aradan qaldırmağa kömək edən, həmçinin, kiçik insanın cəmiyyətdə formalaşmasına kömək edən pedaqoji və psixoloji fəaliyyətin vəhdətidir.

Hal-hazırda məktəbəqədər təhsil müəssisələrində yaranan real vəziyyətin təhlili göstərir ki, yeni tərbiyə proqramları üzrə çalışan təcrübəçi-pedaqoqlar, bu proqramların nə qədər yaxşı hazırlanması və təmin olunmasına baxmayaraq, məhz uşaqların sosial inkişafı istiqamətinin həyata keçirilməsində müəyyən çətinliklərlə qarşılaşır. Bunun səbəbləri aşağıdakılardan irəli gəlir:

Birincisi, insan ətrafdakı reallıqla birlikdə dəyişir, lakin bu dəyişikliklər ətraf

aləmin dəyişmə sürətinə uyğunlaşmır. Böyüklər yeni şəraitdə öz həyat tərzini, dəyərlərini, fəaliyyət üslubunu şəraitə uyğun olaraq dəyişməli olduğunu dərk etsə belə, çox zaman bunu etmək iqtidarında olmur və sadəcə olaraq baş verən dəyişikliklərə uyğunlaşırlar. Böyüməkdə olan nəsil isə həyatın reallığını olduğu kimi qəbul edir. Böyüklər və uşaqlar arasındakı məhz bu fərq bu günün ən böyük problemlərindən biridir. Belə ki, tərbiyəni böyüklər verməlidir. Onların əksəriyyəti isə müasir həyata uyğunlaşa bilmir.

İkincisi, uşaqların sosial inkişafı mürəkkəb, ziddiyyətli və kompleks xarakter daşıyan bir prosesdir: şəxsiyyətin mənəvi trbiyəsinin əsaslarının, intellektinin, hisslərinin inkişaf etdirilməsi məsələləri bir-biri ilə qarşılıqlı əlaqə şəklində həll olunur və birini o birindən ayırmaq mümkün deyildir. Bu səbəbdən də, uşağın sosial münasibətlər aləminə gətirilməsinə istiqamətlənmiş pedaqoji prosesin təşkili pedaqoqdan xüsusi ustalıq, uşaqlara yaxşı bələd olmasını, bu işə şəxsi münasibətinin olmasını tələb edir.

Üçüncüsü, bizim cəmiyyətdə uşaqların sosial inkişafına olan yeni yanaşma və bu istiqamətdə aparılan işlər pedaqoqların sosiallaşma prosesinin mahiyyətini, həmçinin, mürəkkəb psixogen mexanizmləri (özünüdərketmə, özünəmünasibət, özünüinkişaf və s.) və şəxsiyyətin inkişafında onların rolunu anlamasına əsaslanır. Bu zəruri psixoloji biliklərə müstəqil şəkildə yiyələnmək çox çətindir.

Dördüncüsü, məktəbəqədər yaşlı uşaqların inkişaf etdirilməsi və tərbiyə olunması istiqamətli müasir variativ proqramların hər biri işin bu istiqamətdə həyata keçirilməsində dəqiq metodiki tövsiyələr vermir. Bir sıra proqramlar yalnız sosiallaşmanın ümumi məsələləri ilə məhdudlaşır. Bununla əlaqədar olaraq, pedaqoqun qarşısında "proqramı real pedaqoji proses dilinə tərcümə etmək" və məşğələ metodikasının seçimi, inkişafetdirici mühit və fəaliyyətin təşkilinin seçimi məsələlərinə yaradıcı şəkildə yanaşmaq tələbatı durur.

Yuxarıda yazılanlar məktəbəqədər təhsilin dövlət standartı proyektinin uşaqların sosial inkişafı sahəsində olan tələbatlarını həyata keçirmək işini xeyli çətinləşdirir.

Buna görə də, məktəbəqədər təhsil müəssisələri pedaqoqları ilə aparılan metodik işin əsas aspekti aşağıdakı məsələlərin həllinə yönəlmiş fəaliyyət olmalıdır:

1. Uşaqların sosial inkişafı sahəsində pedaqoqların peşəkar bacarıqlarının kurs hazırlıqları, seminar-praktikumlar, bu problemə həsr olunmuş dairəvi masalar vasitəsilə artırılması.

2. Məktəbəqədər təhsil müəssisələri pedaqoqları üçün uşaqların sosial inkişafı probleminin mahiyyətini, onun optimallaşdırılmasının metod və yollarını açıqlayan metodik tövsiyyələrin işlənib hazırlanması.

3. Həmin istiqamətdə təklif olunan yeni iş formalarının, yeni proqramların təqdir edilməsi.

4. Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoqlar üçün uşaqlar və

pedaqoq, uşaqlar və valideynlər arasındakı qarşılıqlı təsir üslubunun dəyişdirilməsinə istiqamətlənmiş treninq və seminarların təşkili.

5. Məktəbəqədər təhsil müəssisələrinin pedaqoji kollektivin uşaqların sosial inkişafı mövzusuna dair yeni proqramlar, texnologiyalar, metodiki vəsaitlərlə məlumatlandırılması və tanış edilməsi.

6. Uşaqların sosial inkişafı proqramı mövzusunda şəxsi metodiki paketini yaratmaq təşəbbüsü göstərən, lakin bunun üçün kifayət qədər materialı olmayan pedaqoqların təqdir edilməsi və onlara metodiki köməkliyin göstərilməsi.

7. Uşaqların sosial inkişafı probleminin yeni optimal həlli yollarının axtarılması məqsədi ilə, həmin problemlə bağlı dərindən çalışan məktəbəqədər təhsil müəssisələri arasında təcrübə mübadiləsinin həyata keçirilməsini təşkil etmək.

8. Uşaqların sosial inkişafının nəticələrinin monitorinqi metodikasının işlənib hazırlanması. Bu prosesin effektivliyinin izlənməsi.

9. Həmin problem üzrə məlumat mərkəzinin yaradılması və buraya şəhərin müxtəlif təhsil müəssisələrinin təcrübəsinin daxil edilməsi.

10. Uşaqların sosial inkişafı sahəsində qabaqcıl təcrübənin yayılması.

Məktəbəqədər yaşlı uşağın sosial inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsi.

Sosial inkişafın bünövrəsi erkən və məktəbəqədər yaş dövründə qoyulur və daha intensiv şəkildə inkişaf edir. Uşağın digər insanlarla ilk ünsiyyət təcrübəsi onun şəxsiyyətinin sonrakı inkişafının bünövrəsi hesab olunur. Bu ilk təcrübə insanın özünüidrak xüsusiyyətlərini, onun dünyaya olan münasibətini, insanlar arasında davranışını müəyyənləşdirir. Son zamanlar gənclər arasında müşahidə olunan neqativ halların (qəddarlıq, aqressivlik, soyuqluq və s.) bir çoxunun kökü erkən və məktəbəqədər yaş dövrünə təsadüf edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş) Təhsil Nazirliyinin 10 iyul 2012-ci il.
2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Dövlət standartı və proqramı. Bakı, 2010.
3. Əliyeva Ş.Məktəbəqədədər təhsilin aktual problemləri. Bakı, ADPU, 2010.
4. Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: "АРКТИ", 2006.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Şəhla Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 374.31**

**G.Qənbərova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: angsi340@mail.ru

# TƏRBİYƏÇİ SƏRİŞTƏLİLİYİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *tərbiyəçi; səriştəlilik; yaradıcı fəaliyyət; təşkilatçılıq; ünsiyyət*

Tərbiyəçinin pedaqoji səriştəyə malik olması onun müvəffəqiyyət qazanmasının əsasını təşkil edir. Səriştəlilik tərbiyəçinin fəaliyyət prosesində bir sıra keyfiyyətlərə və qabiliyyətlərə malik olması və onu həyata keçirə bilməsidir.

Bunlar tərbiyəçinin analitik təfəkkürə malik olmaqla hadisə və prosesi təhlil edib, qiymətləndirə bilməsi, səmimi ünsiyyət yarada bilməsi, milli mədəniyyətə, milli və başəri dəyərlərə malik olması, uşaqların fərdi xüsusiyyətlərini nəzərə alması, tərbiyəçilik məharətinə malik olması və s. ibarətdir.

**Г.Ганбарова**

# СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ КОМПЕТЕНТНОСТИ ВОСПИТАТЕЛЯ

***Ключевые слова:*** *воспитатель, компетентность, творческая деятельность, организация, общение*

Педагогическая компетентность учителя является основой его успеха в его работе. Компетентность - это способность наставника иметь ряд качеств и способностей в процессе исполнения и реализовать его. Для педагога важно проанализировать событие и процесс с аналитическим мышлением, оценивать, искренне общаться, иметь национальную культуру и человеческие ценностии, учитывать индивидуальные особенности детей, обладать навыками воспитания и т. д.

**G.Qanbarova**

## THE SPECIFIC FEATURES OF THE COMPETENCE OF THE TEACHER

***Key words:*** *kindergarten teacher, competence, creative activity, organizing, communication*

Teacher's pedagogical competence is the basis for his success in his work. Skillfulness is that a trainee has a number of qualities and abilities in the process of operation. It can do it. It is important for the educator to analyze the event and process with analytical thinking, must evaluate, sincere communication, have got a national culture and human values, to take into account the individual characteristics of children, having the skills of upbringing and so on.

Tərbiyəçi üçün səriştəlilik mühüm pedaqoji keyfiyyətdir. Səriştəlilik tərbiyə-çinin gördüyü bütün təlim-tərbiyə işlərini daha əlverişli metodlarla, daha optimal variantı seçməklə apara bilməsi, həyata keçirməsidir. Bu baxımdan səriştəlilik məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllimlərin müvəffəqiy-yətlə işləməsinin fəaliyyətində uğurlar əldə etməsinin əsas amillərindən biri hesab olunur.

"Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"n-da bu münasibətlə deyilir: "Səriştəlilik əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandıqları bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir (1).

Tərbiyəçi səriştəliliyi ondan xüsusi qabiliyyət və məharət tələb edir. Tərbiyəçi olmaq, kiçik yaşlı uşaqlarla işləmək nə qədər məsuliyyətli, nə qədər çətindirsə, onun səriştəli olması da bir o qədər lazımdır və əhəmiyyətlidir.

Tərbiyəçinin fəaliyyətinin özünəməxsusluğundan irəli gələrək onun səriştəli-liyi bir sıra spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər hər bir tərbiyəçini öz işinin həqiqi ustası, bilicisi kimi xarakterizə edir.

Tərbiyəçi fəaliyyəti yaradıcı fəaliyyətdir. O hazır göstərişlərlə işlədikdə fəaliyyətin yeknəsəqliyi yaranır ki, bu da onun bacarıq və səriştəsinin bütünlüyü ilə üzə çıxmasına imkan vermir. Buna görə də tərbiyəçi özünün gündəlik fəaliyyətinə yaradıcı yanaşmaqla, qabaqcıl təcrübədən faydalanmaqla və işlərinə yenilik gətirməklə öz işində müvəffəqiyyət qazana bilər.

Tərbiyəçi müntəzəm olaraq nəzəri və praktik hazırlığını artırmalı, elmi-pedaqoji yenilikləri izləməlidir. Bununla yanaşı, tərbiyə nəzəriyyəsi və texnologi-yaları haqqında biliyə və bacarığa malik olmalı, uşaqlarla aparılacaq

tərbiyə işlərinin metodikasına yiyələnməlidir.

Tərbiyəçinin fəaliyyət dairəsi olduqca həm geniş, həm də rəngarəng xarakter daşıyır. Tərbiyəçi səriştəli olduqda onun apardığı təlim-tərbiyə fəaliyyəti də maraqlı, məzmunlu və səmərəli olur. Bu baxımdan tərbiyəçilər öz üzərlərində müntəzəm oaraq çalışmalı, bilik və vərdişlərini artırmaq qayğısına qalmalıdırlar.

Elmi-pedaqoji ədəbiyyatlarda müəllim səriştəliliyinə dair müəyyən qədər fikirlər olsa da, tərbiyəçi səriştəliliyinə aid tədqiqatlara az hallarda rast gəlinir. Prof.M.İ.İlyasov müəllim səriştəliliyi haqqında yazır: "Müəllim səriştəliliyinin bəzən ilk baxışda nəzərə çarpmayanelə vacib tərəfləri vardır ki, səriştəlilik modelində onları hökmən nəzərə almaq lazım gəlir. Bunlar aşağıdakılardan ibarətdir: təşkilatçılıq, müşahidəçilik, pedaqoji təxəyyül, humanizm" (2, 108). Fikrimizcə bunlar bütünlüklə tərbiyəçi səriştəliliyinə aiddir.

A.M.Nəzərov və Məmmədov R. "Pedaqoji ustalıq" (mühazirə xülasələri) adlı kitabda tərbiyəçinin malik olmalı keyfiyyətlərin aşağıdakılardan ibarət olduğunu göstərirlər:

- yaradıcı təfəkkür üslubu;
- təfəkkür çevikliyi;
- təfəkkür konkretliyi;
- təfəkkür sistemliliyi;
- həddi gözləyə bilmək;
- ünsiyyətə girə bilmək və faktı gözləmək (3,21).

Məktəbəqədər yaşlı uşaqlar daim inkişafdadırlar. Onların bu inkişafının düzgün istiqamətləndirilməsi, təhsilin və tərbiyənin uşaqyönümlülüyünün və şəxsiyyətyönümlülüyünün təmin olunması tərbiyəçinin səriştəliliyindən çox asılıdır. Tərbiyəçinin pedaqoji prosesi təşkil edə bilməsi, uşaqları düzgün tərbiyə etməsi, onları bir şəxsiyyət kimi inkişaf etdirməsi və formalaşdırması onun səriştəliliyi ilə bilavasitə bağlıdır. Ona görə də tərbiyəçinin öz səriştəliliyin artırılması, inkişaf etdirilməsi üzərində müntəzəm işləməsi vacibdir.

Tərbiyəçinin pedaqoji fəaliyyətinin özünəməxsus cəhətlərini nəzərə alaraq onun malik olduğu səriştəlilik keyfiyyətlərini aşağıdakı kimi sistemləşdirmək olar:

1. Analitik təfəkkürə malik olmaq. Tərbiyəçi müasir dövrdə təhsilin, o cümlədən məktəbəqədər təhsilin əsas məqsədi, başlıca hədəfləri və bu sahədə qarşıda duran vəzifələri aydın dərk etməli, mövcud vəziyyətin necəliyini bilməli, hadisə və prosesləri təhlil edərək müvafiq nəticələr çıxarmağı bacarmalıdır. Görəcəyi proqnozlaşdıra bilməli, gənc nəslin tərbiyəçisi kimi məsul bir vəzifə daşımağın məsuliyyətini dərk etməlidir. Uşaqların tərbiyə və inkişafı üçün görməli olduğu işləri aydın təsəvvür etməlidir.

2. Ünsiyyət yarada bilmək və ünsiyyətcil olmaq. Tərbiyəçi uşaqlarla daim ünsiyyətdə olduğundan onun ünsiyyətin əlverişli (demokratik, emosional,

uşaqların yaş və fərdi xüsusiyyətlərinə uyğun) tərzlərindən istifadə etməklə uşaqlarla yaxından ünsiyyətdə olmalıdır. Uşaqlarda ətraf təbiət və cəmiyyət hadisələrinin mahiyyəti haqqında təsəvvür yaratmaq, uşaqların məktəb həyatına hazırlanması, onlarda həyat haqqında sadə təsəvvürlərin formalaşdırılması və doğma dilimizin incəliklərini onlara mənimsətməkdə ünsiyyətin bu tərzlərindən istifadənin böyük əhəmiyyəti vardır.

Tərbiyəçinin demokratik ünsiyyət tərzinə malik olması uşaqlarla əməkdaşlıq, qarşılıqlı hörmət, onların maraqlandırılması və stimullaşdırılması, onlarda tələbatların və motivlərin yaradılması üçün də olduqca əlverişlidir.

3. Milli mədəniyyətə, milli və bəşəri dəyərlərə malik olması. Tərbiyəçinin özünün milli mədəniyyətə, mənəviyyata, ümumbəşəri dəyərlərə malik olması olduqca mühümdür. Tərbiyəçi öz ana dinini, milli mənsubiyyətini, milli kimliyini yaxşı bilməli, onu sevməli və uşaqlara sevdirməyi bacarmalıdır. Onun milli-mənəvi dəyərlərimizi qiymətləndirməsi, onun uşaqlara tanıda və sevdirə bilməsi üçün müvafiq metodlar seçə bilməsi və onları uşaqlara çatdırmaq üçün əlverişli priyomlardan və texnologiyalardan istifadə etməsi bu baxımdan əlverişlidir. Tərbiyəçinin səriştəliliyi məhz onda özünü göstərə bilir ki, o, bunları uşaqlarda tərbiyə edə bilir.

4. Uşaqların fərdi psixoloji xüsusiyyətlərini dərindən bilməsi və pedaqoji fəaliyyətində bu biliklərdən və bacarıqlardan yaradıcı surətdə istifadə edə bilməsi. Tərbiyəçi təkcə nəzəri cəhətdən deyil, həm də praktik psixoloq olmalıdır. O, uşaqların psixikasına dərindən bələd olmaqla onların hissinə, emosiyasına, təfəkkürünə, təxəyyülünə təsir edə bilmək qabiliyyətinə malik olmalıdır. Eyni zamanda onların fərdi bacarıq və qabiliyyətlərinin inkişafına kömək etməlidir.

5. Tərbiyəçilik məharətinə yiyələnməyi bacarmalıdır. Bu, tərbiyəçidən həm yüksək bilik, ağıl, həm də yaradıcılıq tələb edir. Tərbiyəçi tərbiyənin prinsipləri, metodları, fomaları, texnologiyaları haqqında geniş biliyə malik olmaqla onları praktik fəaliyyətinə tətbiq edə bilməlidir. Başqa sözlə, tərbiyəçilik məharətinə sahib olmalıdır. Təcrübə göstərir ki, tərbiyənin müvəffəqiyyətlə nəticələnməsinin əsas amillərindən biri tərbiyəçinin onu nə dərəcədə aşılaya bilməsidir. Pedaqogika tarixində böyük tərbiyəçilik məktəbləri yaratmış A.S.Makarenkonun, V.A.Suxomlinskinin və b. təcrübəsi bunu bir daha təsdiq edir. Onların öyrətmə, tərbiyələndirmə məharəti pedaqoji səriştəliliyin çox əlverişli meyarlarından biri kimi böyük nümunədir.

Bu səriştələr tərbiyəçi şəxsiyyəti üçün xarakterik olsa da, kifayətləndirici deyildir. Pedaqoji proses daim dəyişkən, uşaq şəxsiyyəti isə daim inkişafda olduğundan tərbiyəçinin aşağıdakı şəriştələrə də yiyələnməsi olduqca vacibdir:

1. Tərbiyəçi uşaqlarda öyrənməyə, bilməyə maraq, həvəs oyatmağı bacarmalı və tərbiyə etməyi uşaqlarda həmişə maraq yarada bilməlidir.

2. Tərbiyəçi qrupda hər bir uşaq üçün komfort psixoloji iqlimin

yaradılmasına nail olmalıdır. Çalışmalı və buna nail olmalıdır ki, hər bir uşaq onun yanında özünü rahat, azad, xoşbəxt hiss etsin, heç nədən sıxılıb-çəkinməsin.

3. Tərbiyəçi yenilikçi olmalı, daim yeniliyə can atmalıdır. O, yiyələndiyi bilik, bacarı və vərdişləri daim təkmilləşdirmək üçün öz üzərində işləməli və fərdi üslub xəttinə malik olmalıdır.

Tərbiyəçinin pedaqoji səriştəliliyi onun pedaqoji ustalığını xarakterizə edir. Buna görə də tərbiyəçi daim öz üzərində işləməli və öz bacarığını, qabiliyyətini artırmağa çalışmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
2. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı, Elm və Təhsil, 2018.
3. Nəzərov A.M., Məmmədov R. Pedaqoji ustalıq. Bakı,"Müəllim", 2008.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 796:078**

**Z.Vəliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail:zenfira79@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFININ İZLƏNİLMƏSİ VƏ DƏYƏRLƏNDİRİLMƏSİNƏ MÜASİR YANAŞMALAR

***Açar sözlər**: dəyərləndirmə, nailiyyət, təlim mühiti, test*

Bu məqalədə məktəbəqədər yaşlı uşaqların inkişafının izlənilməsi və qiymətləndirilməsindən bəhs edilir. Dəyərləndirmə təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, uşaqların inkişafının izlənilməsi onların mənimsədiklərini, öyrəndiklərini, bildiklərini və onlarda hansı əxlaqi keyfiyyətlərin formalaşdığını müəyyənləşdirməyə şərait yaradır. Nailiyyətlərin dəyərləndirilməsi prosesində uşaqlar hamılıqla iştirak etməlidir. Tərbiyəçi uşaqların nailiyyətlərini izləyib dəstəkləyərkən onların yaş və fərdi, psixi xüsusiyyətlərini mütləq nəzərə almalıdır.

**З.Велиева**

# СОВРЕМЕННЫЕ ПОДХОДЫ К МОНИТОРИНГУ И ОЦЕНКЕ РАЗВИТИЯ ДОШКОЛЬНИКОВ

***Ключевые слова**: оценка, достижение, учебная среда, тест*

В этой статье рассматривается мониторинг и оценка развития дошкольников. Оценивание создаёт условия для усовершенствования процесса обучения – воспитания, повышения продуктивности процесса обучения, исследования развития детей, их усвоения, изучения, знания и определяет формирование у них моральных качеств. Все дети вместе должны участвовать в процессе оценивания достижений. Воспитатель, следя и поддерживая достижения детей, обязательно должен учитывать их возрастные и индивидуальные психические качества.

**Z.Valiyeva**

# MODERN APPROACHES TO MONITORING AND EVALUATION OF THE DEVELOPMENT OF PRESCHOOL AGED CHILDREN

***Key words***: *assessment, achievement, training environment, test*

This article deals with the monitoring and evaluation of the development of preschool children. Assessment improves upbringing training process, raise the effective of training process and creates situation to follow children` s growth, how they appropriate, learn, know and determine to form of morality quality. Children must take part in process of achievement cost. The tutor have to watch and support the children's achievement and take into account their age and individual mental characteristics.

Məktəbəqədər təhsil sahəsində təhsil islahatının həyata keçirildiyi hazırkı şəraitdə pedaqoji kadrlara, xüsusən tərbiyəçilərə olan tələbatlar dəyişir. Şəxsiyyətyönümlü kurikulumların tətbiqi tərbiyəçilərdən uşaqyönümlü fəaliyyət mexanizmlərinin tətbiq olunmasını, ən müasir pedaqoji texnologiyalara istinad olunmasını tələb edir. Bunların daha uğurlu tətbiq olunmasını həyata keçirmək üçün birinci növbədə tərbiyəçilərin müasir şəraitdə fəaliyyəti ilə bağlı aydın təsəvvürə malik olmaları, onların peşəkarlıq və səriştəliliklərinin artırılması vacibdir. Dəyərləndirmə müşahidə prosesi, qeydlərin aparılması, böyümə və inkişafın izlənilməsinin nəticələrinin sənədləşdirilməsidir. Bu, fasiləsiz bir prosesdir və çoxsaylı resurslar cəlb edir.Uşaqlar təlim nailiyyətlərini müxtəlif yolla nümayiş etdirirlər. Münasib qaydada seçilmiş vaxt, uşağın əhval-ruhiyyəsi, verilən sualların xarakteri, məzmunu ilə uşağın tanışlığı, uşağın təlim dilini asanlıqla dərk etməsi nəticələrə əhəmiyyətli dərəcədə təsir göstərir.

Müasir məktəbəqədər təhsildə irəli sürülən qiymətləndirmə strategiyaları kiçik yaşlı uşaqların bilmədiklərini və bacarmadıqlarını təkcə aşkar etməyə deyil, onların bilmədikləri və bacarmadıqlarını göstərməyə yönəldilməlidir. Qiymətləndirmə uşaqda mənfi hisslər oyatmadan, emosional şəraitdə aparılmalı, onda özünəinam hissini artırmalıdır. Fəaliyyət məhsullarının qiymətləndirilməsi uşağın şəxsiyyətinə yönəldilməməli, uşağa sevgi və məhəbbət bəslənilməlidir. Qiymətləndirmə:

- uşaqların bilmədiklərini və ya bacarmadıqlarını aşkar etməyə deyil, bilik və bacarıqlarını göstərməyə xidmət edir;
- tərbiyəçilərin planlaşdırdıqları məşğələlərin və tətbiq etdikləri təlim strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə, habelə məktəbəqədər yaşlı uşaqların nəzərdə tutulan təlim nəticələrinə nail olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaradır;

- uşaqda mənfi hisslər oyatmadan, onun özünəinamını və irəli getmək səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılır;
- uşaqların təlim fəaliyyətinə dair toplanmış müxtəlif formalı dəlillərə əsasən vaxtaşırı aparılır;
- hər bir uşağın xüsusi ehtiyaclarına, öyrənmə üsuluna və inkişaf mərhələsinə həssaslıqla yanaşmanı əks etdirir.

Qiymətləndirmə - məktəbəqədər yaşlı uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və dəyərləndirilməsi prosesidir. Qiymətləndirmə zamanı uşağın hərəkət və davranışları, müəyyən şəraitdə fəaliyyətinin nəticələri qiymətləndirmənin obyektinə çevrilir; qiymətləndirmə zamanı uşağın hərtərəfli inkişafı nəzərə alınır; uşaqlar özlərinin və yoldaşlarının nailiyyətlərinin qiymətləndirilməsi prosesində iştirak edir; uşağın mövcud və əvvəlki nəticələri arasında müqayisə aparılır; uşağın valideynləri və təhsil mütəxəssisləri ilə əlaqə saxlanılır və hər bir uşağın nailiyyətləri müntəzəm olaraq izlənilir.( 2, s.70)

Məktəbəqədər yaşlı uşaqların sərbəst gördüyü və düzəltdiyi hər bir əl işi onun nailiyyəti hesab oluna bilər. Necə hazırlanmasından asılı olmayaraq bu nailiyyətlər tərbiyəçi və valideynlər tərəfindən mütləq dəyərləndirilməlidir. Bu dəyərləndirmə uşağın gələcəkdə daha ciddi fəaliyyət növlərini mənimsəməsi və həyata keçirməsi üçün bir başlanğıc olur ki, təlim-tərbiyənin ahəngdar və uğurlu inkişafı da məhz ondan asılıdır. Məktəbəqədər təhsil müəssisələrində üç növ qiymətləndirmədən istifadə olunur:

1. Diaqnostik (ilkin) qiymətləndirmə - sentyabr-oktyabr aylarında təlim məşğələlərinin əvvəlində uşaqların ilkin inkişaf səviyyələrini, ehtiyaclarını müəyyənləşdirmək məqsədi ilə aparılır.
2. Formativ (cari) qiymətləndirmə – uşaqların ümumi inkişafının müntəzəm izlənilməsi və istiqamətləndirilməsi məqsədilə aparılır.
3. Summativ (yekun) qiymətləndirmə - "summativ" termini ingilis dilində "sum up" , yəni müəyyən müddətin və ya işin yekunu, xülasəsi deməkdir. Bu qiymətləndirmə müəyyən vaxtda aparılmış müşahidələri əhatə edən uşağın inkişafının ümumiləşdirilmiş xülasəsi deməkdir. Məktəbəhazırlıq qrupunda ildə 2 dəfə summativ qiymətləndirmə aparılır. Məqsəd uşaqların nailiyyətlərini qiymətləndirmək, ibtidai təhsilə keçidi asanlaşdırmaqdır.

Diaqnostik qiymətləndirmə zamanı uşaqlar haqqında toplanan məlumat onların inkişafında mövcud olan fərqləri aşkar edir və təlimin planlaşdırılması üçün şərait yaradır. Diaqnostik mərhələdə toplanan məlumatlar gələcəkdə uşağın inkişafının izlənilməsi və müqayisələrin aparılması üçün indikatorlar yaradır.Formativ qiymətləndirmə müntəzəm şəkildə, müəyyən intervallarla gündəlik baş verən qiymətləndirmədir. Məqsəd uşaqların necə öyrənməsini və inkişaf etməsini müəyyənləşdirməkdir. İnkişafa dair yekun hesabat 6 yaşın

sonunda uşağın inkişaf və təliminin qiymətləndirilməsi ilə bağlı hazırlanır. Uşaq bu hesabatla məktəb təliminə hazırlaşır.

Uşağın məktəb təliminə hazırlanması məktəbdə təhsilin ilkin mərhələsində müvəffəqiyyətli təlimə zəmin yaradır.Uşağın təhsilini müvəffəqiyyətlə başa vurması məhz bu başlanğıcdan çox asılıdır. Uşaqların məktəbə hazırlanmasının əsas vəzifəsi:

- Uşağın hərtərəfli: fiziki, əqli, mənəvi, əmək və s. inkişafına hazırlıq
- Məktəbdə öyrənəcəyi fənlərin mənimsənilməsinə hazırlıq

Məktəbə hazırlıq kiçik qruplardan başlanır. Sonralar isə mürəkkəbləşir və məktəbə hazırlıq qrupunda ciddi şəkil alır.

Rus psixoloqu L.S.Vıqotski 6 yaşı təlim üçün – "məktəb yetişkənliyi" yaşı adlandırmışdır.

Məktəbə gedəcək uşağın dərketmə səviyyəsini, təfəkkürünü, mənəvi inkişafını və s. müəyyənləşdirmək üçün tərtib edilən testlər müəyyən tələblərə cavab verməlidir:

- testin yerinə yetirilməsinə çox vaxt sərf olunmamalıdır;
- cavab birmənalı olmalıdır;
- verilən sual düzgün qoyulmalıdır;
- cavab qısa olmalıdır;
- təcrübədə istifadə üçün yararlı olmalıdır və s.

Məktəb yaşına çatmış uşaqları yoxlamaq məqsədilə tərtib edilmiş testlər psixoloji və pedaqoji sınaq növlərindən biridir.

Uşaqları məktəbə hazırlamaq və müxtəlif müsbət keyfiyyətlərin inkişafı və formalaşması məqsədilə testləri aşağıdakı kimi formalaşdırmaq olar:

- idrakın inkişafı üzrə:
- nitq inkişafı üzrə;
- savad inkişafı üzrə;
- ətraf aləmlə tanışlığın inkişafı üzrə;
- sadə riyazi təsəvvürlərin inkişafı üzrə və s.

1. Uşaq şəxsiyyətinin müxtəlif keyfiyyətlərinin inkişafı üzrə:

- hafizənin;
- təfəkkürün;
- xarakterin və s.

2. Uşaq şəxsiyyətinin tərbiyəlilik səviyyəsi üzrə testlər:

- əxlaqi;
- sosial və digər keyfiyyətləri müəyyənləşdirmək və formalaşdırmaq məqsədilə və s.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlarla keçirilən pedaqoji prosesdə yuxarıda sadaladığımız testlərin digər testlərlə əlaqələndirilməsi müsbət səmərə verir və nəticələrin düzgünlüyünü aşkar edir. Bağçalarda təşkil edilən təlim

tərbiyəçinin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü pedaqoji fəaliyyətdir. Təlim prosesində uşaqlar yaşlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnməklə tərbiyə olunur və təhsil alırlar. Uşaqlar üçün hazırlanan testlər təlim, təhsil və uşaq tərbiyəsinin inkişafına uyğun olmalıdır. Müxtəlif fəaliyyət prosesində tərbiyəçi proqram bölmələrini, metodik vəsaitləri və s. mükəmməl öyrənməli, təlimin məqsəd və vəzifələrini yaxşı bilməlidir. Yalnız belə olduqda o, məktəbəqədər yaşlı uşaqlar üçün düzgün pedaqoji tələblərə uyğun testlər hazırlaya bilər.

Uşaqların öyrənmə səviyyəsini yoxlamaq didaktik prosesin bütün mərhələlərində tətbiq olunur. Bunun köməyi ilə bilik, bacarıq və vərdişlərə ilkin, cari, tematik və yekun nəzarət həyata keçirilir, uşaqların inkişafı, nailiyyətləri izlənilir və dəyərləndirilir.

Cari nəzarət uşaqların bilik və bacarıqlarının izlənilməsi, nöqsanların aşkar edilməsinə köməklik edir.Testlər 4-5-dən artıq olmamalı, o, uşaqların əldə etdikləri bilik, bacarıq və əxlaqi keyfiyyətlərin əsas əlamətlərini əhatə etməlidir.

Tematik nəzarət zamanı hazır tapşırıqlardan (testlərdən) istifadə olunması məsləhətdir.

Yekun nəzarət ilin sonunda təkrar şəkildə həyata keçirilir. Məqsəd uşaq bağçası proqramı əsasında keçirilən materialların sistemləşdirilməsi və ümumiləşdirilməsidir.

Məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilər testlər tərtib edərkən ənənəvi və müasir forma və metodları uşaqların yaş və fərdi xüsusiyyətlərinə uyğunlaşdırmalıdır.

Uşaqlar testləri yerinə yetirərkən çətinlik çəkərsə, ona köməklik etmək olar, amma onun əvəzinə icra etmək olmaz. Əgər testlərin nəticələri tam qənaətbəxş deyilsə təəssüflənmək və ya əsəbləşmək olmaz. Tərbiyəçi bunun səbəbini aşkar edib, uşağa əlavə suallarla müraciət edib ona fərdi yanaşmalıdır. 6 yaşa qədər uşaqlar artıq ilin sonunda aşağıdakıları bacarmalıdırlar:

- İdrakın inkişafı:
- Nitq inkişafı üzrə: hərf və səsləri fərqləndirmək; hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən mətnlər qurmaq; dinləyib-anladığı fikrə münasibət bildirmək; şəkillər əsasında fikrini şərh etmək; sadə nitq etiketlərindən istifadə etmək; sadə oxu bacarıqlarını tətbiq etmək; əlamət, keyfiyyət, hiss bildirən və s. sözlərdən istifadə etmək və s.
- Ətraf aləmlə tanışlıq üzrə: canlı və cansız obyektləri düzgün qavramaq; ilin fəsillərində, havada və s. fərqli və oxşar cəhətləri, əlaqələri bilmək; müxtəlif materialları bir-birindən fərqləndirmək; ailə və vətən haqqında sadə biliyə malik olmaq və s.
- Sadə riyazi təsəvvürlərin inkişafı üzrə: on dairəsində sayma, hesablama və ölçməni bacarmaq; hesablama işarələrini, əşyaların uzunluğunu, dairəni, üçbucağı, kvadratı və s. fərqləndirməyi bacarmaq; əşyaları əlamətlərinə, vaxtı saata görə müəyyən etmək və s.

- Uşaq şəxsiyyətinin tərbiyəlilik səviyyəsinə və sosial-emosional inkişafına görə: öz fəaliyyətini sosial normalara uyğunlaşdırmaq; özünə nəzarəti nümayiş etdirmək; hərəkətləri üçün məsuliyyətli olmaq; çətinlikləri qəbul edib, problemlərin həllinə çalışmaq; özünün və başqalarının qayğısına qalmaq, rejimə riayət etmək və s.

Təcrübə göstərir ki, uşağın məktəbə hazırlanması işində tərbiyəçilərlə yanaşı valideynlərin də rolu böyükdür. Bu, pedaqoji maarifin səviyyəsindən çox asılıdır.

## ƏDƏBİYYAT

1. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı, 2002
2. Şirzadova M.H. və b. Altı yaşlı uşaqların məktəbə hazırlığı üçün testlər. Bakı, 2007
3. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşməsi proqramı. Bakı ,2007
4. Azərbaycan Respublikasında təhsil proqramı (kurikulum). Bakı, 2011
5. Rüstəmova N və Mursaqulova R. Məktəbəqədər pedaqogika. Bakı, 2012

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.036**

**G.Nurullayeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: gunel.nurullayeva1990@mail.ru

# UŞAQLARDA MUSİQİ ZÖVQÜNÜN FORMALAŞDIRILMASINDA MUSİQİ MƏŞĞƏLƏLƏRİNİN ROLU

***Açar sözlər:*** *məktəbəqədər yaş, musiqi, musiqi təhsili*

Uşaqlara ümumi musiqi təhsili vermək və onları yüksək musiqi incəsənətinə cəlb etmək, ən yaxşı xalq musiqisi, klassik, xarici, Azərbaycan musiqisi, habelə müasir bəstəkarların əsərləri nümunəsində estetik zövq formalaşdırmaq, "Fəal bədii özfəaliyyət iştirakçılarını, musiqi-estetik biliklərin təbliğatçılarını tərbiyə etmək, böyüməkdə olan nəslin mənəviyyatına dövrümüzün tələbləri ruhunda təkmilləşdirilməsinə kömək etmək – estetik musiqi təhsilinin istiqamətləridir.

**Г.Нуруллаева**

# РОЛЬ ЗАНЯТИЙ ПО МУЗЫКЕ В ФОРМИРОВАНИИ МУЗЫКАЛЬНОГО ВКУСА ДЕТЕЙ

***Ключевые слова:*** *дошкольный возраст, музыка, музыкальное образование*

Предоставлять детям общее Музыкальное образование и привлекать их к высокому Музыкальному искусству для создания эстетического вкуса на примере лучшей народной, классической, зарубежной, азербайджанской музыки, а также произведений современных композиторов, « Обучать активных участников искусства, педагогов музыки и эстетических знаний, помогая улучшить дух нашего времени- это направления музыкально-эстетического воспитания.

**G.Nurullayeva**

## THE ROLE OF MUSIC ACTIVITIES IN FORMING OF MUSIC PLEASURE OF CHILDREN

***Key words:*** *pre-school age, music, musical education*

To give children a common musical education and to attract them to high musical art to create pleasure on the example of the best folk, classical, foreign, Azerbaijani music, as well as contemporary composers works, "To educate active artistic participants, educators of music and aesthic knowledge, helping to improve the spirit of our time – these are the directions of music – aesthetic education

Uşaqların düzgün istiqamətdə inkişafında, gündəlik rejimlərinin formalaşmasında, məktəbəhazırlıqlarında uşaq bağçaları az rol oynamır. Təbii ki, uşaqlar səhərdən axşama qədər bağçada kortəbii qalmırlar. Hər qrupun özünə məxsus məşğələ proqramı var. Bu proqrama uyğun hər gün məşğələlər keçirilir. Məktəbəqədər təhsil müəssisələrində keçirilən belə məşğələlərdən biri də musiqi məşğələsidir.

***Musiqi məşğələləri*** musiqi rəhbəri tərəfindən aparılır. Musiqi təlimi zamanı uşaqlar artıq uşaq mahnılarını bilir və onların havası ilə rəqs etməyi öyrənir.

"Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı" musiqi məşğələlərinin yaş qrupları üzrə uşaqların həyatında yeri, rolu və əhəmiyyəti, vəzifələri, musiqi fəaliyyətinin məzmunu, növləri və formaları, musiqi alətlərindən istifadə qaydaları və.s kimi amillər öz əksini tapıb.

Əvvəlcə, ***kiçik qrupdakı*** məşğələləri nəzərdən keçirək. Bu yaşda vəzifələr: musiqi təəssüratları toplamaq, uşaqlarda şən əhval – ruhiyyə yaratmaq, diqqəti yayındırmadan musiqi dinləmə qabiliyyətini inkişaf etdirmək, əvvəlcə dinlənilən mahnı və pyesi tanımaq, uşaqları birgə və fərdi oxumağa və hərəkətlərə öyrətmək, mahnıları əzbərlətmək, mahnı oxuyarkən düzgün duruşa nəzarət etmək və uşaqların səsini mühafizə etməkdən ibarətdir.

Uşaq bağçasının ***orta qrupunda*** musiqi məşğələsi zamanı əsas vəzifə musiqiyə maraq və onu eşitməyə həvəs oyatmaqdan, musiqi vasitəsi ilə ətrafdakı mühitə sevgi hisslərini inkişaf etdirməkdən, uşaqlarda musiqini dinləmək və müəyyən əhval – ruhiyyə yaratmaqdan, sözsüz ça-lınan mahnıları və pyesləri melodiyasına görə tanımaq yolu ilə yaddaşı inkişaf etdirməkdən ibarətdir.

Uşaq bağçasında ***böyük qrupun*** uşaqları musiqi ilə müntəzəm təmasda olduqca, onun incəliklərinə daha atrıq bələd olurlar. Radio, televiziya ilə verilən konsertlərə, musiqili verilişlərə həvəslə qulaq asır, bu və ya digər mahnını sadəcə dinləməklə kifayətlənmir, mətnin sözlərini qavramağa daha çox səy göstərir və rəqsi, laylanı və marşı bir – birindən fərqləndirməyi bacarırlar.

***Məktəbəhazırlıq dövründə*** musiqi məşğələləri keçirilərkən uşaqlara mahnıları,

rəqsləri, oyunları kollektiv fərdi olaraq ifadəli ifa etməyi öyrətmək, əvvəlki qruplarda öyrədilən repertuarları təkrar etmək yolu ilə alınan vərdişləri müntəzəm olaraq möhkəmləndirmək, melodiyanı düzgün oxumaq yolu ilə metodik eşitməni, musiqinin xarakterinə, hisslərin, sürətin, ritmin və s. dəyişməsinə müvafiq hərəkətlərin daha dəqiq dəyişməsi yolu ilə ritm hissini inkişaf etdirmək üzrə iş aparılır.

Musiqi məşğələlərində müxtəlif fəaliyyət növləri növbələşərək uşaqların hərtərəfli musiqi inkişafına kömək edir və uşaq şəxsiyyətinin hərtərəfli formalaşmasına müsbət təsir edir; *beləki, musiqi*

- *uşaqların estetik hiss və həyacamlarına,*
- *emosiyalarına təsir edir,*
- *onlara davranış mədəniyyətini öyrədir,*
- *kollektiv fəaliyyətə sövq edir,*
- *ağıl və dərrakəsinə təsir edir,*
- *səy və yaradıcılığa cəlb edir.*

Respublikamızın Məktəbəqədər müəssisələrində musiqi məşğələlərinin təşkili üzrə aparılan işləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

➢ Azərbaycan musiqisinin müxtəlif janrlarından olan nümunələri dinlənilərək onların mövzusu, emosional məzmunu, tempi, ritmi, dinamik çaları təntənəli, şən, sakit, qəmli, qəhrəmani əzmi, cəld, oynaq xarakteri aydınlaşdırılmalıdır.

➢ Musiqili ritmik hərəkətlərin ifası zamanı Azərbaycan xalq musiqisinin ritminə uyğun yerində addımlamağı, əl çalmağı, qaçamağı və müx-təlif rəqs elementlərini yerinə yetirməyi öyrətmək lazımdır.

Beləliklə, məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsinin təşkilində Azərbaycan musiqisi müstəsna imkanlara malikdir. İncəsənətin başqa növləri kimi musiqi də ətraf aləmi əks etdirir, insanlar və həyat barədə musiqi dili ilə söhbət açır. Məktəbəqədər müəssisələrdə uşaqlara sadə musiqi savadının verilməsində təlim-tərbiyə işinin yaxşılaşdırılması, uşağın məktəbə hazırlanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. A.Həsənov Məktəbəqədər pedaqogika. Bakı – 2011
2. Göyalp Z. Türkçülüyün əsasları, Bakı: Maarif, 1991.
3. İ.Əliyev. Azərbaycan Etnopedaqogikası . Bakı



**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə elmlər doktoru, professor Museib İlyasov**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.034**

**J.Tağıyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: jale.tagiyeva@mail.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ESTETİK TƏRBİYƏSİNİN İNKİŞAF ETİRİLMƏSİNDƏ MUSİQİ MƏŞĞƏLƏLƏRİNİN ROLU

***Açar sözlər:*** *estetik tərbiyə, musiqi, mənəvi dəyər*

Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemi zəngindir. Estetik tərbiyə məktəbəqədər yaş dövründən uşaqlara aşılanmağa başlamalıdır. Musiqi uşaqlarda mənəvi-estetik hisslərin formalaşmasına çox böyük müsbət təsir göstərir. Şəxsiyyətin estetik anlayışı mahiyyət etibarı ilə bir neçə komponentə ayrılır: estetik şüur, estetik tələbat, estetik münasibət və estetik fəaliyyət. Musiqi uşaqların zehninin və qabiliyyətlərin inkişafında böyük əhəmiyyət kəsb edən fəaliyyət növüdür.

**Ж.Тагиева**

# РОЛЬ ЗАНЯТИЙ МУЗЫКОЙ В РАЗВИТИИ ЭСТЕТИЧЕСКОГО ВОСПИТАНИЯ ДОШКОЛЬНИКОВ

***Ключевые слова:*** *эстетическое воспитание, музыка, нравственные ценности*

Система нравственных ценностей азербайджанского народа очень богата. Эстетическое воспитание должно прививаться детям с дошкольного возраста. Музыка оказывает очень большое позитивное влияние на формирование моральных качеств, эстетических чувств. Понятие об эстетике включает в себя несколько компонентов: эстетическое сознание, эстетические потребности, эстетическое отношение и эстетическая деятельность. Музыка также способна играть большую роль в развитии памяти и способностей детей.

**J.Taghiyeva**

# THE ROLE OF MUSIC CLASSES IN THE DEVELOPMENT OF AESTHETIC EDUCATION OF PRESCHOOL CHILDREN

***Key words:** aesthetic education, music, moral value*

The system of national-moral values of the Azerbaijani people is rich. Aesthetic education should begin to affect children from preschool age. Music has a great positive impact on the formation of moral-aesthetic feelings in children. The aesthetic concept of identity is essentially divided into several components aesthetic conciousness, aesthetic demand, Aesthetic attitude and aesthetic activity Music is a kind of activity that has great importance in the development of children`s minds and abilities.

Ulu öndər Heydər Əliyev böyüməkdə olan nəslin tərbiyəsi işini cəmiyyət qarşısında duran ən mühüm vəzifələrdən biri kimi dəyərləndirirdi. O deyirdi:

"....Böyüməkdə olan nəslin...tərbiyəsi, mənəviyyatca zəngin, ideyaca mətin, yüksək əxlaqlı şəxsiyyətin formalaşdırılması bu gün cəmiyyətin qarşısında duran çox mühüm vəzifədir" (5).

Estetik tərbiyə uşaqda bədii hisslərin, zövqün və bədii mühakimələrin təşəkkül tapıb möhkəmlənməsinə səbəb olan incəsənət əsərlərinin, təbiət və cəmiyyətdəki gözəllikləri düzgün başa düşməkdə ona kömək göstərən təsirlərin məcmusudur. Məktəbəqədər yaşlı uşaqlarda gözəllik hissini tərbiyə etmək, əsrlər boyu həyatın sınağından çıxmış, hal-hazırda da Azərbaycan pedaqoji elminin mühüm vəzifələrindəndir.

Respublikamızın görkəmli alimlərindən akademik Mehdi Mehdizadə, professor Əliheydər Həşimov, Vidadi Xəlilov estetik tərbiyənin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri, imkanları, vasitələri, həyata keçirilməsi yollan ilə bağlı çox dəyərli fikirlər söyləmişlər.

Gözəlliyin üç başlıca mənbəyi var: təbiət hadisələri, cəmiyyət hadisələri və incəsənət əsərləri. İnsanlar bir çox halda təbiət və cəmiyyət hadisələrinə, insan xarakterinə münasibətlərini, hiss və həyəcanlarını, sevinc və kədərlərini incəsənət əsərlərində: musiqidə, nəğmədə, rəqsdə, rəsmdə, şerdə və yaradıcılığın digər növlərində ifadə edirlər. Atalar sözlərinin birində deyilir: **"Musiqi ruha qidadır".**

Uşaq bağçalarında keçirilən ardıcıl, sistemli məşğələlər yolu ilə onların estetik zövqü, yaradıcı təxəyyülü, mənəvi hissləri tərbiyə olunur, formalaşır və bununla da gələcək inkişafın əlverişli təməli qoyulur. Təlim yolu ilə uşaqlarda estetik mədəniyyətin inkişafı musiqi məşğələlərinin təşkili və quruluşundan, öyrədiləcək materialın məzmun və xarakterindən, uşaqların yaş, bilik, bacarıq və hazırlıq səviyyəsindən, eləcə də tətbiq olunan üsul və vasitələrin pedaqoji səmərəsindən aslıdır.

İncəsənətin ən qədim növü sayılan musiqi, məktəbəqədər yaşlı uşaqlarda yüksək bədii-estetik zövqün formalaşmasında, zəngin ideya və mənəvi düşüncə tərzinin yaranmasında mühüm rol oynayır. Hələ erkən yaş dövrlərində uşaqlara musiqi dinləməyi, onu daxilən hiss edib duymağı, musiqi haqqında öz fikirlərini söyləmək bacarığını aşılamaq lazımdır. Məktəbəqədər təhsil müəssisələrində keçirilən məşğələlər uşaqların humanizm ruhunda formalaşmasına, onlardakı yaradıcılıq qabiliyyətinin üzə çıxarılmasına əhəmiyyətli təsir göstərir.

Estetik tərbiyənin əsas qollarından biri olan musiqinin öz vəzifəsini müvəfəqiyyətlə həyata keçirilməsini təmin etməkdən ötrü, uşaqlarda musiqiyə ümumi maraq yaradılmalıdır.

Psixoloqlar qeyd edirlər ki, lap erkən yaş dövrlərindən uşaqlarda musiqi qabiliyyəti inkişaf edir. A.A.Lyubinskayanın tədqiqatlarından məlumdur ki, 10-12 günlük uşaqlarda müxtəlif səslərə qarşı reaksiya yaranır. İki aylıq körpə fortopiano səsini eşidərkən hərəkətini dayandıraraq səsə qulaq asmağa başlayır.

Dörd-beş aylıq körpə isə səs gələn tərəfə başını döndərir, səs müxtəlifliyi anlayır. Normal inkişaf edən uşaq ilk aylardan başlayaraq musiqinin xarakterindən asılı olaraq hərəkətlər edir, sevinir və ya sakitləşir.

Məşğələnin təşkili zamanı uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Musiqi fəaliyyəti zamanı təlimin məqsədi repertuarın (nəğmə, oyun, rəqs və s.) öyrənilməsindən, uşaqlara bacarıq və vərdişlərin aşılanmasından ibarətdir.

**Kiçik süjetli musiqili didaktik oyunlar.** Bu oyunlar körpəlik dövrünün birinci qrupuna daxil olan uşaqlarla təşkil olunur. Burada məqsəd uşaqları hərəkətli oyunlara həvəsləndirməkdən ibarətdir. Bu yaşdakı uşaqlarla topla və kukla vasitəsilə, habelə nağıllardakı obrazları, personajları təqlid etməklə müxtəlif süjetli oyunlar keçirmək olar. Uşaqlar «Kukla» mahnısından istifadə etməklə kuklanı «yedizdirmək», «yatızdırmaq», «yeritmək» kimi hərəkətləri həvəslə musiqi müşayiətilə həyata keçirirlər. İkinci kiçik qrupda musiqili-süjetli-rollu oyunlar da bu qayda ilə aparılmalıdır. Lakin oyun musiqi nömrəsilə vəhdətdə götürülərkən rolların bölüşdürülməsinə diqqət yetirmək lazımdır. Bu oyunlar uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişafına, estetik zövqlərinin, hiss və duyğularının formalaşmasına müsbət təsir göstərir.

Orta qrupda isə belə oyunları təşkilində əsas vəzifə kiçik qrupda toplanan təcrübəni, uşaqların meyl-marağını nəzərə alaraq hər bir uşaqda onun yalnız tək oynamaq deyil, yaşıdları ilə oynamaq, şənlənmək bacarığını da tərbiyə etməkdir. Məsələn, «Qırmızı və yaşıl işıqlar» musiqili-süjetli oyununda iştirak edən uşaq həm musiqi eşidir, həm düşünür, həm də əylənir. Azərbaycan bəstəkarlarının həmin mövzuda yazdıqları mahnı və rəqslərdən istifadə edilməlidir.

Məktəbəqədər təhsil müəssisələrində musiqili-estetik tərbiyənin inkişafı və həyata keçirilməsi ali və ya orta musiqi təhsili olan, musiqi nəzəriyyəsinə, metodikanın sirlərinə yiyələnmiş, ümumi musiqi hazırlıqlı (sadə musiqi nəzəriyyəsini, xorda oxumağı, ritmikanı, hər hansı musiqi alətində çalmağı

bacaran) musiqi rəhbəri tərəfindən həyata keçirilir.

Beləliklə, məktəbəqədər təhsil müəssisələrində keçirilən musiqi məşğələləri uşaqların hərtərəfli inkişafında, ahəngdar inkişaf etmiş şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.

## ƏDƏBİYYAT

1. N.Kazımov "Məktəb pedaqogikası" Bakı-2009
2. Məktəbəqədər təhsil proqramı (Kurikulum)" 2012.
3. İ.Məmmədova "Uşaqların musiqi dünyası" Bakı-Təfəkkür-2004.
4. E.Əfəndiyeva, J.Qədimova "Musiqi" Bakı-2007.
5. "Kommunist" qəzeti, 26.04.1979, 06.04.1982

**Məqalənin redaksiyaya daxil olma tarixi: 13.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.036**

**A.Məcidli**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: mecidliaygun@gmail.com

# MUSİQİ MƏŞĞƏLƏLƏRİNİN BAĞÇA YAŞLI UŞAQLARIN SOSİAL TƏRBİYƏSİNDƏ ROLU

***Açar sözlər:*** *musiqi, məktəbəqədər uşaq, sosial tərbiyə*

Bağça yaşlıların sosial tərbiyəsində xüsusi rol oynayan təsir vasitələrindən biri musiqidir. Məktəbəqədər müəssisələrdə kiçik yaş qruplarından başlayaraq keçirilən musiqi məşğələləri vasitəsilə uşaqlar təbiət, həyat, cəmiyyət hadisələri ilə tanış olurlar. Məktəbəqədər pedaqogikada musiqi təhsili böyüyən nəsilin tərbiyəsinin ayrılmaz hissəsi kimi şəxsiyyətin ümumi mədəniyyətinin formalaşmasında önəmli yer tutur.

**А.Меджидли**

# РОЛЬ МУЗЫКАЛЬНЫХ ЗАНЯТИЙ ДЛЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА В ФОРМИРОВАНИИ СОЦИАЛЬНОГО ПОВЕДЕНИЯ

***Ключевые слова:*** *музыка, дошкольник, социальное поведение*

Музыка это одна из составляющих в формировании социального поведения дошкольников. Дошкольники начиная уже с раннего возраста на занятиях по музыкальному развитию знакомятся с окружающим миром, жизнью и общественными событиями. Формирование музыкальных навыков является неотьемлемой частью в развитии личных и культурных качеств ребенка.

**A.Medjidli**

# THE ROLE OF MUSIC IN SCHOOLING PROCESS FOR THE KIDS BEFORE SCHOOL LIFE

***Key words :*** *pre-school child, music, social upbringing*

One of the way for schooling in kids time is music. In this groups kids begin to account with the events connecting nature, life, social events. Musical

education takes important place in the pre-school pedagogy in forming of the general culture of the personality as integral part of the upbringing of the generation growing.

Məktəb yaşına çatmamış uşaqların sosial tərbiyəsi uşağın inkişaf proqramının mühüm hissəsidir. Uşaqların sosial inkişafı üçün ən əlverişli şərait məhz məktəbəqədər yaşda yaradılır. Bu dövrdə onlar yaşıdları və böyüklər ilə münasibətlər sisteminə daxil olurlar, onların fəaliyyət növləri əhəmiyyətli dərəcədə çətinləşir, yaşıdlarla birgə fəaliyyətə daxil olurlar.

Məktəb yaşına çatmamış uşaqların sosial tərbiyəsi ona nail olur ki, uşaq dünyanı,insanlar arasındakı münasibətləri tədricən dərk edir, özü üçün qanunlar yaradır, davranışı normalarına yiyələnirlər. Bağça yaşlı uşaqlar öz hərəkətlərini hamı tərəfindən qəbul edilmiş normalara və davranış qaydalarına tabe edirlər.

Bağça yaşlıların sosial tərbiyəsində xüsusi rol oynayan təsir vasitələrindən biri musiqidir. Uşaqlar üçün musiqi ana laylasından başlayır, ancaq, məqsədyönlü musiqi tərbiyəsi uşaq bağçasında daha sonra isə məktəbdə həyata keçirilir.. Beləliklə, musiqi tərbiyəsi ən erkən yaşdan uşağın sosial tərbiyəsinin formalaşması vasitələrindən biridir. Müasir elmi araşdırmalar onu göstəririr ki, musiqi qabiliyyətlərinin inkişafı, musiqi mədəniyyətinin əsaslarının formalaşması - yəni musiqi tərbiyəsi məktəbəqədər yaşdan başlamaq lazımdır. Uşaq bağçasında musiqi məşğələsi musiqi rəhbəri , tərbiyəçi tərəfindən həyata keçirilir. Pedaqoji təcrübə göstərir ki, musiqi məşğələsi sosialistləşdirən xüsusiyyətlərə malikdir, o yalnız estetik və mənəvi cəhətdən əxlaqlı tərbiyə prosesinə təsir etmir, hislərin mədəniyyətinə, həm də kommunikasiyaya, sosiomədəni uyğunlaşmaya və şəxsiyyətin inkişafına bütövlükdə təsir göstərir.

İncəsənətin ən qədim növü sayılan musiqi yeganə sənəd növüdür ki, insan dünyaya gəldiyi lap ilk çağlardan bilavasitə güclü təsir göstərərək onun ümumi mədəni həyatında böyük rol oynayır. Musiqi uşağın emosional təbiətinə çox yaxındır. Musiqinin təsiri altında onun estetik qavrayışı inkişaf edir, duyğuları zənginləşir. O, estetik və mənəvi zövqün ən ali mənbəyidir. Məhz buna görə də müasir uşaqların bədii-estetik, sosial tərbiyəsində, şəxsiyyət kimi formalaşmasında musiqinin əhəmiyyətli rolu vardır.Fiziki cəhətdən kamil, mənəvi cəhətdən zəngin, əxlaqlı insanların tərbiyə edilməsi üçün uşaqların musiqi inkişafına, onlarda musiqiyə maraq və məhəbbətin formalaşdırılmasına xüsusi diqqət yetirmək lazımdır. O, insanı bütün ömrü boyu müşayiət edir, onda həyat hadisələrinə qarşı estetik reaksiya, hiss, fəaliyyətə cəhd aşılayır. Musiqi tərbiyəsinin vəzifə və məzmunu şəxsiyyətin hərtərəfli xüsusilə də, estetik tərbiyəsinin ümumi məqsədləri ilə müəyyən edilir. Bunlara uşaqların incəsənət sahələri üzrə fəaliyyətə cəlbi, musiqiyə məhəbbətin tərbiyə edilməsi, estetik qavrayışı və musiqi əsərlərinə emosional həssaslığın inkişafı, musiqi bacarıqlarının inkişafı, musiqi zövqünün formalaşdırılması, özünü musiqi

fəaliyyətində təzahür etdirmək cəhdinin, daha doğrusu, uşaqların bədii-yaradıcı qabiliyyətlərinin tərbiyə edilməsi daxildir. Sadaladığım bu keyfiyyətlərin tərbiyə edilməsində məktəbəqədər müəssisələrin üzərinə daha böyük məsuliyyət düşür. Uşaqlarda social tərbiyəsində,mənəvi-əxlaqi keyfiyyətlərin formalaşmasında, milli ruhun tərbiyə edilməsində musiqi məşğələlərinin rolu əvəzolunmazdır.

Pedaqoqlar musiqini "insan ürəyinin (ruhunun) güzgüsü" adlandırırlar. Məktəbəqədər pedaqogikada musiqi təhsili böyüyən nəsilin tərbiyəsinin ayrılmaz hissəsi kimi şəxsiyyətin ümumi mədəniyyətinin formalaşmasında önəmli yer tutur. Bir sıra musiqiçilər, pedaqoqlar musiqinin əhəmiyyətindən danışaraq deyirdilər ki, musiqi digər incəsənət nümunələri kimi bədii zövq və yaradıcı təxəyyülü tərbiyə etməklə bərabər həm də həyata sevgi, vətənpərvərlik və beynəlmiləlçilik hisslərinin formalaşmasına təsir göstərir. V.A.Suxomlinskinin fikrincə “Musiqi tərbiyəsinin vəzifəsi musiqiçi yox, ilk növbədə insan tərbiyə etməkdir” [1, 22].

Məktəbəqədər müəssisələrdə kiçik yaş qruplarından başlayaraq keçirilən musiqi məşğələləri vasitəsilə uşaqlar təbiət, həyat, cəmiyyət hadisələri ilə tanış olurlar. Bağça yaşlı uşaqlarda musiqi məşğələləri vasitəsilə musiqiyə dair bilik və bacarıqların formalaşdırılmasından əlavə, düzlük, doğruçuluq, dostluq, yoldaşlıq, vətənpərvərlik və s. kimi əxlaqi-mənəvi keyfiyyətlərin formalaşdırılması nəzərdə tutulur. Musiqi fəaliyyəti məşğələlər, əyləncə və oyunlarda , bayramlarda ifa olunan musiqilər əsasında təşkil olunur.

Məktəb yaşına çatmamış uşaqlarla işdə istifadə edilən musiqi və şifahi xalq yaradıcılığının əsərləri sadədir, bədiidir, melodikdir, buna görə uşaqlar onları tez mənimsəyirlər. Musiqini dinləmək, onu daxilən hiss etmək, duymaq, musiqi haqqında öz fikirlərini söyləmək bacarığını uşaqlara hələ erkən yaşlarından aşılamaq musiqi tərbiyəsinin vacib şərtlərindən biridir. Uşaqlar musiqi sayəsində gözəlliyin etalonlarını dərk edir, nəsillərin qiymətli mədəni təcrübəsini mənimsəyirlər. Uşaq üçün musiqi sevincli həyəcanların dünyasıdır. Bunun üçün bu dünyaya qapını açmaq , onlarda qabiliyyətləri, musiqi duyumu və emosional həssaslığı inkişaf etdirmək lazımdır.

Uşaqlar üçün yazılan musiqi əsərləri onlarda kollektivçilik, vətənpərvərlik, bir-birinə münasibətdə nəzakətlilik, böyük və kiçik münasibətlərini formalaşdırır. Xalqımızın mənəvi sərvətinin tərkib hissəsi olan musiqi əsərlərində xalqın yüksək mənəviyyatı, arzu və istəkləri, gələcəyə inamı tərənnüm olunur. Uşaq bağçalarında təşkil olunan musiqi məşğələlərində aşağıdakı mövzulara istinad olunur :

Vətənə məhəbbətə dair musiqi əsərləri - “Azərbaycan Respublikasının Dövlət himni” , “Vətən mahnısı”, “Əsgər marşı”, “Çırpınırdın Qara dəniz”, “Doğma diyar” və s.

Sülh və birliyə aid musiqi əsərləri: “Göyərçinik biz”, “Dostluq marşı”, “Dünya bizim evimizdir” və s.

Əmək və zəhmətə aid musiqi əsərləri: “Əkinçi”, “Sağıcıdır mənim nənəm”, “Neftçilər” və s.

Dostluq və yoldaşlığa aid musiqi əsərləri: “Dostluq”, “Dostluq himni” və s.

Bayramlara aid musiqi əsərləri : “Təzə il”, “Yolka”, “Şaxta baba”, “Novruz bayramı” və s.

Təbiət və heyvanlara aid musiqi əsərləri: “Bahar gəlir”, “Salam payız” , “Cücələrim”, “Dəcəl buzovum” və s.

Ailəyə aid musiqi əsərləri: “Anamı incitmirəm”, “Anam”, “Bacılar” və s.

Mahnıların sözləri, musiqi əsərlərinin ifa olunması, mahnıların melodiyası, onların dinlənilməsi uşaqlarda emosional vəziyyət yaradır ki, bu da onlarda əxlaqi keyfiyyətlərin aşılanması üçün önəmli situasiyadır. Uşaqlar mahnıların məzmununda əks olunan mənəvi, əxlaqi keyfiyyətlərə uyğun hisslər keçirirlər və bu hisslər onların hərəkətlərində də biruzə verir.

## ƏDƏBİYYAT


1. O.Rəcəbov, S.Zamanlı, R.Quliyeva, Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası, Bakı, 2010
2. J.Qədimova, Musiqinintədrisimetodikası, Bakı, 2007
3. A.Qəribova,Məktəbəqədərmüəssisələrdə uşaqlarınmusiqitərbiyəsi, Bakı,2017
4. A.Həsənov, Məktəbəqədər pedaqogika, Bakı-2015
5. https://www.maam.ru/detskijsad/muzyka-zanimaet-osoboe-unikalnoe-mesto-v-vospitani-detei-doshkolnogo-vozrasta.html



**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.11.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 02.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37**

**T.Rzayeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: tamilla.rzazade47@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏMƏK TƏRBİYƏSİNDƏ OYUNUN ROLU

***Açar sözlər:*** *əmək, oyun, uşaq*

Uşaqların məktəb təliminə hazırlanmasının ən mühüm vəzifələrindən biri onlarda əməyə hazırlığın tərbiyə edilməsidir ki, oyunun əmək fəaliyyəti ilə əlaqələndirilməsi bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

**T.Рзаева**

## РОЛЬ ИГРЫ В ТРУДОВОМ ВОСПИТАНИИ ДОШКОЛЬНИКОВ

***Ключевые слова:*** *труд, игра, ребенок*

Одной из важнейших задач подготовки детей к школьному образованию является воспитание в них трудовых навыков, что особенно важно при согласовании игры с трудовой деятельностью.

**T.Rzayeva**

## THE ROLE OF THE GAME IN THE LABOR UPBRINGING OF PRESCHOOL-AGED CHILDREN

***Key words:*** *labor, game, child*

One of the most important tasks of preparing children for school education is to develop their labor skills in them, which is especially important when coordinating a game with work activities.

Əmək uşaq həyatının əsasını təşkil edir. Düzgün tərbiyənin ilk şərti odur ki, uşaq istifadə etdiyi maddi nemətlərin necə əldə olunduğunu dərk etsin və onun kiminsə əməyinin bəhrəsi olduğunu bilsin.

Əmək tərbiyəsinin əsas vəzifələrindən biri uşaqlarda əməyə düzgün münasibət formalaşdırmaqdan ibarətdir. Əməyin səmərəli təşkilinin əsas xüsusiyyətlərindən biri onun yaş və fərdi xüsusiyyətlərə uyğun keçirilməsidir.

Uşağın əməyə psixoloji cəhətdən hazırlığının əsas şərti onun yaşlıların həyatına, əməyinə göstərdikləri maraqla, onları təqlid etmək arzusu ilə üzvi sürətdə bağlıdır. Bu, onların oyunlarında,yaşlılara kömək etməsində, erkən yaşdan müstəqil

və məhsuldar fəaliyyətində iştirak etməkdə özünü göstərir.

Məktəbəqədər yaşlı uşaqların həyatında oyun müstəsna əhəmiyyətə malikdir. Uşaqlar üçün oyun , təlim və əmək əsas tərbiyə vasitəsidir. Onlar oyun prosesində həyatı dərk etməyi öyrənirlər. Məktəbəqədər yaşlı uşaqlar ətraf mühit haqqında biliklərə oyun və əmək vasitəsi ilə yiyələnir və bu onların şəxsiyyət kimi formalaşmasına təsir edir. A.S.Makarenko uşaqların inkişafında oyunun çox böyük rol oynadığını qeyd edərək, onu yaşlıların həyatında əməyin oynadığı rola bərabər hesab etmişdir.

Uşaqların məktəb təliminə hazırlanmasının ən mühüm vəzifələrindən biri onlarda əməyə hazırlığın tərbiyə edilməsidir. Bu baxımdan oyunun əmək fəaliyyəti ilə əlaqələndirilməsi xüsusi əhəmiyyətə malikdir.Oyunun əmək fəaliyyəti ilə əlaqəsi dedikdə,aşağıdakılar nəzərdə tutulur:

Əməyin sahələri ilə tanışlıq ; əmək alətləri ilə tanışlıq; peşələrlə tanışlıq; əmək adamlarına hörmət.

Həmçinin əməyin təşkilini müxtəlif istiqamətlərdə həyata keçirmək olar.Özünəxidmət əməyi; ailədə əmək; ictimai əmək; uşaqları vətənin inkişafı naminə əməyə hazırlamaq meylinin tərbiyə olunması ön plana çəkilir.

Uşaq oyunda iştirak edə-edə müəyyən əmək vərdişlərinə yiyələnir.Hələ məktəbə gedənədək uşaqlar “Qonaqları qarşıla”, “Evcik-evcik” kimi oyunlar oynayırlar.Uşaqlar xüsusi yaradılan oyun şəraitində yaşlıların fəaliyyətini təsvir edirlər. Bu şərait üçün əmək prosesində uşaqların istifadə etdikləri əşyaları əvəz edən müxtəlif oyuncaqlardan, əşyalardan istifadə edilməsi xarakterikdir.

Xalqımızın min illərdən bəri süzülüb gələn gözəl milli dəyərlərindən biri də xalq oyunlarıdır. Yaşlı nəslin nümayəndələri bu oyunları yəqin ki, yaxşı xatırlayırlar. Xalq oyunları bizə mehribanlığı, səmimiliyi, birliyi ən əsası isə əsl uşaq kimi böyüməyi öyrədir. Buna görə də məktəbəqədər yaşlı uşaqların tərbiyəsində uşağı əməyə hazırlanmasına təkan verən, diqqətini, iradi keyfiyyətlərini inkişaf etdirən və əzələlərini möhkəmləndirən “ Dirədöymə”, “Xandəyməz”, “Kəndirbaz”, “Qodu-qodu” və s kimi Azərbaycan xalq oyunlarından istifadə etmək faydalıdır.

Uşaqların hal-hazırda meyl etdikləri əksər kompüter oyunları onlarda bir çox zərərli keyfiyyətlərin formalaşmasına gətirib çıxarır. Bu oyunlar ilk növbədə uşaqların milli dəyərlərdən uzaqlaşmasına səbəb olur. Digər tərəfdən isə elektron oyunlara meyllilik uşaqları sağlam mühitdən , öz həmyaşıdları ilə birgə əməkdən kənarlaşdırır. Bu isə uşaqların istər fiziki, istərsə də əmək tərbiyəsinə mənfi təsir göstərir.

Məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyət növləri kimi əmək və oyun onların hərtərəfli inkişafında əsas rol oynayır. Uşaq, adətən, oyun prosesində yaşlı adamları təqlid edir, onların əmək növlərini icra edir. “Sürücü”, “təyyarəçi”, “həkim” olmaq arzusu ilə yaşayan uşaq oyun prosesində ev quraşdırır, maşın sürür və s. Yaşlıların əməyini oyun prosesinə daxil etmək uşaqlarda əmək haqqında

dəqiq təsəvvür formalaşdırır. Məsələn, “həkim” oyununda uşaqlar həkim rolunda xəstələrə tibbi xidmət edir, “Aşpaz” oyununda “dadlı xörək” bişirməyə çalışır.

Kiçik yaş qruplarında uşaqlarla aparılan əmək tərbiyəsinə xüsusi olaraq əhəmiyyət verilir. Bu yaş qrupunda əsasən əmək özünüxidmət əməyi növündə olur.

Orta yaş qrupunda müstəqil əmək fəaliyyəti hələ o qədər də təşəkkül tapmamış olur. Əmək oyun xarakterində olur. Uşaqlar əmək üçün istifadə olunacaq alətlərin funksiyalarını bilmədikləri halda onlardan oyuncaq kimi istifadə edirlər. Oyun elementləri ancaq kiçik və orta qrupun uşaqlarının əmək fəaliyyətində deyil, böyük və məktəbəhazırlıq qrupunun uşaqlarının da əmək fəaliyyətində özünü göstərir. Uşaqlar öz arzularına görə nəinki hazır oyuncaq götürüb oynayırlar, onlar tədricən karton , kağız, ağac və s. təbii materiallardan oyuncaq düzəltmək bacarığına yiyələnirlər.

Yaşlılar fəaliyyətin müxtəlif növlərini əlaqələndirərkən uşaqların hər bir hərəkətinə göz qoymalı, oyun və əmək prosesində onlar arasında baş verən narazılıqların səbəbini öyrənməli, oyun və əmək prosesində hər hansı uşağın zorla lider olmaq arzusu yerinə yetirilməməlidir.

Məktəbəqədər yaşlı uşaqların əmək və oyun fəaliyyətinin təşkilində aşağıdakı məsələlərin rolu böyükdür

1. Uşaqların ətraf mühitlə tanış edilməsinin;
2. Uşaqların təbiətlə, ictimai mühitlə tanışlığının;
3. Uşaqların səmərəli əməkdə iştirak etmələrinə şərait yaradılmasının;
4. Uşaqların oyun və əmək prosesində fəallığını, müstəqilliyini, yaradıcılığını inkişaf etdirmək imkanının yaradılmasının;
5. Uşaqlarda əməksevərlik , başladığı işi başa çatdırmaq kimi keyfiyyətlər formalaşdırmasının.

## ƏDƏBİYYAT


1. Vəliyeva Z.İ. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı: Maarif 1993,123 s.
2. Əiyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı, 2010
3. Orucova C.A. Məktəbə hazırlıq qrupu uşaqlarının təbiətdə əməyinin pedaqoji sistemi. Naxçıvan, 2011, s.98-101.
4. R.N.Mursaqulova, N.M.Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012 ADPU nəşriyyatı 432 səh
5. A.Həsənov Məktəbəqədər pedaqogika. Bakı, 2015
6. http://www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/8365-khalg-oyunlar


**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.12.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 373.3.016:502**

**N.İsmayılov**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: sabina.rustemova.87@inbox.ru

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏBİƏTLƏ TANIŞ EDİLMƏSİ VƏ ONLARDA TƏBİƏTƏ SEVGİ HİSSİNİN AŞILANMASI

***Açar sözlər:*** *uşaqlıq, təbiətlə təmas, təsirli öyrənmə yolu, bitki və heyvanlar, sənədli filmlər*

Hər bir sevginin təməlləri uşaqlıq yaşlarından başlayır. Təbiətin və ətraf mühitin qorunması uşaqlara tərbiyə vasitəsi ilə aşılana bilər.

Uşaqlarımızı bizi əhatə edən çox saylı beton tikililərdən uzaqlaşdırmaqla təbiətdə vaxt sərf edərək təbiət sevgisini əldə etdirə bilərik. Uşağınızın bir başa təbiətlə təmasda olmasını, torpaq və çiçəklərə toxunmasını təmin etməliyik. Böyük şəhərlərdə yaşamağımız bizə bir maneə olmamalıdır və uşaqlarımızı parklara və təbii sahələrə mütəmadi olaraq aparmalıyıq.

**Н.Исмайлов**

# ЗНАКОМСТВО ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА С ПРИРОДОЙ И ПРИВИТИЕ ИМ ЧУВСТВА ЛЮБВИ К ПРИРОДЕ

***Ключевые слова:*** *детство, соприкосновение с природой, путь контактного обучения, растения и животные, документальные фильмы*

Основы всех видов любви начинаются с детских лет. Охрана природы и окружающей среды может быть привито путем воспитания.

Отдалив детей от окружающих нас многочисленных бетонных построек, проведя время на природе, мы можем получить любовь к природе. Мы должны обеспечить непосредственное соприкосновение детей с природой, контакт с почвой и цветами. Жизнь в больших городах не может быть препятствием для нас и мы должны периодически выводить наших детей в парки и естественные участки природы.

**N.Ismayilov**

## INTRODUCING OF PRESCHOOL CHILDREN WITH NATURE'S LOVE AND HOW ARE NATURE'S LOVE INISTALLED IN THEIR MIND

***Key words:*** *childhood, contact with nature, effective way of learning, plants and animals, documentary films*

The foundation of every love begins from childhood. Nature and environmental protection can impart to children through education.

Our children should spend their most time in nature and we must try to get them away from concrete buildings which surround us. We must provide our child to be in contact with soil and flowers. We live in big cities and our children should not be an obstacle to the parks and natural areas have regularly.

Hər bir sevginin təməlləri uşaqlıq yaşlarından başlayır. Təbiətin və ətraf mühitin qorunması uşaqlara tərbiyə vasitəsi ilə aşılana bilər.

Uşaqlarımızı bizi əhatə edən çox saylı beton tikililərdən uzaqlaşdırmaqla təbiətdə vaxt sərf edərək təbiət sevgisini əldə etdirə bilərik. Uşağınızın bir başa təbiətlə təmasda olmasını, torpaq və çiçəklərə toxunmasını təmin etməliyik. Böyük şəhərlərdə yaşamağımız bizə bir maneə olmamalıdır və uşaqlarımızı parklara və təbii sahələrə mütəmadi olaraq aparmalıyıq.

Uşaqlarda ən təsirli öyrənmə yolu oyunlardır. Uşağınız müxtəlif oyunlarla təbiətdə oynaya və ətrafını kəşf edə bilər. Bu isə təbiətə və ətraf aləmə olan sevgisini yaratmaqda kömək olar. Uşağınız təbiətdə sərf edəcəyi əyləncəli vaxtlar onların təbiətdə olmaq arzusunu eyni zamanda artıracaq.

Uşağınıza bitki və heyvanların alınması, təbiətin bir hissəsi ilə daha sıx kontaktda olmasını təmin edə bilər. Bu sadəcə bir göstəriş xartakteri daşımamalı onlara qayğı göstərilməsi mənimsədilməlidir. Bəzə, sadəcə bu, bir çiçək də ola bilər, həmin çiçəyin becərilməsində yardım istəyə bilərsiz.

Uşaqlarla birlikdə təbiət haqqında sənədli filmlər də izlənilə bilər. Uşaqlar təbiət haqqında hər şeyi kitablardan və sənədli filmlərdən öyrənə bilərlər. Ancaq yadda saxlayın ki, təbiət sevgisini aşılamaq üçün onu valideyinlər müşayiət etməlidir. Əgər valideyinlər özləri təbiətlə maraqlanmırsa, uşaqları da maraq göstərməyəcək. Əvvəlcə bu mövzu barəsində valideyinlər özləri düşünməlidirlər sonra bu məhəbbəti uşaqlarına necə tərbiyə etmək haqqında düşünə bilər.

Məktəbəqədər dövr uşağın inkişafının və öyrənmənin ən sürətli olduğu dövrdür. Buna görə də, bu yaşda uşaqlara təbiət sevgisini aşılamaq çox vacibdir.

Onlarla əlaqədar ən təsirli şey yaxşı bir model olmaqdır. Kənd yerlərində bunu etmək daha asandır belə ki burada böyüyən uşaqlar təbiyətlə hər gün təmasda olurlar. Parkda olarkən uşaqlara əlini torpağa vurma, bitkilərə toxunma kimi qadağalar qoyulmamalı əksinə buna şərait yaradılmalıdır. Əgər uşaqlar bitkilərə zərər vurarsa,  etmə onlara yazıq olar, bax necə gözəl açıblar deyilsə onlarda təbiyət sevgisiylə yanaşı rəhm hisinidə formalaşdırmaq olar.

## ƏDƏBİYYAT


1. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998
2. Yadeşko V.İ. və Şoxina F.A. Məktəbəqədər pedaqogika. Moskva, 1978 (rus dilində)
3. Uşaq və ona qulluq. Bakı, 1992
4. Həsənov M. və Ağayev Ş. Məktəbəqədər yaşlı uşaqlarda oyun və əmək fəaliyyətinin təşkili. Bakı, 2001
5. Məktəbəqədər pedaqogika. Bakı, 1964
6. Əmrahlı L. Məktəbəqədər yaşlı uşaqlarda intellektual hisslərin inkişaf etdirilməsinin forma və metodları. Bakı, 2000
7. Həsənov A. Məktəbəqədər pedaqogika. Bakı, 2000
8. Həsənov A. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsi. (Metodik vəsait) Bakı, 1993



**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.12.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 19.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.036**

**G.Baxışova**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ1000, Bakı ş., Ü.Hacıbəyli küçəsi 68
E-mail: baxisovaguler@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN EKOLOJİ TƏRBİYƏSİ VƏ MUSİQİNİN ROLU

***Açar sözlər:*** *təbiət, musiqi, ekologiya, uşaq, bağça*

Təbiətin qorunması problemi uşaqlara kiçik yaş dövrlərindən onların anlaq səviyyələrinə uyğun formada izah edilməli. Ekoloji tərbiyə işinin uğurlu nəticə verməsi üçün tərbiyəçilər, valideynlər, kütləvi informasiya vasitələri, müxtəlif təşkilatlar eyni məqsəd üçün çalışmalıdır. Müxtəlif məşğələlərdə, xüsusilə musiqi məşğələsində ətraf-aləm, təbiətin gözəlliyi haqqında uşaqlarda tam təsəvvür yaradır, onlarda canlılar aləminə, vətənə məhəbbət hissini, eyni zamanda uşaqlarda musiqi mədəniyyəti formalaşdır.

**Г.Бахышова**

# ЭКОЛОГИЧЕСКОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА И РОЛЬ МУЗЫКИ

***Ключевые слова:*** *природа, музыка, экология, дети, сад*

Проблема защиты природы должна быть объяснена детям, начиная с небольшого возраста и в соответствии с их уровнем понимания. Учителя, родители, средства массовой информации и различные организации должны работать с той же целью, чтобы добиться успешного результата в экологическом образовании. Дети получают полное представление об окружающей среде, красоте природы и чувство любви к живому миру, музыкальная культура формируется у детей во время разных занятий, особенно на занятиях по музыке.

**G.Bakhishova**

## THE ENVIRONMENTAL EDUCATION OF THE CHILDREN OF PRE-SCHOOL AGE AND ROLE OF MUSIC

***Key words:*** *nature, music, ecology, child, kindergarten*

Thus, the problem of protection of nature should be explained to children starting from little ages and in accordance with their comprehension level. Teachers, parents, mass media and various organizations should work for the same purpose in order to have a successful outcome in environmental education. Children get a full idea of the environment, the beauty of nature and the feeling of love for the live world, music culture are formed in children during different classes, especially music classes.

İnsan hər zaman təbiətlə qarşılıqlı əlaqədədi. Bu əlaqə nəticəsində insan təbiətə təsir edir və onu dəyişdirir, belə münasibət təbiətə həm xeyirli, həm də zərərli yönümdə təsir edir.İnsanın təbiətə zərərli təsiri nəticəsində yaranan ekoloji problemlər yer kürəsində qlobal ekologiya probleminə çevrilmişdi. Bu gün, ekologiyanın qorunması sahəsində bütün dünyada müəyyən tədbirlər görülür, beynəlxalq əməkdaşlıq həyata keçirilir.Azərbaycan da cəmiyyətlə təbiətin qarşılıqlı münasibəti, ətraf mühitin çirklənməsinin qarşısını almaq və onun qorunması sahəsində tədbirlər görür, müəyyən təşkilatlara qoşulur, ən əsası uşaqlara, gənclərə, yaşlılara ekoloji biliklərin verilməsi sahəsində tədbirlər görülür. Elmi dərsliklər, məqalələr, jurnallar nəşr edilir. Ekoloji biliklər, ekoloji tərbiyə insanlara həyatı anlamağa, dərk etməyə başladığı ilk dövrdən verilir.

Müasir dövrdə yetişən uşaqların qarşısında duran əsas problemlərdən biri təbiəti mühafizə, onu qorumaq və qayğısına qalmaqdır. Ekologiyanın mühafizəsi məsələlərinin dövlət tərəfindən başlıca problem kimi cəmiyyət qarşısında qoyulması böyüyən uşaqların, gənclərin ekoloji tərbiyəsində öz müsbət təsirini göstərir. Təbiətə canlılara məhəbbət və qayğı düzgün ekoloji tərbiyə hesabına uşaqlarda kiçik yaşlarından təşəkkül tapmağa başlayır. Ekoloji tərbiyənin özülü ilk əvvəl ailədən başlayır. Valideynlərin, böyüklərin, yaşlıların uşaqlara, canlılar haqqında düzgün məlumat verməsi, onun mühafizəsinin səbəblərini onların yaşlarına uyğun məlumatlandırılması, ona qayğıkeş münasibət, sevgi hissinin aşılanması vacibdir. Lakin, təbiətə münasibət işinin öyrədilməsi yalniz ailə ilə bitmir, bu sistemli və ardıcıl olaraq uşaq bağçalarında və məktəblərdə davam edir. Xüsusi olaraq uşaq bağçalarında ekoloji tərbiyə məsələlərinə diqqət yetirilməlidir. Bu kiçik yaşlı uşqaların tərbiyəsinin milli ruhda qurulmasına təsir edir. Ekoloji tərbiyə zamanı uşaqlarda həmçinin vətənə sevgi, məhəbbət, vətənpərvərlik hissləri yaranır. Uşaqların ekoloji tərbiyə işinə

yiyələnməsində, onların səmərəliliyinin yüksəldilməsinə kompleks münasibət göstərmək lazımdır. Buna görə də, bütün təhsil səviyyələrində onların fərdi-psixoloji xüsusiyyətlərini nəzərə almaq vacibdir. Bu sahədə vahidlik prinsipinin nəzərə alınması daha faydalı tədbirlərdəndir. Yəni, ailədə başlanan tərbiyənin, məlumatlandırmanın məktəbəqədər müəssisələrdə tərbiyəçi, müəllim və valideynlərlə birgə iş şəraitində aparılması daha faydalı və təsiredici olur. Ekoloji tərbiyədə fasiləsizliyi təmin etmək lazımdır. Ekoloji tərbiyə zamanı səmərəliliyi əldə etmək üçün kütləvi informasiya mənbələri, vasitələri, elmi məqalə, jurnalların da rolu var. Uşaq bağçalarında uşaqla birgə iş zamanı müəllim, tərbiyəçi kollektivi əsas təsiredici amildir.

İlk olaraq uşaqları ölkəmizin təbiəti, sərvətləri, canlılar aləmi ilə məlumatlandırmaq, müxtəlif metodlardan istifadə edərək, onları təbiətlə tanış etmək lazımdır. Ətraf mühitin qorunması, doğma təbiətə qayğı, məhəbbət, cəmiyyətimizdə hər bir şəxsin əsas vəzifə və borcudur. Sağlam gələcək, sağlam mühit, mənzərəli təbiətə malik ölkə qurmaq hər birimizin öncül borcudur.

Məktəbəqədər yaşlı uşaqlar doğma yurdun gözəlliklərindən zövq almağı öyrənir, həmçinin ölkəmizin sərvətlərinin, havanın, suyun təmiz saxlanmasında yaşlarına müvafiq işlər görmək qabiliyyətinə malik olmalıdır. Təbiəti qorumağın vacibliyini sadə şəkildə də olsa uşaqlaraizahetmək lazımdır.Bu prosesde uşaq bağçalarında tərbiyəçinin də üzərinə məsuliyyətli vəzifə durur.Tərbiyəçi uşaqlara məlumat, bilik verərkən onlara fərdi yanaşmalı, yaş və anlaq uyğun biliklər verilməlidir.Tərbiyəçi uşaqlara mənzərəli təbiətimizi göstərməklə təbiətdə yaşayan canlılar aləmi haqqında, onların təbiətdə rolu, yaşam tərzləri, həyatımızdakı əhəmiyyətindən bəhs etməklə və əyani olaraq göstərməklə onlarda təbiətə, vətənə, heyvanlar aləmi, bitkilər aləminə qarşı qayğı, məhəbbət yaratmalıdır. Uşaqların ekoloji biliklərlə təmin olunmasında digər məşğələlər kimi musiqi məşğələsinin də keçirilməsi uğurlu nəticənin əldə olunmasına kömək edir. Musiqi uşaqların bədii zövqlərini inkişaf etdirməklə yanaşı, onlarda gözəlliyə biganə qalmamağı, yaxşı ilə pisi bir-birindən seçməyi öyrədir.Musiqinin uşaq hisslərinə təsiri nəticəsində onlarda özlərinə məxsus musiqi dünyası yaranır.Müxtəlif bədii əsərlər, nəğmələrlə uşaqların tanışlığı nəticəsində onlar bu haqda düşünür və müəyyən nəticə çıxarmağı öyrənirlər. Musiqinin uşaq hisslərinə təsiri müxtəlif göstəriş və məsləhətlərdən daha güclü təsir vasitəsidir.

Gözəl vətənimiz, milli ordumuz, ölkəmizin zəngin təbiətinə, torpağımıza aid oxunan nəğmələr onlarda vətənimizə qarşı məhəbbət hissi yaradır.Musiqi-insanın ətraf mühitə, kainata, bəşəriyyətə, öz dünyasına harmonik münasibətidir. İnsanın emosional vəziyyətini ətraf mühitdə tənzimləyən vasitədir. Təbiətdə müxtəlif musiqili səslər mövcuddur. Musiqi insanların emosional şəkildə hisslərinə təsir edərək onda müəyyən duyğular yaradır. Təbiətdəki ağacların, suların, quşların, heyvanların çıxardığı səslər insanlarda

müxtəlif hisslər yaradan obrazlı səslərdi. Çayların, suların, dəniz ləpələrinin yaratdığı səslər insana ruhən sakitlik yaradır və ya qalın və sıx meşəlikdə küləyin nəticəsində yaranan səslər insana vahimə, qorxu hissi təsirini bağışlayır.

Bəstəkarlarımız T.Quliyevin, F.Əmirovun, S.Ələsgərovun və digər bəstəkar, şairlərimizin təbiətə bəstələdiyi, yazdığı şeirlər, mahnılar uşağlara tərbiyəçi və valideynlər tərəfindən ekskursiyalarda, məşğələlərdə dinlədilməli, təbitimizin gözəllikləri, onu qorumağın, qayğısına qalmağın vacib olduğu uşaqlara izah edilməlidir.

## ƏDƏBİYYAT

1. Ağahüseyn Həsənov. Məktəbəqədər pedaqogika. Bakı-2011
2. R.Mursaqulova, N.Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı-2012
3. N.Məsimov. Ekoloji tərbiyənin aktual məsələləri. Bakı-1991
4. N.Ə.Nəbiyev, N.A.Vəliyev. Təbii sərvətlər və ekoloji mühit. Bakı-1987
5. İradə Məmmədova. Uşaqların musiqi dünyası. Bakı-2004
6. Jalə Qədimova. Musiqi tədrisinin metodikası. Bakı-2007

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.12.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22.12.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.12.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# QAYDALAR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri» jurnalında məqalələr Azərbaycan, rus və ingilis dillərində çap olunur. Məqalənin əlyazmasını kompüterdə Microsoft Word redaktorunda Azərbaycan, rus və ingilis dillərində, Times New Roman şrifti ilə, 12 ölçüdə, 1 intervalla, A4 formatlı ağ vərəqdə tərtib etmək lazımdır. Məqalənin həcmi 4-5 səhifədən az olmamalıdır.

Məqalənin başlanğıcında məqalənin UOT indeksi, müəllifin soyadı, adı, atasının adı, işlədiyi müəssisə və onun ünvanı, vəzifəsi, elmi adı, elmi dərəcəsi və ya fəxri adı, e-mail ünvanı, daha sonra, məqalənin adı, məqalə hansı dildə yazılmışsa həmin dildə qısa xülasəsi və açar sözlər (6-10 söz) verilməlidir. Məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair aydın şəkildə verilməlidir.

Daha sonra digər iki dildə xülasə (müəllifin adı və məqalənin adı həmin dillərdə göstərilməklə) («Резюме» və «Summary») və həmin dillərdə açar sözləri («Ключевые слова» və «Keywords») verilməlidir. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımından ciddi hazırlanmalıdır.

Məqalədə verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətnində rast gəlindiyi ardıcıllığı ilə nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

**Kitab və jurnallara istinad aşağıdakı qaydada verilməlidir:**

1. Müəllifin soyadı və inisialı. Kitabın adı. Cildin nömrəsi. Şəhər: nəşriyyat, nəşr ili, ümumi səhifələrin sayı;
2. Müəllifin soyadı və inisialı. Məqalənin adı // Jurnalın adı, nəşr ili, buraxılış nömrəsi, başlanğıc-son səhifələr.

**Məqalənin quruluşu:**

- Məqalənin UOT indeksi;
- Müəllifin soyadı, adı, atasının adı;
- İşlədiyi müəssisənin adı, vəzifəsi, elmi adı və elmi dərəcəsi, fəxri adı (və ya doktorant və ya dissertant olduğu təşkilatın adı, təhsilin forması);
- İşlədiyi müəssisənin (və ya doktorant olduğu təşkilatın) ünvanı (poçt nömrəsi göstərilməklə);

- Müəllifin e-mail ünvanı;
- Məqalənin yazıldığı dildə qısa xülasəsi və açar sözlər (6-10 söz);
- Baş hərflərlə məqalənin adı;
- Məqalənin mətni;
- İstinad olunmuş ədəbiyyat siyahısı;
- Digər iki dildə məqalənin adı və müəllifin adı və soyadı göstərilməklə qısa xülasəsi və açar sözlər (6-10 söz).

**Məqalə aşağıdakı hissələrdən ibarət olmalıdır:**

- Giriş;
- Məsələnin qoyuluşu;
- Məsələnin həlli;
- Nəticə (elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair);
- Ədəbiyyat.

**Məqalənin redaksiyaya təqdim olunması:**

- Məqalənin çap olunmuş əlyazması (1 nüsxədə) və onun elektron variantı Compact Diskdə (CD və ya CD-RW) və məqalənin çap olunması üçün müəssisə tərəfindən təsdiq olunmuş müvafiq sənədlərlə (məqaləyə 2 rəy və təşkilatın (kafedranın) iclas protokolundan çıxarış) birlikdə jurnalın məsul katibinə (Üzeyir Hacıbəyli küçəsi 68, ADPU, AZ 1102) təqdim edilməlidir.
- Ayrıca vərəqdə müəllif haqqında anket-məlumat əlavə olunmalıdır. Məlumatda müəllifin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi adı, müəssisənin adı, müəssisənin ünvanı, ev ünvanı, e-mail ünvanı və telefon nömrəsi göstərilməlidir.
- Məqalə jurnalın İnternet səhifəsinə göndərilə bilər. E-mail: n_s_q@mail.ru; emma_fn@mail.ru; hacerhuseynova@mail.ru.
- Lazım gəldikdə jurnalın redaksiyası məqalənin nəşri üçün əlavə sənədlər tələb edə bilər.
- Məqalənin əlyazması və CD geri qaytarılmır.

***Qeyd: Qaydalar Ali Attestasiya Komissiyasının tələblərinə uyğun tərtib olunub.***

# ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

В журнале «Актуальные проблемы музыкальной науки, культуры и образования» Азербайджанского Государственного Педагогического Университета статьи публикуются на азербайджанском, русском и английском языках. Рукопись статьи должна быть набрана на компьютере в программе Microsoft Word на азербайджанском, русском и английском языках шрифтом Times New Roman, размером 12, интервалом 1, форматом А4. Объем, статьи должен быть не менее 4-5 страниц.

В начале статьи дается индекс УДК, фамилия, имя, отчество автора, место работы (адрес учреждения), должность, ученое звание, ученая степень или почетное звание, e-mail, затем дается название статьи, краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья. В конце нужно четко и ясно показать новизну, практическую значимость и эффективность работы в соответствующей области науки.

Далее дается краткая аннотация на двух других языках (указать автора и название статьи) («Резюме» и «Summary») и ключевые слова («Ключевые слова» и «Key words») на этих языках. Все резюме должны отражать содержание и подготовлены очень строго с научной и грамматической точки зрения.

В статье список литературы дается не по алфавитному порядку, а по порядку цитат, например, [1] или [1, с.119]. Цитата из одной и той же литературы дается предыдущим номером.

**Цитаты из книг и журналов даются в следующем порядке:**

1. Фамилия и инициалы автора. Название книги. Том. Город: издательство, год издания, количество страниц.
2. Фамилия и инициалы автора. Название статьи // Название журнала, год издания, номер издания, начальная и последняя страницы.

**Последовательность оформления (структура) статьи:**

- Индекс УДК;
- Фамилия, имя. отчество автора;
- Название учреждения, место работы, должность, ученое звание, ученая степень или почетное звание (или название организации докторанта или диссертанта, форма учебы) адрес учреждения (или организации докторанта), где работает (указать почтовый номер);
- e-mail автора;

- Краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья;
- Название статьи прописными буквами;
- Текст статьи;
- Список использованной литературы;
- Краткое резюме на двух других языках (с указанием автора и названия статьи) и ключевые слова(6-10 слов) на этих языках.

**Статья должна состоять из следующих частей:**

- Введение;
- Постановка проблемы;
- Решение проблемы;
- Выводы (новизна, практическая значимость и эффективность работы в соответствующей области науки);
- Литература.
- **Представление статьи в редакцию:**
- Рукопись статьи (1 экземпляр) и ее электронный вариант на Compact Disk (CD или CD-RW) и соответствующие документы для публикации статьи, утвержденные учреждением (2 рецензии и выписка из протокола заседания организации (кафедры)) должны быть представлены ответственному секретарю журнала (улица Узеира Гаджибейли 68, АГПУ, AZ 1102).
- Анкета-справка об авторе представляется отдельно. В справке нужно указать фамилию, имя, отчество автора, ученое звание, ученую степень, название и адрес учреждения, домашний адрес, e-mail и номер телефона.
- Статью можно послать на Интернет-страницу журнала. E-mail: n_s_q@mail.ru; emma_fn@mail.ru; hacerhuseynova@mail.ru.
- В случае необходимости редакция журнала может потребовать дополнительные документы для публикации статьи.
- Рукопись статьи и CD не возвращаются.

***Примечание: Правила сставлены в соответствии с требованиями Высшей Аттестационной Комиссии***

# RULES

In the journal of «Actual problems of the science, culture and education of music» of Azerbaijan State Pedagogical University articles are published in Azerbaijani, Russian and English languages. Articles must be written on the computer in Microsoft Word with Times New Roman type of 12 size, l interval and on a white paper of A4 format. Pages of the article must be not less than 4-5.

At the top of the article it must be noted UOT index of article, name and surname of the author, his place of work and post address, scientific degree, honorary title, e-mail, title of the article, its short summary, and key words (6-10) At the end of the article it must be clearly written about scientific novelty of the article, importance of its research, economical benefit etc.

At the end of the article it must be noted list of references, in two languages title of the article, name of the author summary and keywords.

Content of the summaries in two languages must be same and suit to the content of the article. Summaries must be written grammatically and scientifically. List of references must not be given in alphabetical order but in the order of their place in the article, for example, [1] or [1, p. 119]. If any literature is used in the article repeatedly it must be noted by the previous number.

**Reference to books and journals must be given as below:**

1. Surname and initials of the author. Title of the book. Number of the volume. City: edition, publication year, number of pages.
2. Surname and initials of the author. Title of the article// Name of the journal, publication year, issue number, the first and the last pages.

**Structure of the article:**

- UDC index of the article;
- Name and surname of the author;
- Place of work and post, scientific degree, honorary title (it must be noted name of the institution where one is a candidate for a degree or a doctor for a degree);
- Address of work (or institution where one is a doctor for a degree);
- E-mail of the author;
- A short summary and keywords (6-10 words) of the article in the same language that was the article written in;
- Title of the article in capital letters;
- Text of the article;
- List of references;

- Short summary and key words by indicating the name of article, name and surname of author in other two languages (6-10 words).

**The article must consist of the following parts:**

- Introduction;
- Putting of task;
- Solution of task;
- Conclusion (scientific innovation, applied significance, economic benefit of the work conforming to character of the scientific field and article, etc.);
- Literature.

**Submission of the article to revision:**

- The printed manuscript of the article (in 1 copy) and its electron variant is to be submitted to the responsible secretary of the journal in Compact Disc (CD or CD-RW) together with proper documents certified by institution for printing of the article (2 references to the article and extract from meeting protocol of the organization (department)) (68, Uzeyir Hajibayli str., ASPU, AZ 1102).
- Information form about author is to be attached in separate sheet. Surname, name, father's name, scientific degree, scientific title of author, name of institution, address of institution, home address, e-mail address and phone number is to be indicated in the information.
- The article may be sent to internet page of the journal. E-mail: n_s_q@mail.ru; emma_fn@mail.ru; hacerhuseynova@mail.ru.
- If necessary, revision of the journal may require further documents for publication of the article.
- Manuscript of the article and CD is not returned.

***Note: The rules framed in accordance with the requirements of the Higher Attestation Commission***

| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | Hüseyn Hacıyev |
| *Texniki redaktor:* | Mustafa Şəfiyev |
| *Korrektor:* | Sevinc Mamoyeva |

Çapa imzalanmış: 27.12.2018.
Kağız formatı $70\times100^{1/8}$. 32,75 ç.v.
Sifariş 528. Sayı 200.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel.: 493-74-10